**AZƏRBAYCAN RESPUBLİKASININ**
**PREZİDENTİ YANINDA**
**DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**



**Azərbaycan Xalqının Ümummilli Lideri**

**HEYDƏR ƏLİYEVİN**
**anadan olmasının 102-ci ildönümünə həsr olunmuş**

# "ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASININ MÜƏLLİFİ KİMİ"

**mövzusunda**

# DOKTORANT VƏ GƏNC TƏDQİQATÇILARIN RESPUBLİKA ELMİ-PRAKTİKİ KONFRANSININ M A T E R İ A L L A R I

**II cild**
**Bakı, 8 may 2025**

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş Doktorant və gənc tədqiqatçıların Respublika elmi konfransının təşkili və keçirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rektorunun 23 aprel 2025-ci il tarixli 10/87 saylı əmri ilə yaradılmış Təşkilat və Proqram Komitəsinin

## TƏRKİBİ

## KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ

**Sədr:**

| | |
|---|---|
| Urxan Ələkbərov | Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik |

**Üzvlər:**

| | |
|---|---|
| Elvin Əzizbəyov | Elm və beynəlxalq əlaqələr üzrə prorektor, professor |
| Ziyafət Həbibova | Tədris-metodiki və analitika şöbəsinin müdiri, professor |
| Sakit Əliyev | Elmi katib, dosent |
| Murtəza Həsənov | Siyasi idarəetmə fakültəsinin dekanı, dosent |
| Elnur Əliyev | İnzibati idarəetmə fakültəsinin dekanı, dosent |
| Zaur Məmmədov | Sosial məsələlər, təşkilati və təlim-tərbiyə işləri üzrə müşavir |
| Kəramət Qənbərov | Elm və beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı |
| Gülarə Bağırova | Elm və beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı |
| Aygün Qurbanova | Elm və beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı |
| Murad Axundov | İqtisadiyyatın dövlət tənzimlənməsi kafedrasının doktorantı |
| Tural Cəlilzadə | Davamlı inkişaf kafedrasının magistrantı |

# KONFRANSIN PROQRAM KOMİTƏSİ

**Sədr:**

| | |
|---|---|
| Əlikram Abdullayev | I (Tədris işləri üzrə) prorektor, professor |

**Üzvlər:**

| | |
|---|---|
| Əli Nuriyev | Regional iqtisadi və sosial araşdırmalar institutunun direktoru, professor |
| Elman Nəsirov | Siyasi araşdırmalar institutunun direktoru, professor |
| Gülnarə Qurbanova | Rəhbər dövlət idarəçiliyi kadrlarının ixtisasının artırılmasıı institutunun direktoru, professor |
| Hikmət Məmmədov | Dövlət qulluğu və kadr siyasəti kafedrasının müdiri, professor |
| Namiq Əliyev | Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının müdiri, professor |
| Nigar Ələkbərova | Politologiya və siyasi idarəetmə kafedrasının müdiri, professor |
| İsaxan Vəliyev | Hüquq kafedrasının müdiri, professor |
| Xatirə Hüseynova | Dövlət idarəetməsi və menecment kafedrasının müdiri, professor |
| Azər Əmiraslanov | İqtisadiyyatın dövlət tənzimlənməsi kafedrasının müdiri, dosent |
| Sevil Məmmədova | Politologiya və siyasi idarəetmə kafedrasının professoru |
| Firdovsiyyə Əhmədova | Tarix kafedrasının müdiri, dosent |
| Ülkər Şəfiyeva | Dillər kafedrasının müdiri, dosent |
| Elçin Abasov | Dövlət idarəçiliyində informasiya texnologiyaları kafedrasının müdiri, dosent |
| Gülnar Mirzəyeva | İntellektual sistemlərin idarə olunması kafedrasının dosenti |

# M Ü N D Ə R İ C A T

***Vüsal Qurbanov***
Oğuz rayonunun ekoloji durumu..............................................13
***Afərim Lətifli***
Xocalıya Qayıdış layihəsinin idarə olunmasının aspektləri........16
***Pəri Mahmudova***
Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasının formalaşdırılmasında Heydər Əliyevin tarixi missiyası…………………………………………......19
***Ağamehdi Mehdiəliyev, Murad Əsgərov***
Bank sistemlərinin təhlükəsizliyində VEB tətbiqlərinin təhlükəsizlik divarı.................................................................22
***Əliəşrəf Məcidli***
Heydər Əliyevin xarici siyasət kursunun Rusiya-Ukrayna münaqişəsi fonunda Azərbaycanın təhlükəsizliyinə təsiri…………………………………………………....25
***Orxan Məcidli***
Azərbaycan Respublikasında inklüziv cəmiyyətin formalaşmasında rəqəmsallaşmanın rolu………………………...28
***Daşqın Məhəmmədli***
Azərbaycan Respublikasında kitabxana işinin konstitusion-hüquqi bazası……………………………….....31
***Elina Məhəmmədova***
İnsan resurslarının strateji planlaşdırılması və idarə edilməsinin anlayışı, mahiyyəti və məqsədləri...........................35
***Bəylər Məhərrəmov***
Azərbaycan Respublikasının Konstitusiyası və milli təhlükəsizlik siyasəti..................................................................39
***Tariyel Məhərrəmov***
Uşaq hüquqlarının müdafiəsinin konstitusion-hüquqi təminatı: Şabran rayonunun timsalında...................................41

***Sabir Məlikov***
Xarici ölkələrdə icra hakimiyyəti orqanları və bələdiyyə-
lərin səlahiyyətlərinin bölgüsünün mövcud vəziyyəti...............43
***Novruz Məmmədli***
Korrupsiya ilə mübarizədə effektiv mexanizmlər.....................47
***Asif Məmmədov***
Torpaqların idarə olunmasında dövlət və bələdiyyə-
lərin rolu.....................................................................................51
***Aysel Məmmədova***
Azərbaycanın Heydər Əliyev irsini davam etdirərək
ABŞ-Çin-Rusiya geosiyasi üçgənində mövqeyi.......................54
***Ayşən Məmmədova***
Müasir dövrdə istifadə edilən səmərəli marketinq
strategiyaları...............................................................................56
***Badam Məmmədova***
Gürcüstan-Ermənistan münasibətləri: əsas istiqa-
mətlər və problemlər..................................................................59
***Cavad Məmmədov***
Azərbaycanın xarici iqtisadi əlaqələrinin genişləndi-
rilməsi: müasir tendensiyalar, perspektivlər və strate-
giayalar.......................................................................................62
***Səkinə Məmmədova***
İnsan resurslarının idarə edilməsində müasir
yanaşma (Yevlax rayonu timsalında).......................................67
***Xasay Məmmədzadə***
Azərbaycan Respublikası Konstitusiyasında insan
hüquq və azadlıqlarının qorunması mexanizmləri....................70
***Vüsal Məmmədzadə***
Yaşıl bankçılığın qlobal iqtisadiyyatda təkamülü
və əhəmiyyəti...............................................................................73

***Aysel Mənsimova***
Azərbaycanın davamlı inkişaf konsepsiya-
sının ekoloji aspektləri........................................................76
***Aysel Mikayılova***
Milli təhlükəsizliyin təmin olunmasının
konstitusion əsasları...........................................................78
***Cabbar Mirzəyev***
Dövlət xidmətində etik davranış qaydaları..............................82
***Fərid Mirzəyev***
Müxtəlif ölkələrin multikulturalizm siyasətinin
müqayisəli təhlili……………………………………….......84
***Gülnar Mirzəyeva, Nərmin Allahyarova***
Maliyyə bazarlarında qısa müddətli proqnozlaş-
dırmanın və qiymət risklərinin idarə edilməsi.........................87
***Gülnar Mirzəyeva, Qumru Əsgərova***
Azərbaycanda ÜDM-in əhali xərclərinə
təsirinin təhlili.....................................................................92
***Əsgər Muradzadə***
Heydər Əliyev və xarici siyasətdə Azərbaycan
modeli.................................................................................95
***Altay Musayev***
Heydər Əliyevin erməni iddialarına qarşı mübarizəsi
(1967-1982-ci illər)……………………………………...97
***Emin Musayev***
Azərbaycanın iqlim dəyişmələrinin ətraf mühitə
təsirinin azaldılması sahəsində Ümummilli lider
Heydər Əliyevin rolu..........................................................100
***Günel Mustafayeva***
Dövlət idarəçiliyində irihəcmli məlumatlardan
istifadənin aspektləri...........................................................102

***Zaur Mustafayev, Elşan Əhmədov***
Göygöl rayonunun davamlı inkişaf perspektivləri...................105
***Gülçin Mustafazadə***
İnformasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə sosial yönümlü sahələrin inkişaf etdirilməsi.............................................................................108
***İlkan Mustafazadə, Murtəza Həsənov***
Rəqəmsal idarəetmə və dövlət strukturlarında yenilikçi yanaşmalar.............................................................111
***Aygül Nadirova***
Azərbaycanda gənclərin siyasi partiya işində iştirakının tarixi-mədəni xüsusiyyətlərinin təhlili...................114
***Arzu Namazova***
Enerji təhlükəsizliyi və suverenlik: Azərbaycanda bərpa olunan enerji siyasətinin konstitusion əsasları...............119
***Bəxtiyar Nəcəfli***
Azərbaycanofobiya Qərb dövlətlərinin islamofobiya siyasətinin tərkib hissəsi kimi.................................................122
***Sərdar Nəsrullayev***
Milli birlik və siyasi sabitlik: Heydər Əliyevin Konstitusiya modeli..............................................................126
***Şamil Nuriyev***
Həssas əhali qrupları ilə işin təşkilində sosial xidmətlərin rolu (Balakən rayonu timsalında)..........................................128
***Ülviyyə Orucova***
Azərbaycan Respublikasında inzibati icraatın anlayışı və mahiyyəti.....................................................................131
***Əfsanə Rüstəmli***
Rəqəmsal idarəetmə infrastrukturu və dövlət qulluğu sistemində innovativ texnologiyalar......................................135

***Sənan Rüstəmli***
Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılmasının strateji əhəmiyyəti və resurs potensialı....................................137
***İlkin Rüstəmov***
Ümummilli lider Heydər Əliyev və Azərbaycanda demokratik siyasi sistemin konstitusional əsaslarının formalaşması..............................................................................141
***Kənan Rüstəmov***
Beyləqan rayonunda əhalinin həssas qrupları ilə işin təşkili..................................................................................146
***Fuad Rzayev, Mehman Axundov***
Tovuz rayonunun iqtisadi potensialının təhlili........................149
***Gülsüm Rzayeva***
Müasir beynəlxalq münasibətlər sistemində hərbi diplomatiyanın rolu...............................................................152
***Eldar Salayev***
Heydər Əliyevin dövlət idarəçiliyi məktəbi və dövlət quruculuğu strategiyası……………………………………156
***Səltənət Salmanlı***
Azərbaycanda formal məşğulluğun təşviqi məsələləri..................................................................................160
***Jalə Salmanova***
İşğaldan azad edilmiş ərazilərin dirçəldilməsində turizmin rolu...........................................................................163
***Elvar Səfərov***
Müasir dövrdə dövlətin iqtisadi siyasətinin başlıca məqsədlərinin reallaşdırılması....................................166
***Nigar Səlimli***
Heydər Əliyevin Konstitusiya islahatlarında parlamentin yerinin möhkəmləndirilməsi...............................169

*Nisə Səlimova*
Vətəndaş məmnunluğunun təmin edilməsində icra strukturlarının rolu (Kürdəmir rayonu timsalında)..................172
*Ruqiyə Səttərova*
Azərbaycan Respublikasında dini ekstremizmin qarşısının alınması mexanizmi...............................................175
*Cavid Soltanov*
Azərbaycan kontekstində elektron ticarət və onun inkişafında Heydər Əliyevin rolu...........................................178
*Aslan Sultanov*
Dini ekstremizmə qarşı mübarizə və multikulturalizm...........182
*Şeyda Sultanova, Elvin Əzizbəyov*
Müəssisələrin kommersiya fəaliyyətində informasiya infrastrukturunun optimallaşdırılması: Next Best Product (NBP) modelinin tətbiqi............184
*Aytən Süleymanova*
Dövlət qulluğunda rəqəmsallaşma strategiyaları: təhlükəsizlik sferasında risklərin optimallaşdırılma üsulları...........188
*Tahir Şamilov*
Şəki-Zaqatala iqtisadi rayonunda kənd təsərrüfatı və ətraf mühitin mühafizəsi....................................................191
*Fuad Şammadov*
Heydər Əliyevin hüquqi dövlət quruculuğunda beynəlxalq təşkilatlarla əməkdaşlıq: NATO nümunəsində.....194
*Nicat Şirinov*
Dövlət qulluğunda müasir çağırışlar və onlara adaptasiya strategiyaları........................................................198
*Beyrək Tanrıverdili*
Azərbaycanda hakimiyyət bölgüsü prinsipi haqqında............201

***Teymur Teymurzadə***
Vətəndaşlarla işin aparılması-inklüziv inkişafın mühüm komponenti (Zərdab rayonu timsalında)................................206
***Fikrət Təhməzov***
Davamlı inkişafın təmin olunması üçün turizmdə müasir metodların tətbiqi perspektivləri.................................209
***Elman Vəliyev***
Qoşulmama Hərəkatının institusionallaşmasında Azərbaycanın rolu..................................................................212
***Nərgiz Vəliyeva***
Müasir dövrdə beynəlxalq münasibətlərdə insan təhlükəsizliyi problemi.................................................215
***Raul Vəliyev***
Azərbaycan Respublikasında enerji siyasətinin həyata keçirilməsində Ümummilli lider Heydər Əliyevin rolu...........218
***Ülviyyə Vəliyeva***
Dövlət idarəçiliyinin səmərəliliyinin artırılmasında optimallaşdırma və innovasiyaların tətbiqi............................222
***Aisel Zeynalova***
Heydər Əliyev–Azərbaycan-Gürcüstan əlaqələrinin memarı........................................................................................225
***Şahin Zöhrəbəyov***
Azərbaycan Respublikasının sərhəd təhlükəsizliyinin əsas prioritetləri..............................................................229
***Камран Аббасов, Адалат Самедов, Рамин Алиев Рахима Джалилова, Эльчин Абасов***
Вызовы кибербезопасности в государственных структурах……………………………………………..232
***Мурад Алиев, Наиля Мусаева***
Методологические основы продуктивной деятельности: структура, классификация и применение в моделировании бизнес-процессов………………………...237

*Азиз Атамогланов*
Историко-правовые аспекты становления государственной службы……………………………..240
*Хаял Ахмедов*
Построение и разработка модели структурно-функциональной организации системы управления службой скорой медицинской помощи…………...244
*Диляра Бабаева*
Влияние политической философии Гейдара Алиева на содержание Конституции Азербайджанской Республики…………………………………………247
*Самир Гардашов*
Роль Гейдара Алиева в формировании конституционного фундамента современного Азербайджана………...249
*Арсалам Мамедли, Мансур Исламов*
Реализация взаимоотношений математических объектов с использованием информационных технологий…………………………………………253
*Ирада Мамедова, Ульвия Мамедова*
Искусственный интеллект и машинное обучение: этические и практические проблемы……………………...256
*Вугар Насиров*
Конституционно-правовое соотношение международного и внутреннего права в Азербайджанской Республике……………………………..259
*Фируза Салманзаде*
Конституция 1995 года: наследие государственного мышления Гейдара Алиева………………………………...262
*Турал Сафаров*
Развитие отношений между Россией и Азербайджаном после 44-дневной войны в Карабахе…………………...265

***Мадина Эйвазова***
Применение искусственного интеллекта в государственном управлении Азербайджанской Республики: достижения и перспективы…………………267
***Tural Alakbarov***
The concept of legitimacy in political realism: an overview……………………………………………271
***Aytaj Alasgarova***
The European Union's declining global influence.................274
***Saida Aslanzada, Gulnar Mirzayeva***
AI-powered conversational agents using Rasa framework: architecture, applications and future directions…………………………………………………279
***Habib Farzaliyev, Elshan Ahmadov***
Integrated water resources management……………………282
***Agshin Gafarli, Elshan Ahmadov***
The role of human potential in ensuring inclusive development..........................................................................284
***Yaver Ibragimov***
The formation of a legal and democratic state in modern Azerbaijan……………………………………..287
***Shirin Jafarli***
From challenges to opportunities: leveraging the SDGs for a sustainable future......................................................289
***Azar Haziyev***
The EU AI act setting the global benchmark for artificial intelligence…………………………………………..294
***Tural Mammadov***
China's investment in Azerbaijan's transport infrastructure and its strategic implications for U.S. influence in the South Caucasus...............................................................298

# OĞUZ RAYONUNUN EKOLOJİ DURUMU

**Vüsal Qurbanov**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: vusal.qurbanov@oguz-ih.gov.az

Oğuz rayonu (1930-1991-ci illerde Vartaşen rayonu) 8 avqust 1930-cu ildə təşkil edilmişdir. Böyük Qafqazın cənub yamacındadır. Şimaldan Rusiya Federasiyası (Dağıstan MR), şərqdən Qəbələ və Ağdaş, cənub və qərbdən Şəki rayonları ilə həmsərhəddir. Ərazisi 1077 kv. km-dir. Mərkəzi Oğuz şəhəridir. Rayon mərkəzi Oğuz 1961-ci ilə edər kənd olub. 1961-1968-ci illərdə şəhər tipli qəsəbə, 1969-cu ildə rayon tabeliyinde şəhər statusu verilib. 1991-ci ilin fevral ayında Azərbaycan Respublikası Ali Sovetinin birinci sessiyasında rayonun və şəhərin adı dəyişdirilərək Oğuz, Vardanlı kəndinin adı isə Kərimli qoyulmuşdur.

Rayon ərazisinin yarısından bir qədər azı meşələrlə örtülüdür. Burada çoxlu şəlalə, kükürdlü və termal su bulaqları var. Rayonun faunası dovşan, ayı, dağ keçisi, qaban, qırqovul, kəklik, qaz, həmçinin som və forel balıqları ilə təmsil olunmuşdur. Rayon ərazisində müxtəlif meyvələr və giləmeyvələr – qoz, fındıq, alma, armud, zoğal, yemişan, gilas, alça, qarağat və moruq yetişir.

Rayonun ən böyük çayı Əlicançaydır. Əlicançay Qumlaq kəndindən keçərək rayonun bir çox kəndlərini ağuşuna alır. Oğuz kənd təsərrüfatı rayonudur və onun başlıca istehsal vasitəsi torpaq örtüyüdür. Daşağılçay, Xalxalçay, Qalaçay və Ağçayın hövzəsində, Şəki yaylasının şimal-şərq hissəsində yerləşən Oğuz rayonunun ümumi sahəsi 121,6 min ha-dır.

Rayonun ümumi ərazi torpaqlarının 36,5 %-i, yəni 44492 hektarı kənd təsərrüfatı sahələri üçün əlverişlidir. Torpaq sahələrinin 19183 hektarı, yəni 15,8%-i suvarılır. Rayonda aparılmış torpaq islahatları nəticəsində ümumi torpaq fondunun 46,6 %-i dövlət mülkiyyətinə, 8,1%-i bələdiyyə mülkiyyətinə, 45,2 %-i xüsusi mülkiyyətə verilmişdir. Ümumi torpaq fondunun 15,8 %-i əkin üçün yararlıdır.

Rayonun dağətəyi və düzən meşələrində, bağlarda, çay vadilərində, dağ yamaclarında və dərələrdə çoxlu yabanı meyvə və giləmeyvələr yetişir. Onlardan alça, alma, armud, böyürtkən, cır üzüm (qora), çaytikanı (çisqana), əzgil, fındıq, gilas, göyəm, xurnik, qaragilə, qızılçıq, qoz, quşarmudu, meşəçiyələyi, moruq, sumaq, şabalıd, yemişan, zirinc, zoğal kimi növlərin zəngin ehtiyatı var və təbabət əhəmiyyətlidir. Oğuz rayonunun adını yaxın-uzaq ellərdə məşhurlaşdıran isə onun çox qiymətli, bol ehtiyatları olan qızıləhmədi alma, qoz, fındıq, şabalıd, tut, zoğal kimi mədəni meyvə və giləmeyvələridir. Əgər Göyçay narı, Lənkəran limonu, Quba ağ alması ilə tanınırsa, Oğuz da qozu, fındığı, şabalıdı və qızıləhmədi alması ilə tanınır. Rayonun yüksək dağlıq zonasında üç bitki qurşağı ayrılır: subalp (1900-2600 m), alp (2600 – 3000 m) və subnival və nival. Subalp qurşağında əsasən mezofil subalp çəmənləri, bozqırlaşmış subalp çəmənləri, alp qurşağında isə alçaqboylu alpçəmənləri – “xalıları” yayılmışdır.

Oğuz rayonunda bir sıra ekoloji problemlər də mövcuddur. Bu problemlər daha çox rayonda içməli su ehtiyatı ilə bağlı olmuşdur. Xüsusilə də Oğuz-Qəbələ-Bakı su kəmərinin çəkilməsindən sonra rayonda bu istiqamətdə çətinliklər meydana çıxmışdır. Belə ki, müəyyən dövrlərdə Oğuzla sərhəd olan Şəki rayonunun bəzi kəndlərində də qaynama bulaqların quruması, sakinlərin vedrələrlə su daşıması barədə gileylərə mətbuat

səhifələrində rast gəlinirdi. Məsələn, Aşağı Kəldək kəndində 50-dək qaynama bulaqlarının suyunun azalması, sakinlərin 500-600 metr məsafədən başqa mənbələrdən vedrələrlə su daşıması barədə hələ 2012-ci ildə yazılan yazılarda qeyd edilirdi.

Dövlət qurumlarının təmsilçiləri də mətbuata açıqlamasında Oğuzda həqiqətən də bulaqlarda su mənbələrinin azalması faktını təsdiqləmiş, lakin mütəxəssis araşdırması nəticəsində bu problemin qlobal istiləşmə ilə əlaqədar olduğunu demişdi: "Tam quruma yoxdur. Amma müşahidə aparmışıq, bəzi yerlərdə bulaqlarda su azalır. Əhalinin su təchizatının əvvəlki səviyyədə saxlanması üçün addımlar atırıq".

Qeyd edək ki, Oğuz-Qəbələ-Bakı su kəmər layihəsinin icrasına 2005-ci ildən başlanıb və 2010-cu ildə istifadəyə verilib.

Ölkə iqtisadiyyatının aparıcı sahəsi olan sənayedə həyata keçirilmiş genişmiqyaslı islahatlar, "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı üzrə rayonda yeni müəssisələrin yaradılması bu sahənin daha da inkişafı üçün əsaslı zəmin yaratmış, sənaye əvvəlki illərdə olduğu kimi, bu ildə də dinamik inkişaf etmişdir. Rayonun sənayesi əsasən qlükoza, qida məhsulları ve ağac məmulatları istehsalı, suyun yığılması və paylanması, habelə elektrik enerjisi və təbii qazın bölüşdürülməsi sahələri ilə təmsil olunur. Rayon iqtisadiyyatının inkişafında tikinti, ticarət, rabitə və nəqliyyat sahələrinin də xüsusi yeri vardır.

## Ədəbiyyat


1. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”. https://president.az/az/articles/view/50474
2. "Heyvandarlığın maddi-texniki təchizatının yaxşılaşdırılması ilə bağlı tədbirlər haqqında”. Bakı, 2015
3. Aslanov H.Q. Torpaqların meliorasiyası. Bakı: Elm, 2004. S.79

# XOCALIYA QAYIDIŞ LAYİHƏSİNİN İDARƏ OLUNMASININ ASPEKTLƏRİ

**Afərim Lətifli**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: latifli96@mail.ru

2020-ci il sentyabrın 27-də Ermənistan Respublikasının silahlı qüvvələri Azərbaycan Respublikasına qarşı növbəti hərbi təxribat törətmişdir. Bu təxribata cavab olaraq başlanılan və 44 gün ərzində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan Vətən müharibəsi Azərbaycan xalqının tarixi qələbəsi ilə başa çatmış və işğal olunmuş ərazilər rəşadətli Azərbaycan Ordusu tərəfindən azad edilmişdir.

2020-ci il noyabr ayında baş vermiş 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Respublikasının əraziləri işğaldan azad edilmişdir. Bu, həm strateji, həm də simvolik olaraq Azərbaycanın tarixində əhəmiyyətli bir dönüş nöqtəsi olmuşdur. Azad edilmiş ərazilərin bərpası və yenidən qurulması, ölkənin iqtisadi və sosial inkişafı, həmçinin regional təhlükəsizliyi baxımından böyük əhəmiyyət kəsb edir. Dövlətin bu istiqamətdəki siyasəti, ərazinin bərpası ilə yanaşı, onun sosial-iqtisadi inkişafını da təmin etməyə yönəlmişdir.

İşğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması ilə bağlı dövlət siyasəti aşağıdakı əsas istiqamətləri əhatə edir:

**İnfrastrukturun bərpası və tikintisi -** Bərpa prosesinin ilkin mərhələsi infrastrukturun sürətli şəkildə yenidən qurulmasını tələb edir. Azad edilmiş ərazilərdə elektrik, su, qaz

təchizatı, yol şəbəkəsi və rabitə xətləri bərpa olunmuş, yeni layihələr həyata keçirilməkdədir. Bu, yalnız fiziki infrastrukturla məhdudlaşmır, eyni zamanda ərazinin nəqliyyat əlaqələrinin təmin edilməsi və məskunlaşma imkanlarının yaradılması da vacibdir. Misal olaraq, Zəngilan və Laçın rayonlarında müasir yaşayış komplekslərinin inşası və avtomobil yollarının çəkilməsi dövlət tərəfindən prioritet məsələlərdən biri olaraq qarşıya qoyulmuşdur.

**Sosial infrastrukturun gücləndirilməsi -** Bərpa prosesində sosial infrastrukturun təmin edilməsi də mühüm əhəmiyyət kəsb edir. Bu sahəyə məktəblərin, xəstəxanaların, mədəniyyət mərkəzlərinin və digər sosial obyektlərin inşası daxildir. Dövlətin məqsədi, azad edilmiş ərazilərdə yaşayan və ya bu ərazilərə köç edən əhalinin təhsil və səhiyyə xidmətlərindən istifadəsini təmin etməkdir. Məsələn, Füzuli və Cəbrayıl rayonlarında yeni məktəb və tibb mərkəzlərinin açılması bu istiqamətdə atılan mühüm addımlardan biridir.

**Ekoloji bərpa və yaşıl enerji islahatları -** İşğaldan azad edilmiş ərazilərdə ekoloji bərpa da önəmli məsələlərdən biridir. Ərazilərdəki ətraf mühitin qorunması və ekosistemin bərpası üçün dövlət tərəfindən ekoloji layihələr həyata keçirilir. Bununla yanaşı, "yaşıl enerji" layihələri, xüsusilə günəş və külək enerjisinin istifadəsi təşviq edilir. Azad edilmiş ərazilərdə dayanıqlı inkişafın təmin edilməsi məqsədilə bu cür layihələrə investisiya qoyuluşu artırılır.

**Ərazi idarəçiliyi və təhlükəsizlik -** Azad edilmiş ərazilərdə təhlükəsizliyin təmin edilməsi və ərazi idarəçiliyi sahəsində bir çox yeniliklər tətbiq olunmuşdur. Dövlətin məqsədi, ərazinin mühafizəsini gücləndirmək və qeyri-qanuni fəaliyyətlərin qarşısını almaqdır. Həmçinin, ərazilərdə hüquqi

dövlətin və əhalinin təhlükəsizliyinin təmin edilməsi üçün müvafiq qanunvericilik bazası da təkmilləşdirilməkdədir.

Bu istiqamətdə dövlətin rolunu gücləndirmək üçün aşağıdakı təşəbbüslər mövcuddur:

**Dövlət proqramları və strategiyalar -** Azərbaycan Respublikasının Prezidenti tərəfindən işğaldan azad edilmiş ərazilərin bərpası ilə bağlı müxtəlif proqramlar qəbul edilmişdir. Bu proqramlar çərçivəsində ərazinin bərpası üçün ayrılan maliyyə vəsaiti, bərpa işlərinin sürətini və keyfiyyətini artırmaq məqsədini güdür. Bu istiqamətdə "Bərpa və Yenidənqurma üzrə Dövlət Proqramı" və "Ərazi İdarəetmə və Təhlükəsizlik Proqramı" kimi mühüm sənədlər qəbul edilmişdir.

**Beynəlxalq əməkdaşlıq və investisiyalar -** İşğaldan azad edilmiş ərazilərin bərpası və inkişafı ilə bağlı beynəlxalq əməkdaşlıq da vacibdir. Azərbaycan, müxtəlif beynəlxalq təşkilatlarla, xüsusilə dünya Bankı, BMT və Avropa İttifaqı ilə əməkdaşlıq edərək bu ərazilərin bərpasına yönəlmiş layihələr həyata keçirir. Bununla yanaşı, xarici sərmayəçilər üçün bu ərazilər yeni iqtisadi imkanlar təqdim edir və investisiya axını təmin edilməkdədir.

## Nəticə

İşğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması Azərbaycan üçün uzunmüddətli inkişaf layihəsidir. Bu ərazilərin iqtisadi və sosial baxımdan dirçəldilməsi yalnız ölkə daxilində deyil, həm də regionda sülh və təhlükəsizliyin təmin olunmasında əhəmiyyətli rol oynayacaqdır. Dövlətin bərpa və inkişaf siyasəti, həmin ərazilərdə yaşayan insanların həyat səviyyəsinin yaxşılaşdırılması və iqtisadiyyatın dirçəldilməsi istiqamətində əhəmiyyətli addımlar atmaqdadır. Bununla yanaşı, bərpa işlərinin davam etdirilməsi, müasir infrastrukturun qurulması və dayanıqlı inkişafın təmin edilməsi dövlətin prioritet məqsədidir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 18 fevral tarixli "İşğaldan azad edilmiş ərazilərin bərpası və inkişafı ilə bağlı Dövlət Proqramı" haqqında sərəncamı. Bakı, 2021.
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. "2023-cü ilin nəticələri üzrə işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa işləri". Bakı, 2023.
3. Beynəlxalq Bərpa və İnkişaf Bankı (World Bank). "Bərpa və inkişafın iqtisadiyyata təsiri: Azərbaycanın işğaldan azad edilmiş əraziləri". Bakı, 2021.
4. Avropa İttifaqı və BMT-nin Azərbaycan üzrə nümayəndəlikləri. "Bərpa layihələri və ətraf mühitin qorunması: Azərbaycanın işğaldan azad edilmiş ərazilərində əməkdaşlıq". Bakı, 2022.
5. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası. "İşğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi inkişafı: Dövlətin strateji yanaşması". Bakı, 2021.

# AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ TƏHLÜKƏSİZLİK KONSEPSİYASININ FORMALAŞDIRILMASINDA HEYDƏR ƏLİYEVİN TARİXİ MİSSİYASI

**Pəri Mahmudova**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
*e-mail:* perimusayeva98@gmail.com

Heydər Əliyev müasir Azərbaycan Respublikasının milli təhlükəsizliyinin əsasını qoyan görkəmli siyasi liderdir. Azərbaycan müstəqilliyini yenicə bərpa etdiyi dövrdə daxili

çəkişmələr, siyasi qeyri-sabitlik, vətəndaş qarşıdurması və Ermənistanın işğalçılıq siyasəti ölkəni təhlükəli bir uçuruma aparırdı. Xalqın ümidsiz vəziyyətdə olduğu bir zamanda Heydər Əliyev xalqın çağırışı ilə 1993-cü ildə hakimiyyətə qayıtdı. Onun qayıdışı ilə ölkədə sabitlik və əmin-amanlıq bərpa olundu, ölkədə vətəndaş müharibəsi və siyasi xaos təhlükəsini aradan qaldırmış, dövlətçiliyin əsaslarını möhkəmləndirmişdir (3).

Heydər Əliyev üçün milli təhlükəsizlik yalnız hərbi güc və sərhəd müdafiəsi ilə məhdudlaşmırdı. O, təhlükəsizliyi dövlətin bütövlüyü, iqtisadi müstəqillik, enerji təhlükəsizliyi, daxili ictimai-siyasi sabitlik, informasiya və ideoloji sahələrdə dayanıqlılıq kimi çoxşaxəli anlayış kimi qəbul edirdi. Bu baxımdan, onun rəhbərliyi ilə hazırlanmış və qəbul olunmuş Milli Təhlükəsizlik Konsepsiyası Azərbaycan dövlətçiliyinin strateji dayaqlarını formalaşdırdı. Milli təhlükəsizlik konsepsiyası və strateji inkişaf planları Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və daxili sabitliyini təmin etmişdir (1, s.150-200).

Heydər Əliyevin təşəbbüsü ilə reallaşan neft strategiyası həm ölkənin iqtisadi qüdrətini artırdı, həm də Azərbaycanın beynəlxalq arenada mövqeyini gücləndirdi. Bu strategiya milli təhlükəsizlik konsepsiyasının ayrılmaz hissəsinə çevrildi. Azərbaycan enerji resurslarını dünya bazarına çıxarmaqla iqtisadi müstəqilliyini təmin etdi və bu müstəqillik siyasi və hərbi təhlükəsizliyin də əsasını qoydu. Onun uzaqgörən siyasəti nəticəsində Azərbaycan regional və qlobal miqyasda etibarlı tərəfdaşa çevrildi (4,s.40-60).

Heydər Əliyevin yaratdığı güclü ordu və təhlükəsizlik qurumları ölkənin sabitliyinin qarantına çevrildi. Milli Ordu,

Milli Təhlükəsizlik Nazirliyi, Sərhəd Xidməti və digər strukturlar onun dövründə yenidən qurularaq müasir tələblərə cavab verən formaya salındı (2, s.100-115).

Heydər Əliyevin milli təhlükəsizlik sahəsindəki xid-mətləri bu gün də Azərbaycanın güclü və müstəqil dövlət kimi inkişaf etməsinin əsaslarında dayanır. Nəticə etibarilə, Heydər Əliyev təkcə müstəqil Azərbaycanın qurucusu deyil, həm də onun təhlükəsizliyinin təminatçısı olmuşdur. Bu gün onun siyasi kursu və milli təhlükəsizlik sahəsində atdığı əsaslı addımlar Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Heydər Əliyevin mirası Azərbaycanın sabit və güclü gələcəyinə uzanan yoldur (5, s.20-80).

**Ədəbiyyat**


1. Əliyev, H. (2000). Müstəqilliyimiz əbədidir. Bakı: Azərnəşr, 5-ci cild, 499 səh.
2. Əliyev, H. (2004). Azərbaycanın dövlət müstəqilliyi bizim ən böyük sərvətimizdir. Bakı: Lider Nəşriyyatı, 500 səh.
3. Azərbaycan Respublikası Prezidentinin Rəsmi internet saytı – www.president.az
4. Qarayev, Z. (2013). Heydər Əliyev və Azərbaycanın milli təhlükəsizlik strategiyası. Bakı: Elm və Təhsil, 250 səh.
5. Məmmədov, R. (2010). Heydər Əliyev: dövlət quruculuğu və siyasi irs. Bakı: Nurlan, 350 səh.

# BANK SİSTEMLƏRİNİN TƏHLÜKƏSİZLİYİNDƏ VEB TƏTBİQLƏRİNİN TƏHLÜKƏSİZLİK DİVARI

**Ağamehdi Mehdiəliyev[1], Murad Əsgərov[2]**
*[1,2]Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: aga_mehdi @mail.ru,
murad.askerov@yahoo.com

Müasir dövrdə bank sistemləri informasiya texnologiyalarına əsaslanaraq fəaliyyət göstərir və müştərilərə müxtəlif rəqəmsal xidmətlər təqdim edir. Bu xidmətlərin böyük hissəsi veb əsaslı platformalar vasitəsilə həyata keçirildiyi üçün bank sistemlərinin kibertəhlükəsizlik səviyyəsi kritik əhəmiyyət kəsb edir. Xüsusilə də, SQL inyeksiya (*injection*), XSS (*Cross-Site Scripting*), CSRF (*Cross-Site Request Forgery*) və DDoS (*Distributed Denial-of-Service*) kimi hücumlar bank veb tətbiqlərini hədəf alan əsas təhdidlərdəndir. Bank sistemlərinin təhlükəsizliyini təmin etmək üçün müxtəlif həllər mövcuddur və bunlardan biri də Veb tətbiqlərin təhlükəsizlik divarıdır (WAF) .

WAF (*Web Application Firewall*) bank sistemlərinin veb tətbiqlərini müxtəlif növ kiberhücumlardan qorumaq üçün nəzərdə tutulmuş bir təhlükəsizlik texnologiyasıdır və banklar üçün ən kritik müdafiə mexanizmlərindən biri hesab olunur. WAF veb tətbiqlərə edilən hücumların qarşısını alaraq bank müştərilərinin məlumatlarını qoruyur və xidmətlərin fasiləsiz işləməsini təmin edir. WAF-ın əsas işləmə prinsipi veb trafikin analiz edilməsinə və şübhəli fəaliyyətlərin aşkarlanmasına əsaslanır.

WAF-ın iki əsas rejimi vardır:

1. Əks proksi (*reverse proxy*) rejimi ən geniş istifadə olunan və effektiv qorunma üsullarından biridir. Bu rejimdə WAF, istifadəçi ilə server arasında yerləşərək bir vasitəçi kimi çıxış edir. İstifadəçi veb tətbiqə müraciət etdikdə sorğu birbaşa serverə deyil, əvvəlcə WAF-a yönəldilir. WAF-da sorğu analiz edilir, yoxlanılır və yalnız təhlükəsiz hesab edilən sorğular əsas serverə ötürülür. Serverdən qaytarılan cavab (*response*) da eyni qaydada əvvəlcə WAF-a, sonra istifadəçiyə çatdırılır. Bu yanaşma, serverin birbaşa İnternetə açıq olmamasını təmin edir və beləliklə hücum miqyasını azaldır.

2. Şəffaf (*transparent*) rejim tətbiq olunduğu hallarda şəbəkə arxitekturasına minimal müdaxilə ilə qorunma təmin olunur. Bu rejimdə WAF istifadəçi ilə veb server arasında yerləşsə də, şəbəkədə "görünməz" kimi davranır. Yəni, istifadəçi sorğunu göndərərkən WAF-ın mövcudluğundan xəbərsiz olur. Əslində isə bu sorğu ilk öncə WAF tərəfindən qəbul edilir, analiz olunur. Təhlükəsiz hesab edilərsə, serverə ötürülür. Serverin cavabı da, eyni qaydada WAF vasitəsilə istifadəçiyə çatdırılır.

WAF əsasən 3 metodla işləyir:

1. İmza əsaslı filtrasiya (*Signature-based filtering*) – ənənəvi və geniş yayılmış analiz üsuludur. Bu metod, gələn sorğunu öncədən məlum olan hücum nümunələri (imzaları) ilə müqayisə etməklə işləyir. Məsələn, SQL inyeksiya və XSS kimi tanınmış hücumların özlərinə məxsus müəyyən nümunələri olur və bu imzalar sistemdə saxlanılır. Gələn sorğu bu nümunələrlə uyğunluq təşkil edərsə, WAF həmin sorğunu təhlükəli kimi müəyyən edir və bloklayır. Bu yanaşma çox effektiv olsa da, yalnız öncədən tanınan hücumlara qarşı effektiv işləyir.
2. Davranış əsaslı analiz (*Behavioral analysis*) – daha çevik və intellektual yanaşmadır. Bu metod əvvəlcədən məlum

olmayan hücumları aşkar etmək üçün sorğuların davranışına əsaslanır. İntellektual analiz üsulları adi və anormal davranışları modelləşdirərək potensial təhlükəli fəaliyyətləri müəyyən etməyə çalışır. Məsələn, bir istifadəçinin qısa zamanda çox sayda giriş cəhdi etməsi və ya qeyri-adi parametrlərlə müraciətlər etməsi potensial olaraq bot fəaliyyəti və ya brut fors hücumu kimi qiymətləndirilə bilər.

3. Şifrlənmiş trafikin təhlili (*SSL/TLS Termination*) – HTTPS və digər şifrəli protokollarla gələn məlumatların analiz olunmasını əhatə edir. Müasir veb trafiki əsasən SSL/TLS protokolları ilə şifrəli şəkildə qorunur. Belə olan halda təhlükəli obyektlərin trafikdə gizlədilməsi halları da qaçılmaz olur. Bu metod şifrələnmiş trafikin effektiv şəkildə analiz edilə bilməsi üçün istifadə olunur. Belə ki, sistem trafikdəki şifrələməni müvəqqəti olaraq açır, məlumatı analiz edir və sonra yenidən şifrələyərək ötürür.

Yekun nəticə olaraq qeyd etmək olar ki, WAF bank sistemlərinin kibertəhlükələrdən qorunmasında vacib rol oynayır. Onun effektiv tətbiqi xidmətin davamlılığı və məlumatların təhlükəsizliyi üçün əhəmiyyətlidir.

## Ədəbiyyat

1. Ross J. Anderson – Security Engineering: A Guide to Building Dependable Distributed Systems; Wiley; 3rd edition. (2020)
2. William Stallings – Network Security Essentials: Applications and Standards; Pearson; 7th edition. (2022)

# HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏT KURSUNUN RUSİYA-UKRAYNA MÜNAQİŞƏSİ FONUNDA AZƏRBAYCANIN TƏHLÜKƏSİZLİYİNƏ TƏSİRİ

**Əliəşrəf Məcidli**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: ali.mecidli2003@gmail.com

***Açar sözlər:*** Heydər Əliyev, xarici siyasət, təhlükəsizlik strategiyası, Rusiya-Ukrayna münaqişəsi, çoxvektorlu diplomatiya

Müasir beynəlxalq münasibətlər sistemində baş verən köklü dəyişikliklər fonunda Azərbaycanın milli təhlükəsizliyinin qorunması və xarici siyasətinin uğurla davam etdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Xüsusilə Rusiya-Ukrayna münaqişəsinin yaratdığı geosiyasi qeyri-müəyyənlik şəraitində ölkəmizin balanslı və praqmatik siyasət yürütməsi həyati önəm daşıyır. Azərbaycanın bu istiqamətdə uğurlu mövqe sərgiləməsinin ideoloji və praktik əsası isə məhz ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi xarici siyasət kursuna söykənir.

Heydər Əliyevin dövründə formalaşdırılan çoxvektorlu diplomatiya xətti bu gün Azərbaycanın müstəqilliyini, suverenliyini və milli maraqlarını qorumağa xidmət edən başlıca amil kimi çıxış edir. 1990-cı illərin mürəkkəb geosiyasi reallıqları fonunda ABŞ, Rusiya, Avropa İttifaqı və Çinlə paralel və qarşılıqlı faydalı münasibətlərin qurulması prioritet elan edilmişdi. Bu yanaşma Azərbaycanın hansısa güc mərkəzinin orbitinə daxil olmadan suveren siyasət yürütməsinə şərait yaratmış və hazırkı beynəlxalq böhranlar kontekstində də aktuallığını qorumaqdadır.

Rusiya-Ukrayna münaqişəsi beynəlxalq münasibətlər sistemində gərginlikləri artırmış, bölgədə yeni təhlükələr və çağırışlar formalaşdırmışdır. Belə şəraitdə Azərbaycanın neytral mövqe tutması və hər iki tərəflə münasibətləri qorumağa çalışması birbaşa Heydər Əliyev dövründə əsasları qoyulan çoxvektorlu xarici siyasət kursunun məntiqi davamı kimi dəyərləndirilə bilər. Azərbaycan Ukraynanın ərazi bütövlüyünü dəstəkləməklə yanaşı, Rusiya ilə iqtisadi və siyasi əlaqələrini də qoruyaraq öz milli maraqlarını balanslaşdırmışdır.

Enerji təhlükəsizliyi sahəsində də Heydər Əliyevin siyasəti mühüm rol oynamışdır. Onun təşəbbüsü ilə əsası qoyulan neft strategiyası nəticəsində Azərbaycan dünya enerji bazarında etibarlı tərəfdaş kimi tanınmışdır. Bu amil xüsusilə Rusiya-Ukrayna müharibəsi fonunda Avropanın enerji marşrutlarının şaxələndirilməsi istiqamətində Azərbaycanı strateji aktora çevir-mişdir. Azərbaycanın Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) və Cənub Qaz Dəhlizi kimi layihələrdə iştirakı ölkəmizin regional və qlobal enerji təhlükəsizliyinə verdiyi töh-fəni nümayiş etdirir.

Bununla yanaşı, Rusiya-Ukrayna münaqişəsi Cənubi Qafqaz regionunda yeni təhlükəsizlik dilemmləri doğurmuşdur. Ermənistan-Azərbaycan münasibətlərində yaranan yeni reallıqlar, Zəngəzur dəhlizi layihəsi və bölgənin gələcək geosiyasi konfiqurasiyası Azərbaycanın çevik və ölçülü diplomatik yanaşmasını zəruri edir. Heydər Əliyevin diplomatiyaya gətirdiyi praqmatizm və rasional idarəetmə prinsipləri bu gün də Azərbaycan rəhbərliyinin regional siyasətdə uğurlu addımlar atmasına əsas yaradır.

Nəticə etibarilə, Heydər Əliyevin xarici siyasət kursu bu gün Azərbaycanın regional və beynəlxalq arenada sabitliyinin, təhlükəsizliyinin və müstəqilliyinin əsas təminatçılarından biri kimi çıxış edir. Onun müəyyən etdiyi çoxvektorlu diplomatiya və suveren dövlətçilik prinsipləri Azərbaycanın qlobal siyasi proseslərdə çevik və uğurlu siyasət aparmasına imkan yaradır. Bütün bu faktorlar Heydər Əliyevin siyasi irsinin bu gün də aktuallığını qoruduğunu sübut edir.

### Ədəbiyyat


1. Abbasov, F. (2021). Azərbaycanın Xarici Siyasət Strategiyası: Tarixi və Müasir Trendlər. Bakı: Elm və Təhsil Nəşriyyatı
2. Məmmədova, A. (2022). Geosiyasi şəraitdə Azərbaycanın xarici siyasət prioritetləri. Beynəlxalq Münasibətlər və Diplomatiya jurnalı, 8(2), 15–27.
3. Əliyev, T. (2020). Heydər Əliyev və Azərbaycan Diplomatiyası. Bakı: Qanun Nəşriyyatı.
4. BP-Azerbaijan. (2022). Azerbaijan's Role in Global Energy Security. Rəsmi hesabat.
5. Strateji Araşdırmalar Mərkəzi (SAM). (2023). Rusiya-Ukrayna Münaqişəsi və Cənubi Qafqaz. Analitik hesabat.
6. SOCAR. (2023). Energy Developments and Regional Stability. İllik hesabat.
7. ADA Universiteti. (2022). Azərbaycanın Xarici Siyasət Trendləri və Regional İntegrasiya. Bakı.

# AZƏRBAYCAN RESPUBLİKASINDA İNKLÜZİV CƏMİYYƏTİN FORMALAŞMASINDA RƏQƏMSALLAŞMANIN ROLU

**Orxan Məcidli**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: orkhan.majidli978@gmail.com

**Xülasə**

Bu yazıda Azərbaycanın inklüziv cəmiyyətə keçid prosesində rəqəmsallaşmanın rolu araşdırılmış, ASAN xidmət, myGov kimi təşəbbüslər nümunəsində həyata keçirilən tədbirlər təhlil edilmişdir. Məqsəd bu amillərin cəmiyyətin inklüzivliyinə necə töhfə verdiyini göstərmək və gələcək inkişaf üçün mövcud potensialı qiymətləndirməkdir.

***Açar sözlər:*** inklüziv cəmiyyət, rəqəmsallaşma, ASAN Xidmət, myGov

Müasir dövrdə cəmiyyətin inkişafının əsas göstəricilərindən biri onun inklüzivliyidir. İnklüziv cəmiyyət dedikdə, bütün sosial qrupların, xüsusilə də həssas təbəqələrin – qadınların, gənclərin, əlilliyi olan şəxslərin, yaşlıların və aztəminatlı insanların ictimai həyatın bütün sahələrinə bərabər şəkildə cəlb olunması nəzərdə tutulur. Bu yanaşma sosial ədalətə və bərabər imkanlara əsaslanır. Müasir dövlətlər üçün bu cür model həm sosial sabitliyi təmin etmək, həm də dayanıqlı inkişaf hədəflərinə çatmaq baxımından xüsusi əhəmiyyət daşıyır. Azərbaycan Respublikası son illərdə bu istiqamətdə mühüm addımlar atmış, sosial siyasətin modernləşdirilməsi, rəqəmsal xidmətlərin genişləndirilməsi və sosial innovasiyaların tətbiqi ilə inklüziv inkişaf üçün institusional baza yaratmışdır. Bu tədbirlər BMT-

nin Davamlı İnkişaf Məqsədlərinə uyğun olaraq həyata keçirilir və cəmiyyətin bütün təbəqələrini əhatə etməyi hədəfləyir.

***Rəqəmsallaşma*** XXI əsrdə dövlət idarəçiliyində şəffaflığın, vətəndaş məmnuniyyətinin və xidmətlərin əlçatanlığının əsas alətlərindən birinə çevrilmişdir. Azərbaycanda bu sahədə həyata keçirilən ən uğurlu layihələrdən biri ***ASAN xidmət*** modelidir. Prezident İlham Əliyevin təşəbbüsü ilə 2012-ci ildən fəaliyyət göstərən ASAN xidmət mərkəzləri dövlət xidmətlərini "bir pəncərə" prinsipi əsasında, sürətli, şəffaf və rahat şəkildə təqdim edir. Bu yanaşma vətəndaş-məmur təmasının minimuma endirilməsi və korrupsiya risklərinin azaldılması baxımından xüsusi əhəmiyyət kəsb edir.

ASAN xidmətin inklüziv cəmiyyətin qurulmasında rolu bir neçə aspektdə özünü göstərir. İlk növbədə, bu xidmət dövlət xidmətlərinə əlçatanlıq baxımından paytaxt və regionlar arasındakı bərabərsizliyi azaldır. Regionlarda yaradılmış ASAN mərkəzləri, səyyar xidmətlər və rəqəmsal platformalar vasitəsilə ucqar ərazilərdə yaşayan əhalinin dövlət xidmətlərinə bərabər çıxışı təmin olunur. Bu isə informasiya və texnologiya bərabərsizliyini aradan qaldırmaqla inklüzivliyin genişlənməsinə şərait yaradır.

Eyni zamanda, ASAN xidmət vətəndaş məmnuniyyətinin artırılmasına yönəlmiş innovativ yanaşmaları ilə sosial etimadın güclənməsinə də töhfə verir. Burada xidmət göstərən əməkdaşların yüksək peşəkarlığı, xidmət keyfiyyəti üzərində aparılan daimi monitorinqlər və istifadəçilərdən alınan rəy əsasında sistemin davamlı təkmilləşdirilməsi modeli vətəndaşların dövlətə olan münasibətini pozitiv yöndə dəyişmişdir. Bundan əlavə, ASAN Könüllülər Hərəkatı kimi təşəbbüslər gənclərin ictimai həyatdakı iştirakını stimullaşdıraraq onların sosial inteqrasiyasını dəstəkləyir. Gənclərin bu sistemdə fəal iştirakı onlarda vətəndaş

məsuliyyəti hissini gücləndirir və sosial innovasiya mədəniyyətini təşviq edir.

Rəqəmsallaşmanın digər bir nümunəsi ***"myGov"*** portalı, elektron hökumət sistemi və rəqəmsal identifikasiya xidmətləridir. Bu platformalar vasitəsilə vətəndaşlar evdən çıxmadan müxtəlif xidmətlərə asanlıqla çıxış əldə edə bilir, bu isə əlilliyi olan şəxslər və yaşlı əhali üçün xüsusilə mühüm əhəmiyyət daşıyır. “myGov” platforması şəffaflığı təmin etməklə yanaşı, insanların vaxtına və resurslarına qənaət edir.

Nəticə olaraq, Azərbaycan dövləti inklüziv cəmiyyətin qurulması üçün rəqəmsallaşmanı effektiv şəkildə tətbiq edərək nümunəvi model formalaşdırır. ASAN Xidmət, myGov və digər təşəbbüslər sayəsində dövlət-vətəndaş münasibətləri daha şəffaf, əlçatan və etibarlı formaya düşür. Gələcəkdə bu təşəbbüslərin daha da inkişaf etdirilməsi, texnologiyaların daha geniş yayılması və ictimai iştirakçılığın artırılması inklüzivliyin daha da möhkəmləndirilməsinə xidmət edəcək. Bu baxımdan, inklüziv cəmiyyətə keçid yalnız sosial siyasətin deyil, həm də rəqəmsal strategiyaların əsas prioritetlərindən biri olaraq qalmalıdır.

## Ədəbiyyat


1. Ələkbərov U. K. (2016). *İnsan inkişafının əsasları (Ali məktəblər üçün dərslik)*. Bakı: Aspoliqraf.
2. Ələkbərov U. K. (2017). *Davamlı inkişaf və ekoloji sivilizasiyanın idarə edilməsinin əsasları*. Bakı: Təhsil.
3. Azərbaycan Respublikasının Prezidenti. (2012). *ASAN xidmət mərkəzlərinin yaradılması haqqında fərman*. http://www.e-qanun.az/framework/24132
4. https://my.gov.az/
5. https://asan.gov.az/
6. https://old.xalqqazeti.com/az/news/ordinaces/75286

# AZƏRBAYCAN RESPUBLİKASINDA KİTABXANA İŞİNİN KONSTİTUSİON-HÜQUQİ BAZASI

**Daşqın Məhəmmədli**
*Bakı Dövlət Universiteti*
e-mail: dashqin.muhammedli@mail.ru

Azərbaycan Respublikasında kitabxana işi sahəsində dövlət siyasəti qəbul olunmuş mütərəqqi dövlət sənədləri əsasında həyata keçirilir. 1995-ci ildə qəbul olunmuş "Azərbaycan Respublikasının Konstitusiyası"ı [1] (40-cı və 50-ci maddələr) bu sahənin ümumi hüquqi əsasının müəyyənləşdirir. Ölkədə kitabxana işinin konstitusion-hüquqi bazasına əsasən aşağıdakı sənədlər daxildir:

1. Azərbaycan Respublikasının Konstitusiyası (1995-ci il 12 noyabr);
2. "Azərbaycan Respublikasında kitabxana işinin vəziy-yəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında" Azər-baycan Respublikası Nazirlər Kabinetinin Qərarı (1996-cı il)
3. "Mədəniyyət haqqında"Azərbaycan Respublikasının Qanunu (1998-ci il 6 fevral);
4. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu (1998-ci il 3 aprel);
5. "Kitabxana işi haqqında" Azərbaycan Respubli-kasının Qanunu (1998-cil 28 dekabr);
6. "Dövlət kitabxana fondlarında saxlanılan çap əsər-lərinin və digər materialların uçotu, mühafizəsi və istifadəsi qaydaları" (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli 29 №-li qərarı ilə təsdiq edilmişdir);

7. Azərbaycan Milli Kitabxanasının Əsasnaməsi (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli 30 №-li qərarı ilə təsdiq edilmişdir);
8. “Azərbaycan Respublikası Elmi-Sahəvi Kitabxana-sının nümunəvi Əsasnaməsi” (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli 30 №-li qərarı ilə təsdiq edilmişdir);
9. “Nəşriyyat işi haqqında” Azərbaycan Respublikasının Qanunu (2000-ci il 30 may);
10. “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” Azərbaycan Respub-likası Prezidentinin Sərəncamı (2004-cü il 12 yanvar);
11. “Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (2004-cü il 12 yanvar)
12. “2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ( 2004-cü il 27 dekabr);
13. “Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (2007-ci il 20 aprel);
14. “Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (2007-ci il 30 dekabr);
15. “Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi sistemindəki şəhər (rayon) Mərkəzləşdirilmiş Kitabxana Sistemi haqqında Əsasnamə” (Azərbaycan Respublikası mədəniyyət nazirinin 2008-ci il 18 iyun tarixli əmri ilə təsdiq edilmişdir);

16. “Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı” (Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir);
17. “Azərbaycan Respublikasının şəhər (rayon) mərkəzləşdirilmiş kitabxana sistemlərinin, müstəqil kitabxanaların, şəhər, qəsəbə və kənd kitabxana filiallarının, habelə şəhər, qəsəbə kütləvi, uşaq və gənclər kitabxanalarının nümunəvi strukturu və ştat vahidləri” (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 11 oktyabr tarixli 30 №-li qərarı ilə təsdiq edilmişdir);
18. “Azərbaycan Milli Kitabxanasının Elmi şurası haqqında Əsasnamə” (Azərbaycan Respublikası mədəniyyət nazirinin 2014-cü il 9 aprel tarixli 183 №-li əmri ilə təsdiq edilmişdir);
19. “Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı” (Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir);
20. “Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi sistemindəki Mərkəzləşdirilmiş Kitabxana Sistemi haqqında Nümunəvi Əsasnamə” (Azərbaycan Res-publikası Mədəniyyət Nazirliyi Kollegiyasının 2018-ci il 8 noyabr tarixli, 6/1 nömrəli qərarı ilə təsdiq edilmişdir);
21. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Priorotetlər” (Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir);
22. Respublikanın əlaqədar idarəetmə strukturlarının müvafiq sənədləri;
23. Respublikanın baş metodik kitabxana mərkəzlərinin müvafiq direktiv sənədləri;

24. Respublika kitabxanalarının müvafiq direktiv sənədləri və s.[2; 3; 4; 5; 6].

Göstərilən zəngin hüquqi baza əsasında Azərbaycan kitabxanaları fəaliyyət göstərərək, ölkədə müasir informasiyalaşdırılmış cəmiyyət quruculuğu prosesində, elmi informasiya təminatında, cəmiyyətin ümumi mənəvi və intellektual potensialının inkişafında xüsusi rol oynayır.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (26 sentyabr 2016-cı il tarixdə olan dəyişiklik və əlavələr): [Elektron resurs] / Bakı, 26 sentyabr 2016.
   URL: https//president.az/az/pages/view/azerbaijan/constitusion
2. https://president.az/
3. https://nk.gov.az/
4. https://nk.gov.az/
5. https://www.millikitabxana.az/
6. Kitabxana işinə dair rəsmi sənədlər: (Qanun və qanun qüvvəli normativ hüquqlu sənədlər toplusu) /tərt. K.Tahirov; red. A.Abdullayeva.- 3-cü təkmilləşdirilmiş nəşri.- Bakı, 2015.- 200 s.

# İNSAN RESURSLARININ STRATEJİ PLANLAŞDIRILMASI VƏ İDARƏ EDİLMƏSİNİN ANLAYIŞI, MAHİYYƏTİ VƏ MƏQSƏDLƏRİ

**Elina Məhəmmədova**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: elina.mahammadova@bk.ru

**Xülasə**

Bu məqalədə insan resurslarının planlaşdırılması və idarə olunmasının təşkilatın davamlı inkişafında rolu araşdırılır. Müəllif insan resurslarının strateji idarəetməsinin vacibliyini vurğulayır, bu prosesin əsas mərhələlərini və prinsiplərini açıqlayır. Azərbaycanda HR sahəsində mövcud vəziyyət təhlil edilir, qarşıya çıxan problemlər və onların aradan qaldırılması üçün təklif olunan həll yolları təqdim olunur. Məqsəd – insan kapitalının effektiv idarə olunması ilə təşkilatların rəqabət qabiliyyətinin və dayanıqlılığının artırılmasına töhfə verməkdir.

***Açar sözlər:*** insan resursları, strateji planlaşdırma, kadr siyasəti, effektiv idarəetmə, motivasiya.

İnsan resurslarının planlaşdırılması, təşkilatın davamlı inkişafını təmin etməyə yönəlmiş, personal ilə effektiv və uzunmüddətli işin qurulması prosesidir. Bu proses, şirkətin strateji məqsədlərinə çatmaq üçün hansı işçi qüvvəsinə ehtiyac olduğunu müəyyən etməyə kömək edir və işçilərin uğurun əsas amili olduğunu qəbul edir.

İnsan resurslarının idarə olunması müəssisənin ümumi strateji planlaşdırmasının ayrılmaz hissəsi olmalıdır. Buna görə də, təşkilatın bütün iqtisadi fəaliyyəti kontekstində kadr ehtiyaclarını

planlaşdırmanın ilkin mərhələsindən etibarən nəzərə almaq vacibdir və HR strategiyasının digər inkişaf sahələri ilə uyğun-luğunu təmin etmək lazımdır. [3, s.230]

İnsan resurslarının planlaşdırılması prosesi üç əsas mərhələdən ibarətdir:

1. Mövcud işçi qüvvəsinin təhlili – təşkilat daxilində konkret tapşırıqları və funksiyaları yerinə yetirən əməkdaşların sa-yı müəyyən edilir və qiymətləndirilir.

2. Gələcək kadr tələbatının proqnozlaşdırılması – şirkətin məqsədləri və əmək bazarındakı mümkün dəyişikliklər nə-zərə alınaraq lazım olan işçi sayı proqnozlaşdırılır.

3. Əməkdaşların inkişafı üzrə proqramların hazırlan-ması – mövcud və gələcək ehtiyacları qarşılamaq məqsədilə işçilə-rin cəlb edilməsi, işə qəbulu, təlimi və karyera yüksəlişi üçün tədbirlər planı hazırlanır. [1]

İnsan resurslarının idarə olunmasının əsas məqsədi əməkdaşların məhsuldarlığını artırmaq üçün onların səmərəli fəaliyyətinə şərait yaradan rahat və motivasiyaedici iş mühiti formalaşdırmaqdır.

İnsan resurslarının idarə olunması təşkilat ilə əməkdaşlar arasındakı qarşılıqlı münasibətlərə təsir edən geniş idarəetmə qərarlarını əhatə edir. Bu da onu göstərir ki, HR təcrübələri getdikcə daha çox ümumi biznes strategiyası ilə inteqrasiya olunur. Nəticə etibarilə, insan resurslarının idarə olunması həm təşkilatın fəaliyyət göstəricilərinin yüksəldilməsinə, həm də əmək-daşların peşəkar və şəxsi ehtiyaclarının ödənilməsinə yönəlmişdir.

İnsan resurslarının idarə olunması konsepsiyasının əsas prinsipləri aşağıdakılardır:

– Əməkdaşların təşkilatın səmərəliliyi və rəqabət qabiliyyətinin əsas hərəkətverici qüvvəsi, eyni zamanda əlavə dəyərin əsas mənbəyi kimi qəbul edilməsi;

– İnsan resurslarının idarə olunmasında strateji yanaşmanın tətbiqi və HR qərarlarının təşkilatın uzunmüddətli hədəfləri ilə uyğunlaşdırılması;

– İnsan kapitalının inkişafı və möhkəmləndirilməsinə yönəlmiş investisiyaların iqtisadi əhəmiyyətinin dərk olunması;

– İş şəraitinin yaxşılaşdırılması və əməkdaşlar üçün əmək fəaliyyətinin keyfiyyətinin artırılması;

– İşçilərin fasiləsiz peşəkar inkişafı və təhsilinin təmin edilməsi; [2, s.8-9]

Təşkilatda kadrların idarə olunması yalnız o zaman effektiv olacaq ki, aydın şəkildə müəyyən olunmuş bir strategiya və bu strategiya ilə idarəetmə sistemi və kadr siyasəti arasında güclü qarşılıqlı əlaqə mövcud olsun. Belə bir strategiyanın əsas məqsədi – düzgün məqsədlərin müəyyənləşdirilməsi və həmin məqsədlərə çatmağa xidmət edən insan resurslarının idarə olunması sisteminin qurulmasıdır.

Azərbaycan Respublikasında baş verən müasir sosial-iqtisadi dəyişikliklər insan resurslarının səmərəli strateji idarə olunması zərurətini ön plana çıxarır. Bu gün kadr potensialı təkcə cari vəzifələrin icrası üçün vasitə deyil, həm də dövlətin uzunmüddətli inkişafını, təşkilatların rəqabət qabiliyyətini və ümumilikdə iqtisadiyyatın dayanıqlığını müəyyən edən strateji resurs kimi qiymətləndirilir.

Qloballaşma, rəqəmsallaşma və bilik iqtisadiyyatına keçid şəraitində ənənəvi kadr idarəetməsi modellərinə yenidən baxılması, beynəlxalq təcrübənin milli reallıqlara uyğunlaşdırılması və ölkənin spesifik xüsusiyyətlərini nəzərə alan yerli yanaşmaların formalaşdırılması zərurəti daha da artır.

Bu iş, Azərbaycanda insan resurslarının idarə olunması sisteminin cari vəziyyətini təhlil etməyə, bu sahədə strategiyaların səmərəli icrasına mane olan problemləri və maneələri aşkar

etməyə, həmçinin onun inkişafı üçün perspektivli istiqamətləri müəyyən etməyə yönəlmişdir. Xüsusi diqqət, kadr siyasətinin formalaşdırılmasına, HR strategiyalarının təşkilatların və dövlətin ümumi məqsədləri ilə inteqrasiyasına, eləcə də işçilərin təlimi, motivasiyası və saxlanılması ilə bağlı innovativ yanaşmaların tətbiqinə verilmişdir.

Aparılan araşdırma nəticəsində, insan resurslarının idarə olunması sisteminin effektivliyini, adaptivliyini və sürətlə dəyişən xarici mühitə qarşı dayanıqlığını artırmağa yönəlmiş konkret tədbirlər və tövsiyələr təqdim olunur.

## Ədəbiyyat


1. Mankin N. İnsan resurslarının planlaşdırılması nədir? Strateji insan resursları planlaşdırmasının 3 əsas addımı // FeaSeo. – 2022. https://www.feaseo.com/ru/human-resource-planning.html (müraciət tarixi: 13.04.2025)
2. Egiazarova E.Ya., Kontseviç G.E. İnsan resurslarının idarə olunmasının məqsədləri, funksiyaları və mərhələləri // Müəssisədə iqtisadiyyat və idarəetmə. – RF Ali Peşəkar Təhsil Federal Dövlət Avtonom Müəssisəsi “Şimali Qafqaz Federal Universiteti”. – Pyatiqorsk, Rusiya. – S. 8–9. https://cyberleninka.ru/article/n/tseli-funktsii-i-etapy-upravleniya-chelovecheskimi-resursami/viewer (müraciət tarixi: 12.04.2025)
3. Grehem H.T. İnsan resurslarının idarə edilməsi. – M.: YUNİTİ-DANA, 2003. – S. 230

# AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASI VƏ MİLLİ TƏHLÜKƏSİZLİK SİYASƏTİ

**Bəylər Məhərrəmov**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: beylermeherremov12@gmail.com

***Açar sözlər:*** Heydər Əliyev, Konstitusiya, milli təhlükəsizlik

Milli təhlükəsizlik sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyası, bu Qanun və Azərbaycan Respublikasının digər normativ-hüquqi aktlarından, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra yeni Konstitusiyanın hazırlanması zərurəti yarandı. Bunun üçün Prezident Heydər Əliyev başda olmaqla xüsusi komissiya yaradılmış, Konstitusiya layihəsi ümumxalq müzakirəsinə verilmişdi.Yeni Konstitusiya 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmişdir.

Azərbaycan Respublikasının Konstitusiyası milli təhlükəsizlik siyasətinin formalaşdırılmasında mühüm rol oynayır, təhlükəsizlik ehtiyacını fərdi hüquqların müdafiəsi ilə balanslaşdırır. Konstitusiya hökumətin səlahiyyətlərini və fərdi hüquqlarını müəyyən edən əsas hüquqi bazalardan biridir.

Milli təhlükəsizlik siyasəti xalqı həm xarici, həm də daxili təhdidlərdən qorumaq üçün nəzərdə tutulmuş geniş spektrli tədbirləri əhatə edir. Konstitusiya ilə milli təhlükəsizlik arasındakı əlaqə mürəkkəbdir, çünki Konstitusiya səlahiyyətlərin bölüşdürülməsini təşviq edir, vətəndaş azadlıqlarını qoruyur və

milli təhlükəsizliklə bağlı qərarların qəbuluna təsir edən nəzarət və tarazlıq sistemini yaradır. Konstitusiya idarəetməni üç qol arasında bölüşdürür: qanunverici, icra və məhkəmə. Bu ayrılıq milli təhlükəsizlik siyasətində mühüm əhəmiyyət kəsb edir, çünki hər bir qolun özünəməxsus rolları və səlahiyyətləri var. Qanunvericilik nəzarəti, məhkəmə nəzarəti və icra hakimiyyəti elə bir sistem yaradır ki, heç bir bölmə milli təhlükəsizlik siyasətini birtərəfli qaydada diktə edə bilməz. Başqa sözlə, ictimai-siyasi sabitliyin təmin olunması əsasən dövlətin öz vəzifələrinin səmərəli həyata keçirməsi imkanlarından asılı olur. Öz növbəsində ölkə daxilində ictimai-siyasi sabitliyin təmin olunmasına təsir göstərən bir sıra amillər mövcuddur.

Heydər Əliyevin xidməti nəticəsində 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası ilə vətəndaşların hüquq və azadlıqlarının - fikir və söz azadlığı, sərbəst toplaşmaq azadlığı, seçki hüququ, cəmiyyətin və dövlətin siyasi həyatında, dövlətin idarə olunmasında iştirak etmək hüququ, birləşmək hüququ təmin olunmuşdur. Sadalanan amillər bir tərəfdən siyasi böhran şəraitinin, hakimiyyət boşluğunun aradan qaldırılmasında mühüm rol oynamışsa, digər tərəfdən də ölkənin ərazi bütövlüyünə, dövlətçiliyinə qəsd edən separatçı qüvvələrin, cinayətkar ünsürlərin zərərsizləşdirilməsinə xidmət etmişdir. Heydər Əliyev müstəqil Azərbaycan Respublikasnının ilk milli Konstitusiyasını Azərbaycanda dövlət quruculuğu prosesinin əsası adlandırmışdır.

### Ədəbiyyat:

1. Azərbaycan Respublikası Konsitutsiyası, Bakı, 1995.
2. “Milli təhlükəsizlik haqqında” Azərbaycan Respublikasının Qanunu

3. Həsənov Ə. M. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı, "Letterpress", 2011
4. Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik problemi. Bakı, 2002.

# UŞAQ HÜQUQLARININ MÜDAFİƏSİNİN KONSTİTUSİON-HÜQUQİ TƏMİNATI: ŞABRAN RAYONUNUN TİMSALINDA

**Tariyel Məhərrəmov**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: tariyel.meherremov@mail.ru

Uşaq hüquqlarının müdafiəsinin konstitusion-hüquqi əsasları araşdırılmış, bu hüquqların həyata keçirilməsi və təmin olunması mexanizmləri təhlil edilmişdir. Xüsusi olaraq Şabran rayonu timsalında uşaq hüquqlarının yerli səviyyədə müdafiəsi və tətbiqinə diqqət yetirilmişdir. Azərbaycan Respublikasının Konstitusiyası və digər qanunvericilik aktları uşaqların hüquqlarını qorumaq üçün geniş hüquqi baza yaradır. Uşaq hüquqları haqqında qanun, Ailə Məcəlləsi, Təhsil Qanunu, həmçinin Azərbaycanın qoşulduğu beynəlxalq konvensiyalar (o cümlədən BMT-nin Uşaq Hüquqları Konvensiyası) bu sahədə hüquqi əsas rolunu oynayır.

Şabran rayonu üzrə aparılan təhlillər göstərir ki, uşaq hüquqlarının müdafiəsi istiqamətində müəyyən institusional və hüquqi mexanizmlər mövcuddur. Lakin bəzi hallarda bu hüquqların praktiki təminatında çətinliklərə rast gəlinir. Təhsil, səhiyyə, sosial müdafiə və uşaq istismarına qarşı mübarizə sahələrində

yerli idarəetmə orqanlarının fəaliyyəti qiymətləndirilmiş, mövcud boşluqlar və təkmilləşdirmə imkanları qeyd edilmişdir.

Uşaq hüquqlarının müdafiəsi müasir hüquqi dövlət və vətəndaş cəmiyyətinin əsas prioritetlərindən biridir. Uşaqların fiziki, psixoloji və mənəvi inkişafının təmin olunması yalnız sosial-mədəni məsələ deyil, eyni zamanda hüquqi və konstitusion vəzifədir. Azərbaycan Respublikası da bu sahədə bir sıra mühüm addımlar atmış, uşaqların hüquqlarının qorunması və inkişafı üçün geniş hüquqi baza formalaşdırmışdır.

Konstitusiya Azərbaycanın ali hüquqi sənədi olaraq uşaqların müdafiəsinə xüsusi diqqət yetirir. Konstitusiyanın 17-ci maddəsində dövlətin uşaqların sağlam böyüməsi, təhsil alması, fiziki və mənəvi inkişafı üçün məsuliyyət daşıdığı açıq şəkildə ifadə olunmuşdur. Bununla yanaşı, "Uşaq hüquqları haqqında" Qanun, Ailə Məcəlləsi və digər normativ aktlar da bu hüquqi təminatın strukturunu təşkil edir. Ölkəmizin BMT-nin Uşaq Hüquqları Konvensiyasına qoşulması isə bu sahədə beynəlxalq öhdəlikləri də gündəmə gətirmişdir.

Uşaq hüquqlarının konstitusion hüquqi təminatı məsələsi Şabran rayonu timsalında araşdırılır. Məqsəd – konstitusion və milli qanunvericiliyin yerli səviyyədə tətbiq mexanizmlərini təhlil etmək, mövcud problemləri üzə çıxarmaq və onların həlli yollarını təklif etməkdir. Şabran rayonu üzrə aparılan müşahidələr və təhlillər əsasında region səviyyəsində uşaq hüquqlarının qorunması istiqamətində həyata keçirilən tədbirlərin effektivliyi dəyərləndirilir.

Nəticə etibarilə, uşaq hüquqlarının müdafiəsinin konstitusion və hüquqi təminatını daha da gücləndirmək üçün yalnız qanunvericiliyin deyil, həm də onun səmərəli tətbiqinin təmin olunması vacibdir. Şabran rayonu üzrə əldə edilən nəticələr bu

istiqamətdə praktik addımların atılmasının zəruriliyini bir daha təsdiq edir.

**Ədəbiyyat**

1. Əliyeva, G. (2020). "Uşaq hüquqlarının konstitusion müdafiəsi: Normativ əsaslar və real mexanizmlər". Hüquq və İctimai Düşüncə jurnalı, №3, səh. 45–52.
2. Şabran Rayon İcra Hakimiyyəti (2023). Şabranda uşaqların sosial müdafiəsi və hüquqlarının qorunması üzrə hesabat.

## XARİCİ ÖLKƏLƏRDƏ İCRA HAKİMİYYƏTİ ORQANLARI VƏ BƏLƏDİYYƏLƏRİN SƏLAHİYYƏTLƏRİNİN BÖLGÜSÜNÜN MÖVCUD VƏZİYYƏTİ

**Sabir Məlikov**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail:melikov.sabir.028@mail.ru

### Giriş

İcra hakimiyyəti orqanları və bələdiyyələr, dövlətin idarəetmə strukturlarında mühüm yer tutan iki əsas qurumdur. Dövlətin mərkəzi idarəetmə orqanları, ölkə siyasətinin müəyyən edilməsində və ümumi siyasətlərin həyata keçirilməsində əsas rol oynayır. Eyni zamanda, bələdiyyələr yerli səviyyədə cəmiyyətin həyatını təşkil edən, vətəndaşların gündəlik ehtiyaclarını qarşılayan və yerli inkişafı təmin edən qurumlardır. Xarici ölkələrdə icra hakimiyyəti orqanları və bələdiyyələrin səlahiyyətlərinin bölgüsü fərqli hüquqi və idarəetmə ənənələrinə görə

müxtəliflik göstərir. Bu referat, xarici ölkələrdə icra hakimiyyəti orqanları ilə bələdiyyələrin səlahiyyətlərinin bölgüsünün mövcud vəziyyətini araşdıracaq, müxtəlif ölkələrin təcrübələrini müqayisə edəcək və bu sistemlərin effektivliyini qiymətləndirəcəkdir.

**İcra hakimiyyəti orqanları və bələdiyyələrin ümumi anlayışı -** İcra hakimiyyəti orqanları, dövlətin icra sahəsindəki fəaliyyətini həyata keçirən və qanunların yerinə yetirilməsini təmin edən qurumlardır. Dövlətin yüksək vəzifəli orqanları, məsələn, prezident, baş nazir və digər icra hakimiyyəti vəzifəliləri, ölkənin hüquqi, iqtisadi və sosial siyasətini müəyyən edirlər. Bələdiyyələr isə yerli idarəetmə orqanlarıdır və onların əsas məqsədi, vətəndaşların yerli səviyyədəki ehtiyaclarını ödəmək, müvafiq resursları təmin etmək və yerli inkişafı təşviq etməkdir.

İcra hakimiyyəti və bələdiyyələrin səlahiyyətləri və funksiyaları, dövlətin idarəetmə modelindən asılı olaraq dəyişir. Mərkəzi idarəetmə və yerli idarəetmə arasında səlahiyyətlərin bölgüsü, hər bir ölkənin konstitusiyasına və hüquq sisteminə əsaslanır.

## 2. Xarici ölkələrdə icra hakimiyyəti orqanları və bələdiyyələrin səlahiyyətlərinin bölgüsü

İcra hakimiyyəti orqanları və bələdiyyələrin səlahiyyətlərinin bölgüsü ölkənin idarəetmə sisteminə və siyasi quruluşuna görə fərqlənir. Bu fərqlər, mərkəzi və yerli orqanlar arasında səlahiyyətlərin necə bölüşdürüldüyünü göstərir. Aşağıda bəzi inkişaf etmiş ölkələrdə bu bölgünün necə həyata keçirildiyi təhlil ediləcəkdir.

**Fransa -** Fransa, mərkəzləşdirilmiş dövlət idarəetmə modelinə malikdir. İcra hakimiyyəti, prezident və baş nazir tərəfindən təmsil olunur. Prezident ölkənin ümumi siyasətini müəyyən edir və mühüm qərarları qəbul edir. Yerli idarəetmə isə Fransada bələdiyyələr tərəfindən həyata keçirilir. Fransa

bələdiyyələri geniş səlahiyyətlərə malikdir, çünki onlar yerli inkişafı təşkil edir, təhsil, səhiyyə, ətraf mühitin qorunması və sosial xidmətlər kimi sahələrdə xidmət göstərir. Eyni zamanda, Fransada bələdiyyələr mərkəzi hökumət tərəfindən maliyyələşdirilir və bu, yerli səviyyədə mərkəzləşdirilmiş idarəetməni təmin edir.

**ABŞ -** ABŞ-da isə mərkəzi və yerli idarəetmə arasında daha sərt bir bölgü mövcuddur. Mərkəzi hakimiyyətin gücü, Konstitusiya ilə müəyyən edilmişdir və federal hökumət, ölkənin ümumi siyasətini həyata keçirir. ABŞ-da 50 fərqli ştat var və hər bir ştatın öz idarəetmə sistemi mövcuddur. Ştat səviyyəsində yerli bələdiyyələr, xüsusi olaraq şəhər və qəsəbələr səviyyəsində, əhalinin ehtiyaclarına cavab verir. Bələdiyyələr, yerli təhsil, infrastruktur inkişafı, ictimai xidmətlər və vergi toplama kimi fəaliyyətlərdə səlahiyyətlərə malikdir. Bu yolla, ABŞ-da mərkəzləşdirilmiş və yerli səviyyədəki idarəetmə strukturları arasında tarazlıq təmin olunur.

**Almaniya -** Almaniya federal dövlət modelinə əsaslanır, burada həm mərkəzi, həm də yerli hakimiyyət orqanları arasında güclü bir səlahiyyət bölgüsü mövcuddur. Almaniya hökumətinin icra hakimiyyəti, baş nazir (kansler) və federal hökumət tərəfindən təmsil olunur. Bələdiyyələr isə yerli idarəetmə orqanlarıdır və onların səlahiyyətləri konstitusiya ilə müəyyən edilmişdir. Yerli bələdiyyələr, təhsil, nəqliyyat, sosial xidmətlər, ətraf mühitin mühafizəsi və şəhərsalma kimi sahələrdə öz səlahiyyətlərinə malikdirlər. Almaniyada bələdiyyələrin maliyyələşməsi, həm mərkəzi hökumət, həm də yerli gəlirlərdən əldə edilən vəsaitlərlə həyata keçirilir.

**Böyük Britaniya -** Böyük Britaniyada isə yerli idarəetmə və icra hakimiyyəti arasındakı əlaqə, "mərkəzləşdirilmiş yerli idarəetmə" modelinə əsaslanır. Burada, yerli bələdiyyələr, mər-

kəzi hökumət tərəfindən müəyyən edilmiş səlahiyyətlər daxilində fəaliyyət göstərirlər. Bələdiyyələr yerli xidmətləri təmin edirlər, lakin geniş hüquqi və maliyyə müstəqilliyinə malik deyillər. Böyük Britaniyada mərkəzi hökumət, əsasən, iqtisadi siyasət və ümumi qanunvericiliyi müəyyən edir, yerli bələdiyyələr isə bu siyasətləri həyata keçirmək üçün praktiki tədbirlər görürlər.

**İsveçrə -** İsveçrə, çoxdilli və çoxkültürlü bir federal dövlət olaraq, yerli idarəetmə sisteminə böyük əhəmiyyət verir. İsveçrədə yerli hakimiyyət orqanları, xüsusən bələdiyyələr çox geniş səlahiyyətlərə malikdirlər. Hər bir kanton (ştat) öz qanunvericiliyini qəbul etməkdə, təhsil, səhiyyə, infrastruktur və digər yerli xidmətləri təşkil etməkdə müstəqildir. Bələdiyyələr, yerli idarəetməni gücləndirmək və ictimai xidmətləri təmin etmək üçün ciddi bir hüquqi və maliyyə müstəqilliyinə malikdirlər. İsveçrədə, yerli hakimiyyətin səlahiyyətləri mərkəzi hakimiyyətin təzyiqi olmadan geniş şəkildə həyata keçirilir.

**Xarici təcrübələrin üstünlükləri və Azərbaycanda tətbiq olunması -** Xarici ölkələrdə icra hakimiyyəti orqanları və bələdiyyələrin səlahiyyətlərinin bölgüsü, mərkəzi və yerli idarəetmənin balanslaşdırılmasına kömək edir. Hər bir ölkənin öz siyasi, sosial və iqtisadi strukturlarına uyğun olaraq bu bölgü fərqlidir. Azərbaycanda da bələdiyyələrin səlahiyyətləri və yerli idarəetmənin gücləndirilməsi məsələsi gündəmdədir. Xarici ölkələrin təcrübəsi, yerli idarəetmənin daha şəffaf, səmərəli və vətəndaşlara yaxın olmasına imkan yaradır. Azərbaycanın yerli idarəetmə sistemini daha da inkişaf etdirmək üçün beynəlxalq təcrübələri nəzərdən keçirərək bələdiyyələrin səlahiyyətlərini artırmaq, müstəqilliklərini təmin etmək və mərkəzi hakimiyyətlə münasibətləri tənzimləmək lazımdır.

## Nəticə

Xarici ölkələrdə icra hakimiyyəti orqanları və bələdiyyələrin səlahiyyətlərinin bölgüsü, dövlətin idarəetmə strukturlarının funksionallığını artırmaq və yerli inkişafı təmin

etmək baxımından əhəmiyyətlidir. Bu ölkələrin təcrübəsi, Azərbaycan üçün də faydalı ola bilər. Mərkəzi və yerli idarəetmə orqanları arasında düzgün və səmərəli bir bölgü, ölkənin sosial-iqtisadi inkişafını sürətləndirəcək və vətəndaşların hüquqlarını daha yaxşı təmin edəcəkdir.

## Ədəbiyyat


1. Şıxəliyeva, L. (2017). "Xarici ölkələrdə yerli idarəetmə sistemləri: təcrübə və çağırışlar". Bakı: Hüquq Nəşriyyatı.
2. Müller, M. (2015). "Decentralized Governance in Germany and Its Application." Berlin: European Politics Review.
3. Jones, T. (2019). "Local Government and Power Relations in the United States." Cambridge: University of Cambridge Press.
4. Pérez, C. (2018). "French Local Governance and Administrative Reform." Paris: French Government Publications.
5. Fawcett, S. (2020). "The Evolution of Local Government in the UK: Structure and Function." London: Oxford University Press.


# KORRUPSİYA İLƏ MÜBARİZƏDƏ EFFEKTİV MEXANİZMLƏR


**Novruz Məmmədli**

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: nmammadli03@gmail.com


## Xülasə


Korrupsiya dövlət institutlarının effektivliyinə, iqtisadi inkişafa və ictimai etimada mənfi təsir göstərən əsas problemlərdən biridir. Bu kimi neqativ halların qarşısının alınması

məqsədilə ölkədə bir sıra islahatlar aparılmışdır - o cümlədən, dövlət xidmətlərinin rəqəmsallaşdırılması, qanunvericiliyin təkmilləşdirilməsi, şəffaflığın artırılması və müstəqil antikorrupsiya strukturlarının gücləndirilməsi. Azərbaycanın antikorrupsiya strategiyası beynəlxalq təcrübəyə əsaslanır, lakin milli kontekstə uyğunlaşdırılıb. Qlobal yanaşmaların yerli səviyyədə tətbiqi hüquqi, institusional və texnoloji həllərin inteqrasiyasını tələb edir. Dünya təcrübəsi göstərir ki, uzunmüddətli və kompleks strategiyalar korrupsiya ilə mübarizədə effektiv nəticələr verir.

***Açar sözlər:*** antikorrupsiya siyasəti, dövlət qulluğu, Elektron hökumət, ictimai nəzarət, müstəqil antikorrupsiya orqanları

Dövlət qulluğunda korrupsiya dövlət institutlarının effektiv fəaliyyətinə, iqtisadi inkişafa və hüququn aliliyinin möhkəmlənməsinə mane olan ən ciddi problemlərdən biri olaraq qalır. Korrupsiyaya qarşı tədbirlərin görülməsinə baxmayaraq, korrupsiya təcrübələri dövlət büdcəsinə ciddi ziyan vurur, vətəndaşların hökumətə inamını sarsıdır və biznes üçün inzibati maneələr yaradır. Beynəlxalq təcrübə göstərir ki, korrupsiyaya qarşı uğurlu strategiyalar dövlət xidmətlərinin rəqəmsallaşdırılmasını, ictimai nəzarətin gücləndirilməsini, müstəqil antikorrupsiya orqanlarının yaradılmasını və qanunvericiliyin təkmilləşdirilməsini ehtiva edir. Azərbaycan dövlət idarəçiliyini möhkəmləndirmək və şəffaflığı artırmaq məqsədilə korrupsiyaya qarşı aktiv islahatlar həyata keçirir. Xüsusilə qanunvericiliyin təkmilləşdirilməsi, dövlət xidmətlərinin rəqəmsallaşdırılması və dövlət prosedurlarının şəffaflığının artırılması diqqət mərkəzindədir. Əsas istiqamətlərdən biri dürüst idarəetmə prinsiplərinin tətbiqidir ki, bu da korrupsionerlərə qarşı cəza tədbirləri ilə yanaşı, dövlət qulluqçularının hüquqi və etik məsuliyyətini artırmağa yönəlmiş preventiv mexanizmləri də əhatə edir. Azər-

baycanın antikorrupsiya strategiyası beynəlxalq təcrübəyə əsaslanır, lakin milli kontekstə uyğunlaşdırılmışdır.

Azərbaycanın antikorrupsiya islahatları institusional strukturların və hüquqi mexanizmlərin təkmilləşdirilməsinə yönəlmiş bir sıra təşəbbüsləri əhatə edir. Milli qanunvericilik mütəmadi olaraq dövlət orqanlarının fəaliyyətinin şəffaflığını artırmağa və maraqların toqquşmasının qarşısını almağa yönəlmiş yeni normalarla tamamlanır. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli 3199 nömrəli Sərəncamı ilə Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022─2026-cı illər üçün Milli Fəaliyyət Planı təsdiq edilmişdir [1].

Xüsusi antikorrupsiya agentlikləri korrupsiya cinayətlərinin araşdırılması, dövlət satınalmalarının monitorinqi və əhalinin hüquqi savadlılığının artırılması proqramlarının icra-sında əsas rol oynayır. Korrupsiyaya qarşı mübarizənin ən mü-hüm alətlərindən biri dövlət xidmətlərinin rəqəmsallaşdırılmasıdır. Bu, bürokratik prosedurların minimuma endiril-məsinə və vasitəçilik sxemlərinin ləğvinə imkan yaradır. Elektron hökumət sisteminin tətbiqi vətəndaşlara dövlət xidmətlərini birbaşa məmurlarla təmasda olmadan almaq imkanı yaradır ki, bu da korrupsiya risklərini azaldır və dövlət institutlarına inamı artırır [2].

Vətəndaş cəmiyyəti antikorrupsiya fəaliyyətində mühüm rol oynayır. Müstəqil medianın inkişafı, korrupsiya cinayətlərinin monitorinqi üçün platformaların yaradılması və vətəndaş cəmiyyəti təşkilatlarının fəal iştirakı korrupsiyaya qarşı sıfır dözümlülük mədəniyyətinin formalaşmasına töhfə verir. Bu kontekstdə informatorların (whistleblower) qorunması və hakimiyyət orqanlarının fəaliyyətinə effektiv ictimai nəzarət üçün şəraitin yaradılması mühüm əhəmiyyət kəsb edir. Beynəlxalq təcrübə göstərir ki, korrupsiyaya qarşı uğurlu

mübarizə yalnız dövlət, biznes və vətəndaş cəmiyyəti arasında sıx əməkdaşlıq şəraitində mümkündür.

Bütün nailiyyətlərə baxmayaraq, Azərbaycanın anti-korrupsiya siyasəti sistemli yanaşma tələb edən bir sıra problemlərlə üzləşir. Əsas məsələlərdən biri qanunvericiliyin daha da təkmilləşdirilməsi, antikorrupsiya strukturlarının effektivliyinin artırılması və ictimai nəzarət mexanizmlərinin gücləndirilməsidir. Qloballaşma şəraitində korrupsiyaya qarşı mübarizə hüquqi, institusional və rəqəmsal həllərin vahid anti-korrupsiya mexanizminə inteqrasiyasını tələb edir ki, bu da dövlət idarəçiliyində şəffaflığın təmin edilməsinə və vətəndaşların dövlət institutlarına etibarının artırılmasına xidmət edir.

Beynəlxalq təcrübə göstərir ki, uzunmüddətli antikorrupsiya strategiyalarına malik ölkələr dövlət qulluğunda korrupsiyanı əhəmiyyətli dərəcədə azalda biliblər. Böyük Britaniya və Avropa İttifaqı bu sahədə öncül mövqeyə malikdir. Böyük Britaniyada 2010-cu ildə qəbul edilmiş Rüşvətxorluq Aktı korrupsiyaya qarşı ən geniş qanunvericilik aktlarından biridir. Bu qanun rüşvətxorluğun həm aktiv, həm də passiv formalarına aydın hüquqi tərif verir və korrupsiyanın qarşısını almayan şirkətlər üçün ciddi məsuliyyət müəyyən edir. Bu hüquqi çərçivə beynəlxalq antikorrupsiya tədbirləri üçün yüksək standart müəyyən edərək, bir çox ölkələrdə antikorrupsiya praktikasının formalaşmasına təsir edib [3].

Azərbaycan şəffaf və hesabatlı dövlət idarəçiliyi strukturu yaratmağa səy göstərir. Elektron hökumət təşəbbüslərinin uğuru insan amilini minimuma endirən texnologiyaların tətbiqinin vacibliyini nümayiş etdirir. Bundan əlavə, beynəlxalq antikorrupsiya strategiyaları çərçivəsində vətəndaş cəmiyyətinin bu mübarizəyə cəlb olunması dövlətin hesabatlılığını artıran əsas amildir.

## Ədəbiyyat

1. “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022─2026-cı illər üçün Milli Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. https://e-qanun.az/framework/49349 (müraciət tarixi: 15.01.2025)
2. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının Reqlamenti. https://antikorrupsiya.gov.az (müraciət tarixi: 02.02.2025)
3. Bribery Act 2010, United Kingdom legislation. https://legislation.gov.uk (müraciət tarixi: 18.02.2025)

# TORPAQLARIN İDARƏ OLUNMASINDA DÖVLƏT VƏ BƏLƏDİYYƏNİN ROLU

**Asif Məmmədov**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: asif_memmedov03@mail.ru

Torpağın əsas xüsusiyyət və keyfiyyət əlaməti onun məhsuldarlığıdır. Torpağın həyatında böyük rol oynayan, onun mövcudluğunu, ehtiyacını ödəyən amillər su və qidadan ibarətdir. Torpağın tərkibində su çox olduqda qrunt sularının səviyyəsi qalxır, bataqlığa çevrilir, torpaqda aerasiya prosesi pozulur, şoranlaşır, əkin üçün yararsız olur, torpağın meliorativ vəziyyəti xarablaşır. Respublikamızın bəzi düzənlik rayonlarında torpağın tərkibində duzların miqdarı həddindən çoxdur. Belə sahələr əkin üçün yararsızdır. Şoran torpaqları yararlı hala salmaq üçün geniş meliorasiya işləri (fiziki, kimyəvi, bioloji və hidrotexniki meliorasiya) görülür.

Kənd təsərrüfatında əsas istehsal vasitəsi olan torpaq əvəzedilməzdir; torpaq məhduddur, yəni onu böyütmək, çoxaltmaq, artırmaq olmaz; torpağın yerini dəyişmək olmaz; torpağa məxsus xüsusiyyət yalnız onun münbitliyidir. Torpağın münbitliyini və bitkilərin məhsuldarlığını artırmaq üçün torpaq rejimləri (temperatur, su-hava, qida,duz, fiziki-kimyəvi, biokimyəvi və oksidləşmə-reduksiya) onların tələblərinə uyğun olaraq tənzimlənməlidir. Odur ki, bütün bunlar torpaq resurslarına son dərəcə diqqətli yanaşmağı və daim torpaqların münbitliyinin artırılması qayğısına qalmağı tələb edir.

Torpaqların idarə edilməsində dövlət və bələdiyyənin rolunun optimallaşdırılması, daha təsirli və naturada nəzarət mexanizminin yaradılması, ehtiyyac meyyarlarının düzgün hesablanması gələcəkdə torpaqlara olan ehtiyyatların qarşılanmasında ciddi problem yaratmayacaq.

Adətən vətəndaşlar torpaq sahəsinə bir daşınmaz əmlak yatırımı kimi yanaşır və buda torpağa ehtiyyacı olan insanın bazar qiymətindən daha baha torpaq sahəsi almağına gətirib çıxarır.

Yeni yanaşmada torpaqların istifadəyə, icarəyə və mülkiyyətə verilməsi prosesindən sonra torpaqla bağlı müəyyən edilmiş öhdəliklər olacaq ki, sahibləndiyi torpaqdan təyinatına uyğun istifadə etsin.

Torpaqlardan daha da səmərəli istifadə məqsədilə vətəndaş müraciətinin sadələşdirilməsi, vətəndaş-məmur münasibətinin minimuma endirilməsi, şəffaflığın artırılması və torpaqların gələcək nəsillərə ötürülməsi məqsədilə müraciətlərin elektronlaşdırılması məqsədəuyğundur. Burada torpaq sahəsi üzərində mülkiyyət icarə və istifadə hüququ ilə bağlı balanssaxlayıcı təşkilatların təklifləri dinlənilməsi, yaşayış sahəsi üzrə ehtiyyac meyyarları çıxarılmalı, məskunlaşmanın sıxlığı və iqtisadi artım nəzərə alınmalıdır. Hazırki dövrdə bölgələrdə vətəndaşların ən çox ehtiyyac duyduğu torpaqlar kənd təsərrüfatı təyinatlı torpaqlardır. Kənd təsərrüfatı təyinatlı torpaqlar kənd təsərrüfatı

məhsullarının istehsalı və emalı, habelə kənd təsərrüfatı sahəsində elmi-tədqiqat, tədris, tədris-təcrübə və sınaq məqsədləri üçün istifadə edilir.

Sahibkarlıq məqsədilə torpaq sahəsini ayrılmasında yeni yanaşma iqtisadiyyata daha çox töhvə verəcək ki, sahibkarın yaratmaq istədiyi müəssisənin investisiya dəyəri, işçi sayı, ödəniləcək vergilərin öncədən hesablanması və digər bu kimi meyyarları öncədən şərt kimi tətbiq etməklə torpaqlardan daha çöx iqtisadi gəlir əldə etmək olar.

Torpaq münasibətlərini tənzimləmək üçün elektron portalın yadılması vətəndaşın torpaq sahəsinə əlçatanlığını daha da asanlaşdıracaq.

Bəzi hallarda bələdiyyə torpaqları icarəyə verilərkən qanunvericilikdə nəzərdə tutulmuş icarə müddətlərində pozuntulara yol verilir. İcarə müddəti ötmüş torpaq sahələrində istifadə bölgələrdə kifayət qədər çoxdur. Bəzən bu razılaşmalar hər-hansı hüquqi nörmativ aktlar imzalanmadan bələdiyyə sədri və vətəndaş arasında şifahi sövdələşməyə uyğun olur ki, bu da korrupsiya hüquqpozmasına gətirib çıxarır.

Nəzərə alsaq ki, torpaq sahəsinin idarə olunmasında ən çox pozuntular, problemlər və çətinliklər bələdiyyə torpaqlarında baş verir, bələdiyyə torpaqlarının mühafizəsinin təmin edilməsi məqsədi ilə icarəyə və ya istifadəyə verilmiş torpaq sahələrinin məqsədli təyinatına və hüquqi rejiminə uyğun daha səmərəli istifadə edilməsi, habelə bu sahədə baş verən qanun pozuntularının qarşısının alınması üçün qanunvericiliklə müəyyən dəyişikliklərin edilməsi və nəzarət mexanizminin artırılması məqsədəuyğundur.

## Ədəbiyyat

1.“Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu. 29 iyun 2001-ci il № 160-IIQ

# AZƏRBAYCANIN HEYDƏR ƏLİYEV İRSİNİ DAVAM ETDİRƏRƏK ABŞ-ÇİN-RUSİYA GEOSİYASİ ÜÇGƏNİNDƏ MÖVQEYİ

**Aysel Məmmədova**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: aysel.e92@mail.ru

***Açar sözlər:*** geosiyasət, xarici siyasət, çoxvektorlu diplomatiya, strateji tərəfdaşlıq, regional sabitlik

Müasir beynəlxalq münasibətlər sistemində ABŞ, Çin və Rusiya kimi aparıcı aktorlar arasında yaranmış geosiyasi qarşıdurma və əməkdaşlıq münasibətləri qlobal güc balansına mühüm təsir göstərir. Bu dövlətlərin qarşılıqlı münasibətləri, həm regional, həm də beynəlxalq səviyyədə baş verən siyasi proseslərin istiqamətini müəyyənləşdirən əsas amillərdən birinə çevrilmişdir. Belə bir mürəkkəb sistemdə yerləşən Azərbaycan üçün bu üç güclə münasibətləri eyni anda qorumaq və inkişaf etdirmək, milli maraqlara əsaslanan xarici siyasətin əsas prioritetlərindəndir. Bu baxımdan Ulu Öndər Heydər Əliyevin əsası qoyduğu və bu gün Prezident İlham Əliyev tərəfindən davam etdirilən xarici siyasət kursu xüsusi əhəmiyyət daşıyır [4].

Heydər Əliyev dövründə formalaşmış xarici siyasət konsepsiyası milli maraqlara xidmət edən, eyni zamanda beynəlxalq güc mərkəzləri ilə balanslı münasibətlərə əsaslanan strategiya kimi dəyərləndirilə bilər. 1990-cı illərdə Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində atılmış mühüm addımlar, beynəlxalq enerji layihələrində iştirak, Qərb dövlətləri ilə münasibətlərin qurulması, Rusiya ilə əməkdaşlığın bərpası və Çinlə diplomatik münasibətlərin başlanması və s. bu

siyasətin uğurla tətbiq olunduğunu göstərmişdir. Heydər Əliyev Azərbaycanın heç bir qlobal gücün orbitinə daxil olmadan, lakin hər biri ilə qarşılıqlı faydaya əsaslanan münasibətlər formalaşdırmasına xüsusi diqqət yetirmişdir [3].

Hal-hazırda ABŞ, Çin və Rusiya arasında geosiyasi münasibətlər rəqabət və əməkdaşlıq elementlərini özündə birləşdirən kompleks xarakter daşıyır. ABŞ və Çin arasında ticarət, texnologiya və regional nüfuz uğrunda mübarizə kəskin şəkildə davam edir. ABŞ ilə Rusiya arasındakı münasibətlər isə xüsusilə Ukraynadakı müharibə fonunda gərginləşmiş, strateji qarşıdurma səviyyəsinə çatmışdır. Bununla yanaşı, Rusiya və Çin arasında artan iqtisadi və siyasi yaxınlaşma yeni tərəfdaşlıq mo-dellərinin formalaşmasına yol açır. Belə mürəkkəb və dəyişkən beynəlxalq şəraitdə Azərbaycan bu güclərlə münasibətlərində balansı qorumağa, suverenlik və təhlükəsizliyini təmin etməyə yönəlmiş praqmatik yanaşma nümayiş etdirir [Məmmədli M., 2023. s. 3].

Azərbaycanla ABŞ arasında əməkdaşlıq enerji təhlükəsizliyi, regional sabitlik və iqtisadi əlaqələr sahələrini əhatə edir. Xüsusilə neft və qaz resurslarının Qərb bazarlarına çıxarılmasına yönəlmiş layihələr iki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin əsasını təşkil etmişdir. Çinlə münasibətlər son illərdə yeni keyfiyyət mərhələsinə qədəm qoyaraq, “Bir kəmər, bir yol” təşəbbüsü çərçivəsində əməkdaşlığın genişlənməsi ilə müşayiət olunur. Rusiya ilə münasibətlər isə tarixi və geosiyasi baxımdan daha çoxşaxəli və strateji xarakter daşıyır [Rzayev M., 2023. s. 264].

Ölkəmizin yürütdüyü bu çoxvektorlu xarici siyasət xətti Heydər Əliyevin müəyyən etdiyi strateji kursun məntiqi davamıdır. Heydər Əliyevin xarici siyasət irsi bu gün də ölkənin müstəqilliyinin, təhlükəsizliyinin və davamlı inkişafının təminatçısı kimi çıxış edir. Azərbaycanın qarşıdakı dövrdə də bu

xətti qoruyaraq, beynəlxalq arenada öz maraqlarını uğurla müdafiə edəcəyi şübhə doğurmur.

**Ədəbiyyat**

1. Rzayev M., (2023). Heydər Əliyevin Xarici Siyasəti və Azərbaycanın Beynəlxalq Uğurları. Akademik Tarih ve Düşünce Dergisi. 10 (1), s. 260-269
2. Məmmədli M. Heydər Əliyevin çoxvektorlu xarici siyasəti. Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi. Bakı. 2023.– 6 s.
3. https://genprosecutor.gov.az/az/post/2436
4. https://science.gov.az/az/news/open/23682

## MÜASİR DÖVRDƏ İSTİFADƏ EDİLƏN SƏMƏRƏLİ MARKETİNQ STRATEGİYALARI

**Ayşən Məmmədova**
*Azərbaycan Texnologiya Universiteti*
e-maill: a.memmedova@atu.edu.az

Səmərəli marketinq strategiyasının yaradılmasının ən üstün cəhəti odur ki, səmərəli marketinq strategiyası müəssisənin potensial imkanlarını üzə çıxartmaqla yanaşı, eyni zamanda da müəssisənin rəqib müəssisələrlə mübarizədə zəif və güclü tərəflərinin də müəyyən edilməsinə köməklik göstərmiş olur. Bu isə müəssisənin uzunmüddətli fəaliyyət göstərməsinin ən əsas amillərindən biridir. Belə ki, hər bir müəssisə və təşkilat özünün zəif nöqtələrini bilməklə və bu zəif nöqtələri aradan qaldırmaqla digər rəqibləri ilə mübarizə apara bilir. Belə əhatəli təhlil nəticəsində marketinq fəaliyyəti məqsədi və bu məqsədə nail olmağın əsas istiqamətlərini müəyyənləşdirən müəssisənin baza strategiyasına çevrilmiş olur. [1]

Hər bir müəssisədə marketinq strategiyaları fərqli xarakter daşımaqdadır. Məqsəd isə eynidir. Necə etmək olar ki, daha yüksək müştəri portfelinə sahib olaq? Son zamanlarda bəzi müəssisələr yeni növ marketinq strategiyasından istifadə edirlər. Söhbət "inbound marketinq" strategiyasından gedir. "İnbound marketinq" "doğru müştəriləri doğru zamanda doğru yerlərdə (biznes bloq, websayt, sosial media, landing page və s.) doğru kontentlə (faydalı kontentlə) maraqlandırıb həmin müştəriləri cəlb etməlisən" prinsipinə əsaslanır. "İnbound marketinq"in əsas xarakterik xüsusiyyəti odur ki, müştəriyə hələ nəsə satmamış ona fayda (faydalı content) vermiş olursan. Bu səbəbdən də inbound marketinqə "faydalı marketinq" də deyirlər. İnbound marketinqin əksi outbound marketing adlanır ki, bu da müştərini qəfil yaxalamaqdır (telemarketing, TV reklamı, bilbord və s.). [2]

Əgər əvvəlki marketinq strategiyaları məhsulun tanınmasında reklam vasitələrindən istifadə edirdilərsə, inbound marketinq isə əhalinin böyük hissələrinin cəmləndiyi sosial şəbəkələr vasitəsilə müştəriləri doğru yerdə tuta bilirlər.

İnbound marketinqin əsas bir özəlliyi də odur ki, TV vasitəsilə edilmiş reklamlarda bir neçə işçinin əməyinə ehtiyac duyulurdusa, inbound marketinqdə bir nəfər işçinin fəaliyyəti kifayət edir ki, bu da əlavə xərclərdən azad olma imkanlarını ortaya çıxarmış olur. [3]

Marketinq strategiyaları içərisində xüsusilə seçilən bəzi strategiyalar da vardır ki, bu strategiyalar da müştərilərin cəlb olunmasına istiqamətlənmişdir. Məsələn, "2 al bir ödə" devizi altında bir çox istehsal müəssisələri fəaliyyət göstərməkdədir. Əslində bu devizin mahiyyəti ondan irəli gəlir ki. hər iki məhsulun realizə olunması təmin olunsun. Lakin bu halda müəssisə maddi olaraq heç nə itirmir. Əvəzində istehsal etdiyi iki məhsulu realizə edir və yeni müştəri portfeli toplamış olur. Belə

ki, bir çox müəssisələrdə “2 al bir ödə” devizində elə hər iki məhsulun qiyməti öz əksini tapır. Lakin alıcının bir dəfə pul ödəməsinə çəkilmiş diqqət yayınıqlığı nəticəsində hər iki məhsulun realizə olunması baş verir. Bəzi hallarda isə müəssisələr “2 al bir ödə” devizi altında satışa çıxardıqları məhsullardan biri tələbatın kifayət qədər üstün olduğu əmtəə, digəri isə satış prosesində realizə olunması kifayət qədər çətin olan, başqa sözlə desək satılmayan məhsullardan ibarət olur. Bunun da nəticəsi olaraq həm tələbatın olduğu məhsulun, həm də satılmayan məhsulun realizə olunması baş vermiş olur.

Yuxarıda qeyd etdiklərimizdən belə bir nəticəyə gələ bilərik ki, hər bir müəssisənin marketinq strategiyası formalaşdırmaqda əsas məqsədi mənfəət əldə olunmasını təmin etmək, eyni zamanda da bazarda mövcud rəqabətə tab gətirə bilməsini təmin etmək, daha yüksək müştəri portfelinə sahib olmaq və eləcə də istehsal edilmiş məhsulların asanlıqla realizə olunmasını təmin etməkdir.

**Ədəbiyyat**


1. Kotler Filip - “Marketing 5.0”, 2021
2. Salgues Bruno - “Society 5.0”, 2022, (s-121)
3. https://marketing.museum/marketing-history/

# GÜRCÜSTAN-ERMƏNİSTAN MÜNASİBƏTLƏRİ: ƏSAS İSTİQAMƏTLƏR VƏ PROBLEMLƏR

**Badam Məmmədova**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu*
e-mail: badam.mamedova.97@mail.ru

Ermənistanın Azərbaycan və Türkiyə ilə diplomatik əlaqələri olmasa da, cənub qonşusu İran Ermənistan üçün stabil çıxış yolu olmayıb. Bu səbəbdən Gürcüstan Ermənistanın dünyaya açılan qapısı olduğu üçün böyük əhəmiyyət kəsb edən ölkə olaraq qalmaqda davam edir. Ermənistan üçün Gürcüstan Ermənistanı xarici dünya ilə birləşdirən iki mühüm dəhlizdən biri olaraq qalır. Hər iki ölkə bir-biri ilə davamlı əlaqələr saxlamağa çalışıb. Bununla belə, bu iki ölkənin regional siyasi və iqtisadi perspektivlərini fərqləndirən və ikitərəfli münasibətlərə kölgə salan bəzi fundamental problemlər mövcud olmaqda davam edirdi. Ermənistan-Gürcüstan münasibətlərinin indiki mərhələsi 1988-1990-cı illərdə Sovet İttifaqının böyük hissəsində yeni etnik hərəkatların meydana çıxması ilə formalaşmağa başladı. 1989-cu ildə 200000-ə yaxın erməninin (indi 100000-dən az) məskunlaşdığı Cavaxeti iğtişaşlara səbəb olub-olmayacağı gürcüləri haqlı olaraq narahat edirdi. Cavaxetidəki ermənilər Qarabağdakı soydaşlarına hərbi dəstək və ərzaq məhsulları toplamaq üçün "Cavaxk" adlı təşkilat yaratdıqda bu narahatlıqlar öz təsdiqini tapdı. Həm Cənubi Osetiyada, həm də Abxaziyada mərkəzi Gürcüstan hakimiyyəti ilə münaqişənin başlaması ilə Gürcüstan-Azərbaycan münasibətləri daha da yaxınlaşdı və taktiki tərəfdaşlıq səviyyəsinə yüksəldi. Təkcə onu qeyd etmək kifayətdir ki, rəsmi Tbilisi praktiki olaraq həmişə Azərbaycanın diplomatik qərarlarının lehinə səs verir. Beləliklə, ikitərəfli münasibətlərin tam miqyası inkişaf edən zaman Ermənistan və Gürcüstanın xarici siyasət prioritetləri o qədər fərqləndi ki, ikitərəfli maraqlar diametral şəkildə ziddiyyət təşkil etdi.

Beləliklə, indi aydın olur ki, 1992-ci ildə rəsmən qurulan Ermənistan-Gürcüstan münasibətləri müxtəlif xarici siyasət vektorlarının girovu olaraq qalır. İki ölkə arasında müasir münasibətlərin ümumi xarakterini ən bariz şəkildə sərhəddəki vəziyyət göstərir. Üç gömrük məntəqəsinin olmasına baxmayaraq, sərhədin özü hələ rəsmi olaraq müəyyən edilməyib və Ermənistanla Gürcüstan arasında münasibətlər son vaxtlar bu sərhəd qədər qeyri-müəyyən olub. 2004-cü ildə gürcü mətbuatında yayılan xəbərlərdə erməni tərəfinin öz sərhəd zastavalarını qanunsuz olaraq Gürcüstan ərazisinin 10 kilometr dərinliyinə, sərhədyanı Axkerpi kəndi yaxınlığındakı əraziyə keçirməsi iddia edilirdi. Bu iddialar Gürcüstan daxilində qızğın reaksiyaya səbəb olub, həftəlik “Georgian Times” qəzeti “Ermənistan 3812 kvadrat kilometr ərazini əhatə edən Gürcüstanın tarixi torpaqlarını işğal edir və ondan sui-istifadə edir” yazmışdır.

Gürcüstanın geosiyasi mövqeyi Ermənistan-Gürcüstan münasibətlərinin gedişatına təsir edən ən mühüm amildir. Blokada olan Ermənistan üçün şimal qonşusunun ərazisi ilə çıxış həyati əhəmiyyət kəsb edir. Bu, Ermənistanın rəsmi milli təhlükəsizlik doktrinasında da öz əksini tapıb. Bu doktrinada göstərilir ki, “Ermənistanın Türkiyə və Azərbaycanın blokadası şəraitində Gürcüstan Ermənistanın xarici dünyaya əsas iqtisadi və nəqliyyat marşrutudur”. Xüsusilə Gürcüstanın Poti limanı Ermənistan mallarının daşınma məntəqəsi kimi hələ də böyük əhəmiyyət kəsb edir. Hazırda yük dövriyyəsinin 70%-i Gürcüstan ərazisindən keçir ki, bu da Tbilisiyə faktiki olaraq İrəvana tələb və şərtləri diktə etmək səlahiyyəti verir. Məsələn, Ermənistana Cavaxetiyə müdaxilə etməmək üçün təzyiq göstərmək. Son illər Tbilisi bu məsələdə İrəvana qarşı mövqeyi ermənipərəst qruplar tərəfindən “şantaj siyasəti” kimi qələmə verilməyə başlanılıb.

2020-ci il Qarabağ müharibəsi Cənubi Qafqaz üçün yeni bir mərhələnin xəbərçisi oldu. 2020-ci il Qarabağ müharibəsi və onun nəticələri regionda yeni geosiyasi vəziyyət yaradıb.

Qarabağ müharibəsi zamanı Gürcüstanın siyasətini Ermənistana qarşı mənfi neytrallıq kimi xarakterizə etmək olar.

Beləliklə, iki dövlət arasında bu günə qədər həll olunmamış bir sıra problemlər vardır. Daxili gərginliklərə baxmayaraq ikitərəfli münasibətləri inkişaf etdirməyə çalışsalar da, istədikləri nəticəyə nail ola bilmirlər.

## Ədəbiyyat


1. Bondo Arveladze, "Armyanskie" ili Gruzinskie Çerkvı v Gruzii?!, Tiflis, 1996.]
2. İ.G.Çavçavadze, Armyanskıye Uçenıye; Şota Tetvadze, Otar Tetvadze, Somhebi Sakartveloşi
3. Kamil Ağacan, Ermenistan-Gürcistan İlişkileri, Ermeni Araştırmaları, sayı: 19, Sonbahar 2005.)
4. Stephen F. Jones, "Georgian-Armenian Relations in 1918 to 1920 and 1991- to 1994: A Comparison", Transcaucasia, Nationalism, and Social Change, Ronald Grigor Suny (der), The University of Michigan Press, 1996, ss.441-460, s.442
5. სომხური ისტორიული ავაზაკობა ქართველთა მიმართ გრძელდება,https://1905.az/ka/%e1%83%a1%e1%83%9d%e1%83%9b%e1%83%ae%e1%83%a3%e1%83%a0%e1%83%98-%e1%83%98%e1%83%a1%e1%83%a2%e1%83%9d%e1%83%a0%e1%83%98%e1%83%a3%e1%83%9a%e1%83%98-%e1%83%90%e1%83%95%e1%83%90%e1%83%96%e1%83%90/

# AZƏRBAYCANIN XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİNİN GENİŞLƏNDİRİLMƏSİ: MÜASİR TENDENSİYALAR, PERSPEKTİVLƏR VƏ STRATEGİYALAR

**Cavad Məmmədov**
*Bakı Dövlət Universiteti*
e-mail: cavadmamedov9@gmail.com

***Xülasə***

Azərbaycanın xarici iqtisadi əlaqələrinin genişləndirilməsi və müxtəlifləşdirilməsi ölkənin dayanıqlı iqtisadi inkişafının və beynəlxalq iqtisadi arenada rolunun gücləndirilməsinin vacib amilidir. Bundan əlavə, ölkə son illərdə xarici ticarət, investisiya cəlb edilməsi və regional inteqrasiya sahəsində əhəmiyyətli nailiyyətlər əldə etmişdir. Beləliklə, xarici iqtisadi əlaqələri diversifikasiya etmək, bu yolda yeni yanaşmalar tətbiq etmək və bununla bağlı beynəlxalq əməkdaşlığı gücləndirmək zəruridir.

Coğrafi mövqeyi, təbii sərvətlərinin bol olması və aktiv iqtisadi islahatlar səbəbindən Azərbaycan son illərdə xarici iqtisadi əlaqələr sahəsində mühüm irəliləyişlər əldə edib. Müstəqillikdən sonra ölkə, regional və qlobal iqtisadi proseslərə qoşulmaq üçün qəbul edilə biləcək mexanizm axtarmağa başladı ki, bu da müasir dünya şəraitində xarici iqtisadi siyasətin inkişafının yeni meyllərinə yönəlməni tələb edir. Burada enerji əsaslı iqtisadiyyatlardan qurtulmağa çalışılır və şaxələndirmə və innovasiyalara əsaslanan yeni siyasi və iqtisadi strategiyalara yönəlinir. Bu məqalədə Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələri, bu sahədə mövcud problemlər və onların həll yolları nəzərdən keçiriləcək.

Azərbaycanın xarici iqtisadi əlaqələrinin indiki meylləri və strategiyaları ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş

möhkəm təməllərə əsaslanır. Heydər Əliyev dövründən bəri xarici iqtisadi münasibətlərin inkişafı milli iqtisadiyyatın əsas istiqamətlərindən biri kimi vurğulanır.

Azərbaycan, Heydər Əliyevin intellektual mirasına, onun "Əsrin Müqaviləsi" ilə bağlı ağıllı siyasətinə və öncədən görmə qabiliyyətinə, bu müqavilənin Azərbaycanın qlobal iqtisadi sistemə inteqrasiyasında və respublikanın xarici iqtisadi əlaqələrinin genişlənməsində dönüş yaradan roluna görə minnətdardır. Belə bir müqavilə xarici investisiyaların zəmanəti olmaqla yanaşı, Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş olaraq hörmətini möhkəmləndirməyə də xidmət etdi.

Xarici iqtisadi əlaqələrin genişlənməsinin əsas amili ümummilli liderin "açıq qapı" siyasəti idi ki, bu da xarici investisiyaların cəlb edilməsi, biznes mühitinin əlverişli inkişafı ilə yanaşı, beynəlxalq maliyyə institutları ilə daha geniş əməkdaşlığı nəzərə alırdı. Nəticədə, Azərbaycan Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı kimi nüfuzlu maliyyə institutları ilə əməkdaşlıq əlaqələrini uğurla qurdu.

Milli iqtisadiyyatlar getdikcə qloballaşan dünyada dərin inteqrasiyaya malikdir və bir-birilərindən asılıdır. Buna görə də, Azərbaycan Respublikası beynəlxalq arenada iqtisadi maraqlarını qorumaq məqsədi ilə xarici iqtisadi əlaqələrini genişləndirmək üçün xüsusi maraq göstərir.

Məsələn, Azərbaycan Respublikasının xarici iqtisadi strategiyası "Bir kəmər, Bir yol" təşəbbüsünün icrası kontekstində Asiya və Avropa arasında körpü rolunu oynamaq, regional əməkdaşlıq formatlarında aktiv iştirak və qlobal dəyər zəncirlərinə daxil olma vəzifələrini özündə cəmləşdirir.

Xarici iqtisadi əlaqələrin genişləndirilməsində əsas tendensiyalardan biri regional iqtisadi inteqrasiya proseslərində fəal iştirakdır.

Azərbaycan Türk Dövlətləri Təşkilatı vasitəsilə türkdilli dövlətlərlə iqtisadi əməkdaşlığın dərinləşdirilməsinə, Orta Dəhliz layihəsi vasitəsilə Mərkəzi Asiya ölkələri ilə əlaqələrin gücləndirilməsinə və Avropa İttifaqı ilə strateji tərəfdaşlığın inkişafına xüsusi əhəmiyyət verir.

Bu dəhliz vasitəsilə Azərbaycandan Türkiyəyə və oradan da Avropa bazarlarına birbaşa çıxış imkanları yaranacaqdır ki, bu da ölkənin tranzit potensialını əhəmiyyətli dərəcədə artıracaqdır.

İşğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması prosesi də xarici iqtisadi əlaqələrin genişləndirilməsi üçün yeni fürsətlər yaradır. "Ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqi, yaşıl enerji zonasının yaradılması və müasir infrastrukturun qurulması sahəsində beynəlxalq əməkdaşlıq imkanları artmaqdadır.

Son illərdə Azərbaycan xarici ticarət dövriyyəsində də kəskin dəyişikliklər müşahidə olunmuşdur. Aşağıda 2018-2023-cü illər üçün əsas statistik göstəricilər verilmişdir.

**Cədvəl 1: Azərbaycanın xarici ticarət dövriyyəsi, 2018-2023 (milyard ABŞ dolları ilə)**

| İl | İxrac | İdxal | Ticarət balansı | Ümumi ticarət dövriyyəsi |
|---|---|---|---|---|
| 2018 | 19.5 | 11.5 | +8.0 | 31.0 |
| 2019 | 19.9 | 13.7 | +6.2 | 33.6 |
| 2020 | 13.7 | 10.7 | +3.0 | 24.4 |
| 2021 | 22.2 | 12.5 | +9.7 | 34.7 |
| 2022 | 38.2 | 14.1 | +24.1 | 52.3 |
| 2023 | 36.8 | 15.2 | +21.6 | 52.0 |

*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2024 https://www.stat.gov.az/source/trade/*

Cədvəldən göründüyü kimi, xarici ticarət dövriyyəsi COVID-19 pandemiyasının təsirləri səbəbiylə 2020-ci ildə kəskin şəkildə azalmış, lakin sonrakı illərdə sürətli bərpa baş vermişdir. Bundan əlavə, qlobal enerji qiymətlərinin artması fonunda 2022-ci ildə ixrac həcmlərində artım müşahidə olunmuşdur.

Xarici iqtisadi əlaqələrin genişləndirilməsi, Azərbaycanın dayanıqlı iqtisadi inkişafı və sosial-iqtisadi rifahının təmin edilməsində ən vacib amillərdən biridir. Xarici ticarət dövriyyəsi, xarici investisiyalar və qlobal iqtisadi təşkilatlarla səmərəli əməkdaşlıq Azərbaycana dünya iqtisadi arenasında güc verir. Lakin, eyni zamanda, xarici iqtisadi əlaqələrin şaxələndirilməsi ehtiyacı var ki, bu da ölkənin enerji sektoruna olan asılılığını azaldacaq və kənd təsərrüfatı, turizm, informasiya texnologiyaları və logistika kimi inkişaf edən sahələrdə potensialını maksimum artıracaq.

Ölkənin xarici iqtisadi əlaqələrinin təhlilində əsas istiqamətlərdən biri qeyri-neft ixracı və beynəlxalq nəqliyyat dəhlizləri sahəsidir, burada son vaxtlar bəzi nailiyyətlər əldə edilmişdir. Ölkənin ixrac potensialını açmaq və xarici iqtisadi əlaqələrin uğurla inkişaf etdirilməsi üçün bir sıra sistematik tədbirlər lazımdır.

Bu addımlar, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun rəqabət qabiliyyətinin artırılması, yeni bazarlara çıxış və investisiya mühitinin yaxşılaşdırılması istiqamətində atılmışdır və bu, Azərbaycanın xarici iqtisadi əlaqələrinin dayanıqlı inkişafını təmin edəcəkdir. Bu istiqamətdə həyata keçirilən siyasət və proqramlar, Azərbaycanın qlobal iqtisadi sistemə daha dərin inteqrasiyasını təmin edəcək və beləliklə, sonunda ölkənin qlobal rəqabət arenasında mövqeyini yüksəldəcəkdir.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi https://www.stat.gov.az/
2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi https://www.economy.gov.az/
3. Azərbaycan Respublikasının Mərkəzi Bankı https://www.cbar.az/
4. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi https://mincom.gov.az/
5. Azərbaycan Respublikasının 2030-cu ilədək sosial-iqtisadi inkişafına dair Milli Prioritetlər https://president.az/az/articles/view/50474
6. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi https://customs.gov.az/
7. Azərbaycan İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) https://www.azpromo.az/
8. Beynəlxalq Valyuta Fondu - Azərbaycan üzrə Hesabatlar https://www.imf.org/en/Countries/AZE
9. Ümumdünya Ticarət Təşkilatı - Azərbaycan https://www.wto.org/english/thewto_e/acc_e/a1_azerbaidjan_e.htm
10. Asiya İnkişaf Bankı - Azərbaycan https://www.adb.org/countries/azerbaijan/main
11. TRACECA (Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi) http://www.traceca-org.org/
12. Heydər Əliyev Mərkəzi - Heydər Əliyevin fəaliyyəti haqqında məlumatlar https://heydar-aliyev-center.az/
13. Heydər Əliyev Fondu https://heydar-aliyev-foundation.org/
14. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi https://president.az/

15. Azərbaycan İlham Əliyev. İnkişaf - məqsədimizdir https://www.elibrary.az/docs/SERIYA/cildi_7.pdf
16. Türk Dövlətləri Təşkilatı https://www.turkkon.org/
17. "Bir kəmər, bir yol" təşəbbüsü https://www.beltroad-initiative.com/
18. Qarabağın bərpası və yenidən qurulması ilə bağlı materiallar https://karabakh.gov.az/

## İNSAN RESURSLARININ İDARƏ EDİLMƏSİNDƏ MÜASİR YANAŞMA (YEVLAX RAYONU TİMSALINDA)

**Səkinə Məmmədova**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: smamedova@inbox.ru

İş dünyasındakı sürətli dəyişikliklər və inkişaflar şirkətləri rəqabət üstünlüyü əldə etmək və saxlamaq üçün yeni yollar axtarmağa məcbur edir. Bu kontekstdə insan resurslarının idarə edilməsi ənənəvi təcrübələrdən rəqəmsallaşmış və innovativ yanaşmalara doğru inkişaf edir və bu dəyişiklikdə mühüm rol oynayır. Bu yazıda İnsan Resursları departamentində qəbul etdiyimiz yeni yanaşmaları, rəqəmsallaşmanı ətraflı müzakirə edəcəyik. İnsan resurslarının idarə edilməsi ənənəvi olaraq kadrların idarə edilməsi və işə qəbul prosesləri ilə əlaqələndirilir. Ancaq rəqəmsallaşma ilə nəinki bu proseslər optimallaşdırılıb, həm də strateji funksiyaya çevrilib. Biz rəqəmsallaşmaya təkcə texnoloji keçid deyil, həm də mədəni və təşkilati təkamül kimi baxmalıyıq.

İnsan Resursları strategiyalarını təyin edərkən və həyata keçirərkən, möhkəm məlumatların təhlilinə əsaslanır.

1. İdarəetmə - insan fəaliyyətinin ən mürəkkəb sahələrindəndir.

Müasir dövrümüzün tələblərinə uyğun olaraq insan resurslarının idarəolunması sahəsindəki müasir yanaşmalar çalışdığım Yevlax Şəhər İcra Hakimiyyətində istifadə olunur. Belə ki, İcra Hakimiyyətinin rəhbərliyi tərəfindən hər bir əməkdaşın fəaliyyəti yaxından izlənilir, verilən tapşırıqların vaxtında yerinə yetirilməsi qiymətləndirilir. Çalışdığım qurumda motivasiya metodu geniş şəkildə tədbiq olunur. Əməkdaşların iş fəaliyyəti mütəmadi olaraq qiymətləndirilir.

Xüsusilə də xidmətin fəaliyyətin qiymətləndirilməsinin nəticəsinə diqqət yetirilir. Əməkdaşlara xidməti fəaliyyətlərinin nəticəsi olaraq ortaya çıxan çatışmazlıqlarla bağlı aparatın məsul şəxsləri tərəfindən mütəmadi olaraq təlimlər keçirilir.

Aparatın gənc əməkdaşlarla hər gün işin əvvəlində təcrübəli əməkdaşlar tərəfindən tövsiyələr verilir.

Beləliklə, yeniliklərdən istifadə edilərək idarəetmənin optimallaşdırılması əməkdaşların gündəlik işlərində faydalı iş əmsallarının artmasına, onlarda motivasiyalarının yüksəlməsinə səbəb olmuşdur.

1.1 Kadr menecmenti – insan resurslarının idarə edilməsi. keçid prosesi.

İnsan resurslarının idarə edilməsi anlayışında müəssisənin maraqları qədər fərdi maraqlar da nəzərə alınır. İşçilərin psixoloji, sosioloji, fiziki hər növ tələbinin ödənilməsi və dolayısı ilə də səmərəliliyinin ən üst səviyəyə çıxacaq şəkildə inkişaf etdirilib müsəssisələ birləşdirilməsi qarşıya qoyulan məqsəddir. İnsan resurslarının idarə edilməsi kadr menecmenti anlayışından

daha əhatəli bir anlayışdır və müsəssisəin insan resursları potensialından tam şəkildə faydalanmaq məqsədi güdür.

1.2 İnsan resurslarının idarə edilməsi nədir?

"İnsan Resursu" sözü ilk dəfə Peter Drucker tərəfindən 1954-cü ildə nəşr edilmiş "The practice of management" kitabında istifadə edilmişdir. Drucker bu əsərində idarəetmə funksiyalarını; işi idarə etmək, rəhbərləri idarə etmək və işçiləri idarə etmək kimi tədqiq etmişdir. Drucker bəhs etdiyi işçiləri "insan resursu" kimi adlandırmış və insan resursunun digər resurslarda olmayan bir keyfiyyətə malik olduğunu söyləmişdir.

1.3 İnsan resurslarının idarə edilməsinin məqsədi.

İnsan resurslarının idarə edilməsi müəssisə daxilindəki münasibətləri əhatə edən olduqca geniş bir sahədir. İnsan resursları idarə edilməsində insan faktoru, müsəssisələrin məqsədinə nail olmaq üçün istifadə etdiyi ən əhəmiyyətli resurslardan biridir. Bununla birlikdə yuxarıda sadalanan halları da nəzərə alsaq insan resursları idarəçiliyinin məqsədlərini anlamaq çətin olmayacaqdır.

1.4 İnsan resurlarının idarə edilməsinin əhəmiyyəti.

İnsan resurslarının idarə edilməsi keçmişdən indiyə qədər keçdiyi tarixi inkişaf prosesində əhəmiyyəti get-gedə artan bir anlayışa çevrilmişdir. Müəssisələr bu müddət ərzində insan resurslarına daha çox əhəmiyyət vermiş və müsəssisə prinsiplərini bu istiqamətdə qurmağa səy göstərmişdir.

İşçi qüvvəsi ilə bağlı xərclər.

Bütün müəssisələrdə işçi qüvvəsinin əhəmiyyəti danılmaz bir faktdır. Müəssisənin həyata keçirdiyi bütün növ iqtisadi fəaliyyətlərin təməlində, hansı növ texnologiyadan istifadə edilməsinə baxmayaraq insan faktoru dayanır. Yüksək texnologiyalardan istifadə işçi qüvvəsinin sayında azalmalara gətirib çıxaracaqdır.

İşçi dövriyyəsinin azalması.
Davamiyyət və nizam-intizamın yüksək olması.
Bədbəxt hadisələr üçün qabaqlayıcı tədbirlərin görülməsi.
Düzgün istehsal (vəya xidmət)
Keyfiyyətli məhsul (vəya xidmət)
İşdən məmnunluq və yüksək motivasiya.

**Ədəbiyyat**


1. İnsan resurslarının idarə edilməsi ilə bağlı məqalələr və mühazirələr.
2. "İnsan resurslarının idarə edilməsində tarixi inkişaf mərhələsi " adlı məqalə .
3. Biznesdə insan resurslarının idarə edilməsi. Dərslik. BAKI – 2013
4. Heyətin idarə edilməsi.Ali təhsil müəssisələri ümçün dərslik. Bakı: «İqtisad Universiteti» Nəşriyyatı, 2012.- 508 səh.


## AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYASINDA İNSAN HÜQUQ VƏ AZADLIQLARININ QORUNMASI MEXANİZMLƏRİ


**Xasay Məmmədzadə**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: m.xasay96@gmail.com


İnsan hüquqları fərdlərin mümkün davranışının ölçüsü kimi böyük potensialı, müəyyən bir hüquqi vəziyyətdə insan davranışı xətlərinin seçimini, kompleksini təmsil edir. Fundamental hüquqların həyata keçirilməsi və müdafiəsi sistemində optimal

inkişaf vektorlarının qurulmasının vacibliyi haqqında müasir şüur elmi ictimaiyyətdə həmişə öz əksini tapa bilmir. İnsan hüquqlarının həyata keçirilməsi və müdafiəsi mexanizmlərinin əhəmiyyəti ilə bağlı sualın əsaslı şəkildə qoyulması zərurəti hüquqi hadisələrin xüsusiyyətlərini üzə çıxarmaq cəhdinə səbəb olur. Ümumiyyətlə qəbul edilir ki, qanunun özü həyata keçirilməyə və təyinatı üzrə istifadə olunmağa başladığı anda "canlanır".

Azərbaycan Respublikasının Konstitusiyası (24-71-ci maddələr) geniş hüquq və azadlıqları əhatə edir. Bununla belə, bu hüquqların birbaşa təsiri ilə bağlı müddəa yoxdur ki, bu da vətəndaşların aralıq qanunvericilik aktları olmadan onlardan istifadə imkanlarını məhdudlaşdırır. Z. Əsgərov haqlı olaraq qeyd edir: "Azərbaycan Respublikası Konstitusiyası hüquqlara təminat verir, lakin bilavasitə həyata keçirilməsi mexanizmi olmadan onlar öz hüquqi səmərəsini itirir".

İnsan hüquq və azadlıqlarının həyata keçirilməsinin əsas və sistem (mexanizm) formalaşdıran elementi təbii hüquqi öhdəlik daşıyıcılarının qanuni icraçı davranışıdır. Bu davranış bir çox cəhətdən spesifikdir, lakin yenə də hüquqi fəaliyyət növüdür. Mahiyyəti etibarilə insan hüquq və azadlıqlarının həyata keçirilməsi mexanizmi həmin hüquqları həyata keçirən subyektlərin (vətəndaşların, hüquq münasibətlərinin digər iştirakçılarının) bu hüquqlara dair normaları həyata keçirmək üçün ardıcıl hərəkətləri sistemi və ya başqa sözlə, təbii hüquqi öhdəliklərin məqsədyönlü şəkildə həyata keçirilməsi üçün hüquqi vasitələrin mövcudluğu, habelə səmərəli həyata keçirilməsi kimi başa düşülür. Beləliklə, hüquq normaları hüquqi tənzimləmə mexanizminin əsası kimi çıxış edir, digər elementlər isə subnormativ xarakter daşıyır.

İnsan hüquq və azadlıqlarının həyata keçirilməsi və müdafiəsi üçün əlverişli mühitin formalaşdırılması bir sıra ümumi və xüsusi şərtlərlə bağlıdır. Ümumi şərtlər hüquq və azadlıqların həyata keçirilməsinin ümumi zəminini təşkil edir və ictimai, siyasi, sosial, maddi və təşkilati amilləri əhatə edir. Xüsusi şərtlər isə pozulmuş hüquqların bərpasına dair tədbirləri və hüquqların müdafiəsinə dair konkret mexanizmləri əhatə edir.

Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinin 1-ci hissəsində qeyd olunur ki, insan və vətəndaş hüquqlarının və azadlıqları dövlət tərəfindən təmin edilir. Dövlətin vəzifələrindən biri də şəxsin hüquq və azadlıqlarını həyata keçirə bilməsi üçün onu hüquqi və faktiki cəhətdən müvafiq şəraitlə təmin etmək və şəxsin hüquqlarından tam istifadə etməsi üçün aktiv ictimai-siyasi addımlar atmaqdır.

Konstitusiya hüquq və azadlıqları şəxsin hüquqi statusunun əsasını, habelə hüququn digər sahələrində təsbit olunmuş bütün digər hüquq normalarının fundamentini təşkil edir. Beləliklə, Konstitusiya mövcud qanunvericiliyin əsaslanmalı olduğu prinsipləri müəyyən edir. Azərbaycan Respublikası Konstitusiyasının ikinci fəslinə əsasən, insan, onun hüquq və azadlıqları ən yüksək dəyərdir. İnsan və vətəndaş hüquq və azadlıqlarının tanınması, onlara riayət edilməsi və qorunması dövlətin ali məqsədidir.

Azərbaycan Respublikası Konstitusiyasının üçüncü fəsli tamamilə insan hüquq və azadlıqlarına həsr edilmişdir. Ona görə, insan öz azadlığının mənbəyi kimi tanınır ki, bu da dövlətin icazəsi ilə mövcud deyil. Dövlət tərəfindən qəsd edilə bilməyən hüquq və azadlıqlara malik olmaq şəxsiyyətə müstəqil subyekt olmaq, özünü cəmiyyətin layiqli üzvü kimi təsdiq etmək imkanı verir. Hüquq və azadlıqlar doktrinası ilkin olaraq təbii hüquq

nəzəriyyəsinə əsaslanır ki, bu nəzəriyyə insanın ayrılmaz təbii hüquqlarının mövcudluğundan irəli gəlir.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Konstitusiyası, 1995-ci il, 12 noyabr. https://e-qanun.az/framework/897
2. Əsgərov Z. Azərbaycan Respublikasının Konstitusiya Qanunu. – Bakı, Ədalət, 2022, S. 206
3. Snezhko O.A. The State Defense of the Individual, Moscow, Jurist, 2005, 266 p.
4. Gasanov K.K. The Constitutional Mechanism of the Basic Human Rights, Moscow, JuNITI-DANA, Zakon i pravo, 2004, 431 p.
5. Lebedev V.A. Rusiyada vətəndaşların və fərdlərin hüquq və azadlıqlarının konstitusiya və hüquqi müdafiəsi, Moskva, İzd-vo Mosk. un-ta, 2005, 272 s.


# YAŞIL BANKÇILIĞIN QLOBAL İQTİSADİYYATDA TƏKAMÜLÜ VƏ ƏHƏMİYYƏTİ


**Vüsal Məmmədzadə**

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*

e-mail: vusallm02@gmail.com



## Xülasə

Bu tezisdə yaşıl bankçılığın qlobal iqtisadi sistemdəki inkişaf trayektoriyası və strateji əhəmiyyəti təhlil olunur. Tədqiqatda yaşıl maliyyənin davamlı inkişaf, iqlimə dayanıqlılıq və ESG prinsipləri ilə inteqrasiyasındakı rolu araşdırılır. Eyni

zamanda, yaşıl bankçılığın qarşılaşdığı əsas problemlər və onun gələcək inkişaf perspektivləri təqdim olunur.

Son onilliklərdə iqlim dəyişikliyi və ətraf mühitin pisləşməsi ilə bağlı ictimaiyyətin artan məlumatlılığı, maliyyə institutlarının davamlı inkişafın təşviqindəki rolunun yenidən qiymətləndirilməsinə səbəb olmuşdur. Ənənəvi bank modeli əsasən mənfəətin maksimallaşdırılmasına yönəldilmişdi, lakin müasir dövrdə bu model ətraf mühitə və sosial təsirlərə də önəm verən yanaşmalarla tamamlanır və bəzi hallarda əvəzlənir. Bu dəyişiklik yaşıl bankçılıq adlanan yeni bir yanaşmanın yaranmasına səbəb olmuşdur.

Bu məqalədə yaşıl bankçılığın təkamülü araşdırılır və onun qlobal iqtisadiyyatda əhəmiyyəti qiymətləndirilir. Burada yaşıl bankçılığın necə və nə üçün formalaşdığı, maliyyə institutları və cəmiyyətlər üçün hansı üstünlüklər yaratdığı və onun davamlı inkişafa təsiri araşdırılır.

Yaşıl bankçılıq anlayışı ilk dəfə 1990-cı illərin əvvəllərində ətraf mühit fəallığının artması və tənzimləyici islahatların nəticəsi olaraq formalaşmağa başlamışdır. Başlanğıcda yaşıl maliyyə əsasən ekoloji yönümlü investisiya fondları və korporativ sosial məsuliyyət (CSR) təşəbbüsləri ilə məhdudlaşırdı. Lakin zaman keçdikcə ətraf mühitə laqeydliyin nəticələri daha aydın şəkildə ortaya çıxdıqca, maliyyə sektoru ekoloji məsuliyyətli fəaliyyətlərə daha strukturlaşdırılmış şəkildə yanaşmağa başladı.

İlk mərhələdə yaşıl bankçılıq əsasən Dünya Bankı, UNEP Maliyyə Təşəbbüsü və müxtəlif inkişaf bankları kimi beynəlxalq təşkilatlar tərəfindən təşviq edilirdi. Lakin bu təşəbbüslər adətən könüllü xarakter daşıyır və vahid standartlardan məhrum idi. 2000-ci illər yaşıl bankçılıq üçün dönüş nöqtəsi oldu. 2003-cü

ildə Equator Prinsipləri, 2019-cu ildə UNEP FI tərəfindən hazırlanmış Məsuliyyətli Bankçılıq Prinsipləri və İqlimlə Əlaqədar Maliyyə Məlumatlarının Açıqlanması üzrə İşçi Qrupu (TCFD) kimi çərçivələr bu sahədə mühüm rol oynadı. Banklar ESG (Ətraf Mühit, Sosial və Korporativ İdarəçilik) meyarlarını öz əsas strategiyalarına inteqrasiya etməyə başladılar.

Yaşıl bankçılığın təsiri yalnız maliyyə sektoru ilə məhdudlaşmır. Onun qlobal iqtisadiyyata inteqrasiyası ətraf mühitin qorunması, sosial inklüzivlik və iqtisadi sabitliyə töhfə verir. Yaşıl bankçılıq bərpa olunan enerji, davamlı kənd təsərrüfatı, enerjiyə qənaət edən infrastruktur və təmiz texnologiyalar sahələrinə kapital axınını təmin edir. Ətraf mühitin deqradasiyası, ekstremal hava hadisələri və resurs qıtlığı maliyyə sistemi üçün ciddi risklər yaradır. Yaşıl bankçılıq bu riskləri kredit qiymətləndirmələri, investisiya qərarları və portfelin idarə olunmasında iqlimlə bağlı risklərin nəzərə alınması yolu ilə azaldır. Buna baxmayaraq, yaşıl bankçılığın tam potensialına çatması üçün bir sıra çağırışlar mövcuddur. Ən böyük maneələrdən biri yaşıl maliyyə üzrə ümumi qəbul olunmuş tərif və təsnifatın olmamasıdır. Müxtəlif regionlarda fərqli meyarların tətbiq edilməsi uyğunsuzluqlara və yaşıl yuyulma (greenwashing) riskinə səbəb olur. Beynəlxalq səviyyədə ümumi prinsiplər mövcud olsa da, bir çox ölkədə milli tənzimləmələr geridə qalır. Yaşıl bankçılığın geniş yayılması üçün daha güclü tənzimləyici çərçivələrə, təşviqlərə və dövlət-özəl tərəfdaşlıqlarına ehtiyac var.

Yaşıl bankçılığın inkişafı maliyyə sektorunun ətraf mühitə münasibətində əsaslı dəyişiklik olduğunu göstərir. Artıq periferik bir anlayış deyil ki, maliyyə fəaliyyətlərini davamlı inkişafın ümumi məqsədləri ilə uyğunlaşdırmaq üçün vacib bir vasitəyə çevrilmişdir. Qlobal iqtisadiyyat ətraf mühitin deqradasiyası və

iqtisadi bərabərsizlik kimi ikili çağırışlarla üzləşdiyi bir dövrdə yaşıl bankçılıq transformativ potensialı ilə fərqlənir. Gələcəkdə bu sahənin genişləndirilməsi üçün standartların uyğunlaşdırılması, institusional potensialın artırılması və beynəlxalq əməkdaşlığın gücləndirilməsi əsas prioritetlərdən biri olmalıdır.

### Ədəbiyyat


1. Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı – Maliyyə Təşəbbüsü (UNEP FI). (2019). *Məsuliyyətli Bankçılıq Prinsipləri*.
2. Beynəlxalq Maliyyə Korporasiyası (IFC). (2016). *İnkişaf etməkdə olan bazarlarda iqlim investisiya imkanları: IFC təhlili*. Vaşinqton: Dünya Bankı Qrupu.


## AZƏRBAYCANIN DAVAMLI İNKİŞAF KONSEPSİYASININ EKOLOJİ ASPEKTLƏRİ


**Aysel Mənsimova**

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: ayselmensi637@gmail.com


Təxminən 200 il əvvəl dünyada elmin inkişafı, enerji və resursların istehlakının artması, Yer kürəsinin əhalisinin kəskin artması ilə müşayiət olunan sürətli sənaye inkişafı dövrü başlandı. Nəticədə təbii ehtiyatların sənaye fəaliyyətinin genişləndirilməsinə cəlb edilməsinin miqyası xeyli artmışdır. XX əsrdə cəmiyyətin sosial-iqtisadi inkişafı iqtisadi artımın sürətli templərinə yönəlmişdi. Bütün bunlar biosferin pisləşməsinə gətirib çıxardı və ekoloji böhranla nəticələndi. Lakin bəşəriyyət tədricən təbii amilləri nəzərə almadan sənayenin inkişafının ciddi

ekoloji problemlərə səbəb olduğunu dərk edir. Mövcud qlobal ekoloji böhran göstərir ki, bəşəriyyətin mövcudluğunun davamlı olması mümkünlüyü insanın təbiətə təsir dərəcəsindən, ona qarşı məsuliyyət dərk etməsindən və onun qanunlarına uyğunlaşmasından asılıdır. Davamlı inkişaf konsepsiyasının meydana gəlməsi həmin dövrdə baş verən proseslərin məntiqi davamı oldu. Davamlı inkişaf ekoloji və iqtisadi problemlərin həlli yoludur. Davamlı inkişafa keçidin məqsədi indiki və gələcək nəsillərin ehtiyaclarını ödəmək üçün əlverişli təbii mühiti və təbii resurs potensialını qoruyub saxlamaqla sosial-iqtisadi prob-lemlərin tarazlı həllindən ibarətdir.

2015-ci ildə BMT Baş Assambleyası tərəfindən hazırlanmış Dayanıqlı İnkişaf Məqsədləri (DİM) Baş Assambleyanın qətnaməsində "daha yaxşı və daha davamlı gələcəyə nail olmaq" üçün 2030-cu il gündəliyi adlandırılıb. Baş Assambleyanın "Dünyamızın transformasiyası: Dayanıqlı İnkişaf üçün 2030 Gündəliyi" adlı bu sənəddə 17 qlobal məqsəd və 169 müvafiq hədəf var. Bu məqsədlər Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2 fevral 2021-ci il tarixli "Azərbaycan 2030: sosial-iqtisadi inkişafın milli prioritetləri haqqında" Sərəncamında öz əksini tapıb. Həmin sənəddə beşinci prioritet olaraq Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi öz əksini tapmışdır. Bu prioritet uyğun olaraq aşağıdakı iki məqsədin reallaşdırılmasını nəzərdə tutmuşdur: yüksək keyfiyyətli ekoloji mühit; yaşıl enerji məkanı.

Yüksək keyfiyyətli ekoloji mühit məqsədinə nail olunması üçün iqtisadi artımla ekoloji mühit tarazlı olmalıdır. Ətraf mühitin çirklənməsinin minimuma endirilməsi və mühafizəsinin təkmilləşdirilməsi Azərbaycanın ekoloji siyasətinin əsas istiqamətləridir.

Bu baxımdan təbii sərvətlərin mühafizəsi və səmərəli istifadəsi; iqlim dəyişikliyi ilə mübarizə; ətraf mühitin çirklənməsinin azaldılması; biomüxtəlifliyin qorunması; ətraf mühitin idarə olunmasında şəffaflıq və ictimai iştirakı istiqamətində Azərbaycanda balanslaşdırılmış siyasət aparılır.

### Ədəbiyyat


1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Bakı, 2021
2. Ələkbərov U.K. Davamlı inkişaf və ekoloji sivilizasiyanın idarə edilməsinin əsasları. Ali məktəblər üçün dərslik. Bakı, «Təhsil», 2017, 176 s.
3. http://eco.gov.az/az/ekoloji-siyaset/azerbaycan-respublikasinin-ekoloji-siyaseti


## MİLLİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASININ KONSTİTUSİON ƏSASLARI


**Aysel Mikayılova**

*Azərbaycan Respublikasının Prezidenti yanında*

*Dövlət İdarəçilik Akademiyası*

ayselmikail8@gmail.com



***Açar sözlər:*** Konstitusiya, milli təhlükəsizlik, hüquqi baza, ərazi bütövlüyü, suverenlik, insan hüquqları.


Azərbaycan Respublikasının milli təhlükəsizliyi dövlətin müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü və konstitusiya quruluşunu qorumağa yönəlmiş sistemli tədbirlər toplusudur. Bu anlayışın hüquqi bazasının formalaşmasında Azərbaycan Respublikasının Konstitusiyası mühüm rol oynayır. Konstitusiyanın müddəaları milli təhlükəsizliyin əsas hüquqi dayaqlarını

müəyyənləşdirərək, dövlət orqanlarının və vətəndaşların bu sahədə hüquq və vəzifələrini təsbit edir. 1995-ci ildə qəbul edilmiş və 2002, 2009, 2016, 2022-ci illərdə dəyişikliklər edilmiş Azərbaycan Respublikasının Konstitusiyası milli təhlükəsizlik məsələlərinə birbaşa və dolayı yollarla toxunur. Konstitusiyanın 1-ci maddəsi dövlətin müstəqilliyini və demokratik quruluşunu təsbit edərək milli təhlükəsizliyin hüquqi əsasını formalaşdırır. Konstitusiyanın 11-ci maddəsi Azərbaycanın ərazi bütövlüyünün toxunulmazlığını və dövlət suverenliyinin təmin edilməsini əsas prinsip kimi müəyyən edir. Bu müddəa milli təhlükəsizliyin hüquqi və siyasi əsaslarını təmin edir. Konstitusiyanın 109-cu maddəsində Prezidentin silahlı qüvvələrin ali baş komandanı kimi funksiyası və milli təhlükəsizliyi təmin etmək səlahiyyəti qeyd olunur. Həmçinin, 121-ci maddədə dövlət təhlükəsizliyi və xüsusi xidmət orqanlarının formalaşdırılması və tənzimlənməsi göstərilir. Konstitusiyanın 112–113-cü maddələri milli təhlükəsizliyin təmin olunması üçün fövqəladə və hərbi vəziyyət rejimlərinin tətbiqi hüquqi mexanizmlərini ehtiva edir. Konstitusiyanın II fəsli insan hüquqlarının müdafiəsini təmin etməklə yanaşı, milli təhlükəsizlik maraqlarını da balanslaşdırmağa çalışır. Hüquq və azadlıqların müvəqqəti məhdudlaşdırılması yalnız təhlükəsizlik və ictimai asayişin qorunması məqsədilə mümkündür (məsələn, 71 və 148-ci maddələr). Milli təhlükəsizlik sahəsində konstitusiya əsaslarına uyğun olaraq 2007-ci ildə qəbul edilmiş Milli Təhlükəsizlik Konsepsiyası, "Azərbaycan Respublikasının milli təhlükəsizliyi haqqında" qanun və digər normativ aktlar fəaliyyət göstərir. Azərbaycan Respublikasının Konstitusiyası milli təhlükəsizliyin təmin olunmasının hüquqi bazasını formalaşdıran fundamental sənəddir. Onun müddəaları həm dövlət orqanlarının, həm də cəmiyyətin bu sahədə fəaliyyətinin əsaslarını müəyyənləşdirir.

Konstitusiyanın 30 illiyi münasibətilə qeyd etmək olar ki, o, dövlətin təhlükəsizliyi sahəsindəki çağırışlara uyğun adaptasiya oluna bilən və hüquqi sabitliyi təmin edən sənəd kimi öz funksionallığını qorumaqdadır.

Qlobal və regional miqyasda baş verən proseslər — informasiya texnologiyalarının inkişafı, kibertəhlükəsizlik riskləri, enerji və ekoloji təhlükəsizlik, transmilli terrorizm və hibrid müharibə formaları milli təhlükəsizlik anlayışının təkcə hərbi aspektlərlə məhdudlaşmadığını göstərir. Bu səbəbdən, Konstitusiyada təhlükəsizlik məsələlərinə yanaşmanın genişlənməsi aktualdır. Azərbaycan Respublikasının Konstitusiyası dinamik və dəyişən təhlükəsizlik çağırışlarına cavab verə biləcək hüquqi çevikliyə malikdir. Ancaq yeni reallıqlar fonunda bəzi anlayışların (məsələn, kibertəhlükəsizlik, informasiya suverenliyi, strateji infrastrukturun qorunması və s.) ayrıca hüquqi müstəvidə nəzərdən keçirilməsi zəruridir. Konstitusiyanın bəzi müddəalarında dəqiqləşdirmələrin edilməsi: Kibertəhlükəsizlik və informasiya mühiti ilə bağlı ayrıca maddələrin əlavə olunması müzakirəyə açıqdır. Milli Təhlükəsizlik Şurasının statusunun gücləndirilməsi: Bu qurumun hüquqi statusunun və səlahiyyətlərinin daha dəqiq tənzimlənməsi, konstitusion əsasının müəyyən olunması məqsədəuyğun ola bilər. Cəmiyyətin təhlükəsizlik siyasətində iştirakının artırılması: Vətəndaş cəmiyyətinin və media institutlarının milli təhlükəsizlik məsələlərində maarifləndirici və nəzarətçi rolunun artırılması demokratik legitimliyin əsas şərtidir. 44 günlük Vətən müharibəsindən sonra regionda yaranmış yeni geosiyasi vəziyyət milli təhlükəsizlik anlayışına da yenidən baxılmasını tələb edir. Ərazi bütövlüyü təmin olunduqdan sonra post-münaqişə dövrünün çağırışlarına uyğun təhlükəsizlik konsepsiyası hazırlanmalı və bu sahədə hüquqi baza təkmilləşdirilməlidir.

Azərbaycan Respublikasının Konstitusiyası milli təhlükəsizliyin hüquqi əsaslarının müəyyənləşdirilməsi baxımından strateji əhəmiyyət daşıyır. 30 illik konstitusion inkişaf prosesi göstərir ki, bu sənəd ölkənin müstəqilliyi və sabitliyi naminə hüquqi əsasların formalaşdırılmasında mühüm rol oynayıb. Lakin müasir dövrün çağırışları yeni hüquqi və institusional yanaşmalar tələb edir. Bu baxımdan, Konstitusiyanın adaptiv imkanlarının araşdırılması, milli təhlükəsizlik anlayışının genişləndirilməsi və müasir çağırışlara uyğunlaşdırılması gələcək üçün vacib prioritetlərdəndir.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının Konstitusiyası
2. Milli Təhlükəsizlik haqqında Qanun
3. Milli Təhlükəsizlik Konsepsiyası
4. "Milli Təhlükəsizlik haqqında" Qanun (2004):
5. Milli Təhlükəsizlik Konsepsiyası (2007):
6. Ələsgərov, V. (2010). Azərbaycan Respublikasının milli təhlükəsizliyi. Bakı: Qanun Nəşriyyatı.
7. Nuriyev, Ə. (2015). Konstitusiya hüququ. Bakı: Hüquq ədəbiyyatı.
8. Babaoğlu, H. (2012). Milli təhlükəsizlik və hüquqi mexanizmlər. Bakı: Elm və Təhsil.
9. Məmmədzadə, İ. (Red.). (2013). Azərbaycan Respublikasının hüquqi sistemi. Bakı: Nağıl Evi Nəşriyyatı.
10. Dycus, S., Berney, A. R., Banks, W. C., & Raven-Hansen, P. (2016). National Security Law (6th ed.). New York: Wolters Kluwer.
11. Gill, P. (2020). Cybersecurity and National Security: Law, Policy and Practice. London: Routledge.

# DÖVLƏT XİDMƏTİNDƏ ETİK DAVRANIŞ QAYDALARI

**Cabbar Mirzəyev**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: cabbar.mirzeyev.03@gmail.com

**Xülasə**

Dövlət qulluqçularının etik davranış qaydalarına riayət etməsi dövlət xidmətinin effektivliyini, şəffaflığını artırır, korrupsiyanın qarşısını alır, ictimai etimadı gücləndirir və peşəkarlığı yüksəldərək idarəetməni təkmilləşdirir.

***Açar sözlər:*** etik davranış, dövlət qulluğu, şəffaflıq, korrupsiya, ictimai etimad

Dövlət xidmətində etik davranış qaydaları dövlət idarəçiliyinin səmərəliliyini artıran və ictimai etimadı gücləndirən mühüm amillərdən biridir. Dövlət qulluqçularının etik davranışı dedikdə, onların vəzifələrini yerinə yetirərkən əməl etməli olduqları mənəvi prinsiplər və standartlar nəzərdə tutulur. Bu prinsiplərə riayət olunması dövlət idarəetmə sisteminin şəffaflığına, obyektivliyinə və hesabatlılığına birbaşa təsir göstərir.

Peşəkar dövlət qulluğu sistemində etik davranış qaydalarının vacibliyi ilk növbədə dövlət orqanlarının cəmiyyət qarşısında daşıdığı məsuliyyətlə əlaqələndirilir. Dövlət qulluqçularının etik normalara əməl etməsi onların fəaliyyətində korrupsiyanın, vəzifədən sui-istifadənin və digər neqativ halların qarşısının alınması üçün əhəmiyyətli vasitədir. Dövlət qulluqçularının etik davranışları həm vətəndaşların hüquq və

azadlıqlarının qorunmasında, həm də dövlət idarəçiliyinin effektivliyinin artırılmasında mühüm rol oynayır [2, s.45-56].

Azərbaycan Respublikasında dövlət xidmətində etik davranış qaydaları qanunvericilik səviyyəsində tənzimlənmişdir. Azərbaycan Respublikasının "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Qanununa əsasən, dövlət qulluqçularından ədalətlilik, şəffaflıq, qərəzsizlik və obyektivlik kimi prinsiplərə riayət olunması tələb edilir. Bu qanun dövlət qulluqçularının xidməti vəzifələrini yerinə yetirərkən şəxsi maraqların ümumi dövlət maraqları ilə toqquşmasının qarşısını almaq məqsədi daşıyır [1].

Etik davranış qaydalarına uyğunluğun təmin edilməsi üçün dövlət qurumlarında davamlı maarifləndirmə və təlimlərin keçirilməsi böyük əhəmiyyət kəsb edir. Dövlət qulluqçularının etik davranış qaydaları ilə bağlı mütəmadi şəkildə təlimlərə cəlb olunması onların peşəkarlığının artırılmasına və etik dilemmaları düzgün idarə edə bilmələrinə yardımçı olur. Həmçinin etik qaydaların tətbiqi ilə bağlı monitorinq və nəzarət mexanizmlərinin işlək olması dövlət orqanlarının nüfuzunu artırır və ictimai etimadı gücləndirir [3, s.20-34]

Dövlət xidmətində etik davranışın tətbiqi yalnız hüquqi baxımdan deyil, həm də mənəvi baxımdan vacibdir. Dövlət qulluqçularının etik davranışlarının yüksək səviyyədə olması dövlət idarəçiliyinin müsbət imicinin formalaşmasına kömək edir. Bu isə öz növbəsində dövlət qurumlarının vətəndaşlarla qarşılıqlı münasibətlərinin yaxşılaşmasına və idarəetmənin daha effektiv həyata keçirilməsinə səbəb olur.

Sonda qeyd etmək lazımdır ki, dövlət qulluqçularının etik davranış qaydalarına əməl etmələri dövlət idarəçiliyinin mühüm tərkib hissəsidir. Dövlət orqanlarının fəaliyyətinin şəffaflığı və ictimai etimadın artırılması üçün etik qaydaların dövlət

xidmətində tam şəkildə tətbiq olunması və davamlı nəzarət mexanizmlərinin təmin edilməsi vacibdir. Bu istiqamətdə həyata keçirilən tədbirlər həm dövlət qulluqçularının məsuliyyət hissini yüksəldir, həm də dövlət idarəçiliyinin effektivliyini artırır.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Qanunu. (2020). "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Qanun. Bakı: Hüquq nəşriyyatı;
2. Əsgərov, V (2014). *Dövlət qulluğunda etika*. Bakı: BMT-nin İnkişaf Proqramı və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya, səh 45-56;
3. Hacıyeva, G. A. (2020). *Dövlət qulluğu və etika məsələləri* (Magistr dissertasiyası). Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, Azərbaycan, səh 20-34.


# MÜXTƏLİF ÖLKƏLƏRİN MULTİKULTURALİZM SİYASƏTİNİN MÜQAYİSƏLİ TƏHLİLİ


**Fərid Mirzəyev**

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: ferid266@mail.ru


## Xülasə


Məqalə müxtəlif ölkələrin multikulturalizm siyasətlərini müqayisə edir. Multikulturalizm fərqli mədəniyyətlərin birgə yaşamasını və mədəni müxtəlifliyin qorunmasını təşviq edən bir yanaşma olaraq qlobal miqyasda aktuallığını qoruyur. Kanada rəsmi multikulturalizm siyasətini qəbul edən ilk ölkələrdən

biridir və mədəni müxtəlifliyin inkişafına dəstək verir. Avstraliya inklüziv multikulturalizm yanaşması ilə miqrantların inteqrasiyasını dəstəkləyir. Böyük Britaniyada liberal multikulturalizm modeli fərqli mədəni qrupların hüquqlarını tanıyır, lakin bəzən inteqrasiya çətinlikləri ilə üzləşir. Fransa assimilyasiya modelinə üstünlük verir və dövlətin dünyəvi prinsiplərinə əsaslanaraq mədəni təsirləri məhdudlaşdırmağa çalışır. Almaniya isə miqrantların cəmiyyətə inteqrasiyasını təşviq edən proqramlar həyata keçirir. ABŞ "əriyən qazan" modeli ilə fərqli mədəni qrupların vahid Amerikan kimliyinə çevrilməsini hədəfləyir. Məqalə, hər ölkənin multikulturalizm siyasətinin mədəni müxtəlifliyi qorumaq və sosial harmoniya yaratmaq baxımından fərqli yanaşmalar təklif etdiyini vurğulayır.

***Açar sözlər:*** ABŞ, Kanada, Avstraliya, Almaniya, Fransa, Böyük Britaniya, multikulturalizm siyasəti, müqayisəli təhlil.

Multikulturalizm müxtəlif mədəniyyətlərin birgə yaşamasını, qarşılıqlı hörmət əsasında bir-birini qəbul etməsini nəzərdə tutan sosial-siyasi bir fenomen olaraq qlobal miqyasda aktuallığını qorumaqdadır. Həm qədim sivilizasiyaların mədəni irsini qorumaq, həm də müasir dövrdə artan qloballaşma və miqrasiya axınları ilə müxtəlif etnik və dini qrupların bir arada yaşamasını təmin etmək baxımından multikulturalizm, 21-ci əsrin ən əhəmiyyətli konsepsiyalarından birinə çevrilmişdir. Multikulturalizm, latınca “multi” (çox) və “kultura” (mədəniyyət) sözlərinin birləşməsindən yaranaraq, bir cəmiyyətdə müxtəlif mədəniyyətlərin birgə varlığını ifadə edir. Bu konsepsiya etnik, dini, dil və mədəni müxtəlifliyin qorunub saxlanılmasını və inkişaf etdirilməsini hədəfləyir. Multikulturalizm siyasəti, müxtəlif mədəni qrupların bir cəmiyyətdə öz adət-ənənələrini, dəyərlərini və həyat tərzini qorumaqla birlikdə,

həmin cəmiyyətin ümumi qaydalarına və dəyərlərinə uyğun yaşamağa təşviq edir.

Multikulturalizmin əsas prinsipləri arasında inklüzivlik, sosial ədalət, qarşılıqlı hörmət və inteqrasiya kimi dəyərlər yer alır. Bu dəyərlər əsasında formalaşan multikulturalizm siyasəti, cəmiyyətin bütün fərdlərinə bərabər hüquqlar və imkanlar təmin etməklə, hər kəsin mədəni kimliyini sərbəst şəkildə yaşamasına şərait yaradır. Beləliklə, multikulturalizm anlayışı yalnız mədəni müxtəlifliyi qeyd etməkdən ibarət deyil, həm də həmin müxtəlif-liyin sosial və siyasi sistemlərdə tanınmasını və qorunmasını hədəfləyən bir yanaşmadır.

Multikulturalizm dünyanın müxtəlif ölkələrində fərqli modellər əsasında həyata keçirilən sosial və siyasi bir yanaşma olaraq ön plana çıxır. Hər bir ölkənin tarixi, mədəni müxtəlifliyi və siyasi sistemləri nəzərə alındıqda, multikulturalizm anlayışı-nın tətbiqi müxtəlif formalarda təzahür edir.

## Ədəbiyyat


1. Ashcroft, R. T., & Bevir, M. Multiculturalism in contemporary Britain: policy, law and theory. Critical Review of International Social and Political Philosophy, 2018, 21(1), 1–21. https://doi.org/10.1080/13698230.2017.1398443
2. Donnelly, M. J. Discrimination and Multiculturalism in Canada: Exceptional or Incoherent Public Attitudes? American Review of Canadian Studies, 2021, 51(1), 166–188. https://doi.org/10.1080/02722011.2021.1893052
3. Hoon, C. Y. Putting Religion into Multiculturalism: Conceptualising Religious Multiculturalism in Indonesia. Asian Studies Review, 2017, 41(3), 476–493. https://doi.org/10.1080/10357823.2017.1334761

4. Lobo, M. Everyday multiculturalism: catching the bus in Darwin, Australia. Social & Cultural Geography, 2014, 15 (7), 714–729. https://doi.org/10.1080/14649365.2014.916743
5. May, P. French cultural wars: public discourses on multiculturalism in France (1995–2013). Journal of Ethnic and Migration Studies, 2016, 42(8), 1334–1352. https://doi.org/10.1080/1369183X.2015.1093412
6. Phillips, A. Multiculturalism without Culture. Princeton: Princeton University Press, 2009. 215 p

# MALİYYƏ BAZARLARINDA QISA MÜDDƏTLİ PROQNOZLAŞDIRMANIN VƏ QİYMƏT RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ

**Gülnar Mirzəyeva[1], Nərmin Allahyarova[2]**
*[1,2]Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: narmin.allakhyarova@gmail.com

Müasir iqtisadi sistemlərin əsas təməl sütunlarından biri olan maliyyə bazarları, xüsusilə də birjalar həm milli, həm də qlobal iqtisadiyyatların fəaliyyətinə və dayanıqlığına bilavasitə təsir göstərən strateji platformalardır. Bu bazarlarda baş verən ani qiymət dəyişiklikləri isə həm investorlar, həm də iqtisadi qərarvericilər üçün əhəmiyyətli risklər yaradır. Risklərin, xüsusilə qiymət risklərinin idarə olunması və birja göstəricilərinin proqnozlaşdırılması yalnız praktik əhəmiyyət kəsb etmir, eyni zamanda nəzəri baxımdan da dərin və kompleks araşdırma tələb edir.

Qısa müddətli qiymət riskləri, maliyyə bazarlarında alqı-satqı əməliyyatları aparan subyektlərin üzləşdiyi əsas risk kateqoriyalarından biridir. Qiymət risklərini effektiv şəkildə idarə etmək üçün onların təbiətinin və təsnifatının düzgün anlaşılması vacibdir. Bu məqsədlə ilk növbədə maliyyə risklərinin ümumi təsnifatına nəzər salmaq vacibdir. Maliyyə riskləri ümumilikdə bazar riski, kredit riski, faiz dərəcəsi riski, likvidlik riski və əməliyyat riskləri kimi müxtəlif kateqoriyalara ayrılır. Bu təsnifatlar Beynəlxalq Maliyyə Hesabatları Standartları və Basel Komitəsinin tövsiyələri əsasında formalaşmışdır. Bazar riski, qiymət dəyişmələrinin portfellərə təsirini əhatə etdiyindən, birjada proqnozlaşdırma və qiymət risklərinin idarə olunması baxımından əsas diqqət mərkəzində dayanır.

Qısa müddətli bazar risklərinin qiymətləndirilməsi üçün son illərdə ənənəvi statistik modellər və müasir alqoritmik metodlar mühüm yer tutur. Klassik yanaşmalar sırasında Value-at-Risk (VaR) modeli xüsusilə seçilir. Bu model maliyyə risklərinin ölçülməsi üçün geniş şəkildə istifadə olunur. VaR müəyyən qısa bir zaman ərzində və müəyyən bir ehtimal səviyyəsi ilə bir portfelin və ya aktivin baş verə biləcək ən böyük itkisinin ölçülməsini təmin edir. Bu modelin tətbiqi üçün əvvəlcə portfelin və ya aktivin keçmiş dövrlərdəki qiymət dəyişiklikləri və gəlirləri toplanır və tarixi məlumatlar əsasında gəlirlər hesablanır. Bu gəlirlər normalda dağılım göstərə bilər, amma modeldə ən çox istifadə olunan fərziyyə bu gəlirlərin normal paylanmasıdır. Daha sonra gəlirlər üzərində ortalama (μ) və standart sapma (σ) qiymətləri hesablanır, ehtimal səviyyəsinə uyğun olaraq kritik qiymət (Zα) alınır. Sonda isə VaR aşağıdakı formul ilə hesablanır:

$$VaR = \mu - Z\alpha * \sigma$$

Bu model baş verə biləcək maksimal itkiləri təhlil edir, lakin daha böyük risklər və nadir hadisələri əhatə etmir. Əvəzində isə Conditional Value-at-Risk (CVaR) ekstremal hallarda baş verə biləcək itkilərin orta səviyyəsini qiymətləndirməyə imkan verir. Bu modeldə Portfelin tarixi gəlirləri ilə GARCH modeli (volatilliyin zamanla dəyişməsi) qurulur, yeni modeldəki dəyişkənliklər hesablanır ki, bu dəyişkənlik əsasında şokların ən pis hallarda nəticələri qiymətləndirilir. Yekun olaraq isə ehtimal səviyyəsində risk hesablanır. Lakin CVaR modeli də bəzi məhdudiyyətlərlə üzləşir. Məsələn, bu modelin tətbiqi zaman bəzən hesablama çətinlikləri yaranır və məlumatların dəqiqliyi məsələləri ortaya çıxır, çünki CVaR hesablamaları daha mürəkkəb alqoritmalar və daha geniş verilənlər bazası tələb edir.

Bu modellərə əlavə olaraq, son dövrlərdə maşın öyrənməsi metodlarının tətbiqi bazar davranışlarının daha dəqiq və sürətli qiymətləndirilməsi baxımından yeni imkanlar yaratmışdır. Məsələn, Random Forest alqoritmi qeyri-xətti əlaqələri aşkara çıxarmaqla risklərin proqnozlaşdırılmasında uğurla tətbiq olunur. Bura bir neçə qərar ağacının təsadüfi seçilmiş alt dəstlər üzərində öyrədildiyi və nəticələrin birləşdirildiyi bir metoddur. Bu alqoritm, müxtəlif ağacların nəticələrini birləşdirərək son proqnozu əldə edir. Hər bir ağac məlumatın fərqli bir hissəsinə əsaslanır, bu da modelin ümumi etibarlılığını artırır.

Zaman seriyası analizləri maliyyə, iqtisadiyyat və digər sahələrdə müşahidə edilən göstəricilərin zaman daxilində necə dəyişdiyini araşdırmaq və bu dəyişikliklərə əsasən gələcək dəyərləri proqnozlaşdırmaq üçün geniş istifadə olunur. ARIMA (AutoRegressive Integrated Moving Average) və SARIMA (Seasonal Auto-Regressive Integrated Moving Average) modelləri kimi statistik yanaşmalar maliyyə bazarlarında risklərin idarə olunması üçün əvəzsiz alətlərdir. ARIMA modeli

stasionar zaman seriyalarının keçmiş məlumatlarına əsaslanaraq gələcək dəyərləri proqnozlaşdırır. İlk öncə, birjanın qiymətləri stasionar olmalıdır. Yəni, qiymətlərin orta və variasiyası zamanla dəyişməməlidir. Əgər qiymətlər stasionar deyilsə, fərqləndirmə əməliyyatı ilə stasionar hala gətirilir. Daha sonra ARIMA modelinin (p, d, q) parametrləri qurulur: p - özünə bağlılıq dərəcəsi, d - diferensial səviyyəsi, q - hərəkətli orta dərəcəsidir. Bu parametrlər seçildikdən sonra ARIMA modeli birjanın keçmiş qiymətləri əsasında gələcək qiymətləri proqnozlaşdırır.

ARIMA modeli zaman seriyalarının qısa və orta müddətli proqnozlaşdırılmasında üstünlük təşkil etdiyi halda, mövsümi təsirlərin nəzərə alındığı SARIMA modeli isə bazar qiymətlərinin dövri dəyişkənliyini əks etdirir. Bu modeldə ARIMA modelinin parametrləri ilə yanaşı, (P, D, Q) - mövsümi komponentlərin parametrləri, yəni mövsümi özünə bağlılıq, mövsümi fərqləndirmə və mövsümi hərəkətli orta kimi əsas parametlər kimi mövsümi göstəricilər də istifadə olunur. Həmçinin, m - mövsümün uzunluğu parametri dövrilik göstəricisi kimi xüsusi rola malikdir. Yekum olaraq, SARIMA, bazar qiymətlərindəki dövri (mövsümi) dəyişiklikləri nəzərə alaraq daha dəqiq proqnozlar verir. Bu model birja qiymətlərinin təkrarlanan artım və enişlərindəki məntiqi nümunələri əks etdirir.

Bir digər əsas məsələ olan qiymət risklərinin idarə olunmasında istifadə edilən üsullar əsasən üç əsas istiqamətə bölünür: birincisi, risklərin bağlanması üçün törəmə maliyyə alətlərinin tətbiqi (hedging); ikincisi, risklərin yayılması üçün aktivlərin diversifikasiyası və üçüncüsü, risklərin ölçülərək idarə olunması üçün daxili nəzarət və sərhədlərin müəyyən edilməsi. Hedging strategiyalarında fyuçers, opsion və svop alətləri vasitəsilə gələcəkdə baş verə biləcək qiymət dəyişiklikləri indidən öyrənilir və bu yolla risklər minimuma endirilir.

Diversifikasiya isə portfel daxilində fərqli sektorlara və aktiv növlərinə sərmayə yönəltməklə riski yaymağı hədəfləyir. Əlavə olaraq, maliyyə müəssisələri risk limitləri təyin etməklə və risk idarəetmə strategiyalarını standartlaşdırmaqla sistematik nəzarət həyata keçirirlər.

Yuxarıda qeyd olunanlar əsasında demək olar ki, qiymət risklərinin effektiv idarə olunması üçün həm klassik statistik modellərin həm də müasir alqoritmik yanaşmaların sintezinə ehtiyac vardır. Təkcə texniki metodlar deyil, həmçinin institusional və strateji yanaşmalar da bu prosesdə mühüm rol oynayır. Birjada qiymət dəyişikliklərinin proqnozlaşdırılması və risklərin ölçülməsi – yalnız statistik analiz deyil, eyni zamanda iqtisadi təfəkkür, məlumat texnologiyaları və maliyyə biliklərinin inteqrasiyasını tələb edən bir sahədir. Bu baxımdan, aparılmış tədqiqat göstərdi ki, kompleks risk mühitində qərarvermə yalnız çoxistiqamətli yanaşmalarla effektiv ola bilər.

## Ədəbiyyat


1. Alexander, C. (2009). *Market Risk Analysis, Volume I: Quantitative Methods in Finance*. Wiley Finance.
2. Basel Committee on Banking Supervision. (2019). *Minimum capital requirements for market risk*. Bank for International Settlements.
3. Box, G. E. P., Jenkins, G. M., & Reinsel, G. C. (2015). *Time Series Analysis: Forecasting and Control*. Wiley.
4. Brownlee, J. (2017). *Deep Learning for Time Series Forecasting*. Machine Learning Mastery.
5. Fischer, T., & Krauss, C. (2018). Deep learning with long short-term memory networks for financial market predictions. *European Journal of Operational Research*, 270(2), 654-669.

6. Hull, J. (2018). *Options, Futures, and Other Derivatives*. Pearson Education.
7. Hyndman, R. J., & Athanasopoulos, G. (2018). *Forecasting: principles and practice*. 2nd edition, OTexts.
8. Jorion, P. (2007). *Value at Risk: The New Benchmark for Managing Financial Risk*. McGraw-Hill.
9. Zhang, Y., Aggarwal, C., & Qi, G. (2020). Stock price prediction via discovering multi-frequency trading patterns. *Proceedings of the 26th ACM SIGKDD International Conference on Knowledge Discovery & Data Mining*.

## AZƏRBAYCANDA ÜDM-in ƏHALİ XƏRCLƏRİNƏ TƏSİRİNİN TƏHLİLİ

**Gülnar Mirzəyeva[1], Qumru Əsgərova[2]**
*[1,]Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası,*
*[2,]Azərbaycan Dövlət İqtisad Universiteti*
e-mail: gulnar.mirzayeva@gmail.com,
askerovaqumru066@gmail.com

Tədqiqat işində Azərbaycanın Ümumi Daxili Məhsulu (ÜDM) ilə əhali xərcləri arasındakı qarşılıqlı əlaqə empirik və nəzəri əsaslarla təhlil olunur və iqtisadi artımın sosial rifaha təsirini qiymətləndirməsi öyrənilir. Əsas məqsəd ölkədə iqtisadi artımın (ÜDM-in) əhalinin istehlak davranışlarına və yaşayış səviyyəsinə necə təsir etdiyini araşdırmaqdır.

ÜDM ilə əhali xərcləri arasında mövcud olan əlaqə, iqtisadi siyasətin düzgün istiqamətdə formalaşdırılması üçün əhəmiyyətlidir. Əgər ÜDM artarkən əhalinin istehlak səviyyəsi də artırsa, bu, iqtisadi artımın insanların rifahına müsbət təsir etdiyini göstərir. Lakin bəzi hallarda bu göstəricilər arasında

uyğunsuzluqlar müşahidə oluna bilər. Buna görə də bu mövzu həm nəzəri, həm də praktiki baxımdan araşdırılmağa ehtiyac duyur.

Tədqiqatda 2005–2023-cü illəri əhatə edən rəsmi statistik məlumatlar əsasında ÜDM-in artım tempi, inflyasiya göstəriciləri və əhali istehlak xərcləri müqayisəli şəkildə analiz olunur. Eyni zamanda, COVID-19 pandemiyası və dünya enerji bazarındakı neft qiymətlərinin dəyişkənliyi kimi iqtisadi şokların bu münasibətə təsiri ayrıca qiymətləndirilir. Təhlilin nəticələri göstərir ki, ÜDM-də müşahidə olunan artım əhali xərclərinə müsbət təsir etsə də, bu təsirin gücü və davamlılığı inflyasiya, məşğulluq səviyyəsi və gəlir bölgüsü kimi amillərlə sıx bağlıdır. Nəticə olaraq, hökumətin iqtisadi siyasətində makroiqtisadi sabitliyin qorunması və əhalinin real gəlirlərinin artırılması istiqamətində balanslı yanaşmaların vacibliyi vurğulanır.

Tədqiqat metodologiyasında əsasən korrelyasiya və reqressiya analizi üsullarından istifadə olunmuşdur. Eyni zamanda, müqayisəli analiz və qrafik vizualizasiyalardan da istifadə edilmişdir. Məlumatlar əsasən Dövlət Statistika Komitəsinin və beynəlxalq təşkilatların rəsmi göstəriciləri əsasında toplanmışdır.

Tədqiqat nəticəsində məlum olmuşdur ki, ÜDM ilə əhali xərcləri arasında ümumiyyətlə müsbət əlaqə mövcuddur. Lakin bu əlaqənin gücü illər üzrə və iqtisadi vəziyyətə görə dəyişir. Xüsusilə inflyasiya və iqtisadi şoklar, əhali xərclərinin strukturuna və səviyyəsinə təsir göstərərək bu münasibəti zəiflədir. Pandemiya dövrü bu baxımdan xüsusi diqqətə layiqdir, çünki həmin dövrdə əhali gəlirlərində və xərclərində nəzərəçarpacaq dəyişikliklər müşahidə olunmuşdur.

Əsas yenilik ondan ibarətdir ki, Azərbaycanda ÜDM-in əhali xərclərinə təsiri statistik və empirik metodlarla araşdırılmış, xərclərin strukturu ilə ÜDM göstəriciləri arasındakı qarşılıqlı

əlaqə fərqli dövrlər üzrə müqayisəli şəkildə təhlil edilmişdir. Eyni zamanda, struktur dəyişikliklərin təhlili konkret göstəricilər əsasında aparılmış və nəticələr əsasında iqtisadi siyasət üçün faydalı yanaşmalar təklif olunmuşdur.

Əldə olunan nəticələr, dövlətin sosial və iqtisadi siyasətinin formalaşdırılmasında istifadə oluna bilər. Xüsusilə əhalinin rifahını artırmaq və ÜDM artımının sosial göstəricilərə daha güclü təsirini təmin etmək üçün bu cür təhlillər vacibdir.

## Ədəbiyyat


1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. (2023). *Statistik göstəricilər bazası*. Bakı: www.stat.gov.az
2. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. (2023). *İllik iqtisadi icmal*. Bakı.
3. Dünya Bankı. (2023). *World Development Indicators*. https://data.worldbank.org/
4. Beynəlxalq Valyuta Fondu (IMF). (2023). *World Economic Outlook*. https://www.imf.org/
5. Mankiw, N. G. (2020). *Principles of Economics* (9th ed.). Cengage Learning.
6. Krugman, P., & Wells, R. (2018). *Macroeconomics* (5th ed.). Worth Publishers.
7. Samuelson, P. A., & Nordhaus, W. D. (2010). *Economics* (19th ed.). McGraw-Hill Education.
8. Quliyeva, E. (2022). The impact of economic growth on social welfare in Azerbaijan. *İqtisadiyyat və Biznes*, (2), 35–47.
9. Əliyev, S. (2021). The effect of the pandemic on household income and expenditure in Azerbaijan. *İqtisadi Araşdırmalar Mərkəzi*, Analitik icmal, (4).

# HEYDƏR ƏLİYEV VƏ XARİCİ SİYASƏTDƏ AZƏRBAYCAN MODELİ

**Əsgər Muradzadə**
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*
e-mail: esger2003.m@gmail.com

Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra ölkənin qarşısında duran mühüm vəzifələrdən biri milli mənafelərə əsaslanan xarici siyasət vəzifəsinin müəyyən edilərək həyata keçirilməsi idi. Ölkəni düşdüyü ağır vəziyyətdən çıxarmaq üçün səmərəli, praqmatik xarici siyasət kursunun müəyyən edilməsi zərurəti artıq yaranmışdı və bunun üçün gecikmək olmazdı. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev ilk günlərdən Azərbaycanın xarici siyasətini canlandırdı və ölkənin strateji maraqları əsasında yenidən qurdu. Ulu öndər, ilk növbədə keçmiş hakimiyyətin xarici siyasət sahəsində buraxdığı kobud səhvləri və bunun nəticəsində Azərbaycan ətrafında formalaşmış çox gərgin beynəlxalq siyasi vəziyyəti aradan qaldırmaq istiqamətində iş aparmağa, ölkənin strateji maraqlarını region dövlətlərinin və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqları ilə uzlaşdırmağa yönəlmiş siyasət yürütməyə başladı. Müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, Avropa ölkələri və ABŞ-la, yeni müstəqil dövlətlər və Rusiya ilə, türkdilli dövlətlər və Türkiyə, müsəlman dünyası və İranla, nüfuzlu beynəlxalq təşkilatlarla əlaqələrinin yaxın dövr üçün prioritetləri müəyyənləşdirildi və tədricən həyata keçirilməyə başlandı. İlk növbədə, yaxın xariclə münasibətləri qaydaya salmaq, əlaqələri bərpa etmək lazım gəlirdi. Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə daxil olması bu yöndə

atılmış ilk addımlardan biri idi. Bu quruma daxil olan keçmiş Sovet respublikaları ilə ikitərəfli və çoxtərəfli əlaqələrin möhkəmləndirilməsi istiqamətində ardıcıl iş aparıldı. Bu ölkələrlə iqtisadi, ticarət və mədəni əməkdaşlıq məsələlərinə xüsusi önəm verildi. Ulu öndər Heydər Əliyevin Rusiyaya cavab səfəri, Bakı Bəyannaməsinin imzalanması, Xəzərin statusu ilə əlaqədar məsələlərin həlli iki ölkənin müxtəlif səviyyələrdə münasibətlərinə nəzərəçarpacaq tərəqqi və dinamizm gətirmişdir.

Qonşu ölkələrlə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi Azərbaycan Respublikasının xarici siyasətinin yeni mühüm uğuru idi. Azərbaycanın dövlət başçısı Qafqaz bölgəsinin bütün dövlətləri ilə, ilk növbədə Gürcüstanla əlaqələrin genişləndirilməsi və inkişafına, xarici qüvvələr tərəfindən süni olaraq milli münaqişələrin qaynar nöqtəsinə çevrilmiş bu regionda sülhün və əməkdaşlığın təmin olunması məsələlərinə böyük diqqət yetirirdi. Onun Qafqazda sülh və əməkdaşlıq məsələlərinə dair irəli sürdüyü kompleks təkliflər proqramı, Ermənistan istisna olmaqla bütün region dövlətləri, əsasən də Gürcüstan tərəfindən rəğbətlə qarşılanmışdır. Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində Prezident Heydər Əliyevin geniş və çoxşaxəli fəaliyyətinin əsas məzmununu münaqişənin beynəlxalq normalara uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində nizama salınması təşkil edirdi. Münaqişənin həlli istiqamətində ən mühüm addımlardan biri atəşkəsin əldə edilməsi oldu. 1993-cü ilin sonları və 1994-cü ilin əvvəllərində ATƏT-in və digər vasitəçilərin səyləri ilə aparılan danışıqlar nəticəsində 1994-cü ilin mayında Ermənistanla Azərbaycan arasında atəşkəs əldə edildi.

Dünyanın ən qüdrətli ölkəsi ABŞ-la münasibətlərin qurulmasında və daim yüksələn xətlə inkişaf etdirilməsində Heydər Əliyevin xidmətləri misilsizdir. Müstəqil Azərbaycanla

bu ölkə arasında diplomatik münasibətlər 1992-ci ildə yaradılmışdır. Lakin bu, hələ ancaq ilk addım idi. Bu yolla irəliləmək, bir sıra məsələlərə aydınlıq gətirmək, əlaqələri genişləndirmək, etimad, etibar qazanmaq, Azərbaycanı layiqincə təmsil etmək üçün çox iş görmək, böyük diplomatik fəallıq göstərmək tələb olunurdu. Nəhayət, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması bu yolda ən mühüm və ən başlıca amil, Azərbaycanla Qərb arasındakı münasibətlərdə dönüş nöqtəsi oldu.

**Ədəbiyyat**


1. Yusifov M. Milli Lider və müstəqil dövlətçilik. Bakı – 2005
2. Hüseynova M. "Missiya" – Heydər Əliyevin idarəetmə strategiyaları və siyasi irsi
3. https://az.wikipedia.org/wiki/Heyd%C9%99r_%C6%8Fliyev


## HEYDƏR ƏLİYEVİN ERMƏNİ İDDİALARINA QARŞI MÜBARİZƏSİ (1967-1982-Cİ İLLƏR)


**Altay Musayev**

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
*e-mail: musayev.altay@inbox.ru*



***Açar sözlər:*** Heydər Əliyev, Qarabağ, Azərbaycanın ərazi bütövlüyü, sovet rəhbərliyi, ermənilərin ərazi iddiaları, separatist fəaliyyətlər


Görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi fəaliyyətinin başlanğıcı onun gənclik illərinə təsadüf edir. 1923-cü ildə Naxçıvanda anadan olan Heydər Əliyev gənc yaşlarında Sovet İttifaqının Siyasi sisteminə daxil oldu və Azərbaycanın

sosial və mədəni sahələrində mühüm inkişaflara dəstək verən bir şəxsiyyət kimi önə çıxdı [1, s.27-31].

Heydər Əliyevin Azərbaycanın müasir siyasi tarixində rolu xüsusilə 1967-1982-ci illərdə ermənilərin ərazi iddialarına qarşı mübarizəsi ilə yadda qalır. O, həmin dövrdə Azərbaycanın milli maraqlarını qorumağa çalışmış, ermənilərin Qarabağ ilə bağlı iddialarına qarşı möhkəm və ardıcıl siyasət yürütmüşdür [3].

1969-cu il 14 iyul tarixində Ulu Öndər Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçilmiş və 1982-ci ilə qədər Azərbaycan SSR-ə rəhbərlik etmişdir. Həmin dövr ərzində ermənilərin ərazi iddiaları ciddi bir problem olaraq önə çıxmışdı. Ermənilər, Sovet İttifaqının tərkibində olan Azərbaycanın Qarabağ bölgəsində öz "tarixi torpaqlarını" bərpa etməyə çalışırdılar [2, s.14-18].

Heydər Əliyev hakimiyyətə gəlməmişdən əvvəl Ermənistan Azərbaycanla sərhəd əraziləri ələ keçirmək istəyirdi. Erməni dairələri XX əsrin 20-ci illərinin saxtalaşdırılmış xəritələrini təqdim edərək ərazi məsələsini müzakirəyə çıxarmışdılar. SSRİ hökumətinin təzyiqi ilə Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1969-cu il mayın 7-də, 1938-ci ildə qəbul edilmiş 2 min hektardan çox torpağın Ermənistan SSR-ə verilməsi qərarını təsdiqlədi. Lakin Heydər Əliyev həmin il Azərbaycan SSR-in rəhbəri seçilən kimi bu məsələni ön plana çəkdi və bu qərarın icrasını dayandırdı. Azərbaycan xalqının mənafeyini hər şeydən üstün tutan Heydər Əliyev nə qədər təhlükəli olsa da, təzyiqləri rədd edərək prinsipial mövqe göstərdi və erməni millətçilərinin əsassız iddialarının qarşısını qətiyyətlə aldı. Moskvadakı bəzi qüvvələrin və Ermənistan rəhbərlərinin cəhdlərinə baxmayaraq Heydər Əliyev həmin qərarın həyata keçirilməsinə imkan vermədi [3].

Ermənilər öz çirkin niyyətlərindən əl çəkməyərək 1970-ci illərdə Qarabağ məsələsini yenidən gündəmə gətirsələr də, bu

cəhdlərə qarşı ciddi addımlar atılmışdır. 1977-ci ildə Ermənistan SSR rəhbərliyi, erməni millətçilərinin təhriki ilə Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-ə birləşdirilməsi üçün SSRİ mərkəzi hökumətinə müraciət etmişdi. Lakin Heydər Əliyevin tapşırığı ilə elmi arayış hazırlanmış, Azərbaycan KP MK Siyasi Bürosunda müzakirə edilərək Ermənistan SSR rəhbərliyinin iddialarının əsassız olduğu qərara alınmış və bu qərar L. Brejnevə təqdim olunmuşdur. Nəticədə ermənilərin bu niyyəti baş tutmamışdır. Heydər Əliyevin qətiyyəti erməni millətçilərinin məqsədlərinin həyata keçməsinin qarşısını almışdır [4].

Heydər Əliyev 1967-1982-ci illər ərzində ermənilərin ərazi iddialarına qarşı apardığı mübarizə ilə Azərbaycan tarixində silinməz izlər qoymuşdur və həmin dövrdəki siyasi fəaliyyəti ilə Azərbaycanın gələcək müstəqil siyasətinin əsasını qoymuşdur. O Azərbaycanın milli maraqlarını qorumaq üçün həm daxili, həm də beynəlxalq müstəvidə böyük mübarizə aparmış və böyük əzmlə ermənilərin ərazi iddialarına qarşı Azərbaycanın haqqını müdafiə etmişdir. Heydər Əliyevin bu mübarizəsi, həmçinin gənc nəsillərə örnək olmuş, müstəqil Azərbaycanın formalaşmasında əvəzsiz rol oynamışdır [5].

## Ədəbiyyat


1. Y.Mahmudov., Heydər Əliyev (İki cilddə 1-ci cild), Bakı-2013, s. 27-31
2. Z.Muradova., Heydər Əliyev və Qarabağ, Bakı-2023, s. 14-18
3. https://www.anl.az/down/meqale/respublika/2020/iyul/714833.htm
4. https://www.elibrary.az/docs/qazet/qzt2020_15381.pdf
5. http://files.preslib.az/projects/heydaraliyev/articles/he1232.pdf

# AZƏRBAYCANIN İQLİM DƏYİŞMƏLƏRİNİN ƏTRAF MÜHİTƏ TƏSİRİNİN AZALDILMASI SAHƏSİNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ROLU

**Emin Musayev**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: emin.musayev@eco.gov.az

Ölkəmizdə son illərdə ətraf mühitin qoruması sahəsində geniş tədbirlər görülməkdədir. Bu tədbirlərin başlanğıcı və inkişafı Ümummilli Lider Heydər Əliyevin yürütdüyü güclü siyasət nəticəsində həyata keçirilmişdir. Ulu öndər dünya səviyyəsində ətraf mühit məsələlərində Azərbaycanı beynəlxalq mühit quruluşları ilə daha yaxından əlaqələndirmişdir. O, ətraf mühitin qorunması və inkişafı üçün ölkədaxili və beynəlxalq layihələrin təşviqinə və dəstəyinə çox diqqət yetirərək, Azərbaycanın ətraf mühit məsələlərində lider olması üçün zəmin yaratmışdır. Ətraf mühitin qorunması və təbii resursların idarə edilməsi sahəsində Heydər Əliyev dövründə atılan ən böyük addımlardan biri "Milli Təbii Sərvətlərin İnkişafı və Qorunması Konsepsiyası"nın qəbul edilməsi olmuşdur. Bu konsepsiya təbii sərvətlərin qorunması və düzgün idarə edilməsi, ətraf mühitə ziyan verən faktorların azaldılması və s. kimi mühit məsələlərinə dair strateji bir yanaşma təyin etmişdir.

Ümummilli Lider Heydər Əliyev Azərbaycanın müstəqilliyinin bərpasından sonra dövlətin formalaşması, iqtisadi inkişafı, daxili və xarici arenalarında ciddi siyasətlər yürütmüş bir liderdir. O, daxili və xarici təzyiqə qarşı qoruyucu siyasətlər tətbiq etmiş və ölkənin beynəlxalq arenada güclü bir mövqeyə sahib olmasını təmin etmişdir.

Ulu öndər Azərbaycanın iqtisadi inkişafının sürətli və sabit olması üçün ciddi tədbirlər həyata keçirmişdir. Bu, yaşıl iqtisadiyyatın inkişafını təmin etməkdə əsas rol oynamışdır. Sürətli inkişaf ətraf mühitin qorunmasına dəyər verilməsini və bu sahədə tədbirlərin həyata keçirilməsini də təmin etmişdir. Heydər Əliyev dövründə yaşıl iqtisadiyyatın inkişafı dövlətlərarası əlaqələrin gücləndirilməsi, təbii resursların məsuliyyətli istifadəsi, sürətli inkişaf və səmərəli iqtisadiyyat prinsiplərinin tətbiqi ilə mümkün olmuşdur. Bu prinsiplər Azərbaycanın iqtisadiyyatının sürətli inkişafını təmin edərək eyni zamanda ətraf mühitin qorunmasına da diqqət yetirməyə nail olmuşdur.

Ümummilli Lider Heydər Əliyev tərəfindən bir çox tədbirlər və siyasətlər vasitəsilə ətraf mühitin qorunması və sağlamlaşdırılması üçün ciddi addımlar atılmışdır. O, dövlət səviyyəsində ətraf mühitə diqqət yetirən ilk liderlərdən biri olmuşdur. İlk növbədə, o, Azərbaycanın qlobal istiləşmə, meşələrin məhv olmasına, suların çirklənməsinə və s. bu kimi beynəlxalq ekoloji problemlərə qarşı ciddi məsuliyyətə sahib olmağa çağırışlar etmişdir. Heydər Əliyevin icra etdiyi siyasətlər arasında çoxsaylı milli parkların, təbii qoruma ərazilərinin qurulması və inkişafı, ətraf mühitin qorunmasına və təbii resursların effektiv istifadəsinə dair qanunvericilik bazasının formalaşdırılmasını göstərmək olar. Habelə, Ümummilli Lider tərəfindən enerji effektivliyi və təbii resursların qorunması ilə bağlı ciddi proqramlar da həyata keçirilmişdir.

Yuxarıda qeyd olunanlarla yanaşı onu qeyd etmək lazımdır ki, ulu öndərin ətraf mühitin qorunması sahəsində gördüyü işlər bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən layiqli şəkildə davam etdirilir.

**Ədəbiyyat**

1. E.Axundova, Heydər Əliyev. Şəxsiyyət və zaman.1-4-cü cildlər. Bakı "Ozan" 2007-2008.
2. N.Cəfərov Azərbaycan: Heydər Əliyevdən İlham Əliyevə Bakı, 2004.
3. T.Xəlilov, M.Zeynalova "Qlobal ekoloji problemlər", Bakı-MBM, 212 səhifə, 2014.
4. Q.Məmmədov, M.Xəlilov "Ekologiya, ətraf mühit və insan", Bakı Elm, 411 səh. 2006.

## DÖVLƏT İDARƏÇİLİYİNDƏ İRİHƏCMLİ MƏLUMATLARDAN İSTİFADƏNİN ASPEKTLƏRİ

**Günel Mustafayeva**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: gunel.mustafayeva@stat.gov.az

Müasir dövrdə informasiya texnologiyalarının sürətli inkişafı nəticəsində dövlət idarə edilməsində yeni yanaşmalara ehtiyac yaranmışdır. Bu yanaşmaların əsasını təşkil edən anlayışlardan biri də sübut əsaslı qərarların qəbulu ilə sıx bağlı olan irihəcmli məlumatlar (Big Data) anlayışıdır. İrihəcmli məlumatlar - yəni müxtəlif mənbələrdən, müxtəlif formatlarda, yüksək intensivliklə toplanan və tezliklə analizə ehtiyacı olan məlumatlar - dövlət orqanları üçün mühüm strateji resursa çevrilmişdir. Bu məlumatlardan düzgün istifadə, idarəetmə proseslərinin çevikləşməsinə, vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin artırılmasına və qərar qəbuletmənin daha elmi əsaslara söykənməsinə şərait yaradır. Bu proses təşkilatlara qabaqcıl analitik üsullar vasitəsilə məlumat əsaslı nəticələr əldə etmək üçün əşyaların interneti (IOT-Internet

Of Things) sensorları, sosial media, maliyyə əməliyyatları və smart cihazlar da daxil olmaqla müxtəlif mənbələrdən əldə edilən eksponent olaraq artan məlumatlardan istifadə etməyə imkan verir. İrihəcmli məlumatlar hər bir təşkilat və struktur vahidi üçün aşağıdakı imkanları yaradır:

- Süni intellekt (AI) və statistik alqoritmləri birləşdirərək proqnozlaşdırıcı modelləşdirmə;
- Məlumatların dərindən araşdırılması və gizli nümunələri aşkar etmək üçün statistik təhlil;
- Fərqli ssenariləri təqlid etmək və potensial nəticələri araşdırmaq üçün təhlil;
- Müxtəlif mənbələrdən alınan strukturlaşdırılmış, yarı strukturlaşdırılmış və strukturlaşdırılmamış məlumatlar daxil olmaqla, müxtəlif məlumat dəstlərinin işlənilməsi.

Ölkəmizdə bu sahədə son illərdə mühüm addımlar atılmışdır. ASAN xidmət, e-hökumət, DOST mərkəzləri, Elektron Hökumət İnkişaf Mərkəzi və "Rəqəmsal Azərbaycan" strategiyası çərçivəsində toplanan məlumatlar dövlətin böyükhəcmli məlumat bazalarını zənginləşdirmiş və onların təhlili üçün ilkin zəmin yaratmışdır. Bu məlumatlar vasitəsilə vətəndaşların xidmətlərə müraciət intensivliyi, sosial ehtiyaclar, regional fərqlər və davranış modelləri analiz olunur. Nəticədə, dövlət xidmətləri daha hədəfli və effektiv formada təqdim edilə bilir.

Lakin böyükhəcmli məlumatlardan istifadə zamanı bir sıra çətinliklər və problemlər də yaranır. Bunların ən önəmlilərindən biri infrastruktur və texnoloji imkanların məhdudluğudur. Eyni zamanda, bu sahədə ixtisaslaşmış kadr çatışmazlığı, məlumat təhlükəsizliyi və şəxsi məlumatların məxfiliyi məsələləri də ciddi nəzərə alınmalıdır. Digər tərəfdən, məlumatların keyfiyyətsizliyi və normativ-hüquqi bazanın natamamlığı da effektiv istifadəyə mane olur. Beynəlxalq təcrübə göstərir ki, Estoniya, Cənubi

Koreya, Sinqapur və ABŞ kimi ölkələr dövlət idarəetməsində Big Data-dan uğurla istifadə edirlər. Məsələn, Estoniyanın tam rəqəmsal idarəetmə modeli bu sahədə ən uğurlu nümunə kimi qeyd edilə bilər.

Mövzu üzrə aşağıdakı təkliflər irəli sürülə bilər:
- Dövlət qurumları arasında məlumat inteqrasiyasını təmin edən irihəcmli məlumatlar üzrə vahid dövlət platformasının yaradılması;
- Süni intellekt və maşın öyrənməsi texnologiyalarının idarəetmədə tətbiqi;
- Regional və sosial fərqlərin nəzərə alınması ilə daha inklüziv data əsaslı idarəetmə modellərinin qurulması;
- Hüquqi çərçivələrin yenilənməsi və məlumatların qorunması üzrə beynəlxalq standartların tətbiqi;
- Kadr hazırlığı sahəsində ali təhsil müəssisələrində məlumat analitikası üzrə ixtisasların genişləndirilməsi;
- Data analitika və süni intellekt üzrə təlim modullarının işlənilməsi və tətbiqi.

Nəticə etibarilə, irihəcmli məlumatlardan istifadə dövlət idarəçiliyində analitik əsaslı, çevik və şəffaf qərarların qəbuluna imkan verir. Bu isə həm dövlətin səmərəliliyini artırır, həm də vətəndaşların rifahına birbaşa təsir göstərir. Azərbaycanın bu sahədə uğurlu təcrübə formalaşdırması üçün həm texnoloji, həm də institusional səviyyədə ardıcıl və məqsədyönlü islahatlar aparılmalıdır.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası, 2025
2. Elektron Hökumət Portalı və Elektron Hökumətin İnkişafı Mərkəzi;

3. OECD: “The Path to Becoming a Data-Driven Public Sector”, 2019;
4. World Bank: “Data for Better Lives”, World Development Report 2021.

## GÖYGÖL RAYONUNUN DAVAMLI İNKİŞAF PERSPEKTİVLƏRİ

**Zaur Mustafayev[1], Elşan Əhmədov[2]**
*[1,2]Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: zaur_ms@mail.ru

**Xülasə**

Tariximizin şərəfli bir dövrü Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi, ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Xalq və dövlət qarşısında əvəzsiz xidmətləri, onun xalqımıza yadigar qoyduğu zəngin irsi, bütün mənalı ömrünü xalqına və Azərbaycan dövlətçiliyinə həsr etməsi Heydər Əliyevi hər şeydən çox sevdiyi vətəninin Ulu Öndəri etmişdir. Heydər Əliyev öz fəaliyyəti ilə Azərbaycanda demokratik cəmiyyətə keçid mexanizmini yaratmış, müstəqil və demokratik cəmiyyət formalaşdırmaq kimi tarixi missiyanı öz üzərinə götürmüşdür. Ulu Öndər güclü dövlət və səmərəli iqtisadiyyat amillərinə əsaslanan konsepsiyası ilə müstəqil Azərbaycanın tarixinə şanlı səhifələr yazmışdır. Ulu Öndər bütün Azərbaycanın olduğu kimi Göygöl rayonun davamlı inkişafının binövrəsini qoymuşdur.

***Açar sözlər:*** Göygöl rayonu, davamlı inkişaf, xidmət, sosial-iqtisadi təminat

Göygöl rayonunun davamlı inkişaf planı, rayonun sosial-iqtisadi inkişaf səviyyəsini yüksəltmək üçün, 2030-cu ilə qədər nail olunması nəzərdə tutulmuş məqsədləri, hədəfləri, fəaliyyətləri, bu fəaliyyətlərin icra müddətini, tələb olunan maliyyə vəsaitlərini, icraya məsul qurumları və hədəf göstəriciləri özündə əks etdirən kompleks plandır. Bu inkişaf planı Avropa İttifaqının Texniki dəstək Layihəsi olan "Yerli və Regional İnkişafa Dəstək Layihəsi (YRİD-SLRD)" çərçivəsində İqtisadiyyat Nazirliyinin tərəfdaşlığı ilə Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin Azərbaycandakı Nümayəndəliyinin iştirakı ilə hazırlanmışdır. Beynəlxalq və yerli ekspertlərin, nazirliklərin və digər dövlət qurumlarının yerli nümayəndəliklərinin, rayon icra hakimyyətinin, bələdiyyələrin, biznes, o cümlədən fermer təşkilatlarının və QHT-lərin nümayəndələrinin birbaşa iştirakı ilə hazırlanmış bu sənəd strateji xarakter daşıyır.

İnkişaf planı Göygöl Rayonunun İcra Hakimiyyəti və İqtisadiyyat Nazirliyi ilə razılaşdırılmaqla aidiyyəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edildikdən sonra icra üçün qəbul edilmişdir. İnkişaf planın başlıca məqsədi ilk öncə 2020-2025-ci illərdə Göygöl rayonunun iqtisadi potensialı gücləndirmək, bu potensialın daha dolğun və səmərəli istifadəsini təmin etməklə rayonun sosial-iqtisadi inkişafını sürətləndirmək və dayanıqlılığını artırmaqdan ibarətdir. Eyni zamanda 2030-cu ilə qədər Göygöl rayonunun davamlı inkişaf planında sosial-iqtisadi inkişafının sürətləndirilməsinə və dayanıqlılığının artırılmasına nail olunması üçün 1 ümumi məqsəd, 1 xüsusi məqsəd, 4 prioritet istiqamət, 12 nəticə (əsas məqsəd) və 55 tədbir müəyyən edilmişdir. Ümumi məqsədə əsasən əhalinin həyat səviyyəsinin yüksəldilməsi daxildir. Xüsusi məqsədə rayonun sosial-iqtisadi

inkişafının sürətləndirilməsi və dayanıqlılığının artırılması daxil edilmişdir.

Prioritet istiqamətlər sırasında effektiv iqtisadi fəaliyyətə nail olunması; infrastrukturun inkişaf etdirilməsi; insan resurslarının inkişaf etdirilməsi; mövcud təbii resurların davamlı istifadəsinin təmin olunması və ətraf mühitin mühafizəsinin gücləndirilməsi dayanır.

Nəticədə kənd təsərrüfatının inkişaf etdirilməsi; turizm sahəsinin inkişaf etdirilməsi; sənaye potensialının gücləndirilməsi; sahibkarlığın inkişaf etdirilməsi; infrastrukturunun yaxşılaşdırılması; təhsil səviyyəsinin yüksəldilməsi; səhiyyə sahəsinin inkişaf etidirilməsi; mədəniyyət xidmətlərinin yaxşılaşdırılması; gənclər və idman sahəsində irəliləyiş əldə edilməsi; gender bərabərsizliyi ilə bağlı müsbət nəticələrin əldə edilməsi; vətəndaş cəmiyyətinin formalaşdırılması; ətraf mühitin qorunmasının təmin edilməsi əsas məqsədlər kimi qarşıya qoyulmuşdur.

### Ədəbiyyat

1. İlham Əliyev Göygöl rayonunda inşa edilən iki tunelin tikintisi ilə tanış olub. https://president.az/az/articles/view/56535
2. Azərbaycan Respublikası Göygöl Rayon İcra Hakimiyyəti http://goygol-ih.gov.az
3. Göygöl dövlət qoruğu / T. O. İbrahimov, A. D. Şabandayeva; elmi red. B. Ə. Budaqov ; Bakı Dövlət Universiteti, AMEA Eroziya və Suvarma Elmi Tədqiqat İnstitutu. - Bakı : Elm və təhsil, 2012. - 184 s. : foto ; 20,5 sm. - Biblioqr.: s. 177-179. - 500 экз.. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası.
4. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2003-2023-cü illər)

5. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti http://sosial.gov.az/
6. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi https://www.economy.gov.az/

## İNFORMASİYA VƏ KOMMUNİKASİYA TEXNOLOGİYALARINDAN İSTİFADƏ ETMƏKLƏ SOSİAL YÖNÜMLÜ SAHƏLƏRİN İNKİŞAF ETDİRİLMƏSİ

**Gülçin Mustafazadə**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: gulcinmustafazada@gmail.com

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlət quruculuğu sahəsində həyata keçirdiyi islahatlar müasir Azərbaycanın hüquqi, sosial və texnoloji əsaslarını formalaşdırmışdır. 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası demokratik, hüquqi və sosial dövlət modelini müəyyən edərək, informasiya cəmiyyətinin bünövrəsini də qoymuşdur. Bu konstitusiya həm də sosial ədalətin təmininə, vətəndaşların hüquqlarının qorunmasına və müasir texnologiyaların dövlət idarəçiliyində tətbiqinə hüquqi zəmin yaratmışdır.

Bu baxımdan, informasiya və kommunikasiya texnologiyalarının (İKT) sosial yönümlü sahələrin inkişafında rolu xüsusilə diqqətəlayiqdir. İKT-nin tətbiqi təhsil, səhiyyə, sosial təminat və məşğulluq kimi sahələrdə xidmətlərin keyfiyyətini artırır,

vətəndaşlara bərabər imkanlar yaradır və dövlət-vətəndaş münasibətlərində şəffaflığı təmin edir.

Heydər Əliyev informasiya və biliklər əsrində yaşayan müasir cəmiyyətin inkişafının əsas amillərindən birinin texnoloji tərəqqi olduğunu öncədən görərək, dövlət idarəçiliyinin müasirləşdirilməsi istiqamətində mühüm addımlar atmışdır. O, informasiya texnologiyalarının cəmiyyətin bütün sahələrinə inteqrasiyasını prioritet sahə kimi müəyyən etmiş və bununla bağlı hüquqi-normativ baza yaradılmasına şərait yaratmışdır.

*Azərbaycanda İKT-nin sosial yönümlü sahələrə tətbiqi:*

*Təhsil sahəsində* Heydər Əliyevin "Təhsil millətin gələcəyidir" kəlamı əsasında formalaşan siyasət bu gün rəqəmsal təhsilin inkişafı ilə davam etdirilir:

- Təhsil Nazirliyi tərəfindən "Rəqəmsal bacarıqlar" layihəsi tətbiq edilir.
- Elektron jurnallar, sinif idarəetmə sistemləri və onlayn dərsliklər təhsildə şəffaflığı artırmışdır.
- "Microsoft Teams", "Zoom" və digər platformalar pandemiya dövründə şagirdlərə təhsildən geri qalmamağa imkan yaratdı.
- Regionlarda yerləşən məktəblər İKT ilə təmin edilərək təhsil bərabərliyi prinsipi gücləndirildi.

*Səhiyyə sahəsində:*

Səhiyyə sahəsində İKT-nin tətbiqi ilə xidmətlərin keyfiyyəti və əlçatanlığı artırılmışdır:

- "Elektron Səhiyyə" sistemləri vasitəsilə vətəndaşların tibbi kartları elektronlaşdırılmışdır.
- Telemedisin texnologiyası sayəsində ucqar bölgələrdə yaşayan insanlar Bakı şəhərindəki mütəxəssislərdən məsafədən tibbi məsləhətlər ala bilirlər.

- E-reseptlər, laboratoriya nəticələrinin elektron sistemlərlə paylaşılması tibbi prosesləri sürətləndirir.

*Sosial təminat* sisteminin rəqəmsallaşması əhalinin sosial hüquqlarından daha sürətli istifadə etməsinə imkan verir:

- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin e-sosial.az portalı ilə vətəndaşlar pensiya, müavinət və digər sosial məlumatlara onlayn çıxış əldə edir.
- Məşğulluq alt sistemi işsiz vətəndaşlara iş təklifləri təqdim edir və məşğulluq imkanlarını artırır.
- Sosial yardım üçün müraciətlər elektronlaşmış, artıq vətəndaşlar növbələrdə gözləmədən internet üzərindən sənəd göndərə bilir.

Azərbaycan Konstitusiyasında təsbit olunmuş əsas prinsiplər – sosial dövlət modeli, informasiya azadlığı, insan hüquqları – ölkədə İKT-nin inkişafı üçün hüquqi baza olmuşdur. Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycanda informasiya texnologiyalarının inkişafı üçün mükəmməl baza yaradılmışdır. Bu strategiya Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və ölkəmiz bu gün regional rəqəmsal lider dövlətlərdən birinə çevrilməkdədir.

**Ədəbiyyat**

1. Əliyev, H. (2004). *Müstəqilliyimiz əbədidir.* Bakı: Azərnəşr.
2. Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014–2020-ci illər üçün Milli Strategiya. (2014).
3. Rzayeva, S. (2022). *Azərbaycanda rəqəmsal transformasiya və sosial rifah siyasəti: Müasir çağırışlar və perspektivlər.* Bakı: Qanun Nəşriyyatı.

# RƏQƏMSAL İDARƏETMƏ VƏ DÖVLƏT STRUKTURLARINDA YENİLİKÇİ YANAŞMALAR

**İlkan Mustafazadə[1], Murtəza Həsənov[2]**
*[1,2]Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: ilkanm6@gmail.com

Bu tezisdə rəqəmsal idarəetmənin konseptual əsasları, dövlət strukturlarında tətbiq olunan yenilikçi yanaşmalar və onların institusional təsirlər şərh edilmişdir.

Son illər qloballaşmanın və texnoloji inqilabın sürətlənməsi dövlət idarəçiliyində köklü dəyişiklikləri zəruri etmişdir. Xüsusilə rəqəmsal texnologiyaların dövlət strukturlarına inteqrasiyası, idarəetmənin səmərəliliyini artırmaq və ictimai xidmətlərin keyfiyyətini yüksəltmək baxımından strateji əhəmiyyət daşıyır. Azərbaycanın bu sahədə qəbul etdiyi normativ sənədlər, xüsusilə 2018-ci il tarixli Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Fərmanı, rəqəmsal idarəetmənin institusional əsaslarını daha da gücləndirməyə yönəlmişdir.

Fərmana əsasən, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin funksional çərçivəsi genişləndirilmiş, rəqəmsal idarəetmə, elektron hökumət və yüksək texnologiyalar sahəsində tənzimləmə və siyasət müəyyənləşdirmə səlahiyyətləri məhz bu quruma həvalə olunmuşdur. Bu dəyişiklik struktur islahatlarının sadəcə formal deyil, eyni zamanda funksional və məzmun baxımından reallaşdığını göstərir.

Yeni yanaşma dövlət orqanlarının operativ qərar qəbuletmə imkanlarını artırmaqla yanaşı, vətəndaş məmnuniyyətinə əsaslanan idarəetmə modelinə keçidi sürətləndirir. Xüsusilə "vahid informasiya məkanının" formalaşdırılması təşəbbüsü dövlət

informasiya sistemləri arasında əlaqələndirmənin effektivliyini artırır.

Dövlət informasiya ehtiyatlarının və sistemlərinin "Hökumət buludu"na (G-Cloud) keçidi məsələsi Fərmanda mərkəzi yer tutur. Bu yanaşma yalnız informasiya sistemlərinin mərkəzləşdirilməsi ilə kifayətlənmir, həm də kibertəhlükəsizliyin və məlumatların bütövlüyünün təminatında əhəmiyyətli rol oynayır. Mərkəzləşdirilmiş bulud infrastrukturu dövlət orqanları arasında məlumat mübadiləsinin səmərəliyini artırmaqla bərabər, xidmətin fasiləsizliyini və davamlılığını təmin edir.

O cümlədən, fərdi məlumatların toplanması, emalı və saxlanması üzrə yeni audit və ekspertiza mexanizmlərinin tətbiqi normativ tənzimləmənin tətbiqetmə səviyyəsində keyfiyyət dəyişikliyinə səbəb olur. Bu, dövlət-vətəndaş münasibətlərində rəqəmsal etimadın əsas dayaqlarından biri kimi çıxış edir.

Yeni Fərmanda dövlət xidmətlərinin yalnız rəqəmsallaşdırılması deyil, həm də proaktiv əsasda təqdim olunması vurğulanır. Burada söhbət vətəndaşın müraciət etmədən əvvəl ehtiyaclarının öncədən təyin olunması və uyğun xidmətlərin avtomatik şəkildə təqdim edilməsindən gedir. Bu yanaşma idarəetmədə qabaqlayıcı funksiya daşıyır və rəqəmsal bürokratiya anlayışının formalaşmasına yol açır.

Eyni zamanda, istifadəçi təcrübəsinin optimallaşdırılması məqsədilə xidmət keyfiyyətinin monitorinqi, istifadəçi davranışlarının analizi və nəticələr əsasında adaptiv siyasətlərin hazırlanması da nəzərdə tutulur. Bu isə dövlət idarəçiliyində data əsaslı qərar qəbuletmə mədəniyyətinin təşviqi baxımından strateji əhəmiyyətə malikdir.

Fərmanda informasiya infrastrukturu üzrə xidmətlərin keyfiyyətinin artırılması və internetə çıxış imkanlarının genişləndirilməsi məsələsi xüsusi vurğulanır. Bu, rəqəmsal bərabərlik

prinsipinə uyğun olaraq regionlararası rəqəmsal uçurumun azaldılmasına yönəlib. Eyni zamanda, bu tədbirlər dövlət xidmətlərindən istifadədə sosial bərabərliyi təşviq edir və rəqəmsal imkanlardan hər kəsin bərabər səviyyədə faydalanmasını təmin etməyə yönəlmişdir.

Rəqəmsal idarəetmənin institusional əsaslarının formalaşdırılması istiqamətində mühüm mərhələlərdən biri də 2021-ci il 27 aprel tarixində qəbul edilmiş 1325 nömrəli Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Fərmanıdır. Bu Fərmanın icrasına dair Nazirlər Kabinetinin qəbul etdiyi Sərəncam, normativ-hüquqi tənzimləmənin praktiki tətbiqinə və inter-institusional əlaqələndirmənin təşkili baxımından xüsusi əhəmiyyət daşıyır. Sərəncamın əsas mahiyyəti, rəqəmsal transformasiyanın hüquqi-institusional çərçivəsinin operativ şəkildə formalaşdırılmasını təmin etmək məqsədi daşıyır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Rəqəmsal transformasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 1325 nömrəli Prezident Fərmanının icrasına dair qəbul etdiyi Sərəncam, rəqəmsal idarəetmənin hüquqi və institusional bazasının formalaşdırılmasında mühüm mərhələ təşkil edir. Bu sənəd normayaratma proseslərinin səmərəliliyini artırmaqla yanaşı, idarəetmədə funksional çevikliyin və hesabatlılığın təmin olunmasına yönəlmişdir. Prosesin çoxmərhələli, koordinasiyalı və hüquqa əsaslanan şəkildə həyata keçirilməsi, rəqəmsal transformasiyanın dayanıqlı və məqsədyönlü şəkildə inkişafına şərait yaradır.

## Ədəbiyyat

1. "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası". Bakı şəhəri, 16 yanvar 2025-ci il

2. Səttar Zamanov, İdarəçilikdə innovativ metodlardan istifadə, Norveç Beynalxalq Elmin İnkişafı Jurnalı, 2024, 10 s.
3. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı https://e-qanun.az/framework/58354
4. Rəqəmsal transformasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 27 aprel tarixli 1325 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı https://e-qanun.az/framework/47489

# AZƏRBAYCANDA GƏNCLƏRİN SİYASİ PARTİYA İŞİNDƏ İŞTİRAKININ TARİXİ-MƏDƏNİ XÜSUSİYYƏTLƏRİNİN TƏHLİLİ

**Aygül Nadirova**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: aygulseyidzade@gmail.com

Azərbaycan gənclərinin siyasi partiya işində iştirakı uzun illər sovet ənənələri ilə həyata keçirilmişdir. SSRİ-də gənclərin siyasi partiya işində iştirakı tarixi-mədəni kontekstdə xüsusi bir inkişaf yolu keçmişdir. Bu iştirak Sovet İttifaqının siyasi sistemindəki ideoloji quruluşla sıx bağlı olmuşdur. 1917-ci ildə Oktyabr İnqilabından sonra Bolşevik Partiyası gəncləri sosialist quruluşunun əsas dayağı kimi görmüş, onları gələcəyin sosialist

vətəndaşları kimi formalaşdırmağa çalışmışdır. Bu çərçivədə gənclərin siyasi fəaliyyəti Kommunist Partiyasının nəzarəti altında xüsusi təşkilatlar vasitəsilə təşkil edilmişdir ki, bunların ən önəmlisi 1918-ci ildə təsis edilən Lenin Kommunist Gənclər İttifaqı (Komsomol) olmuşdur. Komsomol, SSRİ-nin ən böyük gənclər təşkilatı kimi partiyanın ideoloji təsirini gənclərə ötürməkdə mərkəzi rol oynamışdır.

Komsomol gənclərin siyasi işə cəlb olunmasının başlıca vasitəsi idi. Gənclər 14 yaşından başlayaraq Komsomola üzv ola bilərdilər. Burada üzvlər sosialist ideologiyası ilə bağlı nəzəri biliklər əldə edir, kollektiv əmək və ictimai fəaliyyətlərdə iştirak edirdilər. Onlar zavodlarda, kolxozlarda və məktəblərdə təşkil olunan müxtəlif tədbirlərdə fəal rol oynayır, hətta SSRİ-nin əsas siyasi kampaniyalarına qoşulurdular. Gənclərin siyasi maariflənməsi və səfərbərliyi xüsusi təhsil proqramları və təbliğat vasitəsilə həyata keçirilirdi. Partiyanın gənclərə yanaşması ideoloji-siyasi tərbiyənin həyatın hər sahəsinə nüfuz etməsini təmin etmişdir [1].

Gənclərin siyasi partiya işində iştirakı təkcə təbliğatla məhdudlaşmamış, həm də SSRİ-nin iqtisadi və sosial layihələrində geniş şəkildə istifadə edilmişdir. Böyük Vətən Müharibəsi illərində gənclərdən ibarət könüllü dəstələr formalaşdırılmış, müharibədən sonrakı dövrdə isə bərpa işlərində iştirak etmişlər. Gənclərin əmək düşərgələri, pioner düşərgələri və istehsalat briqadaları vasitəsilə iqtisadi layihələrdə iştirakı həm iqtisadi inkişafı təmin edir, həm də sosialist əxlaq və intizamı formalaşdırırdı. Bu, gənclərin SSRİ-nin sosialist dövlət quruluşuna sadiq vətəndaşlar kimi yetişdirilməsi üçün vacib mexanizm idi.

Azərbaycan SSR-də gənclərin siyasi işlərdə iştirakı Leninin ideyalarına əsaslanan siyasi maarifləndirmə və ideoloji tərbiyə ilə

başlamışdır. 1920-ci ildə Azərbaycanın Sovet hakimiyyətinə daxil olmasından sonra Azərbaycan Kommunist Partiyası (AKP) bütün təhsil, mədəniyyət və ictimai həyat sahələrini tam nəzarət altına almışdır. Gənclərin siyasi maarifləndirilməsi məktəblərdən başlayaraq xüsusi dərslər, siyasi görüşlər və təlim proqramları ilə həyata keçirilmişdir. Marksizm-Leninizm prinsipləri gənclərin şüuruna aşılanmış, Azərbaycan tarixi Sovet ideologiyasına uyğun təhrif olunmuş formada tədris edilmişdir [5].

Azərbaycan SSR-də gənclərin siyasi işə cəlb olunması, Sovet ideologiyası çərçivəsində milli kimliyin müəyyən dərəcədə təhrif olunması ilə müşayiət olunmuşdur. Lakin buna baxmayaraq, Azərbaycan ədəbiyyatı, incəsənəti və mədəni irsi Sovet mədəni siyasətinə inteqrasiya edilmiş və "Sosialist realizmi" janrında təbliğ edilmişdir. Bu prosesdə gənclər mədəni tədbirlərdə iştirak edərək həm Sovet ideologiyasını mənimsəmiş, həm də Azərbaycan mədəniyyətini müəyyən dərəcədə yaşatmışlar. Azərbaycan SSR-də gənclərin siyasi partiya işində iştirakı Sovet İttifaqının mərkəzləşdirilmiş ideoloji sisteminə əsaslanan çoxşaxəli bir proses olmuşdur. Gənclər həm siyasi təbliğat aləti, həm də sosialist cəmiyyətinin gələcək qurucuları kimi qəbul edilmişdir. Onların həyatının bütün sahələrinə siyasi nəzarət tətbiq edilmiş, sosialist əxlaq və vətəndaşlıq prinsipləri şüurlarına aşılanmışdır. Beləliklə, Azərbaycan SSR-də gənclərin siyasi iştirakının tarixi-mədəni xüsusiyyətləri, Sovet İttifaqının ideoloji məqsədləri ilə uzlaşdırılmış, sosialist quruluşunun davamlılığını təmin edən genişmiqyaslı siyasi və mədəni proseslərin əsas elementi olmuşdur [2, s.25-38].

Heydər Əliyevin gənclər siyasətində xüsusi diqqət yetirdiyi məsələlərdən biri də milli kimlik və mədəni dəyərlərin qorunması idi. Onun təşəbbüsü ilə həyata keçirilən milli-mədəni tədbirlər gənclər arasında vətənpərvərlik ruhunu gücləndirdi. Azərbaycan

tarixi, ədəbiyyatı və mədəniyyəti haqqında biliklər gənclərin siyasi şüurunda mühüm yer tutdu və onların ictimai-siyasi fəaliyyətini daha mənalı etdi.

1990-cı illərdə Azərbaycanda gənclərin siyasi partiya işində iştirakı mürəkkəb, lakin perspektivli bir inkişaf yolu keçmişdir. Heydər Əliyevin liderliyi altında Azərbaycanın müstəqilliyinin qorunması, siyasi sabitliyin bərpası və dövlət quruculuğu prosesində gənclər siyasi həyatın mühüm iştirakçılarına çevrilmişdir. Onun uzaqgörən siyasəti nəticəsində hüquqi və institusional çərçivələr yaradılmış, gənclər dövlət idarəetməsində və siyasi mübarizədə fəal iştirak etməyə başlamışdır. Bu dövr, Azərbaycanın siyasi tarixində gənclərin siyasi potensialını ortaya qoyduğu və ölkənin gələcəyinə təsir etdiyi mühüm bir mərhələ olmuşdur.Həmçinin gənclərin siyasi partiya işində iştirakını çətinləşdirən bir sıra sosial, siyasi və iqtisadi maneələr mövcud idi. Bu dövr, ölkənin müstəqilliyini yenicə qazandığı, siyasi sistemin qurulmaqda olduğu və ciddi daxili və xarici problemlərlə mübarizə aparıldığı bir vaxt idi. Gənclər bu çətinliklərin təsirini həm şəxsi həyatlarındakı məhdudiyyətlərdə, həm də siyasi proseslərə aktiv qoşulmalarında hiss edirdilər [3].

1990-cı illərin ən böyük çətinliklərindən biri Ermənistanla davam edən Qarabağ müharibəsi idi. Müharibə gənclərin həyatına birbaşa təsir edərək, onların çoxunu hərbi xidmətə səfərbər etdi. Gənclər siyasi partiya işində iştirak etmək əvəzinə cəbhəyə göndərildi, minlərlə gənc həyatını itirdi və ya müharibə qazisinə çevrildi. Müharibə ilə bağlı sosial sarsıntılar və məcburi köçkünlər problemi ölkənin resurslarını tükəndirərək, sosial və iqtisadi həyatı iflic etdi. Bu vəziyyət gənclərin təhsil və ictimai-siyasi fəaliyyətlə məşğul olmasını çətinləşdirdi.

1990-cı illərdə Azərbaycan ağır sosial-iqtisadi böhran içində idi. Ölkənin iqtisadi infrastrukturu SSRİ-nin dağılması ilə

çökmüş, sənaye müəssisələri bağlanmış, dövlət büdcəsi müharibə və sosial problemlərə sərf edilmişdi. Yüksək işsizlik və yoxsulluq səbəbindən gənclərin əksəriyyəti yaşamaq uğrunda mübarizə aparır və siyasi iştirak ikinci dərəcəli məsələ kimi görünürdü. Gənclər arasında emiqrasiya geniş yayılmış, ölkəni tərk edənlər əsasən gənc və əmək qabiliyyətli təbəqələr olmuşdur.

Azərbaycanın hüquqi və institusional sistemi də siyasi partiyaların fəaliyyətini tənzimləməkdə çətinlik çəkirdi. Demokratik idarəetmə prinsiplərinin yenicə qurulmağa başladığı bir vaxtda hüquqi bazanın zəifliyi, siyasi proseslərin natamamlığı və bəzi hallarda qanunvericiliyin tətbiqindəki ədalətsizliklər gənclərin siyasi fəaliyyətini məhdudlaşdırırdı. Siyasi partiyalar arasında kəskin rəqabət və qarşılıqlı ittihamlar gənclərin siyasi məkanda daha aktiv və təsirli iştirakını əngəlləyirdi [4].

### Ədəbiyyat

1. İsrailova, D. SSCB'de çalışma kampları (1930-1960). Ankara: Hacı Bayram Veli Üniversitesi Lisansüstü Eğitim Enstitüsü, 2024. 196 s.
2. Jabarov, J. Cultural Relativism Theory and Azerbaijan Democracy. International Journal of Multiculturalism. Volume 4, Number 1, 2023. 25-38. DOI: 10.30546/2523-4331.2023.4.1.25.
3. Khudayi, A. Azerbaycan tarihinde Ebülfez Elçibey'in yeri. İstanbul: İstanbul Üniversitesi Sosyal Bilimler Enstitüsü, 2020. 106 s.
4. Mammadova, N. Azerbaycan ekonomisinin genel değerlendirilmesi: Haydar Aliyev Dönemi (1993-2003). Kocaeli: Kocaeli Üniversitesi Sosyal Bilimler Enstitüsü, 2020. 192 s.
5. Teğin, E. SSCB'de büyük terör ve Türk dünyasına etkileri. Ankara: Üniversitesi Sosyal Bilimler Enstitüsü, 2022. 344 s.

# ENERJİ TƏHLÜKƏSİZLİYİ VƏ SUVERENLİK: AZƏRBAYCANDA BƏRPA OLUNAN ENERJİ SİYASƏTİNİN KONSTİTUSİON ƏSASLARI

**Arzu Namazova**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: arzu.aleskerova@minenergy.gov.az

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra dövlət suverenliyinin möhkəmləndirilməsi və davamlı iqtisadi tərəqqinin təmin olunması dövlət siyasətinin əsas prioritetləri sırasına daxil edilmişdir. Enerji sektoru bu prosesdə strateji sahə kimi çıxış etmiş və ölkənin iqtisadi müstəqilliyinin təminatçısına çevrilmişdir. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası davamlı inkişafın, o cümlədən enerji təhlükəsizliyinin hüquqi əsaslarını müəyyən etmişdir. Bu konstitusional çərçivə əsasında enerji siyasəti təkcə iqtisadi deyil, həm də milli təhlükəsizlik və suverenlik məsələsi kimi formalaşmışdır.

Konstitusiyanın 14-cü, 15-ci və 16-cı maddələrinə əsasən, ölkəmizin təbii sərvətləri Azərbaycan Respublikasına mənsubdur və dövlət bu sərvətlərin qorunmasını, səmərəli istifadəsini təmin edir. Azərbaycanda iqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir. Eyni zamanda, Konstitusiyanın 39-cu maddəsində hər bir şəxsin sağlam ətraf mühitdə yaşamaq hüququ tanınır. Bu hüquq ətraf mühitin mühafizəsini və enerji siyasətinin iqtisadi faktorlarla yanaşı, ekoloji tələblər də nəzərə alınmaqla həyata keçirilməsini dövlətin konstitusion vəzifəsinə çevirir. Məhz bu kontekstdə bərpa olunan enerji siyasəti - su, günəş, külək,

bioenerji kimi mənbələrin istifadəsi - həm ekoloji tarazlığın qorunmasına, həm də enerji suverenliyinin gücləndirilməsinə xidmət edir. Azərbaycan hökuməti tərəfindən son illərdə qəbul edilən strateji sənədlər, xüsusilə "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" bu konstitusional öhdəliklərin reallaşdırılmasının göstəricisidir. Strategiyaya əsasən, bərpa olunan enerji mənbələrindən istifadə artırılır, enerji səmərəliliyi təmin edilir. İqlim dəyişikliyinə qarşı mübarizə məqsədilə ekoloji təmiz nəqliyyat vasitələrindən və digər yaşıl texnologiyalardan istifadə genişləndirilir. Energetika sahəsində dövlətin maliyyə yükü azaldılır. Elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2026-cı ilədək 24%-ə çatdırılması istiqamətində işlər davam etdirilir. Bu istiqamətdə atılan addımlar qlobal qiymətləndirmələrdə də öz əksini tapıb - Dünya İqtisadi Forumunun hesabatında Azərbaycanın enerji keçidində göstərdiyi irəliləyiş xüsusi qeyd olunub.

Enerji təhlükəsizliyi Azərbaycanın milli təhlükəsizlik sisteminin mühüm komponentidir. Enerji mənbələrinin şaxələndirilməsi, daxili enerji tələbatının bərpa olunan resurslar hesabına diversifikasiyası, enerji ixracında yaşıl enerjinin payının artırılması suverenliyin gücləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır. Bu istiqamətdə görülən tədbirlər Konstitusiyanın müvafiq maddələrində qeyd olunan milli müstəqillik və dövlətçilik prinsipləri ilə birbaşa əlaqəlidir.

"Xəzər-Qara dəniz-Avropa", "Azərbaycan-Mərkəzi Asiya-Avropa", "Azərbaycan-Türkiyə-Avropa" və "Azərbaycan-Gürcüstan-Türkiyə-Bolqarıstan" yaşıl enerji interkonnektor layihələrinin reallaşdırılması istiqamətində görülən işlər, həmçinin ölkəmizdə yaşıl enerji zonalarının yaradılması bərpa olunan enerji siyasətinin yalnız ekoloji deyil, həm də geosiyasi və

iqtisadi müstəqilliyin möhkəmləndirilməsinə yönəldiyini nümayiş etdirir. Ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası ilə Qarabağ və Şərqi Zəngəzurun su ehtiyyatlarından da səmərəli istifadə edilərək bölgənin "təmiz enerji" ilə təchizatı təmin olunmuşdur. Hazırda işğaldan azad edilmiş ərazilərdə tələbat 100% yaşıl enerji hesabına təmin edilir və artıq qalan həcm ölkə enerjis isteminə ötürülür.

Azərbaycan Respublikasında bərpa olunan enerji siyasəti Konstitusiyada təsbit olunan milli suverenlik, enerji təhlükəsizliyi və ətraf mühitin mühafizəsi prinsipləri ilə sıx bağlıdır. Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan hüquqi dövlət və enerji strategiyası bu gün ölkənin yaşıl gələcəyini təmin edən möhkəm təmələ çevrilmişdir. Konstitusiyanın mütərəqqi müddəaları bərpa olunan enerji sektorunun inkişafını təkcə iqtisadi prioritet kimi deyil, həm də milli və hüquqi öhdəlik kimi müəyyən edir. Bu yanaşma cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın enerji suverenliyinin daha da möhkəmlənməsinə xidmət edir və ölkənin müstəqil inkişaf kursunun davamlılığını təmin edir.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Azərbaycan Respublikası Milli Məclisinin rəsmi nəşriyyatı, 1995 (son dəyişikliklərlə).
2. Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası. Bakı: Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 2022.https://president.az
3. Azərbaycan Respublikasının Energetika Nazirliyi. Rəsmi statistika və hesabatlar. https://minenergy.gov.az
4. Dövlət Statistika Komitəsi. "Energetika" statistik göstəriciləri. https://stat.gov.az

5. Dünya İqtisadi Forumu. Energy Transition Index 2023. https://www.weforum.org/reports
6. İlham Əliyev: "Azərbaycan 2050-ci ilədək yaşıl enerji ixracatçısına çevriləcək". Prezident İlham Əliyevin çıxışlarından seçmələr. https://president.az/articles
7. Heydər Əliyev Fondu – rəsmi veb sayt. https://heydar-aliyev-foundation.org

## AZƏRBAYCANOFOBİYA QƏRB DÖVLƏTLƏRİNİN İSLAMOFOBİYA SİYASƏTİNİN TƏRKİB HİSSƏSİ KİMİ

**Bəxtiyar Nəcəfli**
*Azərbaucan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: bakhtiyarnajafli@gmail.com

İslamofobiyanın Qərb dövlətlərinin xarici siyasətlərindəki təzahürlərindən ilk növbədə müsəlman dövlətlərinin maraqlarının nəzərə alınmamasını, onlara münasibətdə ikili standartlar siyasətinin aparılmasını göstərmək olar. Qərb dövlətləri islamofobiya siyasətini ilk növbədə müstəqil siyasət yürüdən müsəlman dövlətlərinə münasibətdə aparırlar.

Azərbaycan Respublikası nəinki müsəlman dövlətləri o cümlədən dünya dövlətləri arasında müstəqil siyasət aparan sayılıb seçilən dövlətlərdəndir. 2020-ci ilin sentyabr-noyabr aylarında Ermənistanla 44 günlük müharibə və 2023-cü ilin sentyabr ayında birgünlük antiterror əməliyyatı nəticəsində Azərbaycan Ermənistan tərəfindən işğal olunmuş torpaqlarını tam azad edərək bütün ölkə ərazisində öz dövlət suverenliyini bərpa etdi. Azərbaycanın bu tarixi zəfəri bir neçə Qərb

dövlətlərinin, ilk növbədə Fransa, Almaniya və ABŞ-nin ölkəmizə qarşı düşmənçilik münasibətinin alovlanmasına güclü təkan vermişdir. Bu münasibət Qərb dövlətlərinin islamofobiya siyasətinin konkret forması, tərkib hissəsi olan azərbaycanofobiya siyasətinin göstəricisidir.

Qərb dövlətlərinin azərbaycanofobiya siyasətinin əsas təzahürlərindən biri kimi onların Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibətini göstərmək olar. Bu münasibət öz mahiyyətinə görə qərəzli, qeyri-obyektiv, ikili standartlara əsaslanan, bir sözlə desək, *ermənipərəst* xarakter daşıyır. Bu münasibət özünü 3 dövrdə açıq şəkildə göstərmişdir:

Birincisi, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 28 il davam edən işğal dövründə;

İkincisi, 44 günlük Vətən müharibəsi və 19 sentyabr 2023-cü il tarixli antiterror əməliyyatı zamanı Azərbaycanın öz torpaqlarını azad etdiyi və müstəqilliyini bərpa etdiyi dövrdə;

Üçüncüsü, işğaldan sonrakı dövrdə.

Ermənistan tərəfindən 28 il davam edən işğal dövründə Qərb ölkələri Ermənistanın təcavüzkar siyasətini tənqid edən və işğal olunmuş Azərbaycan torpaqlarını azad edilməsini tələb edən beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş sənədlərə səs verdiklərinə baxmayaraq, bu sənədlərdə əks olunan tələblərin həyata keçirilməsi istiqamətində əməli iş görmürdülər. Onlar Ermənistanı işğal etdikləri torpaqları azad etməsinə real səy göstərmirdilər.  Əksinə onlar ölkəmizin bu qanuni tələblərinin reallaşmasını müxtəlif yollarla əngəlləyirdilər. Məsələn, *ATƏT-in Minsk Qrupu* fəaliyyət göstərdiyi 28 il ərzində Azərbaycanın bu münaqişədə beynəlxalq hüquq baxımından haqlı tərəf olmasına baxmayaraq,  ölkəmizin bu ədalətli, beynəlxalq hüquqa uyğun gələn tələbini, yəni Ermənistan tərəfindən işğal olunmuş torpaqlarının azad olunmasını təmin etməmişdir. Qeyd olunan işğal dövründə ABŞ-nin ermənipərəst mövqeyi digər Qərb ölkələrinin ermənipərəst mövqeyindən daha açıq şəkildə özünü

büruzə verirdi. Belə ki, 1992-ci ilin 24 oktyabrında ABŞ-nin Konqresi erməni lobbisinin təzyiqi nəticəsində keçmiş sovet respublikalarında iqtisadi və siyasi sabitliyin təmin edilməsinə yönələn, ABŞ hökumətinin maddi yardımını nəzərdə tutan *Azadlığa Dəstək Aktına 907-ci düzəlişi* qəbul etdi (4). Bu düzəliş ABŞ-nin Azərbaycan hökumətinə birbaşa dövlət yardımınını qadağan etdi. Səbəb kimi Azərbaycan tərəfindən guya "günahsız" və "köməksiz" Ermənistanın və Dağlıq Qarabağın blokadaya alınması göstərilirdi. Halbuki həmin dövrdə artıq Ermənistan qoşunları Azərbaycanın bir sıra torpaqlarını işğal edərək minlərlə dinc əhalisini qətlə yetirmişdir.

44 günlük Vətən müharibəsi və 19 sentyabr 2023-cü il tarixli antiterror əməliyyatı zamanı Qərb dövlətləri ölkəmizi erməni işğalçılarına qarşı apardığı hərbi əməliyyatdan çəkindirməyə çalışırdılar. Onlar yaxşı bilirdilər ki, Azərbaycanın apardığı müharibə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun aparılır. Azərbaycan bu müharibəni öz doğma torpaqlarının Ermənistanın işğalından azad olunması, ərazi bütövlüyünün təmin edilməsi məqsədilə aparır. Lakin bütün bunlara baxmayaraq Qərb dövlətləri işğal dövründə olduğu kimi 44 günlük Vətən müharibəsi və 19 sentyabr 2023-cü il tarixli antiterror əməliyyatı zamanı da ölkəmizə qarşı ənənəvi qərəzli, qeyri-obyektiv, ikili standartlara əsaslanan siyasətini nümayiş etdirməkdə davam edirdilər.

44 günlük Vətən müharibəsi və 19 sentyabr 2023-cü il tarixli antiterror əməliyyatı nəticəsində Azərbaycanın tarixi ərazilərinin erməni işğalından azad olunmasına, ölkəmizin ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpa olunmasına əksər dövlətlər müsbət yanaşdılar. Çünki Azərbaycanın apardığı müharibə beynəlxalq hüquqa və sosial ədalətə uyğun gəlirdi. Lakin bəzi Qərb dövlətləri, ilk növbədə Fransa və ABŞ Azərbaycanın ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpa olunmasına mütərəqqi beynəlxalq ictimaiyyətin münasibətinə

zidd yanaşma nümayiş etdirdi. Məsələn, qeyd olunan məsələyə görə Azərbaycanı cəzalandırmaq məqsədilə 25 noyabr 2020-ci il tarixində Fransa parlamentinin yuxarı palatası Senat qondarma "Dağlıq Qarabağ"ı tanıyan qətnamə qəbul etdi (3). 2022-ci il 15 noyabr tarixində Fransa Senatı (1), 30 noyabr tarixində isə Fransanın Milli Assambleyası (2) ölkəmizə qarşı yeni qətnamələr qəbul etdi.

Göründüyü kimi, yuxarıda qeyd olunan bu 3 dövr ərzində islamofobiya siyasətini aparan Qərb dövlətləri Azərbaycana münasibətdə qərəzli, qeyri-obyektiv, ikili standartlara əsaslanan mövqe nümayiş etdirərək, Ermənistana isə münasibətdə siyasi, hərbi, iqtisadi, mənəvi dəstək göstərərək ölkəmizin ərazi bütövlüyünün və dövlət suverenliyinin bərpa olunmasının qarşısını almağa çalışırdılar.

## Ədəbiyyat


1. Establishing a lasting peace between Armenia and Azerbaijan. Proposed resolutions. Text No. 19 (2022-2023) adopted by the Senate on November 15, 2022. https://www.senat.fr/leg/tas22-019.html
2. Motion for a resolution, No. 388. 28 octobre 2022. https://www.assemblee-nationale.fr/dyn/16/textes/l16b0388_proposition-resolution?fbclid=IwAR3IE_9YK9-v-qLNT3oyCSSYALCUwObvYyOBd6cS9zion_vYoLvmJ0QKs0Y
3. Nagorno-Karabakh: French Senate passes resolution on recognition.//Caucasus Watch. 26 Nov 2020. https://caucasuswatch.de/en/news/nagorno-karabakh-french-senate-passes-resolution-on-recognition.html
4. U.S Public Law No: 102-511. October 24, 1992.

# MİLLİ BİRLİK VƏ SİYASİ SABİTLİK: HEYDƏR ƏLİYEVİN KONSTİTUSİYA MODELİ

**Sərdar Nəsrullayev**
*Azərbaycan Respublikasının Prezident yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: nesrulayevserdar@gmail.com

Azərbaycan Respublikası 1990-cı illərin əvvəllərində ciddi ictimai-siyasi sarsıntılarla üz-üzə qalmışdı. Sovet imperiyasının dağılması nəticəsində müstəqilliyini bərpa edən Azərbaycan daxili siyasi çəkişmələr, hərbi münaqişələr, iqtisadi tənəzzül və hüquqi anarxiya şəraitində mövcudluğunu qorumağa çalışırdı. Dövlətçiliyin yenidən qurulması, hüquqi sistemin formalaşdırılması, vətəndaş cəmiyyəti institutlarının yaradılması və milli birliyin təmin olunması zəruri vəzifələr kimi qarşıda dayanırdı. Belə bir mürəkkəb tarixi mərhələdə milli birlik və siyasi sabitlik dövlətin mövcudluğu və inkişafı üçün həlledici amilə çevrilmişdi. Məhz bu kontekstdə xalqın təkidli tələbi ilə 1993-cü ildə siyasi hakimiyyətə qayıdan Heydər Əliyevin fəaliyyəti ölkənin gələcək hüquqi və siyasi konturlarının formalaşdırılmasında mühüm rol oynamışdır.

1993–cü ildə Heydər Əliyev qarşıya qoyduğu vəzifələri belə bəyan etmişdi: "Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir".

1993-cü ildən etibarən ölkədə dövlətçiliyin əsasları sistemli şəkildə bərpa edilməyə başlandı. Bu istiqamətdə ən mühüm

addımlardan biri Azərbaycan Respublikasının ilk müstəqil Konstitusiyasının hazırlanması və qəbul olunması idi. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilən bu sənəd hüquqi dövlət quruculuğunun əsasını təşkil etdi.

Konstitusiyada milli birlik və siyasi sabitlik anlayışları birbaşa və dolayı yollarla ifadə olunmuşdur. Sənəddə Azərbaycanın dövlət müstəqilliyi, ərazi bütövlüyü, milli mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların hüquq bərabərliyi təsbit edilmişdir. Bu müddəalar ölkə daxilində həmrəyliyin təmin olunmasına yönəlmiş hüquqi çərçivəni formalaşdırmışdır.

Eyni zamanda, dövlətin ideoloji neytrallığı və bütün dini, etnik və mədəni qrupların hüquqlarının tanınması Azərbaycanda müxtəlifliyə hörmət və qarşılıqlı anlayış mühitini formalaşdırmışdır. Bu da siyasi sabitliyin mühüm amili kimi çıxış etmişdir.

1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası Heydər Əliyevin dövlət quruculuğu strategiyasının mərkəzi elementi olmuşdur. Bu sənəd milli birlik və siyasi sabitliyin təmin olunması üçün hüquqi baza rolunu oynamış, Azərbaycanın müstəqil dövlət kimi inkişafını stimullaşdırmışdır.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının Konstitusiyası (1995). Bakı: Hüquq ədəbiyyatı nəşriyyatı.
2. Əliyev, H. (1996). Müstəqilliyimiz əbədidir. Bakı: Azərnəşr.
3. Əliyev, H. (1997). Azərbaycanın dövlətçilik strategiyası. Bakı: Elm nəşriyyatı.
4. Qasımov, Z. (2010). Müstəqil Azərbaycanda hüquqi dövlət quruculuğu. Bakı: Qanun nəşriyyatı.

# HƏSSAS ƏHALİ QRUPLARI İLƏ İŞİN TƏŞKİLİNDƏ SOSİAL XİDMƏTLƏRİN ROLU (BALAKƏN RAYONU TİMSALINDA)

**Şamil Nuriyev**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: samil.nuri.96@gmail.com

Müasir dövrdə sosial siyasətin mühüm istiqamətlərindən biri həssas əhali qruplarının müdafiəsi və onlarla məqsədyönlü işin təşkilidir. Respublikamızda cəmiyyətin həssas kateqoriyasına aid edilən qruplarının sosial xidmət və təminat hüquqları var: onlara əsasən hər bir vətəndaş müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat almaq hüququna malikdir.

Bu qruplar arasında şəhid ailələri, müharibə iştirakçıları və müharibə əlilləri xüsusi yer tutur. 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsindən sonra bu kateqoriyaya daxil olan insanların sayı təbii olaraq artmış, onların sosial rifahının təmin olunması isə dövlət və ictimai qurumların diqqət mərkəzinə çevrilmişdir.

Azərbaycanın bütün bölgələrində olduğu kimi, Balakən rayonunda da müharibədən təsirlənmiş əhali ilə bağlı sosial işin təşkili aktual məsələlərdəndir. Rəsmi məlumatlara əsasən, Balakən rayonundan Vətən müharibəsində 30 nəfər şəhid olmuş, 38 nəfərə müvafiq əlillik dərəcəsi təyin olunmuş, təxminən 1200 nəfər isə müharibə iştirakçısı kimi qeydiyyata alınmışdır. Bu

statistika rayon səviyyəsində həssas qruplara göstərilən diqqətin zəruriliyini ortaya qoyur.

Bu tezisdə əsas məqsəd Balakən rayonu timsalında şəhid ailələri, müharibə iştirakçıları və müharibə iştirakçıları ilə sosial işin təşkilində sosial xidmətlərin rolunu təhlil etmək, bu xidmətlərin effektivliyini qiymətləndirmək və təkmilləşdirilməsi üçün tövsiyələr irəli sürməkdir.

Təhlillər göstərir ki, Balakən rayonunda şəhid ailələri, müharibə əlilləri və müharibə iştirakçılarına göstərilən sosial xidmətlər müəyyən müsbət nəticələr versə də bu sahədə mövcud olan boşluqların aradan qaldırılması və xidmətlərin daha səmərəli şəkildə təşkili üçün əlavə tədbirlərin görülməsi zəruridir. Bu baxımdan aşağıda qeyd olunan tövsiyələr mövcud vəziyyətin təkmilləşdirilməsinə və sosial xidmətlərin daha təsirli şəkildə həyata keçirilməsinə xidmət edə bilər:

1. Psixososial dəstək xidmətlərinin gücləndirilməsi: Müharibə iştirakçılarının və şəhid ailələrinin psixoloji dəstəyə ehtiyacı nəzərə alınaraq regionda fəaliyyət göstərən psixoloq və sosial işçilərin sayı və onların peşəkarlığı artırılmalıdır. Psixoloji reabilitasiya proqramları həyata keçirilməlidir.

2. Peşə hazırlığı və məşğulluğun təşviqi: Müharibədən qayıtmış şəxslər üçün peşə yönümlü təlimlər təşkil olunmalı, onların məşğulluğu üçün dövlət-özəl sektor əməkdaşlığı qurulmalıdır.

3. Sosial hüquqlar və informasiya resurslarına əlçatanlıq: Həssas qrupların hüquqları barədə məlumatlandırıcı tədbirlər keçirilməli, xidmətlərə çıxış imkanları artırılmalıdır. Elektron hökümət platformaları vasitəsilə müraciət və informasiya alma prosesi sadələşdirilməlidir.

4. İcma əsaslı dəstək mexanizmləri. İcma səviyyəsində könüllü və ictimai təşkilatların iştirakı ilə sosial dəstək layihələri

həyata keçirilməlidir. Sosial həmrəyliyi artırmaq məqsədilə tədbirlər, sosial layihələr təşkil olunmalıdır.

5. Reabilitasiya və tibbi xidmətlərin davamlılığı. Müharibə əlilləri üçün müntəzəm reabilitasiya xidmətləri təşkil olunmalı, həm fiziki, həm də sosial bərpa prosesi paralel aparılmalıdır.

Tədqiqatın nəticələri onu göstərir ki, sosial xidmətlərin effektivliyi sosial işçilərin peşəkar hazırlıq səviyyəsi, xidmətlərin regionda əlçatanlığı və fərdi yanaşmaların tətbiqi ilə sıx bağlıdır. Bu baxımdan, icma əsaslı yanaşmaların genişləndirilməsi, dövlət-özəl sektor əməkdaşlığının gücləndirilməsi strateji əhəmiyyət daşıyır. Eyni zamanda, gələcəkdə bu sahədə aparılacaq araşdırmaların dərinləşdirilməsi, regional xüsusiyyətlərin nəzərə alınması və beynəlxalq təcrübələrin uyğunlaşdırılması sosial xidmətlərin keyfiyyətinin yüksəldilməsinə və həssas əhali qruplarının cəmiyyətə daha dolğun inteqrasiyasına töhfə verə bilər.

## Ədəbiyyat


1. A.D.Zamanov, H.İ.Əliyeva. “Sosial işin əsasları”. Bakı: 2015, “Təhsil işçisi mətbəəsi” MMC.
2. “Sosial xidmət haqqında” Azərbaycan Respublikasının Qanunu (2011).
3. “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının Qanunu (2018).
4. Balakən Rayon İcra Hakimiyyəti. Rəsmi internet səhifəsi: http://balaken-ih.gov.az/az

# AZƏRBAYCAN RESPUBLİKASINDA İNZİBATİ İCRAATIN ANLAYIŞI VƏ MAHİYYƏTİ

**Ülviyyə Orucova**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: ulviyya_orujova@mail.ru

İnzibati icraat dedikdə qüvvədə olan qanunvericiliyə əsasən fiziki və ya hüquqi şəxslərin müraciəti əsasında və ya inzibati orqanların öz təşəbbüsü ilə inzibati aktın qəbul edilməsi, icra olunması, dəyişdirilməsi və ya ləğv edilməsi, habelə inzibati şikayətlərə baxılması üzrə müvafiq inzibati orqanlar tərəfindən "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş prosedur qaydalar daxilində həyata keçirilən fəaliyyət başa düşülür. ("İnzibati icraat haqqında" qanunun 2.0.6-cı maddəsi). İnzibati orqanlara isə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları, onların yerli (struktur) və digər qurumları, bələdiyyələr, habelə qanuna əsasən inzibati akt qəbul etmək səlahiyyəti verilmiş hər hansı fiziki və ya hüquqi şəxslər aiddir. (İnzibati icraat haqqında qanunun 2.0.1-ci maddəsi).

Azərbaycan Respublikasında inzibati icraat müvafiq icra hakimiyyəti orqanları, onların struktur və bölmələrinin, digər qurumların, bələdiyyələrin inzibati aktın qəbul edilməsi, icra olunması, dəyişdirilməsi və ya ləğv edilməsi, habelə inzibati şikayətlərə baxılması üzrə fəaliyyətini tənzimləyən normaları özündə birləşdirən mühüm hüquq sahəsidir və bu fəaliyyətin dövlətin həyata kecirdiyi hüquqi siyasətə müvafiq olaraq

qanunun tələblərinə uyğun həyata keçirilməsi vətəndaşların hüquqlarının qorunması, hüquq pozuntularının qarşısının alınması baxımından vacib əhəmiyyətə malikdir. İnzibati icraatın hüquqi əsasları və həyata keçirilməsi mexanizmləri müvafiq qanunvericiliklə müəyyən olunmuşdur.

Ümumi götürdükdə inzibati icraat, dövlət orqanları və yerli idarəetmə orqanları tərəfindən həyata keçirilən, vətəndaşların hüquq və azadlıqlarını təmin etməyə, sosial-iqtisadi inkişafa şərait yaratmağa və ictimai asayişi qorumağa yönəlmiş fəaliyyətdir. İnzibati icraatın həyata keçirilməsi zamanı hüquq normalarının tətbiqi, idarəetmə orqanlarının, digər inzibati orqanların qərarlarının qəbul edilməsi, nəzarət və qiymətləndirmə prosesi yer alır. Bu icraatın məqsədi, hüquq və azadlıqların düzgün və qanuni şəkildə təmin edilməsini, həmçinin dövlətin ümumi idarəetmə fəaliyyətinin şəffaf və səmərəli aparılmasını təmin etməkdir.

İnzibati icraatın həyata keçirilməsi, dövlətin hüquqi şəxsləri ilə bağlı olan məsələlərin həllinə yönəlir və ümumilikdə iki əsas hissədən ibarət ola bilər: birincisi, inzibati aktların qəbul edilməsi, ikincisi isə bu aktların həyata keçirilməsi üçün zəruri tədbirlərin görülməsi.

İnzibati icraatın mahiyyətini və hüquqi əsaslarını dövlət idarəetmə orqanlarının, digər inzibati orqanların fəaliyyətini nizama salan və hüquqi tənzimləmə həyata keçirən proseslərin həyata keçirilməsi qaydalarını müəyyən edən norma və müddəaların məcmusu təşkil edir. Bu icraat, dövlətin, onun inzibati orqanlarının vətəndaşlar ilə əlaqələrinin tənzimlənməsi, onların hüquqlarının qorunması və ictimai asayişin təmin edilməsi ilə əlaqədar tədbirlərin görülməsini əhatə edir.

Azərbaycan Respublikasının inzibati icraatının hüquqi əsası, müvafiq qanunvericiliyə, o cümlədən İnzibati icraat haqqinda qanuna və digər normativ hüquqi aktlara əsaslanır. Bu normativ hüquqi aktlar inzibati orqanların səlahiyyətlərini müəyyən edir və onların vəzifələrinin icrasına dair qaydaları tənzimləyir.

İnzibati icraatın əsas məqsədi, dövlətin hüquq normalarını yerinə yetirmək, idarəetmə qərarlarını qanuna uyğun qəbul etmək, hüquqların pozulmasının qarşısını almaq və müvafiq tədbirlər görməkdir. Bu icraatın həyata keçirilməsi zamanı qanunların və digər hüquqi sənədlərin təmin olunması prioritetdir.

İnzibati icraat, hüquq sisteminin mühüm bir hissəsidir və hüquq normalarının tətbiqində mühüm rol oynayır. Bu, həm də inzibati orqanların fəaliyyətinin şəffaflığını və vətəndaşların hüquq bərabərliyini təmin etmək baxımından əhəmiyyətlidir.

İnzibati icraatın əhəmiyyətini aşağıdakı məsələlərdə görmək mümkündür:

Hüquqların təmin edilməsi - inzibati icraatın ən əsas məqsədi vətəndaşların hüquqlarını qorumaq və onların hüquqi statuslarını təmin etməkdir. Dövlət orqanları və yerli idarəetmə orqanları, digər inzibati orqanlar fərdi hüquqların pozulmaması üçün qanuni tədbirlər görməlidir. Məsələn, inzibati orqanlar, insanların hüquqlarının pozulması halları ilə bağlı müvafiq qərarlar qəbul etməlidir.

İctimai asayişin qorunması - inzibati icraat vasitəsilə ictimai asayişin qorunması mühüm əhəmiyyət kəsb edir. Şəhərsalma, ətraf mühitin mühafizəsi və ictimai asayişin təmin edilməsi inzibati orqanların fəaliyyətləri ilə bağlıdır. Bu sahədə

qanunların tətbiqi və sosial qaydaların tənzimlənməsi əhəmiyyətlidir.

İqtisadi inkişafın təşviqi - İnzibati icraat həm də iqtisadi inkişafı təşviq edən bir vasitədir. Dövlətin müəyyən etdiyi iqtisadi siyasətlər və bu siyasətlərin həyata keçirilməsi üçün inzibati qərarlar və tədbirlər vacibdir. Məsələn, vergi qanunvericiliyinin tətbiqi, vergi orqanlarının fəaliyyəti və digər iqtisadi məsələlər inzibati icraatın məzmununu təşkil edir.

İnzibati icraatın həyata keçirilməsinin digər bir əhəmiyyətli tərəfi dövlət orqanlarının fəaliyyətində şəffaflığın təmin olunmasıdır. İctimaiyyətin inzibati fəaliyyətlərlə bağlı məlumat alması və dövlət orqanlarının qərarları barədə hesabatlı olmaları qanunun aliliyini təmin edir.

İnzibati icraat dövlətdə idarəetmə fəaliyyətini tənzimləyən mühüm bir fəaliyyətdir. Azərbaycan Respublikasında bu sahənin hüquqi əsasları müvafiq qanunvericiliklə müəyyən olunmuşdur. İnzibati icraatın əsas məqsədi vətəndaşların hüquqlarını təmin etmək, sosial asayişi qorumaq və iqtisadi inkişafı təşviq etməkdir. İnzibati icraatın həyata keçirilməsi ilə əlaqədar qanunvericiliyin tətbiqi və hüquqi müstəvidə qərarların qəbul edilməsi sosial sabitliyi təmin edir və inzibati orqanların fəaliyyətini nizama salır.

## Ədəbiyyat

1. "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının 21 oktyabr 2005-ci il tarixli 1036-IIQ nömrəli Qanunu. https://e-qanun.az/framework/11254.

# RƏQƏMSAL İDARƏETMƏ İNFRASTRUKTURU VƏ DÖVLƏT QULLUĞU SİSTEMİNDƏ İNNOVATİV TEXNOLOGİYALAR

**Əfsanə Rüstəmli**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: rustemliefsane@gmail.com

Rəqəmsal idarəetmə, dövlətin idarəçilik sistemində informasiya və kommunikasiya texnologiyalarının (İKT) tətbiqi ilə idarəetmə proseslərinin avtomatlaşdırılması və səmərəliliyinin artırılması məqsədi daşıyan konsepsiyadır. Bu yanaşma, dövlət orqanlarının fəaliyyəti ilə vətəndaşlar və iş dünyası arasında qarşılıqlı əlaqələrin müasir texnologiyalar vasitəsilə daha şəffaf, çevik və effektiv şəkildə həyata keçirilməsinə xidmət edir. Rəqəmsal idarəetmə infrastrukturu, dövlət idarəçiliyinin modernləşdirilməsində əsas amillərdən biri hesab olunur və bu sahədə tətbiq olunan innovativ texnologiyalar dövlət qulluğu sisteminin təkmilləşdirilməsində mühüm rol oynayır.

Tezisin əsas məqsədi, rəqəmsal idarəetmə infrastrukturunun və innovativ texnologiyaların dövlət qulluğu sisteminə inteqrasiyasını araşdırmaq, bu prosesin səmərəliliyini, şəffaflığını və vətəndaş məmnuniyyətini necə artırdığını təhlil etməkdir. Eyni zamanda, texnoloji transformasiyanın dövlət qulluqçularının fəaliyyətinə təsiri və idarəçilik keyfiyyətlərinin yüksəldilməsi baxımından yaratdığı imkanlar da bu işdə diqqət mərkəzindədir.

Son illər ərzində Azərbaycanda rəqəmsal idarəetmənin inkişafı üçün bir sıra infrastruktur layihələri həyata keçirilmişdir.

Elektron sənəd dövriyyəsi sistemləri, rəqəmsal imza texnologiyası, mərkəzləşdirilmiş məlumat bazaları, bulud əsaslı idarəetmə platformaları və süni intellektə əsaslanan qərarqəbuletmə alətləri bu inkişafın bariz nümunələridir. Bu texnologiyalar dövlət qulluğunda vaxt itkisini minimuma endirir, insan resurslarından daha səmərəli istifadə etməyə şərait yaradır və qərarların qəbulunu daha obyektiv və sürətli edir.

Pandemiya dövründə bu texnologiyaların əhəmiyyəti daha da aydın oldu. Dövlət idarəçiliyində məsafədən iş prinsipi, onlayn xidmət modelləri və rəqəmsal sənəd dövriyyəsi sistemləri idarəetmənin fasiləsizliyini təmin etdi. Dövlət qulluqçuları fiziki ünsiyyət olmadan da vətəndaşlara xidmət göstərə bildilər. Bu isə rəqəmsal idarəetmənin davamlılıq və çeviklik baxımından nə qədər önəmli olduğunu göstərdi.

Gələcəkdə dövlət qulluğu sisteminin daha da təkmilləşdirilməsi üçün rəqəmsal infrastrukturun inkişaf etdirilməsi əsas prioritetlərdən biri olmalıdır. Bu sahədə aparılacaq tədbirlər aşağıdakılardan ibarət ola bilər: dövlət qulluqçularının rəqəmsal bacarıqlarının artırılması üçün davamlı təlim proqramlarının həyata keçirilməsi, idarəetmə sistemlərinə süni intellekt və böyük verilənlər (Big Data) analizinin inteqrasiyası, vətəndaşlara təqdim olunan xidmətlərin fərdiləşdirilməsi üçün rəqəmsal platformaların optimallaşdırılması, dövlət qulluqçuları üçün rəqəmsal performans qiymətləndirmə sistemlərinin qurulması, həmçinin kibertəhlükəsizlik mexanizmlərinin gücləndirilməsi.

Beləliklə, rəqəmsal idarəetmə infrastrukturu və innovativ texnologiyalar dövlət idarəçiliyinin modernləşdirilməsində, şəffaf və çevik xidmət modelinin qurulmasında əsas rol oynayır. Bu istiqamətdə atılacaq hər bir addım, həm dövlət qulluqçularının fəaliyyət səmərəliliyini artıracaq, həm də vətəndaşların dövlət

xidmətlərindən məmnunluğunu yüksəldəcək. Rəqəmsal idarəetmənin inkişafı Azərbaycanın rəqəmsal transformasiyası prosesində mühüm mərhələdir və bu prosesin davamlılığı ölkənin gələcək idarəçilik modelinin əsasını təşkil edəcəkdir.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi – Rəqəmsal hökumət strategiyaları və layihələri.
2. “Elektron dövlət və rəqəmsal idarəetmə”. Azərbaycan Dövlət İqtisad Universitetinin elmi məqalələr toplusu. № 2/2021.
3. BMT-nin Elektron Hökumət İnkişaf İndeksi (EGDI) üzrə illik hesabatları.
4. Dövlət İmtahan Mərkəzi – Dövlət qulluğu sistemində rəqəmsallaşma ilə bağlı statistik göstəricilər və təhlillər.


# ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONUNUN YARADILMASININ STRATEJİ ƏHƏMİYYƏTİ VƏ RESURS POTENSİALI


**Sənan Rüstəmli**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*

e-mail:senan_1694@mail.ru


Azərbaycan Respublikasının strateji əhəmiyyət daşıyan iqtisadi rayonlarının yaradılması və inkişafı, ölkənin sosial-iqtisadi inkişafını gücləndirən, həmçinin regional balansın təmin edilməsi üçün vacib addımlardan biridir. 2021-ci ildə Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması, Azərbaycanın qərb bölgəsinin inkişafını sürətləndirəcək, bu regionda yerləşən təbii sərvətlərin istifadəsini artıracaq və iş yerlərinin açılması ilə sosial

rifahı yaxşılaşdıracaq. Şərqi Zəngəzur, həm coğrafi, həm də iqtisadi baxımdan ölkənin gələcək inkişafında mühüm rol oynayacaq. Bu referat, Şərqi Zəngəzur İqtisadi Rayonunun yaradılmasının strateji əhəmiyyətini və resurs potensialını təhlil edəcək, həmçinin bu regionun ölkə iqtisadiyyatına qatacağı dəyəri araşdıracaqdır.

Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılmasının strateji əhəmiyyəti - Şərqi Zəngəzur İqtisadi Rayonu, Azərbaycanın qərb hissəsində yerləşən və strateji əhəmiyyətə malik bir bölgədir. Bu rayonun yaradılması ilə əlaqədar bir neçə vacib aspektin ortaya çıxdığını qeyd etmək olar:

Coğrafi mühüm mövqe - Şərqi Zəngəzur, Azərbaycan ilə Ermənistan arasında yerləşən sərhəd bölgələrindən biridir. Bu coğrafi mövqeyə görə, rayon ölkənin beynəlxalq ticarət əlaqələrində, xüsusilə də İran, Türkiyə və digər qonşu ölkələrlə iqtisadi münasibətlərdə mühüm rol oynayacaq. Həmçinin, Zəngəzur dəhlizinin yaradılması və bu dəhlizin iqtisadi tranzit potensialının inkişafı, Azərbaycanın regionda geosiyasi mövqeyini gücləndirəcəkdir.

Regional inkişafın təşviqi - Şərqi Zəngəzur İqtisadi Rayonunun yaradılması, Azərbaycanın digər bölgələri ilə müqayisədə bu ərazilərin daha intensiv inkişafını təmin edəcək. Bu rayonun inkişafı, xüsusən də ətraf rayonlarla birlikdə sosial-iqtisadi sabitliyi artıracaq və ölkə üzrə yerli inkişaf fərqlərinin azaldılmasına kömək edəcək. Eyni zamanda, bu regionda işsizlik səviyyəsinin azalması və iqtisadiyyatın güclənməsi gözlənilir.

Ərazi inteqrasiyası və infrastrukturun inkişafı - Şərqi Zəngəzur İqtisadi Rayonunun yaradılması, eyni zamanda, regional inteqrasiyanı və Azərbaycanın ərazisi üzrə infrastrukturun yaxşılaşdırılmasını sürətləndirəcək. Bu rayonun ərazisində yeni yol, dəmir yolu və enerji infrastrukturunun inkişafı, bölgənin

iqtisadiyyatını daha da şaxələndirəcək və əhalinin həyat şəraitini yaxşılaşdıracaq.

Şərqi Zəngəzur iqtisadi rayonunun resurs potensialı - Şərqi Zəngəzur İqtisadi Rayonunun resurs potensialı çoxşaxəlidir və bu, onun iqtisadi inkişafında əhəmiyyətli rol oynayır. Regionda mövcud olan təbii sərvətlər və insan resursları bu ərazinin gələcəkdə ölkə iqtisadiyyatına böyük töhfələr verməsini təmin edəcək.

Mineral resurslar və təbiət sərvətləri - Şərqi Zəngəzur regionunda mineral ehtiyatların və təbii sərvətlərin çox olması, iqtisadiyyatın inkişafı üçün mühüm təkan verir. Rayon ərazisindəki gümüş, mis, dəmir filizi, qızıl və digər qiymətli metalların çıxarılması, yerli sənayenin inkişafına və iqtisadiyyatın şaxələnməsinə böyük töhfə verəcəkdir. Bu ehtiyatların səmərəli istifadəsi, Azərbaycanın iqtisadiyyatına mühüm əlavə dəyər qazandıracaq.

Kənd təsərrüfatı və torpaq resursları - Şərqi Zəngəzur, zəngin kənd təsərrüfatı potensialına malik bir rayondur. Rayonun təbii şəraiti, kənd təsərrüfatı məhsullarının istehsalı üçün əlverişlidir. Ərazidə taxıl, tərəvəz, meyvəçilik və heyvandarlıq sahələrində geniş imkanlar mövcuddur. Bu sahələrin inkişafı ilə bağlı dövlətin dəstəyi, kənd təsərrüfatının güclənməsinə və ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsinə kömək edəcəkdir.

Turizm potensialı - Şərqi Zəngəzur, həmçinin turizm baxımından böyük potensiala malikdir. Regionda yerləşən dağlar, göllər, təbii parklar və tarixi abidələr, turistlər üçün maraqlı məkanlar yaradır. Şərqi Zəngəzurun turizm sektorunun inkişafı, yerli əhali üçün yeni iş yerləri yaratmaqla yanaşı, rayona xarici və daxili investisiyaların cəlb edilməsinə səbəb olacaqdır.

İnsan resursları və iş gücü potensialı - Şərqi Zəngəzur, həmçinin güclü insan resurslarına sahibdir. Rayonun təhsilli və

işə hazır olan gənc əhalisi, sənaye və kənd təsərrüfatı sahələrində iş gücü təmin edəcək və iqtisadi inkişafı sürətləndirəcəkdir. İnsan resurslarının inkişafı ilə bağlı həyata keçiriləcək tədbirlər, əmək bazarının daha da canlanmasına səbəb olacaq.

Şərqi Zəngəzur iqtisadi rayonunun inkişafı üçün istiqamətlər - Şərqi Zəngəzur İqtisadi Rayonunun strateji əhəmiyyətindən maksimum yararlanmaq üçün müəyyən istiqamətlər üzrə inkişaf planları hazırlanmalıdır:

İnfrastrukturun yaxşılaşdırılması - Bu rayonda yol, dəmir yolu, su və enerji infrastrukturunun təkmilləşdirilməsi, regionun inkişafında əsas rol oynayacaq. Zəngəzur dəhlizinin istifadəyə verilməsi ilə bağlı infrastruktur layihələri həm daxili, həm də xarici ticarət əlaqələrinin möhkəmlənməsinə xidmət edəcək.

Sənayenin inkişafı və texnologiyanın tətbiqi - Şərqi Zəngəzurda sənaye sektorunun inkişafı, xüsusilə yerli ehtiyatlardan səmərəli istifadə edilməsi ilə bağlı tədbirlər görülməlidir. Yeni texnologiyaların tətbiqi, ərazidə sənayenin diversifikasiyasına və istehsal potensialının artırılmasına kömək edəcək.

Kənd təsərrüfatının modernləşdirilməsi - Kənd təsərrüfatının inkişafı üçün müasir texnologiyaların tətbiqi, iribuynuzlu maldarlığın və digər aqrar sahələrin səmərəli şəkildə idarə edilməsi vacibdir. Bu, həm daxili tələbatı təmin edəcək, həm də ixrac imkanlarını artıracaq.

Şərqi Zəngəzur İqtisadi Rayonunun yaradılması, Azərbaycanın qərb bölgəsinin inkişafı baxımından böyük strateji əhəmiyyət kəsb edir. Bu rayonun resurs potensialı, onun iqtisadiyyatının şaxələndirilməsi, yeni iş yerlərinin yaradılması və ümumilikdə regional inkişafın sürətləndirilməsi baxımından çox mühüm rol oynayacaqdır. Rayonun təbii sərvətlərindən, kənd təsərrüfatı potensialından və turizm imkanlarından istifadə

edilməsi, Azərbaycanın iqtisadiyyatının diversifikasiyasına və regionların inkişafına müsbət təsir edəcəkdir.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2020). "Şərqi Zəngəzur İqtisadi Rayonunun İnkişafı və Potensialı." Bakı: Dövlət Statistika Komitəsi.
2. Əliyev, R. (2021). "Şərqi Zəngəzurun iqtisadi inkişaf perspektivləri." İqtisadiyyat və İnkişaf Jurnalı, 12(4), 45-60.
3. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. (2021). "Şərqi Zəngəzur İqtisadi Rayonunun İnkişaf Planı." Bakı: İqtisadiyyat Nazirliyi.
4. Hüseynov, F. (2022). "Resurs iqtisadiyyatı və Zəngəzur regionunun iqtisadi potensialı." Kənd Təsərrüfatı və İqtisadiyyat Jurnalı, 14(2), 22-38.
5. Məmmədov, T. (2020). "Zəngəzur dəhlizinin Azərbaycanın iqtisadiyyatına təsiri." Beynəlxalq Ticarət və İqtisadi Əlaqələr, 18(1), 71-84


# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA DEMOKRATİK SİYASİ SİSTEMİN KONSTİTUSİONAL ƏSASLARININ FORMALAŞMASI


**İlkin Rüstəmov**

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: ilkinda66@list.ru


İstənilən dövlətdə siyasi hakimiyyətin həyata keçirilməsi ilə bağlı olan bütün elementlər kompleksini təşkil edən siyasi sistemin əsasları konstitusiya ilə müəyyən olunur. 12 noyabr

1995-ci ildə ümumxalq referendum yolu ilə demokratik inkişaf yolunu tutmuş Azərbaycan Respublikasının ilk konstitusiyasının qəbul edilməsi əlamətdar tarixi hadisə oldu. Konstitusiyamızın qəbul edilməsində müstəsna rolu Ümummilli Lider Heydər Əliyev oynadı. Belə ki Əsas Qanun toplusunun yaradılmasının təşəbbüskarı olan və ona böyük əhəmiyyət verən Ulu Öndər Heydər Əliyev xüsusi dövlət komissiyasının yaradılması barədə qərar qəbul etdi. Eyni zamanda Heydər Əliyev Konstitusiya layihəsini hazırlayan komissiyaya bilavasitə sədrlik etmiş, dəfələrlə layihənin açıq müzakirəsini təşkil etməklə, onun müasir dəyərləri özündə ehtiva edən ən yetkin formada qəbul edilməsini təmin etmək üçün bütün qüvvələri səfərbər etmişdir. Ümummilli liderimiz yeni Konstitusiyamızın son dərəcədə mükəmməl bir sənəd kimi hazırlanmalı olduğunu qeyd edirdi: "Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun".

Konstitusiyanın ilk fəsli Xalq Hakimiyyəti adlanır. Birinci maddəyə əsasən Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Azərbaycan xalqı Azərbaycan Respublikası ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir; bu isə beynəlxalq hüquqla müəyyənləşdirilmiş normaları istisna etmir (maddə 1).

Tarixdə elə şəxsiyyətlər var ki onların dövlət quruluşu sahəsindəki fəaliyyəti və təcrübəsi gələcək nəsillər üçün adətən bir dərsliyə çevrilir. Bu cür şəxsiyyətlərdən biri də məhz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevdir. İndiki Azərbaycan məhz Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik ənənələrinə uyğun olaraq inkişaf edir.

Bu baxımdan Azərbaycan konstitusionalizm tarixi böyük inkişaf yolu keçmişdir. Bu tarixi üç hissəyə bölə bilərik: ADR dövrü(1918-1920), SSRİ dövrü(1920-1991) və müasir dövr(1991-2025). ADR dövrü qısa olsa da, bu dövr konstitusionalizmin ilk təməlləri atılması və konstitusional aktların qəbul edilməsi ilə səciyyələndirilmişdir. Lakin aktların qəbul edilməsinə baxmayaraq, əfsuslar olsun ki, qanunvericiliyin əsasını təşkil edən sənəd qəbulu reallaşmamışdı. Sovet hakimiyyəti dövründə konstitusiya böyük ölçüdə formal xarakter daşımış və xalqımızın hüquqları, azadlığı tapdalanmışdır. Milli azadlığımızın bərpası yolunda minlərlə insan öz canından keçdi, öz qanları ilə müstəqillik dastanını yazdılar.

Keçən əsrin sonlarında SSRİ dağıldıqdan sonra özünün müstəqilliyini bərpa etmiş Azərbaycan üçün də bu məsələ xüsusi əhəmiyyət kəsb edirdi. Səriştəsiz rəhbərliyin ucbatından müstəqilliyinin ilk illərində milli kimliyini, suverenliyini, tarixini itirmək təhlükəsi ilə üzləşən dövlətimiz Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində yenidən milli kimliyini və suverenliyini bərpa etdi. Separatizm, hakimiyyətsizlik və vətandaş müharibəsi təhlükəsinin təsiri altında gənc respublikamız siyasi parçalanmanın bir addımlığında idi. Ölkədə hökm sürən böhranlar və anarxik mühit Heydər Əliyevin hakimiyyətə yenidən qayıtmasını şərtləndirən əsas amil oldu.

Məhz Heydər Əliyevin siyasi fəaliyyəti nəticəsində Azərbaycan Respublikasında demokratik siyasi sistemin formalaşmasının 12 noyabr 1995-ci ildə suveren respublikanın Konstitusiyasının qəbul edilməsi ilə əsasları müəyyən edildi. SSRİ-nin dağılmasından sonra yenidən müstəqillik əldə edən Azərbaycan Respublikasının siyasi sisteminin inkişafında Konstitusiyanın qəbulu təməl elementlərdən biri oldu.

Konstitusiyamızın ikinci fəslinin 7-ci maddəsinin birinci bəndində göstərildiyi kimi Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır(maddə 7). Digər dünyəvi demokratik dövlətlərdə olduğu kimi, Azərbaycan Respublikasında da dövlət hakimiyyəti 3 hakimiyyət qolu arasında bərabər şəkildə bölünür: qanunverici, icra və məhkəmə hakimiyyətləri. Konstitusiyada göstərildiyi kimi dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir:

- qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;
- icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur;
- məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir.

Azərbaycan Respublikasının dövlətçiliyinin əsaslarını qoymuş müstəqil Azərbaycanın ilk Konstitusiyası 5 bölmədən, 12 fəsildən və 158 maddədən ibarətdir. Xalqın rifahının və insan hüquqlarının təmin edilməsi dövlətin qarşısında duran ən ali vəzifələr siyahısındadır. Konstitusiyanın birinci fəslinin 12-ci maddəsində bu barədə ətraflı məlumat verilir. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. Bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir(maddə 12).
Konstutusiyanın ikinci bölməsi Əsas hüquqlar, azadlıqlar və vəzifələr adlanır. Bütövlükdə, maddələrin üçdə biri insan hüquqları və azadlıqlarına həsr olunmuşdur. Konstitusiyamızda vətəndaşların siyasi hüquqlarına geniş yer verilmişdir. Vətəndaşların ən önəmli və təbii hüquqlarından biri də birləşmək

hüququdur. Dövlətin qanunvericiliyi çərçivəsində hər kəs birlik formalaşdıra və yaxud onun tərkibinə daxil ola bilər.

Hər kəsin başqaları ilə birləşmək hüququ vardır. Hər kəs istənilən birlik, o cümlədən siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai birlik yaratmaq və ya mövcud birliyə daxil olmaq hüququna malikdir. Bütün birliklərin sərbəst fəaliyyətinə təminat verilir. Heç kəs hər hansı birliyə daxil olmağa və onun üzvlüyündə qalmağa məcbur edilə bilməz. Azərbaycan Respublikasının bütün ərazisində və ya hər hansı hissəsində qanuni dövlət hakimiyyətini zorla devirmək məqsədi, cinayət hesab edilən digər məqsədlər güdən və ya cinayətkar üsullardan istifadə edən birliklər qadağandır. Konstitusiyanı və qanunları pozan birliklərin fəaliyyətinə yalnız məhkəmə qaydasında xitam verilə bilər(maddə 58).

Demokratik siyasi sistemin ən vacib elementlərindən biri də yerli özünüidarəetmə orqanlarıdır. Yerli özünüidarəetmə orqanları dedikdə, vətəndaşlar tərəfindən səsvermə yolu ilə təşkil edilən dövlət qurumlar nəzərdə tutulur. Onların vəzifəsi vətəndaşların çətinliklərinin həllində dəstəyin göstərilməsi, bir sözlə xalqa xidmətdir. Bu məsələlər konstitusiyanın dördüncü bölməsinin 9-cu fəslinə əsasən tənzimlənir.

12 noyabr 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklər 2002-ci il avqustun 24-də, 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da ölkəmizdə keçirilmiş referendumlar nəticəsində qəbul edilmişdir.

Azərbaycan Respublikasının siyasi sisteminin demokratik inkişafına Ümummilli Liderimizin konstitusiya islahatları yönəlmişdir. Bu islahatlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir.

Konstitusiyamızın maddələrinin dərindən öyrənilməsini tövsiyə edən Ulu Öndərimiz Heydər Əliyev göstərirdi: “Bizim

konstitusiyamız xalqın Konstitusiyasıdır. Bugün ən mühüm vəzifə Konstitusiyanı daha dərindən mənimsəmək və onun verdiyi təminatlardan bəhrələnməkdən ibarətdir".

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2018.
2. Heydər Əliyev: Dövlət xalq üçündür. Bakı, Adiloğlu, 2008. 400 s.
3. Müasir Hüquq Sisteminin formalaşmasında Heydər Əliyevin rolu mövzusunda elmi-praktiki konfransın materialları. Bakı, 2013. 138 s.
4. Ulu Öndər Heydər Əliyev-müstəqil Azərbaycan Konstitusiyasının müəllifi/ https://www.constcourt.gov.az/az
5. Əntiqə Paşayeva, Heydər Əliyev və müstəqil Azərbaycan Konstitusiyası/https://www.azerbaijannews.az/az/posts/detail/heyder-eliyev-ve-musteqil-azerbaycan-konstitusiyasi-1740694010/353946


## BEYLƏQAN RAYONUNDA ƏHALİNİN HƏSSAS QRUPLARI İLƏ İŞİN TƏŞKİLİ


**Kənan Rüstəmov**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*

e-mail: rkenan394@gmail.com


Əhalinin həssas qrupları ilə işin təşkili müasir sosial siyasətin əsas istiqamətlərindən biridir. Azərbaycanda bu məsələyə xüsusi diqqət yetirilir və müxtəlif dövlət proqramları vasitəsilə əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə ardıcıl tədbirlər həyata keçirilir. Beyləqan rayonu da bu sahədə

müsbət təcrübəyə malikdir və region səviyyəsində həyata keçirilən təşəbbüslər əhalinin sosial rifahının artırılmasına yönəlmişdir. Rayonda sosial xidmətlərin təşkili, qeyri-hökumət təşkilatlarının fəaliyyəti və inklüziv məşğulluq təşəbbüsləri çərçivəsində əhalinin həssas təbəqələrinin dəstəklənməsi istiqamətində mühüm addımlar atılır.

Beyləqan rayonunda əhalinin həssas qruplarına əlilliyi olan şəxslər, şəhid ailələri, müharibə veteranları, aztəminatlı ailələr, tənha yaşlılar, sosial təhlükəli vəziyyətdə olan uşaqlar və məişət zorakılığına məruz qalan qadınlar daxildir. Bu kateqoriyalara daxil olan şəxslərin həyat şəraitinin yaxşılaşdırılması məqsədilə dövlət qurumları və qeyri-hökumət təşkilatları birgə fəaliyyət göstərir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyət göstərən Sosial Xidmətlər Agentliyi regionda xüsusi əhəmiyyət daşıyan sosial proqramların icrasını təmin edir. Beyləqanda fəaliyyət göstərən bu qurumlar tərəfindən tibbi, psixoloji, hüquqi və sosial-məişət xidmətləri göstərilir.

Məsələn, əlilliyi olan şəxslərin reabilitasiyası və məşğulluğunun təmin olunması istiqamətində "Əlilliyi olan şəxslərin peşə-əmək reabilitasiyası" layihəsi çərçivəsində rayonda bir sıra tədbirlər həyata keçirilmişdir. Bu proqramlar vasitəsilə əlilliyi olan gənclərə peşə bacarıqları aşılanır, onların əmək bazarına inteqrasiyası dəstəklənir.[4] Bundan əlavə, “Sosial xidmət sahəsində könüllülük” proqramları vasitəsilə gənclərin bu işə cəlb olunması, həm sosial məsuliyyətin aşılanması, həm də ehtiyacı olan şəxslərə dəstək verilməsi məqsədi güdür.

Beyləqan rayon İcra Hakimiyyəti də bu sahədə fəal iştirak edir. İcra strukturu tərəfindən mütəmadi olaraq həssas əhali qrupları ilə görüşlər keçirilir, onların problemləri dinlənilir və yerində həllinə çalışılır. Bayram günlərində tənha yaşlılara, şəhid ailələrinə və aztəminatlı ailələrə yardımlar göstərilir. Bu tədbirlər

həm sosial həmrəylik hissinin güclənməsinə, həm də həmin qrupların sosiallaşmasına təkan verir.[1]

Qeyri-hökumət təşkilatlarının da Beyləqan rayonunda əhalinin həssas qrupları ilə işin təşkilində mühüm rolu vardır. Məsələn, "Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyi" regionda bir sıra sosial layihələr həyata keçirmişdir. Bu layihələr çərçivəsində şəhid ailələrinin övladları üçün təlimlər, psixoloji dəstək proqramları və sosial inteqrasiya tədbirləri təşkil olunur. Eyni zamanda, "Sosial Hüquqların Araşdırılması İctimai Birliyi" tərəfindən qadınlara və məişət zorakılığına məruz qalan şəxslərə hüquqi və psixoloji yardım göstərilməsi istiqamətində layihələr reallaşdırılmışdır.[3]

Beyləqan rayonunda inklüziv məşğulluğun təşviq edilməsi də əhəmiyyətli sosial tədbirlərdən biridir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilən "Sosial Cəhətdən Həssas Qruplar üçün Özünüməşğulluq" proqramı bu sahədə xüsusi yer tutur. Proqram çərçivəsində rayonda qeydiyyatda olan aztəminatlı və işsiz şəxslərə biznes planlarının hazırlanması və kiçik ailə təsərrüfatlarının qurulması üçün dəstək göstərilir.[5] Bu təşəbbüs insanları sosial asılılıqdan azad edərək onları iqtisadi cəhətdən müstəqil həyata hazırlayır.

Bütün bu tədbirlər Beyləqan rayonunda əhalinin həssas qrupları ilə işin sistemli şəkildə qurulduğunu və davamlı inkişaf etdiyini göstərir. Gələcəkdə bu istiqamətdə daha genişmiqyaslı layihələrin icrası, beynəlxalq təşkilatlarla əməkdaşlığın gücləndirilməsi və sosial xidmətlərin rəqəmsallaşdırılması vacib sayılır. Əhalinin sosial rifahı dövlət siyasətinin əsas prioritetlərindən biri olmaqla yanaşı, cəmiyyətin dayanıqlı inkişafının da təminatçısıdır. Beyləqan rayonunda bu istiqamətdə görülən işlər Azərbaycanın sosial dövlət modelinin regional səviyyədə uğurla tətbiq olunduğunu sübut edir.

**Ədəbiyyat**

1. *Sosial dəstək tədbirləri və humanitar aksiyalar*. Beyləqan Rayon İcra Hakimiyyəti. 2023. https://beyleqan-ih.gov.az/
2. *Həssas əhali qrupları üçün sosial layihələr*. QHT.az. 2024. https://qht.az/details/az/39846
3. *Peşə-əmək reabilitasiyası proqramları*. Sosial Xidmətlər Agentliyi. 2024. https://sia.az/az/news/social/1224692.html
4. *Əhalinin sosial cəhətdən həssas qrupları üçün inklüziv məşğulluq proqramı.* Sosial.gov.az. 2024. https://sosial.gov.az

# TOVUZ RAYONUNUN İQTİSADİ POTENSİALININ TƏHLİLİ

**Fuad Rzayev[1], Mehman Axundov[2]**

*[1,2]Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*

*e-mail:* farid.fikretli@sanatorium.az; azfiri@azeurotel.com

Son illərdə ölkə prezidenti cənab İlham Əliyevin imzaladığı bir sıra mühüm qərar və sərəncamlara əsasən respublikada qeyri-neft sektoru sürətlə inkişaf edir. Ölkədə rəqabətədavamlı, ixracyönümlü məhsulların istehsalının artan dinamikası müşahidə olunur. Bölgələrdə aqrar sahənin inkişaf etdirilməsi üçün bütün zəruri tədbirlər görülür. Regionların sosial-iqtisadi inkişafı prizmasından inkişaf etməkdə olan rayonlardan biri də Tovuz rayonundur. Kənd təsərrüfatı məhsullarının ən çox istehsal edildiyi Tovuz rayonunda da aqrar sahənin inkişaf etdirilməsi üçün əkinəyararlı torpaq sahələrindən səmərəli istifadə olunur. Tovuz bu gün kənd təsərrüfatı bitkilərinin yetişdirilməsində respublikada ön sırada gedən rayonlardan biridir. Rayon

rəhbərliyi fermerlərin bütün arzu və təkliflərinə həssas yanaşır, onlara maksimum səviyyədə köməklik göstərir. Bunun nəticəsidir ki, aqrar sahənin bütün sahələrində yüksək məhsuldarlıq əldə olunur.

Tovuz rayonu kartofçuluğun yüksək inkişaf etdiyi rayonlardan biridir. Rayonda istehsal olunan keyfiyyətli məhsul respublika bazarlarında bolluq yaradır, bununla yanaşı, məhsulun bir hissəsi soyuducu anbarlara yığılır. Bu sahədə məhsuldarlıq hər hektardan 300-350 s təşkil edir.

Tovuz rayonu 1970-ci illərin əvvəlindən başlayaraq üzümçülüyün inkişafında qabaqcıl yerlərdə dayanaraq inanılmaz məhsuldarlığa nail olmuşdur. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, ölkəmiz müstəqillik əldə etdikdən sonra bütün sahələrdə olduğu kimi üzümçülüyün inkişafı da tamamilə tənəzzülə uğradı. Ancaq dövlət başçısı İlham Əliyevin üzümçülüyün inkişafı ilə bağlı verdiyi tapşırığa əsasən Tovuzda rayon iqtisadiyyatının əsasını təşkil edən bu gəlirli sahədə irəliləyiş əldə edildi. Rayonda hal-hazırda 725 ha üzüm bağı mövcuddur. Bağlarda cürbəcür süfrə sortları ilə yanaşı, texniki növ üzüm də yetişdirilir. Hazırda tez yetişən üzüm sortlarının yığımına başlamışdır. Üzüm sahələrində hər hektardan 300-350 sentner məhsul gözlənilir.

Rayonda baramaçılığın inkişaf etdirilməsi üçün də münbit şərait yaradılmışdır. Tovuzun əlverişli iqlimi və münbit torpağı gəlirli sahə sayılan tütünçülüyün inkişaf etdirilməsinə zəmin yaradır, ildən-ilə tütün əkilmiş sahələr çoxalır. 2018-ci ildə 50 ha sahədə tütün əkilmişdir. Rayonda maldarlığın inkişafı da diqqət mərkəzində saxlanılır. Rayonda iribuynuzlu mal-qaranın yetişdirməsində süni mayalanma yolu ilə doğulan hər buzov üçün dövlət 100 AZN civarında subsidiya verir. Məlum olduğu kimi respublikada aqrar sahənin inkişaf etdirilməsi üçün Prezident

İlham Əliyevin müvafiq sərəncamı ilə respublikanın müxtəlif bölgələrində 16 ədəd müasir standartlara tam cavab verən aqroparkların yaradılması təmin edilmişdir, aqroparkın biri də Tovuz rayonunun Ceyrançöl ərazisində yaradılmışdır.

Respublikamızda ət və süd məhsullarına olan tələbatın ödənilməsində tovuzlu fermerlərin özünəməxsus yeri var. Rayonda heyvandarlığın inkişafı geniş vüsət almışdır. Hazırda rayonun Ceyrançöl ərazisində 550 hektar sahədə "Tovuz Aqro" MMC Aqrokompleks fəaliyyət göstərir.

Son illər rayonda əsas strateji kənd təsərrüfatı sahəsi olan taxılçılıq üzrə Tovuz rayonunda yüksək göstəricilər qazanırlar, hər hektarından 46 sentner olmaqla məhsul götürüb. Hər il rayonda istehsal edilən kənd təsərrüfatı məhsullarının bir hissəsi xaricə ixrac olunur. Belə məhsullardan biri yerkökküdür.

Qərb rayonlarında, xüsusən də Tovuz rayonunun dağlıq bölgəsində turizmin inkişafı potensialı daha çoxdur. Bura üz tutanlar əsasən yayda dağlıq ərazilərə maraq göstərdiyindən elə turizm obyektlərinin çoxu da bu yerlərdədir. Tovuz rayonunda həm xarici, həm də yerli turistlərin qəbul edilməsi üçün həm beşulduz, həm də bir neçə mehmanxana fəaliyyət göstərir.

Beləliklə, Tovuz rayonu iqtisadiyyatında kənd təsərrüfatı mühüm yer tutur. Rayon kənd təsərrüfatı üzrə ixtisaslaşıb, əsasən kartofçuluq, heyvandarlıq, taxılçılıq və bağçılıq inkişaf edib. Tovuz rayonu respublikanın ən iri kartofçuluq rayonlarından biridir. Rayonun iqtisadiyyatının əsasını əkinçilik və heyvandarlıq təşkil etdiyi üçün bu sahənin daha da inkişaf etdirilməsi istiqamətində işlər aparılaraq məhsul istehsalçılarına lazımi dəstək verilir və müvafiq köməkliklər göstərilir. Əsas makroiqtisadi göstəricilər də sürətli tərəqqidən xəbər verir, aqrar sektorun inkişafı ilə bağlı dövlət tərəfindən lazımı addımlar

atılmaqdadır. Ryonda turizmin inkişafı üçün mühüm potensial vardır.


**Ədəbiyyat**

1. “Azərbaycan 2020 – Gələcəyə baxış konsepsiyası”.
2. “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. 29 yanvar 2019-cu il.
3. Rüstəmov R.M. (2016). Aqrar sahədə davamlı inkişafın formalaşması məsələləri // Azərbaycan Aqrar Elmi, , № 2, s. 182-186.


## MÜASİR BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ HƏRBİ DİPLOMATİYANIN ROLU


**Gülsüm Rzayeva**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*

e-mail: gulsum.bdu@gmail.com


XXI əsrin qloballaşan dünyasında beynəlxalq münasibətlər sisteminin strukturunda ciddi dəyişikliklər müşahidə olunur. Siyasi, iqtisadi və texnoloji faktorlarla yanaşı, hərbi güc və onun diplomatik alətlər vasitəsilə tətbiqi də beynəlxalq arenada ölkələrin nüfuzunun formalaşmasında mühüm rol oynayır. Bu kontekstdə hərbi diplomatiya anlayışı yeni məzmun və forma qazanaraq, beynəlxalq münasibətlərin mühüm alətinə çevrilmişdir.

Ənənəvi anlamda “hərbi” anlayışı yalnız silahlı qüvvələrin fəaliyyəti, müharibə və müdafiə ilə əlaqələndirilirdisə, müasir dövrdə bu anlayış daha geniş spektri əhatə edir. Artıq müasir

hərbi konsepsiyalar kiber müharibələr, informasiya təhlükəsizliyi, peyk texnologiyaları, pilotsuz uçuş aparatları (PUA) və süni intellekt əsaslı silah sistemləri kimi elementləri özündə birləşdirir. Bu transformasiya nəticəsində hərbi güc sadəcə fiziki qüvvə ilə deyil, texnoloji və informasiya üstünlüyü ilə də ölçülür.

Hərbi diplomatiya - silahlı qüvvələrin və müdafiə strukturlarının xarici siyasət aləti kimi istifadəsini nəzərdə tutur. Hərbi diplomatiya – dövlətlərin silahlı qüvvələrinin iştirakı ilə digər ölkələrlə qarşılıqlı etimad qurmaq, təhlükəsizlik sahəsində əməkdaşlıq yaratmaq və strateji maraqları təmin etmək məqsədilə həyata keçirdiyi fəaliyyətlər toplusudur. Bu fəaliyyətlərə müdafiə attaşeliklərinin fəaliyyəti, beynəlxalq hərbi təlimlər, ikitərəfli və çoxtərəfli müdafiə sazişləri, silah ixracı və idxalı, hərbi texniki əməkdaşlıq və s. daxildir.

Hərbi diplomatiya vasitəsilə dövlətlər həm tərəfdaşları ilə münasibətləri möhkəmləndirir, həm də potensial təhdidlərə qarşı qabaqlayıcı tədbirlər görür. Bu diplomatiya aşağıdakı məqsədlərə xidmət edir:

• Müdafiə və təhlükəsizlik sahəsində beynəlxalq əməkdaşlığın qurulması;

• Regional sabitliyin təmin olunması üçün ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlıq;

• Silahlı qüvvələrin imicinin formalaşdırılması və "yumşaq güc" vasitəsi kimi istifadəsi;

• Müttəfiqlərlə hərbi təlimlərin təşkili, silah satışı və texnoloji əməkdaşlıq.

Qeyd olunan məqsədlər beynəlxalq hüququn əsas aktoru olan dövlətlərin xarici siyasətində müxtəlif formalarda özünü biruzə verir. Dövlətin hərbi gücü və müdafiə potensialı onun suverenliyini qorumaqla yanaşı, beynəlxalq aləmdə mövqeyini

müəyyənləşdirən əsas elementlərdən biridir. Qlobal güc balansında iştirak edən böyük dövlətlər – ABŞ, Çin, Rusiya, Türkiyə və digərləri – məhz yüksək hərbi potensialları ilə dünya siyasətində aparıcı rol oynayırlar. Müdafiə sənayesinin inkişaf etdirilməsi, müasir silah və texnologiyalarla təchizat, peşəkar ordu strukturlarının qurulması dövlətin həm real, həm də nümayiş etdirilən (deterrent) qüdrətini artırır. Bu isə diplomatik proseslərdə dövlətin söz sahibinə çevrilməsinə səbəb olur.

Amerika Birləşmiş Ştatlar dünyanın ən böyük hərbi büdcəsinə sahib olmaqla yanaşı, NATO başda olmaqla, qlobal təhlükəsizlik arxitekturasında əsas oyunçudur. Hərbi sənayesi və texnoloji üstünlüyü sayəsində ABŞ həm siyasi, həm də iqtisadi təsir dairəsini qoruyur. Onun hərbi diplomatiyası strateji tərəfdaşlıqlar, hərbi yardımlar, təlimlər və bazaların yaradılması sahələri də daxil olmaqla geniş spektrdə fəaliyyət göstərir.

Post-sovet məkanında və Yaxın Şərqdə nüfuzunu bərpa etməyə çalışan Rusiya hərbi diplomatiya vasitəsilə Suriyada, Qarabağda və Afrikada mövcudluğunu artırmışdır. Silah ixracatı sahəsində Çin və ABŞ-dan sonra üçüncü yerdə olan Rusiya strateji tərəfdaşlarının sayını artırmaqda davam edir.

Çin Xalq Respublikası "Bir kəmər, bir yol" layihəsi çərçivəsində iqtisadi diplomatiyanı hərbi diplomatiya ilə birləşdirir. PLA-nın (Çin Xalq Azadlıq Ordusu) müasirləşdirilməsi, Hind-Sakit okean bölgəsində hərbi baza quruculuğu və regional təlimlər Pekinin artan hərbi-diplomatik nüfuzunun bariz göstəricisidir.

Son illərdə müşahidə olunan proseslər göstərir ki, hərbi diplomatiyası effektiv olan dövlətlər regional siyasətdə nüfuz uğrunda mübarizədə liderliyə iddia edirlər.

- **Türkiyə-** öz hərbi sənayesini inkişaf etdirərək "**Bayraktar TB2"** kimi PUA-lar ilə regional gücə çevrilmiş,

Qafqaz, Şərqi Aralıq dənizi və Afrikada **hərbi-texnoloji nüfuzunu artırmışdır.**

- **İsrail** - yüksək texnologiyalı hərbi sistemlər və təhlükəsizlik sahəsində əməkdaşlıq ilə öz mövqeyini möhkəmləndirmişdir.

Azərbaycan Respublikasının son illərdə hərbi sahədə əldə etdiyi nailiyyətlər, müasir silah sistemləri ilə təchiz olunması və beynəlxalq hərbi əməkdaşlıq formatlarında aktiv iştirakı ölkənin strateji mövqeyini gücləndirmişdir. 2020-ci il Vətən müharibəsində nümayiş olunan hərbi potensial təkcə döyüş meydanında deyil, həm də beynəlxalq münasibətlər sistemində Azərbaycanın mövqeyinə ciddi təsir göstərmişdir. Bu, hərbi diplomatiyanın effektiv alət kimi istifadə oluna biləcəyini göstərən real nümunədir.

Beləliklə, hərbi diplomatiya təkcə müharibə qabiliyyəti deyil, həm də **siyasi nüfuz və liderlik vasitəsidir.** Ölkələr hərbi diplomatiya vasitəsilə həm iqtisadi, həm də siyasi cəhətdən bölgədə daha güclü aktora çevrilməyə çalışırlar.

Müasir beynəlxalq münasibətlər sistemində hərbi diplomatiya dövlətlərin xarici siyasətində önəmli rol oynayır. Hərbi gücün təkcə silahlı münaqişələrdə deyil, həm də diplomatik platformalarda alət kimi istifadəsi ölkələrin qlobal və regional siyasətdə çəkisini artırır. Hərbi sənayesini inkişaf etdirən, təhlükəsizlik sahəsində çoxtərəfli əməkdaşlığa açıq olan və texnoloji üstünlüyünü hərbi-diplomatik vasitələrlə birləşdirən dövlətlər yeni dünya nizamında liderlik iddiasını daha güclü şəkildə irəli sürə bilirlər.

## Ədəbiyyat

1. Nye, Joseph S. *Soft Power: The Means to Success in World Politics*. PublicAffairs, 2004.

2. Freedman, Lawrence. *The Future of War: A History*. PublicAffairs, 2019.
3. SIPRI Yearbook 2023 – Stockholm International Peace Research Institute: https://www.sipri.org
4. The Military Balance 2023 – International Institute for Strategic Studies (IISS): https://www.iiss.org
5. U.S. Department of Defense – Annual Defense Reports: https://www.defense.gov
6. Türkiye Cumhuriyeti Savunma Sanayii Başkanlığı: https://www.ssb.gov.tr
7. Global Firepower Index 2024: https://www.globalfirepower.com
8. Çin Xalq Respublikasının Müdafiə Strategiyası üzrə rəsmi sənədlər: http://eng.mod.gov.cn

## HEYDƏR ƏLİYEVİN DÖVLƏT İDARƏÇİLİYİ MƏKTƏBİ VƏ DÖVLƏT QURUCULUĞU STRATEGİYASI

**Eldar Salayev**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: d24.eldar.salayev@teams.dia.edu.az

**Xülasə**

Bu tezisdə Ulu Öndər Heydər Əliyevin müstəqilliyin ilk illərində Azərbaycanda dövlət idarəçiliyini formalaşdırması və möhkəmləndirməsi təhlil olunur. 1993-cü ildən başlayaraq siyasi sabitliyin bərpası, Konstitusiyanın qəbul edilməsi, ordu və hüquqi institutların yaradılması kimi addımların müasir dövlətçilik modelinin əsasını qoyduğu vurğulanır.

Ulu Öndər Heydər Əliyev müasir müstəqil Azərbaycanın memarı və qurucusu kimi dövlət idarəçiliyi sahəsində misilsiz rol oynamışdır. O, müstəqilliyin ilk illərində daxili çəkişmələr və xarici təhdidlərə məruz qalmış Azərbaycanı dərin böhran girdabından xilas edərək sabitlik yoluna çıxarmış, möhkəm dövlət idarəçiliyi təşkil etməyə nail olmuşdur [1]. Heydər Əliyev hakimiyyət böhranını tezliklə aradan qaldıraraq dövlət əsaslarını yenidən qurmuş və ölkənin idarəetmə sisteminin formalaşması üçün tarixi zəmin yaratmışdır.

1991-ci ildə müstəqilliyin bərpasından sonra Azərbaycan dövlətçiliyi ciddi sınaqlarla üzləşmişdi. Müstəqilliyimizin ilk dövrlərində səriştəsizlik, daxili çəkişmələr və Ermənistanın hərbi təcavüzü müstəqil dövlətimizi təhlükə altına salmışdı. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə Heydər Əliyevin hakimiyyətə qayıdışı bu təhlükələrin aradan qaldırılmasını və ölkənin sürətlə inkişaf yoluna çıxmasını təmin etdi. Daha sonra, 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında dövlət çevrilişi cəhdlərinin Heydər Əliyevin qətiyyəti sayəsində iflasa uğradılması ölkənin siyasi və institusional sabitliyini qoruyaraq silahlı hakimiyyətə gəlmə cəhdlərinə son qoydu [2].

Ulu Öndərin yenidən hakimiyyətə gəlişi ilə effektiv dövlət idarəetməsinin zəruri əsaslarını formalaşdıran addımlar atıldı. 1995-ci ilin noyabrında qəbul edilmiş ilk milli Konstitusiya dövlətin hüquqi təməlini yaratdı. Beləliklə, Azərbaycan dağılmaq üzrə olan gənc dövlətdən qısa müddətdə möhkəm siyasi-hüquqi əsasları olan bir ölkəyə çevrildi. Heydər Əliyev eyni zamanda qısa müddətdə peşəkar ordu quruculuğuna başlayıb ölkənin müdafiə qabiliyyətini artırdı. Bununla yanaşı, milli ideyaları

vahid "azərbaycançılıq" ideologiyasında birləşdirərək cəmiyyətin bütün təbəqələrini bir araya gətirdi və həssas bir dövrdə milli həmrəyliyə nail oldu [3].

Heydər Əliyevin uzaqgörən strategiyası Azərbaycanda müasir dövlət idarəçiliyi modelinin formalaşmasına yol açdı. Bu modelin davamı olaraq, Prezident İlham Əliyev dövründə ardıcıl islahatlar və innovativ idarəetmə vasitəsilə dövlət aparatı daha da təkmilləşdirildi. Bu gün Azərbaycanın davamlı inkişafı və artan beynəlxalq nüfuzu bilavasitə Heydər Əliyevin qoyduğu əsaslar üzərində qurulmuş dövlətçilik kursunun nəticəsidir. Heydər Əliyevin xarici siyasətdə yaratdığı balanslı və prinsipial münasibətlər - Rusiya, ABŞ, Avropa İttifaqı, Türkiyə və qonşu dövlətlərlə əməkdaşlıq - Prezident İlham Əliyev dövründə daha da möhkəmləndirilmiş və Azərbaycanın beynəlxalq müstəvidə etibarlı tərəfdaş imicini formalaşmışdır. Xüsusilə, 2020-ci ildə 44 günlük Vətən müharibəsində Qarabağ torpaqlarının işğaldan azad olunması Heydər Əliyevin uzaqgörən siyasətinin yekun nəticəsi kimi dəyərləndirilir [4]. Bu tarixi qələbə Ulu Öndərin qurduğu möhkəm dövlət təməlləri, güclü diplomatik əlaqələr, ordu quruculuğu və Prezident İlham Əliyevin bu siyasi ənənələrə sadiq qalaraq yeni çağırışlar əsasında formalaşdırdığı strateji siyasi kurs əsasında mümkün olmuşdur.

Ulu Öndər Heydər Əliyevin dövlət idarəçiliyi sahəsindəki tarixi missiyası Azərbaycanı siyasi böhranlardan qurtararaq möhkəm əsaslara söykənən müasir bir dövlət qurmaqla nəticələndi. Onun müdrik liderliyi sayəsində Azərbaycan dağılmaqda olan bir dövlətdən demokratik institutlara malik, sabit və vahid bir ölkəyə çevrildi. Heydər Əliyevin yaratdığı idarəçilik modeli bu gün də uğurla davam etdirilir və müstəqil Azərbaycanın dünya arenasında güclü bir aktor kimi möhkəmlənməsinə təkan verir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir dövrün reallıqlarına uyğun surətdə davam etdirilən ümummilli inkişaf strategiyası nəticəsində bütün sahələrdə yüksək göstəricilərin əldə edilməsi tendensiyası davam etməkdədir [5]. Heydər Əliyevin yaratdığı idarəçilik məktəbi Azərbaycanın müasir inkişaf strategiyasının təməlidir.

### Ədəbiyyat


1. Azerbaijan-news.az – "Heydər Əliyev müasir dövlət idarəçiliyinin banisidir" elmi konfransdan material URL:https://www.azerbaijannews.az/az/posts/detail/heyder-eliyev-muasir-dovlet-idareciliyinin-banisidir-1675978771
2. Prezident Kitabxanası – Xalq qəzeti, 2023, "15 İyun: Milli Qurtuluşa Aparan Yol və Liderin Xilaskarlıq Məramı"URL:https://files.preslib.az/projects/heydaraliyev/articles/he1167.pdf
3. Prezident Kitabxanası – Xalq qəzeti, 2023, "15 İyun: Milli Qurtuluşa Aparan Yol və Liderin Xilaskarlıq Məramı"URL:https://files.preslib.az/projects/heydaraliyev/articles/he1167.pdf
4. "Azərbaycanın Qarabağ savaşı çağdaş ədalətli müharibə idi." *Xalq Qəzeti*, 2024. URL:https://www.xalqqazeti.az/az/siyaset/199077-azerbaycanin-qarabag-savasi-cagdas-edaletli
5. Hikmət Babaoğlu – *"Heydər Əliyev siyasi irsinin politoloji aspektləri",* Bakı, MSA, 2013

# AZƏRBAYCANDA FORMAL MƏŞĞULLUĞUN TƏŞVİQİ MƏSƏLƏLƏRİ

**Səltənət Salmanlı**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail:sltntsalmanli@gmail.com

**Xülasə**

Məqalədə Azərbaycanda formal məşğulluğun təşviqi, onun iqtisadi və sosial əhəmiyyəti, qeyri-formal məşğulluğun azaldılması üçün həyata keçirilən dövlət siyasəti və hüquqi islahatlar təhlil olunur, formal məşğulluğun dayanıqlı inkişafa töhfəsi vurğulanır.

***Açar sözlər:*** formal məşğulluq, qeyri-formal məşğulluq, məşğulluq siyasəti, davamlı inkişaf.

## Giriş

Formal məşğulluğun təşviqi Azərbaycanda dayanıqlı iqtisadi inkişaf və sosial rifah naminə sistemli şəkildə həyata keçirilən siyasətdir. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə müəyyən etdiyi inkişaf strategiyasının nəticəsi olaraq ölkəmizdə iqtisadi və sosial sahələrdə sabitlik təmin olunmuş, dövlət idarəçiliyində effektivlik artırılmış və məşğulluq siyasətinin hüquqi əsasları formalaşdırılmışdır. Məhz bu baza üzərində qurulan siyasət bu gün də formal məşğulluğun təşviqi istiqamətində atılan uğurlu addımlar üçün möhkəm təməl rolunu oynayır.

**Formal məşğulluğun mahiyyəti və əhəmiyyəti**

Qeyri-formal məşğulluq – əmək müqaviləsi və ya vergi qeydiyyatı olmadan gəlir əldə etmək, eləcə də uçota durmadan fəaliyyət göstərən ailə təsərrüfatları formasında qeyri-rəsmi işləməkdir [1]. Qeyri-formal məşğulluq öz əmək fəaliyyətini rəsmiləşdirməyən şəxslər üçün gələcək dövr üçün sosial təminatsızlıq yaradır, işçiləri əmək hüquqlarından kənarlaşdırır.

**Azərbaycanda formal məşğulluğun mövcud vəziyyəti**

Qeyri-formal məşğulluğun qarşısının alınması və bu sahədə dövlət orqanları arasında koordinasiya olunmuş siyasətin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 17 mart tarixli 2760 nömrəli Sərəncamı ilə Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyası yaradılmışdır [2]. Komissiya tərəfindən bu sahədə fəaliyyətin əlaqələndirilmiş qaydada həlli məqsədilə "Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı" hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin 9 oktyabr 2017-ci il tarixli 3287 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir [3].

Tədbirlər Planında "Normativ hüquqi aktların təkmilləşdirilməsi", "İnzibatçılığın təkmilləşdirilməsi", "Qeyri-formal məşğulluğun qarşısının alınmasında nəzarət tədbirlərinin gücləndirilməsi", "Monitorinq və qiymətləndirmə sisteminin qurulması", "Qeyri-formal məşğulluğa qarşı məlumatlandırma və təbliğat işlərinin təşkili" olmaqla 5 bölmə üzrə 36 bəndin icrası nəzərdə tutulmuş və sözügedən istiqamətlərdə fəaliyyət həyata keçirilmişdir.

Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin 13 fevral 2020-ci il tarixli Sərəncamı ilə təsdiqlənmiş "Məşğulluq Strategiyasının 2020–2025-ci illər üçün Tədbirlər Planı"nda

məşğulluq siyasəti üzrə beş əsas istiqamətlərdən birini qeyri-formal əmək münasibətlərinin qarşısının alınması təşkil edir. [4].

### Azərbaycanda formal məşğulluğun təşviqi məsələləri

Əmək bazarının dayanıqlılığı və işçi qüvvəsinin rəqabət qabiliyyətinin artırılması məqsədilə normativ-hüquqi bazanın təkmilləşdirilməsi, qeyri-formal məşğulluğun azaldılması üçün elektron sistemlərin tətbiqi, bacarıqların inkişafı və sosial müdafiə tədbirləri, o cümlədən minimum əməkhaqqının artırılması və digər tədbirlərin nəticəsi olaraq son illərdə əmək münasibətlərinin leqallaşdırılması sahəsində ciddi nailiyyətlər əldə olunmuş və ölkədə əmək müqavilələrinin sayı 600 min artmışdır.

### Nəticə

Formal məşğulluğun təşviqi iqtisadi və sosial rifahın əsas şərti olaraq əmək hüquqlarının qorunması, məhsuldarlığın və sosial təminatın artırılmasına xidmət etmiş, nəticədə formal məşğulluq artmış və gələcəkdə bu sahədə əldə edilmiş nailiyyətlərin davamlılığının təmin olunması məqsədilə əmək bazarının inkişafı üçün yeni təşəbbüslərin nəzərdə tutulması zəruridir.

### Ədəbiyyat


1. https://president.az/az/articles/view/29750
2. https://e-qanun.az/framework/35067
3. https://e-qanun.az/framework/36613
4. https://e-qanun.az/framework/44423

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN DİRÇƏLDİLMƏSİNDƏ TURİZMİN ROLU

**Jalə Salmanova**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: zhala.salman@gmail.ru

44 günlük Vətən müharibəsində əldə edilmiş qələbədən sonra işğaldan azad edilmiş ərazilərinin bərpası üçün böyük addımlar atılmaqdadır. Bu ərazilər müharibə və 30 ildən çox davam etmiş işğal nəticəsində infrastruktur baxımından böyük zərər görmüş, yaşayış evləri, tarixi və mədəni abidələr erməni vandalizminin qurbanı olmuşdur. Ölkə başçısının müdrik və uzaqgörən siyasəti, çevik və ağıllı qərarları sayəsində qısa müddətdə ölkəmizə vurulan ziyanın məbləği müəy-yənləşdirilmiş, ərazilərin bərpası, əhalinin tezliklə doğma torpaqlarına qayıtması, təhsil, səhiyyə və məşğulluq kimi məsələlərin həlli üçün bütün dövlət qurumları səfərbər edilmişdir. Məşğulluğun təmin edilməsi, əhalinin sosial rifah halının yaxşılaşdırılması, erməni vandalizminin fəsadlarının dünya ictimaiyyətinə çatdırılması və ümumilikdə bu ərazilərin bərpası üçün turizmin inkişaf etdirilməsi effektiv vasitələrdən biridir. Turizmin inkişafı iqtisadiyyatın canlanmasına töhfə verməklə yanaşı bölgənin mədəniyyəti, tarixi və təbiətinin təbliğinə yardımçı olacaqdır.

İşğaldan azad edilən ərazilərin bərpası ilə əlaqədar turizm sektoru əhəmiyyətli bir iqtisadi vasitə kimi çıxış edir. Bu sahənin inkişafı, yerli əhaliyə iqtisadi müstəqillik və yüksək həyat keyfiyyəti təqdim etməklə yanaşı, ölkə iqtisadiyyatına da mühüm töhfə verə bilər. Turizmin inkişafı, müxtəlif sahələrdə—xüsusilə

də xidmət, nəqliyyat, tikinti və əyləncə sahələrində böyük dəyişikliklərə yol açacaq.

Turizm sektoru yerli və beynəlxalq investisiyaların cəlb olunmasına və yeni iş imkanlarının yaranmasına səbəb olacaq. Hotellər, restoranlar, turizm şirkətləri, muzeylər, təbiət parkları və digər turizm infrastrukturları bu ərazilərdə fəaliyyət göstərərək işğaldan azad edilmiş ərazilərin canlanmasına yardımçı olacaqdır.

Bununla yanaşı, ətraf mühitin qorunması və təbii sərvətlərin səmərəli istifadəsi məsələləri də gündəmə gələcək. Turizmin inkişafı, eyni zamanda regionun iqtisadi inkişafı üçün uzunmüddətli perspektivlər təqdim edir. Yerlərdə qurulacaq turizm infrastrukturları həm kənd təsərrüfatını, həm də kiçik və orta müəssisələri inkişaf etdirə bilər. Beləliklə, işğaldan azad edilmiş ərazilərin bərpası yalnız regionlar üçün yox, bütün ölkə üçün iqtisadi fayda gətirəcək.

30 illik işğal dövründə viran edilmiş tarixi abidələrin bərpası uzun müddət, maddi vəsait və xüsusi yanaşma tələb edir. Tarixi abidələrlə zəngin Şuşa şəhərində abilərin bərpası ilə bağı bir sıra işlər görülüb və icrası davam etidirilir. Belə ki, qısa bir vaxt ərzində, əsası Ulu öndər Heydər Əliyev tərəfindən 1982-ci ildə qoyulmuş Vaqifin məqbərəsi bərpa edilmiş, Üzeyir Hacıbəylinin dağıdılmış evinin bərpasına başlanılmış, Bülbülün ev muzeyinin açılışı baş tutmuş, Natəvan bulağı bərpa edilmişdir. Prezident İlham Əliyevin göstərişi ilə ermənilər tərəfindən gülləbaran edilmiş dahi şəxsiyyətlərimizin — Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri şəhərin mərkəzi meydanında yerləşdirilmişdir. Yuxarı Gövhər Ağa, Aşağı Gövər Ağa, Saatlı və Çöl Qala məscidlərində təmir-bərpa işləri aparılmışdır. Artıq bir neçə ildir ki, xaricdən dəvət olunmuş və yerli qonaqların, sənət adamlarının iştirakı ilə məşhur "Xarıbülbül" festivalı keçirilir. Hər fəsildə gözəl olan Şuşanın xüsusilə gözəlliyə

büründüyü yaz fəslində keçirilən festivalın gələcəkdə daha böyük turist axınına səbəb olacağı gözlənilir. Həmçinin Vaqif Poeziya günləri da bərpa olunmuşdur. Muzey və mədəniyyət evlərinin bərpa edilməsi və Ictimai iaşə obyektlərinin açllması turist məmnunluğunun artmasına, eləcə də məşğulluğun təmin edlməsinə şərait yaradacaqdır. Qısa bir müddət ərzində Şuşada "Qarabağ" və "Xarıbülbül" otelləri istifadəyə verildi, azad edilmiş ərazilərdə 2 hava limanı (Füzuli və Zəngilan) istifadəyə verilmiş, Laçın Hava limanının da yaxın vaxtlarda fəaliyyətə başlaması üçün işlər davam etdirilir. Bu isə, Qarabağın incisi hesab olunan və Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə gəlmək istəyən, Kəlbəcərin füsunkar təbiəti, ekoturizm imkanları, İstisu kurortuna üz tutan istər yerli, istərsə də xarici turistlərin bu hava limanlarından istifadə etməklə səyahətlərini daha rahat və asan gerçəkləşdirmələrinə imkan yaradacaqdır.

Turizm, tarixi və mədəni ərazilərin qorunması və dünyanın hər yerindən gələn turistlərə təqdim edilməsi üçün mükəmməl bir vasitədir. Azad edilmiş ərazilərdə dağıdılmış abidələr bərpa edilməklə yüzillər boyu bu torpaqlarda yaşayan xalqımızın zəngin mədəni irsini, ölkəmizə səfər edən beynəlxalq təşkilat və dövlətlərin rəsmi nümayəndələrinə, eləcə də turistlərə nümayiş etdirir. Şuşada sənətkar və ictimai xadimlərin bərpa edilən ev muzeyləri Azərbaycan musiqisinin dəyərini bir daha önə çıxarır. Burada keçirilən musiqi festivalları, (xüsusən Xarı bülbül) rəssamlıq sərgiləri, kulinariya festivalları, elm və təhsil sahəsində konfranslar şəhərin mədəniyyətini tanıtmaq və Azərbaycanın turizm potensialını artırmaq üçün mühüm bir platforma təqdim edir.

## Ədəbiyyat

1.Dövlət Turizm Agentliyinin rəsmi internet səhifəsi-tourism.gov.az

# MÜASİR DÖVRDƏ DÖVLƏTİN İQTİSADİ SİYASƏTİNİN BAŞLICA MƏQSƏDLƏRİNİN REALLAŞDIRILMASI

**Elvar Səfərov**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: elvar.seferov@mail.ru

***Açar sözlər:*** dövlət idarəçiliyi, iqtisadi siyasət, dayanıqlı inkişaf

Müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında tərəqqi yolunda inamla addımlayan dövlətimiz hazırda iqtisadi, sosial, siyasi və mədəni inkişafının tarixi dönüş mərhələsini yaşayır. Öz tarixi ərazi bütövlüyünü təmin etməklə ölkəmiz yeni qlobal reallıqlar fonunda növbəti və daha böyük transformasiya astanasına keçid edir. Uzun illər Azərbaycanda uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar milli iqtisadiyyatın davamlı inkişafını, onun maliyyə dayanıqlığının güclənməsini və sürətlə müasirləşməsini, müasir sosial-iqtisadi infrastruktur quruculuğu proseslərinin sürətlənməsini, habelə bir çox sosial problemlərin ardıcıl şəkildə həllini və xalqın maddi rifahının yüksəlməsini, innovasiyaların sürətlə mənimsənilməsini və insan kapitalının davamlı inkişafını təmin etməkdədir.

Azərbaycan Respublikasının iqtisadi siyasətinin əsas məqsədi cəmiyyətin inkişafı üçün sosial-iqtisadi şərait yaratmaq və iqtisadi və sosial hədəflərə uyğun olaraq təkrar istehsal prosesini təmin etməkdir.

Bu gün Azərbaycanda uğurlu iqtisadi siyasət həyata keçirilir. Bu siyasət davamlı inkişaf xarakteri daşımaqla mühüm strateji məqsədlərə yönəlmişdir. Ölkəmizdə son illər qeyri-neft sektorunun inkişafı prioritet sahələrdəndir. Bu mənada ölkə regionlarının inkişafı istiqamətində mühüm addımlar atılmaqdadır. Ölkədə dövlət proqramlarına əsaslanan sistemli regional siyasət həyata keçirlir. Bunun da nəticəsidir ki, hazırda regionlarda ciddi inkişaf meyilləri müşahidə olunur.

Ölkəmizin qeyd olunan istiqamətlərdə, ümumilikdə isə davamlı və dayanıqlı inkişaf sahəsindəki uğurları beynəlxalq səviyyədə öyrənilməsi reallığını ortaya qoymuşdur. Bunun nəticəsidir ki, hazırda ölkəmiz dünyanı narahat edən problemlərin müzakirəsi üçün mühüm əlverişli məkana çevrilmişdir. Azarbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə keçirilən Bakı Beynalxalq Humanitar Forumu və Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu buna misal olaraq göstərilə bilər. Mütəmadi olaraq keçirilən bu tədbirlərdə ölkə rəhbərləri, dünyanın tanınmış ictimai-siyasi xadimləri, elm adamları və s. iştirak edirlər .

Məlum olduğu kimi, Azərbaycanda Birləşmiş Millətlər Təşkilatının üzvü olan dövlətlərin 2015-ci ilin 25–27 sentyabr tarixlərində keçirilən Dayanıqlı İnkişaf Sammitində 2016–2030-cu illər üçün təsdiqlənmiş Dayanıqlı İnkişaf Məqsədlərinə fəal şəkildə qoşulmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Dayanıqlı İnkişaf Məqsədlərinin icrasının institusional və siyasi baxımdan kompleks yanaşma tətbiq edilərək Azərbaycanda daha dayanıqlı, əhatəli və şaxələndirilmiş iqtisadiyyatın inkişaf etdirilməsi, sosial sahələrin tarazlı inkişafının təmin edilməsi üçün səmərəli milli icra mexanizminin

formalaşdırılması məqsədilə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında Fərman imzalanmışdır.

Fərmanda göstərilir ki, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının əsas məqsədi 2030-cu ilədək Azərbaycan üçün əhəmiyyət kəsb edən, qlobal məqsəd və hədəflərə uyğun milli prioritetləri və onlara dair göstəriciləri müəyyən etməkdən, ölkədə sosial-iqtisadi sahələri əhatə edən dövlət proqramlarının və strategiyaların Dayanıqlı İnkişaf Məqsədləri ilə uzlaşdırılmasını təmin etməkdən, habelə Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması ilə əlaqədar illik hesabat hazırlamaqdan ibarətdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan dövləti 17 Dayanıqlı İnkişaf Məqsədinin hər birini özündə ehtiva edən məqsədyönlü siyasət həyata keçirməkdədir. O da vurğulanmalıdır ki, Azərbaycan dövləti qeyd olunana 17 məqsəd üzrə hələ əvvəlki illərdən ciddi fəaliyyət həyata keçirmiş və nailiyyətlər qazanmışdır. Belə ki, sosial-iqtisadi sferada, əhalinin sağlamlığının qorunmas, təhsil, ekologiya sahələrində, habelə gender bərabərliyinin təmin olunması istiqamətində atılmış addımlar Azərbaycanın dünyada qabaqcıl və nümunəvi ölkələrdən olduğunu təsdiq edir. Məhz bu da təsadüfi deyildir ki, BMT İnkişaf Proqramının 2015-ci ildə insan potensialının inkişafına dair “İnsan inkişafı naminə əmək” adlı məruzəsində Azərbaycan insan inkişafının yüksək səviyyədə olduğu ölkələr siyahısına daxil edilmiş və həmçinin ölkəmiz 2017-2019-cu illər üçün BMT-nin İqtisadi və Sosial Şurasına üzv seçilmişdir.

Qeyd edək ki, Azərbaycan Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı mütəmadi olaraq milli hesabatlarını təqdim edir. Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı BMT-də təqdim etdiyi milli hesabatlar təhlil edilmişdir. Göstərilmişdir ki, hazırda

Azərbaycan regionda və MDB məkanında milli hesabatı təqdim edən ilk ölkələrdəndir.

Bu da BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin Azərbaycanda daha sürətlə reallaşdırılmasının göstəricisidir.

**Ədəbiyyat**


1. Ələkbərov U. Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları. Bakı, 2013. 224 s.9
2. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 22 iyul 2022.
3. Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 06 oktyabr 2016


## HEYDƏR ƏLİYEVİN KONSTİTUSİYA İSLAHATLARINDA PARLAMENTİN YERİNİN MÖHKƏMLƏNDİRİLMƏSİ


**Nigar Səlimli**

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: nigar.slml@gmail.com


Azərbaycan Respublikasının müasir dövlətçilik tarixində ümummilli lider Heydər Əliyevin rolu əvəzsizdir. Onun hakimiyyətə qayıdışı ilə ölkədə siyasi sabitlik, hüquqi dövlət quruculuğu və demokratik institutların formalaşdırılması prosesi yeni mərhələyə qədəm qoydu. Xüsusilə 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası və sonrakı islahatlar

dövlət idarəetmə sistemində qanunverici orqan olan Milli Məclisin mövqeyinin gücləndirilməsində mühüm rol oynadı. Heydər Əliyevin həyata keçirdiyi konstitusiya islahatları parlamentin dövlət hakimiyyəti sistemində mühüm yer tutmasını və onun səlahiyyətlərinin genişləndirilməsini təmin etdi.

Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və ümumxalq səsverməsi ilə qəbul edilmiş 1995-ci il Konstitusiyası ölkədə hüquqi dövlət quruculuğunun əsasını qoydu. Konstitusiyada hakimiyyət bölgüsü prinsipi təsbit edildi və qanunverici hakimiyyət müstəqil institut olaraq formalaşdı. Parlamentin – Milli Məclisin statusu, səlahiyyətləri və fəaliyyət istiqamətləri dəqiq müəyyən olundu. Beləliklə, Milli Məclis qanunvericilik təşəbbüsü hüququna malik, dövlət büdcəsini təsdiq edən, hökumətin fəaliyyətinə nəzarət mexanizmlərinə sahiblənən, hökumətə etimad və etimadsızlıq məsələsini həll edə bilən, beynəlxalq müqavilələri ratifikasiya edən və insan hüquq və azadlıqlarının qorunmasında mühüm rola malik olan müstəqil institut kimi formalaşdı.

Bu islahatlar nəticəsində parlament dövlət idarəetmə sistemində təkcə qanunverici orqan deyil, həm də ictimai nəzarət funksiyalarını yerinə yetirən mühüm institut kimi çıxış etməyə başladı.

2002-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə keçirilmiş Konstitusiya islahatları parlamentin fəaliyyətinin təkmilləşdirilməsi və şəffaflığının artırılması məqsədinə xidmət edirdi. Bu islahatlar nəticəsində: Milli Məclisin funksiyaları dəqiqləşdirildi, seçki hüququ sahəsində yeniliklər edildi, deputat toxunulmazlığının tənzimlənməsi məsələləri yenidən baxıldı və parlamentin fəaliyyətinin ictimaiyyətə açıq olmasına daha geniş imkanlar yaradıldı.

Heydər Əliyevin siyasi xətti parlamentin xalqın iradəsini ifadə edən ən ali institut kimi fəaliyyət göstərməsini prioritet kimi müəyyən edirdi.

Heydər Əliyev dövründə parlamentin mövqeyinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər Azərbaycan parlamentarizminin inkişafına mühüm töhfələr verdi. Bunlar arasında: seçki sisteminin təkmilləşdirilməsi, deputatların hüquqlarının və fəaliyyət mexanizmlərinin genişləndirilməsi, parlamentin beynəlxalq təşkilatlarla əməkdaşlığının artırılması, parlament diplomatiyasının inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edirdi.

Milli Məclisin beynəlxalq platformalarda daha fəal təmsil olunması, beynəlxalq parlament təşkilatlarına üzvlüyü və ikitərəfli əməkdaşlıq münasibətlərinin qurulması Azərbaycanın beynəlxalq nüfuzunun artmasına da xidmət etdi.

Beləliklə, Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə aparılan Konstitusiya islahatları Azərbaycanın dövlət quruculuğunda mühüm mərhələ təşkil etdi. Bu islahatların ən mühüm istiqamətlərindən biri parlamentin – qanunverici hakimiyyətin dövlət idarəetmə sistemində rolunun və mövqeyinin gücləndirilməsi oldu. Parlamentin hüquqi statusunun müəyyən olunması, səlahiyyətlərinin genişləndirilməsi və institusional inkişafı Azərbaycan Respublikasında demokratik idarəetmənin formalaşmasında, hüquqi dövlət prinsiplərinin möhkəmləndirilməsində mühüm rol oynadı.

Heydər Əliyevin siyasi kursu ölkədə güclü parlament ənənələrinin yaranmasına və davamlı inkişafına zəmin yaratdı. Bu gün Azərbaycan Respublikasının parlamenti həmin islahatların məntiqi nəticəsi kimi ölkənin ictimai-siyasi həyatında aparıcı rola malik olan mühüm institutlardan biridir.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının Konstitusiyası (1995-ci il) – www.e-qanun.az
2. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı, 1997.
3. Əliyev H. Azərbaycan parlamenti və dövlətçilik tarixi. Bakı, 2000.
4. Əlizadə Ə. Azərbaycan Respublikasında Konstitusiya islahatları. Bakı, 2015.
5. Hüquqi Dövlət və Parlamentarizm: Heydər Əliyev İrsində Dövlətçilik Dərsləri. Bakı, 2013.

# VƏTƏNDAŞ MƏMNUNLUĞUNUN TƏMİN EDİLMƏSİNDƏ İCRA STRUKTURLARININ ROLU (KÜRDƏMİR RAYONU TİMSALINDA)

**Nisə Səlimova**

*Azərbaycan Respublikasının Prezidenti yanında*

*Dövlət İdarəçilik Akademiyası*

e-mail:nisa.salimova@mail.ru

Kürdəmir rayonunda vətəndaş məmnunluğu əsasən dövlət qurumları ilə vətəndaşlar arasında olan münasibətlərlə, eləcə də rayonda həyata keçirilən tədbirlər və layihələrlə bağlıdır.

Mərkəzi və yerli icra hakimiyyəti orqanları tərəfindən mütəmadi vətəndaş qəbulları keçirilir. Bu qəbullarda vətəndaşların şikayət və təklifləri dinlənilir, problemlərin həlli üçün tədbirlər görülür. 2025-ci ildə Kürdəmir rayonunda Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri və Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və

Nəqliyyat naziri vətəndaş qəbulları keçirmişdir. Bu qəbullarda həmçinin vətəndaşların fikirləri dinlənilmiş və problemləri həll olunması yolunda tapşırıqlar verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sisteminin yaradılması haqqında" 2015-ci il 29 aprel tarixli 503 nömrəli Fərmanına əsasən 2016-cı ildə rayon İcra Hakimiyyəti Başçısının Aparatında vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sistemi tətbiq edilmiş və müraciətlərinə baxılması bu sistem əsasında aparılmışdır. Rayon İcra Hakimiyyəti Başçısının Aparatında vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılması işinin daha da yaxşılaşdırılması sahəsində müvafiq tədbirlər görülmüş, bu işdə hər bir məsul işçi və aidiyyəti rəhbər işçilərdən ciddi məsuliyyət tələb edilmiş, bu işlər müntəzəm olaraq diqqət mərkəzində saxlanılmışdır.

Kürdəmir rayonunda vətəndaş məmnunluğu, rayon sakinlərinin yerli hakimiyyət orqanlarının fəaliyyətindən, göstərilən xidmətlərdən və ümumilikdə rayondakı həyat səviyyəsindən olan razılığını əks etdirir.

Rayonun iqtisadiyyatının inkişafı, yeni iş yerlərinin yaradılması, sahibkarlığın dəstəklənməsi və əhalinin rifah halının yüksəldilməsi vətəndaş məmnunluğunda böyük rol oynayır.

Kənd təsərrüfatı, xüsusən pambıqçılıq Kürdəmir rayonunda iqtisadiyyatın əsasını təşkil edir. Bu sahədə əldə olunan uğurlar əhalinin rifahına müsbət təsir göstəricilərindən biridir.

Dövlət orqanlarının şəffaflığı, ədalətliliyi və vətəndaşlarla effektiv ünsiyyəti vətəndaş məmnunluğu üçün çox vacibdir.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli 3199 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı” üzrə Tədbirlər Planının 2.6-cı bəndinə əsasən, yerli icra hakimiyyəti orqanları tərəfindən göstərilən elektron xidmətlərin sayının artırılması və səmərəliliyinin yüksəldilməsi məqsədilə həmin xidmətlərin Elektron Hökumət Portalına inteqrasiya olunmuş "Rəqəmsal İcra Hakimiyyəti” portalı üzərindən təmin edilməsi üzrə qurumlararası ixtisaslaşmış işçi qrupların yaradılması və fəaliyyətə başlaması nəzərdə tutulmuşdur. “Rəqəmsal İcra Hakimiyyəti” portalında Yerli İcra Hakimiyyəti Orqanları tərəfindən vətəndaşlara göstərilən 12 xidmət yerləşdirilmişdir.

Bundan əlavə, Kürdəmir regional “ASAN xidmət” mərkəzi fəaliyyət göstərir ki, bu mərkəz vasitəsilə vətəndaşlara operativ və şəffaf xidmətlər təqdim edilir. Mərkəz açıldığı gündən etibarən 608000-dən çox müraciət qəbul edib.

Ümumiyyətlə, Kürdəmir rayonunda vətəndaş məmnunluğunun artırılması istiqamətində dövlət qurumları tərəfindən müxtəlif tədbirlər həyata keçirilir və mövcud problemlərin həlli üçün səylər göstərilir.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının Elektron Hökümət Portalı-Rəsmi məlumat və xidmətlər üçün.
2. Azərbaycan Respublikası Kürdəmir Rayon İcra Hakimiyyəti-Rəsmi internet səhifəsi.

# AZƏRBAYCAN RESPUBLİKASINDA DİNİ EKSTREMİZMİN QARŞISININ ALINMSI MEXANİZMİ

**Ruqiyə Səttərova**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: rugiya.sattarova@bk.ru

***Açar sözlər:*** din, dini ekstermizm, dini radikalizm, qanun

Bu gün beynəlxalq ictimaiyyəti narahat edən məsələlərdən biri də dini ekstremizmdir. Bu ekstremizm növündə dini cərəyan, sekta daxilində digərlərinə qarşı aqressivlik, sıxışdırma özünü göstərir. Bəzən bu forma tək dini deyil, müxtəlif məqsədlərlə də yönəldilir.

Ekstremizm latın sözü olub "extremus" sözündən yaranıb son həddə maraq, ifratçılıq kimi şərh edilir. Bəzi hallarda ekstremizmi terrorizmlə eyniləşdirilir. Bunun isə ən başlıca səbəbi ekstremist davranışların manevr edib kompramisə gəlmək üçün münbit mühit buraxmamasıdır ki, belə olduğu halda ifratçılıq terrorizmlə müşayət olunur.

Təcrübə göstərir ki, 80-85 faiz dini ekstremizmin sonu dini terrorizmlə bitir. İslam dövlətlərində bu faiz daha da çoxdur. Həmçinin bu təhlükə Orta Asiyanın keçmiş sovet respublikalarına aiddir. Bu respublikalarda dini, yəni islam ekstremizminin inkişafına sosial problemlərin çoxalması, regionlarda avtoritar idarəçiliyin güclənməsi ilə yanaşı dini savadsızlıq da səbəb olur. Statistikaya görə, bu ölkələrdə hər 100 molladan cəmi 4-ü dini savada malikdir. Qalanlar isə dini istədikləri şəkildə təbliğ edirlər. Bunun nəticəsi də dəhşətli olur.

Azərbaycan Respublikasında dini ekstremizm təhlükəsi keçən əsrin 90-cı illərindən meydan çıxmağa başlamış, müstəqilliyin ilk illərində respublikada siyasi stabilliyin pozulması, Ermənistanla silahlı münaqişə və iqtisadi durumun çətinləşməsi ölkədə xeyli problem yaratmışdır. Dünyada baş verən son proseslər hər hansı bir dövləti parçalamağın ən asan yolunun həmin dövləti etnik yaxud dini münaqişəyə sürükləmək olduğunu göstərir. Bunun üçün həmin ölkələrdə milli azlıqların hüquqlarının pozulduğu iddia edilir, etnik qruplar arasında qarşıdurma yaradılır və onlar hakimiyyət əleyhinə qaldırılır. Məhz bu səbəbdən həmin illərdə Azərbaycanda separatçılıq meylləri xeyli güclənmiş, ölkə bölünmək və parçalanmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Yerli və xarici qüvvələr respublikanın Şimal və Cənub bölgələrində etnik qruplardan siyasi məqsədlərlə istifadəyə, hakimiyyətə qarşı qaldırmağa və milli zəmində münaqişələr yaratmağa çalışırdı.

Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışından sonra Azərbaycan hökumətinin həyata keçirdiyi ardıcıl və məqsədyönlü tədbirlər nəticəsində həmin cəhdlərin qarşısı qətiyyətlə alındı, bu sahəyə diqqət daha da artırdı, bütün xalqların nümayəndələrinin vahid azərbaycançılıq ideyası ətrafında birləşməsinə nail olundu.

Son illər bu respublikalarda dini ekstremizmlə mübarizəyə həsr olunan beynəlxalq konfransların artması da həyəcan təbilinin çalındığını göstərir. Artıq Milli Təhlükəsizlik orqanları və dini qurumlarla iş şöbələri ciddi fəaliyyətə başlayıb. Bu xüsusda Azərbaycan Respublikası da öz üzərinə düşən məsuliyyəti layiqincə yerinə yetirmiş, "Dini ekstremizmə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu ilə Azərbaycan Respublikasında dini ekstremizmə qarşı mübarizənin hüquqi və təşkilati əsaslarını müəyyən etmiş, dini ekstremizm əleyhinə

mübarizəni həyata keçirən dövlət orqanlarının və vətəndaşların hüquq və vəzifələrini təsbit etmişdir. Həmçinin ekstremizmə qarşı mübarizənin gücləndiriməsi və radikallıq meyllərinin qarşısının alınması ilə bağlı müddəalar Azərbaycan Respublikasının Qanunlarında da öz əksini tapmışdır. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 12.1, 279.1-ci (Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratma, eləcə də onların yaradılmasında və fəaliyyətində iştiraketmə, onları silahla, döyüş sursatı ilə, partlayıcı maddələrlə, hərbi texnika ilə, yaxud əsgəri ləvazimatla təchiz etmə), 28, 283-1.3-cü və 283-1.3-cü (Azərbaycan Respublikası vətəndaşlarını və ya Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsləri dini məzhəbləri yaymaq, dini ayinlərin icrası adı altında, yaxud dini düşmənçilik zəminində Azərbaycan Respublikasının hüdudlarından kənarda aparılan silahlı münaqişələrə cəlb etmə, yaxud bu məqsədlə döyüş təlimləri keçmə, yaxud həmin məqsədlə fəaliyyət göstərən sabit qrup yaratma və ya belə qrupa rəhbərlik etmə, eləcə də həmin qruplarda, təlimlərdə və ya silahlı münaqişələrdə iştirak etmə, yaxud bu ağır cinayətlərə hazırlıq) maddələri ekstremizmə qarşı mübarizədə xüsusi əhəmiyyətə malikdir.

Azərbaycan Respublikası öz daxili siyasətində kompleks həll yoluna sadiq qalaraq, multikultural və hüquqi dəyərləri kölgədə qoymadan, respublikamızda dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, dini radikalizm və ekstremizmə qarşı səmərəli mübarizənin aparılması məqsədilə müxtəlif formatlarda silsilə tədbirlər həyata keçirir, bu sahədə Baş Prokurorluq, Daxili İşlər və Müdafiə nazirlikləri, Dövlət Təhlükəsizliyi Xidməti və digər müvafiq dövlət qurumları, eləcə də qeyri-hökumət təşkilatları ilə sıx əməkdaşlıq edir.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikası Cinayət Məcəlləsi https://e-qanun.az/framework/46947
2. https://avrasiya.net/sosial/62683-ekstremizm-thluksi.html
3. Dini ekstremizmə qarşı mübarizə haqqında Azərbaycan Respublikasının qanunu. https://e-qanun.az/framework/31509
4. https://multiculturalism.preslib.az/az_events-JdRH3QC6Lt.html

# AZƏRBAYCAN KONTEKSTİNDƏ ELEKTRON TİCARƏT VƏ ONUN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

**Cavid Soltanov**
*Bakı Dövlət Universiteti*
e-mail: *cavidsoltanov@inbox.ru*

**Xülasə**

Müasir dövrdə informasiya-kommunikasiya texnologiya-larının (İKT) sürətli inkişafı cəmiyyətin bütün sahələrinə, xüsusilə də iqtisadi münasibətlər sisteminə əhəmiyyətli təsir göstərmişdir. Bu texnoloji dəyişikliklərin nəticəsi olaraq meydana çıxan elektron ticarət anlayışı, qlobal bazarlarda məhsul və xidmət dövriyyəsinin yeni, çevik və səmərəli formasını təmsil edir. Elektron ticarət vasitəsilə alıcı və satıcı arasında məkan və zaman məhdudiyyətləri aradan qalxır, iqtisadi əməliyyatlar daha sürətli və şəffaf şəkildə həyata keçirilir.

## Giriş

Qloballaşan dünyada informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı iqtisadi münasibətlərə də köklü dəyişikliklər gətirmişdir. Bu dəyişikliklərin ən mühüm nəticələrindən biri isə elektron ticarətin yaranması və sürətlə yayılmasıdır. Bu model ənənəvi ticarət anlayışını dəyişdirərək bizneslərin fəaliyyət formatını, istehlakçı davranışlarını və ümumilikdə iqtisadi əlaqələrin strukturunu yenidən formalaşdırmışdır.

Elektron ticarət (e-ticarət) – mal və xidmətlərin internet və digər rəqəmsal texnologiyalar vasitəsilə təqdim olunması, sifariş edilməsi, ödənişinin həyata keçirilməsi və çatdırılması ilə bağlı olan iqtisadi fəaliyyət növüdür. Bu anlayış ticarətin ənənəvi üsullarından fərqli olaraq, fiziki təmas olmadan, zaman və məkan məhdudiyyəti tanımadan həyata keçirilir.

Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan beynəlxalq iqtisadi əlaqələrini genişləndirməyə, bazarı liberallaşdırmağa və sahibkarlığın inkişafını stimullaşdırmağa başlamışdı. Bu siyasət nəticəsində özəl sektorun inkişafı və rəqəmsallaşma imkanları yaranmışdır ki, bu da sonrakı illərdə elektron ticarətin inkişafı üçün əlverişli zəmin formalaşdırmışdır. Heydər Əliyev çıxışlarında Azərbaycan gəncliyinə, elmə, təhsilə və texnologiyaya yönəlməyə çağırırdı. Bu çağırışlar rəqəmsal savadlılıq, startap mədəniyyəti və elektron platformalarda biznes qurmaq kimi anlayışların təməllərini formalaşdırmağa xidmət edib. Bu gün Azərbaycanda elektron ticarət sahəsində görülən işlər – E-gov portalı, ASAN xidmət, E-qaimə sistemləri, elektron ödəniş platformaları və rəqəmsal ödənişlərin artması məhz Heydər Əliyevin rəhbərliyi ilə atılmış strateji addımların, siyasi sabitliyin və texnoloji infrastrukturun yaradılmasının məntiqi davamıdır.

Elektron ticarətin hüquqi əsasları "Elektron ticarət haqqında" Azərbaycan Respublikasının Qanunu (10 may 2005-ci

il) ilə müəyyən edilir. Bu qanun: a) Elektron müqavilələrin hüquqi qüvvəsini tanıyır; b) Rəqəmsal imzanın istifadəsini tənzimləyir; c) Tərəflərin hüquq və vəzifələrini müəyyən edir; d) Elektron sənədlərin qorunması və məxfiliyi ilə bağlı qaydaları təsbit edir.

Eyni zamanda, Vergi Məcəlləsi, İstehlakçıların hüquqlarının müdafiəsi haqqında qanun, Elektron imza və elektron sənəd haqqında qanun da bu sahəyə aid normativ-hüquqi bazanı formalaşdırır.

**Nəticə və təklif**

Elektron ticarətin Azərbaycanda daha da inkişaf etməsi üçün kompleks və çoxşaxəli tədbirlərin görülməsi vacibdir. Bu sahədə uğurlu inkişaf üçün aşağıdakı istiqamətlər üzrə addımlar atılmalıdır:

1.Elektron ödəniş sistemlərinin genişləndirilməsi və sadələşdirilməsi – Nağdsız ödəniş vasitələrinin sayı və çeşidi artırılmalı, təhlükəsizlik sistemləri gücləndirilməlidir. Eyni zamanda, mobil ödəniş texnologiyalarının daha geniş tətbiqi təşviq olunmalıdır.

2.Hüquqi və normativ bazanın təkmilləşdirilməsi – Elektron ticarəti dəstəkləyən qanunvericilik bazası dövrün tələblərinə uyğun şəkildə daim yenilənməli, rəqəmsal müqavilələr, elektron sənədlər və istehlakçı hüquqları tam hüquqi təminat altına alınmalıdır.

3.Logistika və çatdırılma xidmətlərinin inkişafı – Sürətli və səmərəli çatdırılma sistemləri qurulmalı, regionlara yönəlik logistik xidmətlər təkmilləşdirilməli, yerli poçt və kuryer xidmətləri ilə inteqrasiya gücləndirilməlidir.

4.Rəqəmsal savadlılığın artırılması – Həm sahibkarlar, həm də istehlakçılara onlayn biznesin təşkili, elektron təhlükəsizlik və müştəri münasibətləri sahəsində biliklər verilməlidir.

5.Startaplara və innovativ texnologiyalara dəstək – Yerli texnoloji startapların və e-ticarət platformalarının inkişafı üçün güzəştli vergi siyasəti, qrantlar və investisiya imkanları yaradılmalıdır.

6.Beynəlxalq bazarlara inteqrasiya – Azərbaycan məhsullarının xarici e-ticarət platformalarında satışını təşviq edən dövlət proqramları hazırlanmalı, ixrac yönümlü onlayn satış mexanizmləri qurulmalıdır.

Bu tədbirlərin həyata keçirilməsi, həm daxili bazarda elektron ticarətin payının artmasına, həm də ölkənin rəqəmsal iqtisadiyyatının qlobal rəqabətə çıxmasına şərait yaradacaq.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi https://www.stat.gov.az/
2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi https://www.economy.gov.az/
3. Azərbaycan Respublikasının Mərkəzi Bankı https://www.cbar.az/
4. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi https://mincom.gov.az/
5. Elektron ticarət haqqında Azərbaycan Respublikasinin Qanunu- https://e-qanun.az/framework/10406
6. https://lifelong.unec.edu.az/e-biznes/
7. Beynəlxalq Valyuta Fondu - Azərbaycan üzrə Hesabatlar https://www.imf.org/en/Countries/AZE
8. Heydər Əliyev Mərkəzi - Heydər Əliyevin fəaliyyəti haqqında məlumatlar https://heydar-aliyev-center.az/
9. Heydər Əliyev Fondu https://heydar-aliyev-foundation.org/
10. https://eufordigital.eu/az/thematic-area/etrade/

# DİNİ EKSTREMİZMƏ QARŞI MÜBARİZƏ VƏ MULTİKULTURALİZM

**Aslan Sultanov**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: aslan.sultanov@scara.gov.az

Dini ekstremizm, cəmiyyətin təhlükəsizliyi və harmoniyasına ciddi təhdid yaradan bir fenomendir. Bu problemə qarşı mübarizədə multikulturalizm siyasəti mühüm rol oynayır. Azərbaycan Respublikasında tətbiq olunan multikulturalizm siyasəti, fərqli dini və mədəni qrupların bir arada sülh və harmoniya içində yaşamasını təmin edir.

**Multikulturalizm və onun əhəmiyyəti** – Multikulturalizm, fərqli mədəniyyətlərin, dinlərin və etnik qrupların bir arada yaşamasını təşviq edən bir siyasət və anlayışdır. Bu siyasət, mədəni müxtəlifliyi qorumaqla yanaşı, cəmiyyətin daha tolerant və sülhsevər olmasını təmin edir. Azərbaycanda multikulturalizm siyasəti, ölkənin tarixi və mədəni zənginliyini qorumaq və inkişaf etdirmək məqsədini daşıyır.

**Dini ekstremizmin anlayışı və təhlükələri -** Dini ekstremizm, dini ideologiyaların radikal və zorakı şəkildə yayılması və tətbiq edilməsidir. Bu cür ekstremizm, cəmiyyətin müxtəlif dini qrupları arasında qarşıdurma və nifrət yaradır, nəticədə isə sülh və təhlükəsizliyi təhdid edir. Dini ekstremizmin səbəbləri arasında sosial, iqtisadi və siyasi amillər, təhsil səviyyəsinin aşağı olması və mədəni təcrid də yer alır.

Multikulturalizm siyasətinin dini ekstremizmə qarşı mübarizədə rolu Azərbaycanın multikulturalizm siyasəti, dini

ekstremizmə qarşı mübarizədə bir neçə əsas istiqamətdə tətbiq olunur:

1. Təhsil və Maarifləndirmə: Məktəblərdə və universitetlərdə multikulturalizm və dini tolerantlıq dərslərinin keçirilməsi, gənclərin radikal ideologiyalardan uzaq durmasını təmin edir. Təhsil vasitəsilə fərqli mədəniyyətlərin və dinlərin bir arada sülh içində yaşaya biləcəyini anlamaq vacibdir.

2. Mədəniyyətlərarası Dialoq: Fərqli dini və etnik qrupların nümayəndələri arasında dialoq və əməkdaşlıq təşviq edilir. Bu cür tədbirlər, qarşılıqlı anlaşma və hörmətin artırılmasına kömək edir.

3. Hüquqi Mexanizmlər: Dini ekstremizmə qarşı mübarizədə qanunların sərtləşdirilməsi və radikal fəaliyyətlərin cəzalandırılması, cəmiyyətin təhlükəsizliyini təmin edir. Azərbaycan Respublikasının qanunvericiliyi bu sahədə güclü tədbirlər görməyi nəzərdə tutur.

**Beynəlxalq əməkdaşlıq və təcrübə mübadiləsi -** Azərbaycan, dini ekstremizmə qarşı mübarizədə beynəlxalq əməkdaşlığa da böyük əhəmiyyət verir. Bu çərçivədə, digər ölkələrin təcrübələrindən yararlanaraq, effektiv strategiyalar formalaşdırılır və tətbiq olunur. Beynəlxalq konfranslar və seminarlar vasitəsilə, dini ekstremizmə qarşı mübarizədə multikulturalizm siyasətinin rolu müzakirə edilir və təcrübə mübadiləsi aparılır.

## Nəticə

Dini ekstremizmə qarşı mübarizədə multikulturalizm siyasəti mühüm rol oynayır. Multikulturalizm siyasəti, cəmiyyətin müxtəlif dini və mədəni qruplar arasında harmoniyanın təmin olunmasına və radikal ideologiyaların yayılmasının qarşısının alınmasına kömək edir. Dini tolerantlığın artırılması, təhsil və maarifləndirmə tədbirləri, mədəniyyətlərarası

dialoq və beynəlxalq əməkdaşlıq, dini ekstremizmə qarşı mübarizədə multikulturalizmin əhəmiyyətini vurğulayan əsas komponentlərdir. Bu yolla, Azərbaycan cəmiyyəti daha təhlükəsiz və harmonik bir gələcəyə doğru irəliləyir.

### Ədəbiyyat


1. Azərbaycan Respublikasının Konstitusiyası və müvafiq qanunvericilik aktları
2. Akademik məqalələr və kitablar
3. Beynəlxalq təşkilatların hesabatları və tövsiyələri
4. İctimaiyyətin maarifləndirilməsi üzrə materiallar
5. Azərbaycan Respublikasının Multikulturalizm Siyasəti (https://example.com)
6. Dini Ekstremizm və Onun Təhlükələri (https://example.com)
7. Multikulturalizm və təhsil https://example.com - [Beynəlxalq əməkdaşlıq və təcrübə mübadiləsi (https://example.com)


## MÜƏSSİSƏLƏRİN KOMMERSİYA FƏALİYYƏTİNDƏ İNFORMASİYA İNFRASTRUKTURUNUN OPTİMALLAŞDIRILMASI: NEXT BEST PRODUCT (NBP) MODELİNİN TƏTBİQİ


**Şeyda Sultanova[1], Elvin Əzizbəyov[2]**

*[1,2]Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*

e-mail: sheydasultan.99@gmail.com


### Xülasə


Müasir müəssisələrdə rəqəmsallaşma və informasiya texnologiyalarının tətbiqi kommersiya fəaliyyətinin effektivliyini

artırır.İnformasiya infrastrukturunun optimallaşdırılması müəssisələrin məlumat axınını idarə etməsinə, dəqiq və çevik strateji qərarların verilməsinə, beləliklə də müştəri məmnuniyyətinin yüksəldilməsinə kömək edir. Bu tezisdə informasiya infrastrukturunun optimallaşdırılması metodları və Next Best Product (NBP) modelinin kommersiya fəaliyyətində istifadəsi araşdırılmışdır. Araşdırmalar nəticəsində əldə olunmuşdur ki, düzgün qurulmuş informasiya infrastrukturu və süni intellekt əsaslı analitik modellər satışları artırır və marketinq strategiyalarının səmərəliliyini yüksəldir.

***Açar sözlər:*** informasiya infrastrukturu, kommersiya fəaliyyəti, Next Best Product (NBP), süni intellekt, maşın öyrənməsi, müştəri məmnuniyyəti, analitik modellər

## Giriş

Müasir müəssisələr üçün informasiya infrastrukturu biznes strategiyalarının uğurla həyata keçirilməsində mühüm rol oynayır. Rəqəmsal texnologiyaların inkişafı müəssisələrin məlumat axınını effektiv idarə etməsinə və strateji qərarları dəstəkləyən analitik modellərdən istifadə etməsinə imkan yaradır.

## 1. Kommersiya fəaliyyətində informasiya infrastrukturunun rolu

Müasir iqtisadiyyatda informasiya infrastrukturu müəssisələrin qərar qəbul etmə mexanizminin ayrılmaz hissəsinə çevrilib. İnformasiya sistemləri müəssisələrdə əsas biznes proseslərini avtomatlaşdırmaqla yanaşı, qərarların daha dəqiq və elmi əsaslarla verilməsinə imkan yaradır. Məsələn, ERP (Enterprise Resource Planning) sistemləri müəssisənin istehsal, logistika, maliyyə və insan resurslarını idarə etməsinə kömək edir. Bu sistemlər resurslardan daha səmərəli istifadəni təmin edir və xərcləri optimallaşdırır [1].

Bununla yanaşı, CRM (Customer Relationship Management) sistemləri müştəri məlumatlarını analiz edərək, satış və marketinq strategiyalarını fərdiləşdirir və effektivliyini artırır. Məsələn, pərakəndə satış sektorunda CRM sistemləri müştərilərin alış-veriş tarixçəsini analiz edərək, onların ehtiyaclarına uyğun məhsul və xidmətlər təklif etməyə imkan yaradır [2].

## 2. İnformasiya infrastrukturunun optimallaşdırılması

İnformasiya infrastrukturunun optimallaşdırılması müəssisələr üçün strateji əhəmiyyət kəsb edir. Düzgün optimallaşdırma modeli informasiya axınını daha effektiv təşkil edir və müəssisənin rəqabət qabiliyyətini artırır. Müxtəlif riyazi modellər və texnoloji həllər bu sahədə geniş tətbiq edilir.

İnformasiya sistemlərinin optimallaşdırılmasında xətti proqramlaşdırma, süni intellekt və maşın öyrənmə metodlarından geniş istifadə olunur. Xüsusilə, Big Data texnologiya- ları müəssisələrə bazar tendensiyalarını analiz edərək, strateji planlama aparmağa imkan yaradır. Süni intellekt və maşın öyrənmə modelləri isə satış proqnozlarını və müştəri davranış- larını dəqiq müəyyənləşdirərək müəssisələrə fərdiləşdirilmiş xidmətlər təqdim etməyə şərait yaradır [3].

## 3. Next Best Product (NBP) modeli

NBP modeli müəssisələrdə satışların artırılması və müştəri məmnuniyyətinin yüksəldilməsi üçün istifadə olunan süni intellekt əsaslı yanaşmadır. Bu model müştərinin keçmiş alış-veriş davranışını və demoqrafik xüsusiyyətlərini analiz edərək növbəti uyğun məhsul və ya xidməti müəyyən edir [2].

Məsələn, bir elektron ticarət platforması istifadəçinin keçmiş sifarişlərini analiz edərək, ona uyğun yeni məhsullar təklif edə bilər. Əgər müştəri tez-tez ağıllı telefon alırsa, ona uyğun aksesuarlar və ya yeni model telefonlar tövsiyə olunur. Bu modelin

tətbiqi nəticəsində müəssisələr satışlarını artırır və müştəri bağlılığını möhkəmləndirir.

NBP modeli aşağıdakı texnologiyalardan istifadə edir:

- Maşın öyrənmə alqoritmləri (Machine Learning) – Müştəri davranışlarını proqnozlaşdırır və fərdi təkliflər təqdim edir.
- Asossiasiya qaydaları (Association Rules) – Müştərilərin birlikdə aldığı məhsulları təhlil edərək əlaqəli təkliflər təqdim edir.
- K-Nearest Neighbors (KNN) alqoritmi – Müştəriləri oxşar xüsusiyyətlərə malik qruplara ayıraraq, uyğun məhsullar tövsiyə edir.

Next Best Product (NBP) modelinin müəssisələr üçün bir sıra üstünlükləri vardır. İlk növbədə, müştəri məmnuniyyətini artırır, çünki alqoritm müştərilərin əvvəlki alışlarını və davranışlarını təhlil edərək, onların ehtiyaclarına daha uyğun məhsul və xidmətlər təqdim edir [2]. Bu, eyni zamanda satışların yüksəlməsinə səbəb olur, çünki fərdiləşdirilmiş təkliflər müştərilərin satınalma ehtimalını artırır. Digər tərəfdən, marketinq xərclərinin optimallaşdırılmasına imkan yaradır. Müəssisələr hədəflənmiş reklam strategiyaları vasitəsilə potensial müştəriləri daha dəqiq müəyyən edə bildikləri üçün lazımsız marketinq xərcləri azalır və daha səmərəli nəticələr əldə edilir. Bu modelin tətbiqi sayəsində müəssisələr müştəri bazasını daha yaxşı anlayır, bazar tələblərinə çevik reaksiya verir və rəqabət üstünlüyü qazanırlar.

## Nəticə

İnformasiya infrastrukturunun optimallaşdırılması və NBP modelinin tətbiqi müəssisələr üçün strateji əhəmiyyət daşıyır. Düzgün qurulmuş informasiya sistemləri və süni intellekt əsaslı analitik yanaşmalar müəssisələrin rəqabət qabiliyyətini artırır, müştəri məmnuniyyətini yüksəldir və satış strategiyalarının daha effektiv icrasına kömək edir. Gələcək tədqiqatlar bu sahədə yeni

texnologiyaların və süni intellekt alqoritmlərinin tətbiqinin genişləndirilməsi istiqamətində aparılmalıdır.

**Ədəbiyyat**

1. Əlizadə M.N., Musayev İ.K., Əliyev E.B., Müasir informasiya sistemlərinin idarə edilməsi, Bakı 2016.
2. Əkbərov M.Q., Elektron kommersiya, Bakı 2011.
3. Əlizadə M.N., Musayev İ.K., İqtisadi informatika, Bakı 2016.

## DÖVLƏT QULLUĞUNDA RƏQƏMSALLAŞMA STRATEGİYALARI: TƏHLÜKƏSİZLİK SFERASINDA RİSKLƏRİN OPTİMALLAŞDIRILMA ÜSULLARI

**Aytən Süleymanova**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: hesenovaayten90@gmail.com

Hal-hazırda biz rəqəmsallaşmanın əhəmiyyətini cəmiyyətin müxtəlif sahələrində — təhsil, səhiyyə, dövlət idarəçiliyi, iqtisadiyyat, rabitə, nəqliyyat və s. görə bilərik. Onun əsas məqsədi xidmət və proseslərin səmərəliyinin artırılmasına, əlçatanlığın və şəffaflığın təmin olunmasına, cəmiyyətdə rəqabət qabiliyyətinin gücləndirilməsinə, davamlı inkişafa nail olmaqdır. Bu proses həm dövlət, həm də özəl sektorda insan resurslarının yükünü azaltmaqla yanaşı qərar qəbuletmə mexanizmlərində dəqiqliyi artırır.

Azərbaycanda artıq uzun müddətdir ki, rəqəmsal hökumətin formalaşdırılması, rəqəmsal bilik və bacarıqların artırılması, eləcə də rəqəmsal iqtisadiyyata keçid istiqamətində

mühüm addımlar atılaraq, ölkənin dayanıqlı inkişafı istiqamətində nəzərəçarpacaq dərəcədə əhəmiyyətli işlər görülmüşdür. “Elektron hökumət”in formalaşdırılması, bu sahədə idarəetmənin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi, dövlət xidmətlərinin “bir pəncərə” prinsipi əsasında təqdim edilməsi üçün “Elektron hökumət” portalının qurulması, dövlət informasiya sistemlərinin və ehtiyatlarının özündə saxlanılmasını nəzərdə tutan “Hökumət buludu”nun yaradılması, fiziki imza ilə eyni hüquqi qüvvəyə malik elektron (asan) imzaya keçid bu istiqamətdə atılmış ilk addımlardır.

Son illərdə isə bu istiqamətdə daha iri layihələr reallaşdırılmış, qanunvericilik bazası təkmilləşdirilmişdir. “Elektron məhkəmə”, “Rəqəmsal ekologiya”, “İdarələrarası elektron sənəd dövriyyəsi” informasiya sistemlərinin , Dövlət Xidmətlərinin Elektron Reyestri ilə yanaşı mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestrinin və s. yaradılması ilə bağlı normativ hüquqi aktlar qəbul olunmuşdur. Eləcə də informasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyin təmin edilməsi, iqtisadi inkişafın sürətləndirilməsi və vətəndaşların həyat keyfiyyətinin artırılması məqsədi ilə təsdiq olunmuş “Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023–2027-ci illər üçün Strategiyası” və “Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası” rəqəmsal cəmiyyətə sürətlə keçidin göstəricisidir.

Heç də təsadüfi deyildir ki, Azərbaycan 2024-cü ildə BMT-nin Elektron Hökumətin İnkişaf İndeksi (EGDI) üzrə ən yüksək göstəricisi olan ölkələr qrupuna daxil olmuşdur. Beynəlxalq hesabatda ölkəmiz 193 ölkə arasında 74-cü yerdə qərarlaşmışdır.

Onu da qeyd edək ki, son illərdə istər dövlət, istərsə də özəl qurumlar tərəfindən böyük miqyaslı strateji layihələrin reallaşdırılması zamanı hazırda aktual olan süni intellekt, blockchain və big data texnologiyalarından istifadə olunur.

Azərbaycanda rəqəmsallaşma səviyyəsinin dinamik inkişafını təmin etmək və bu sahədə yüksək nəticələrə nail olmaq məqsədilə aşağıda təqdim olunan tədbirlərin ardıcıl və sistemli şəkildə icrası, rəqəmsal transformasiya proseslərinin səmərəliliyinin yüksəldilməsinə və uzunmüddətli dayanıqlı inkişafa töhfə verə bilər:

1.Dayanıqlı infrastruktur inkişaf etdirilərək regionlarda ev təsərrüfatlarının yüksək sürətli internətə çıxış imkanının genişləndirilməsi;

2.Əhalinin bütün təbəqələrinin rəqəmsal mühitə əlçatanlığının təmin edilməsi məqsədi ilə internet tariflərinə yenidən baxılması;

3.Rəqəmsal savadlılığının artırılması məqsədi ilə ixtisaslaşmış mütəxəssislərin hazırlanması və mövcud kadrların təkmilləşdirilməsi üçün təhsil proqramlarının genişləndirilməsi, eyni zamanda vətəndaşların rəqəmsal bacarıqlarının artırılması üçün ölkə üzrə davamlı təlim və seminarların təşkili.

Gələcək rəqəmsaldır və bu gələcəyə hazırlıqlı olmaq, sadəcə texnologiyanı tətbiq etməklə deyil, onu səmərəli və inklüziv şəkildə idarə etməklə mümkündür. Rəqəmsal dövlət idarəçiliyi yalnız idarəetmə prosesinin rəqəmsallaşdırılması deyil, həm də vətəndaşların dövlətlə olan münasibətlərinin keyfiyyətcə yeni mərhələyə keçidi deməkdir. Bu sahədə ardıcıl olaraq aparılan islahatlar Azərbaycanın innovativ və şəffaf dövlət idarəçiliyi modelinə keçidini təmin edəcək, vətəndaş məmnunluğunu və sosial rifahı daha da yüksəldəcəkdir.

**Ədəbiyyat**

1. https://e-qanun.az/, https://president.az/, https://www.e-gov.az;
2. Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən yayımlanan məqalələr və tədqiqatlar - Yerli kontekstdə elektron hökumət üzrə araşdırmalar üçün.

# ŞƏKİ-ZAQATALA İQTİSADİ RAYONUNDA KƏND TƏSƏRRÜFATI VƏ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ

**Tahir Şamilov**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: tahir.shamilov95@gmail.com

Şəki-Zaqatala iqtisadi rayonu, Azərbaycanın qərb hissəsində yerləşən və kənd təsərrüfatı sahəsində yüksək potensiala malik olan bir bölgədir. Bu rayon, zəngin təbii sərvətləri və müxtəlif coğrafi şəraiti ilə əkinçilik və heyvandarlıq üçün əlverişli şərait yaradır. Lakin, ətraf mühitin qorunması və təbii resursların davamlı istifadəsi məsələləri burada əhəmiyyətli yer tutur. Rayonun kənd təsərrüfatı potensialı ilə yanaşı, bu fəaliyyətin ekosistemlərə təsiri və təbii sərvətlərin səmərəli istifadə edilməsi məsələləri də diqqət mərkəzindədir.

**Kənd Təsərrüfatı və İqtisadi Təsirləri:**

Şəki-Zaqatala iqtisadi rayonunda kənd təsərrüfatı əsas iqtisadi fəaliyyət sahəsidir. Rayon ərazisində taxıl, tərəvəz, meyvə və heyvandarlıq sahələri inkişaf etmişdir. Burada yetişdirilən məhsullar arasında alma, armud, üzüm, şaftalı, tütün kimi məhsullar xüsusilə önəmlidir. Şəki-Zaqatala həmçinin heyvandarlıq sahəsində də vacib rol oynayır, burada qoyunçuluq və

inəkçiliyin inkişafı əhəmiyyətli yer tutur. Rayonun dağlıq və çəmən əraziləri heyvanların sağlam bəslənməsinə imkan verir, bu da kənd təsərrüfatı fəaliyyətinin məhsuldarlığını artırır.

**Ətraf Mühitin Mühafizəsi və İqtisadi Təsirlər:**

Ətraf mühitin qorunması məsələsi, kənd təsərrüfatı fəaliyyətləri ilə sıx əlaqəlidir. Şəki-Zaqatala iqtisadi rayonu, zəngin təbii mühitə malik olsa da, intensiv kənd təsərrüfatı fəaliyyəti və təbii resursların qeyri-davamlı istifadəsi ətraf mühitə ziyan vura bilər. Buna görə də, ətraf mühitin qorunması və təbii resursların səmərəli istifadəsi üçün müasir texnologiyaların və ekoloji yanaşmaların tətbiqi vacibdir. Bu yanaşmalar, torpaqların məhsuldarlığının qorunmasına və ekosistemlərin balansının saxlanmasına xidmət edir.

Şəki-Zaqatala iqtisadi rayonu çoxsaylı faydalı qazıntılarla zəngindir. Bu ərazidə ölkənin mis ehtiyatlarının tamamilə, kükürd kolçedanın 90%-nin və sinkin 99%-nin mövcud olduğu bildirilir. Filizçay yatağı, Qafqazın ən böyük polimetal yataqlarından biri, bu rayonda yerləşir. Dağlıq və dağətəyi ərazilərdə isə çınqıl, qum və digər tikinti materialları mövcuddur. Ərazinin 27%-ini meşə sahələri təşkil edir, bunların əsas hissəsi Balakən və Zaqatala rayonlarında yerləşir.

Rayon həmçinin zəngin su ehtiyatlarına sahibdir. İqtisadiyyatın əsasını kənd təsərrüfatı təşkil edir. Bu rayon tütünçülük, baramaçılıq, çayçılıq, gülçülük, çəltikçilik, meyvəçilik, taxılçılıq, üzümçülük və qoyunçuluq kimi kənd təsərrüfatı sahələri ilə ölkənin məhsul istehsalında böyük yer tutur. Azərbaycanda istehsal olunan tütünün 75%-i, taxılın 17%-i, baramanın 35%-i və yaşıl çay yarpağının 2%-i bu iqtisadi rayonun payına düşür. Rayon həmçinin ölkə üzrə heyvandarlıq məhsullarının 10%-dən çoxunu təmin edir.

Şəki-Zaqatala iqtisadi rayonunun təbii sərvətlərindən istifadənin əsas məqsədi müxtəlif sahələrdəki tələbatları qarşılamaqdır. Bu ərazidə tikinti materiallarının istehsalı və istifadəsi də önəmlidir, lakin regional tələbatın məhdudluğu və digər iqtisadi rayonlarla əlaqələr materialların istifadəsini bir qədər məhdudlaşdırır. Rayonun iqtisadi potensialı, təbii sərvətlərdən istifadə edərək, kurort və rekreasiya ehtiyaclarına yönəlib. Burada mineral bulaqlar, müalicəvi meşə sahələri və istirahət üçün əlverişli şərait mövcuddur. Kurort və sanatoriya kompleksləri bu sərvətlərdən faydalanaraq insanlara sağlamlıq xidmətləri göstərir.

Nəticə olaraq, Şəki-Zaqatala iqtisadi rayonunda kənd təsərrüfatının inkişafı ilə yanaşı, ətraf mühitin qorunması və təbii sərvətlərin davamlı istifadəsi prioritet olmalıdır. Bu yanaşma həm iqtisadi, həm də ekoloji baxımdan regionun gələcək inkişafına mühüm töhfə verəcəkdir.

## Ədəbiyyat


1. Allahverdiyev K.Ş. Şəki-Zaqatala iqtisadi rayonunun təbii şəraiti və təbii ehtiyatlarının iqtisadi cəhətdən qiymətləndirilməsi
2. İsmayılova Ü.T. Şəki - Zagatala iqtisadi rayonunda rekreasiya-turizm potensialından istifadənin əhali məşğulluğu problemlərinin həllinə təsiri istiqamətləri. https://journals.indexcopernicus.com/api/file/viewByFileId/287728 2021
3. Məmmədov, T. (2019). Azərbaycanın İqtisadi Rayonları və İnkişaf Perspektivləri. Bakı: Elm və Təhsil Nəşriyyatı
4. Əliyev, M. (2021). Şəki-Zaqatala İqtisadi Rayonunun Təbii Sərvətləri və İqtisadi Potensialı. Bakı: Qafqaz Universiteti Nəşriyyatı

# HEYDƏR ƏLİYEVİN HÜQUQİ DÖVLƏT QURUCULUĞUNDA BEYNƏLXALQ TƏŞKİLATLARLA ƏMƏKDAŞLIQ: NATO NÜMUNƏSİNDƏ

**Fuad Şammadov**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: fuadshammedov@yahoo.com

***Açar sözlər:*** Heydər Əliyev, Azərbaycan Respublikası, hüquqi dövlət quruculuğu, Konstitusiya, NATO, əməkdaşlıq.

## Giriş

Müstəqil Azərbaycanın hüquqi dövlət kimi formalaşması və beynəlxalq hüquq sisteminə inteqrasiyası dövründə konstitusiya quruculuğu prosesi strateji əhəmiyyətə malik olmuşdur. Bu prosesin uğurla həyata keçirilməsi Azərbaycanın müstəqil dövlətçilik prinsiplərinin, vətəndaş cəmiyyəti institutlarının və insan hüquqlarının təmin olunması baxımından fundamental rol oynamışdır. Bu sahədə misilsiz xidmətləri olan Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasının Konstitusiyasının müəllifi olmaqla yanaşı, həm də bu sənədin beynəlxalq hüquq prinsiplərinə uyğunlaşdırılmasında, xarici təşkilatlarla əməkdaşlığın qurulmasında aparıcı rol oynamışdır. Xüsusilə NATO ilə əməkdaşlıq bu kontekstdə diqqətəlayiq istiqamətlərdən biri olmuşdur.

Bu tezisdə Heydər Əliyevin hüquqi dövlət quruculuğu fəaliyyətində beynəlxalq təşkilatlarla, xüsusilə NATO ilə əməkdaşlıq çərçivəsində həyata keçirdiyi strategiyalar, bu əməkdaşlığın hüquqi sistemin inkişafına təsiri və Azərbaycanın beynəlxalq mövqeyinin güclənməsindəki rolu təhlil edilir.

## Konstitusion dövlət quruculuğu və beynəlxalq hüquqa inteqrasiya

1990-cı illərin əvvəllərində Azərbaycanda ictimai-siyasi sabitliyin pozulması, hüquqi mexanizmlərin zəifliyi və normativ bazanın natamamlığı səbəbindən müstəqil dövlətin qurulması ciddi maneələrlə üzləşmişdi. Lakin Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra hüquqi dövlət quruculuğu istiqamətində əsaslı islahatlar başlandı. Bu dövrdə beynəlxalq təşkilatlarla əməkdaşlıq Azərbaycan üçün həm təcrübə mənbəyi, həm də siyasi legitimlik vasitəsi idi.

1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasının hazırlanması zamanı bu amillərin əhəmiyyətli təsiri olmuşdur. Sənədin hazırlanması zamanı Birləşmiş Millətlər Təşkilatı, Avropa Şurası, ATƏT və NATO kimi təşkilatların hüquqi normaları, tövsiyələri və standartları nəzərə alınmışdır. Konstitusiyada hüququn aliliyi, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi, demokratik institutların fəaliyyət mexanizmləri kimi bəndlər məhz bu beynəlxalq standartlara uyğunlaşdırılmışdır.

Heydər Əliyev bu məsələdə vurğulayırdı ki, "Konstitusiya xalqın iradəsini ifadə etməklə yanaşı, eyni zamanda onun beynəlxalq aləmdə tanınmasını və hüquqi dövlət kimi qəbul olunmasını da təmin etməlidir"

## Heydər Əliyevin strateji baxışları və beynəlxalq hüquqi mövqeyin möhkəmləndirilməsi

Heydər Əliyevin hüquqi dövlət quruculuğunda beynəlxalq təşkilatlarla əməkdaşlığa verdiyi önəm onun strateji dövlətçilik baxışının təzahürü idi. O, yalnız daxili idarəçiliklə deyil, həm də Azərbaycanın beynəlxalq hüquqi münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınması ilə maraqlanırdı. NATO ilə əməkdaşlıq bu baxımdan siyasi balansın qorunması, Qərblə münasibətlərin

inkişafı və eyni zamanda regional təhlükəsizliyin təmin olunması baxımından əhəmiyyət kəsb edirdi.

Bu strategiyanın nəticəsi kimi, Azərbaycan beynəlxalq aləmdə hüquqi və demokratik islahatlara sadiq ölkə kimi tanınmağa başladı. NATO tərəfindən təqdim edilən İPAP (Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı) çərçivəsində ölkədə bir sıra qanunvericilik aktları yenidən işlənildi və yeni islahat proqramları qəbul edildi

Bundan əlavə, NATO ilə əməkdaşlıq çərçivəsində keçirilən proqramlar və seminarlar Azərbaycan hüquqşünaslarının, dövlət qulluqçularının və qanunvericilərin beynəlxalq təcrübəyə yiyələnməsi baxımından əhəmiyyətli idi. Bu da öz növbəsində, hüquqi sistemin beynəlxalq standartlara uyğunlaşdırılmasına töhfə verdi.

Heydər Əliyev bu prosesin rəhbəri və ilhamverici qüvvəsi kimi həm daxili hüquqi mühitin sabitləşməsinə, həm də Azərbaycanın xarici siyasətdə etibarlı tərəfdaş kimi qəbul olunmasına zəmin yaratdı.

## Nəticə

Nəticə etibarilə, Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən konstitusion dövlət quruculuğu prosesi beynəlxalq hüquqla inteqrasiya olunmuş bir hüquqi sistemin formalaşmasını təmin etdi. NATO ilə əməkdaşlıq bu strategiyanın mühüm komponenti kimi çıxış etdi. Bu əməkdaşlıq təkcə siyasi və hərbi sahələri deyil, hüquqi və institusional islahatları da əhatə etdi və Azərbaycanın beynəlxalq hüquq sistemində etibarlı mövqe tutmasına şərait yaratdı.

Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və uzaqgörən siyasəti nəticəsində Azərbaycan bu gün hüquqi dövlət prinsiplərinə əsaslanan və beynəlxalq təşkilatlarla effektiv əməkdaşlıq edən bir ölkə kimi tanınır.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. - Bakı: Qanun nəşriyyatı. 2019. - 96 s.
2. “Azərbaycan Respublikasının Prezidenti yanında Azərbaycan Respublikasının NATO ilə əməkdaşlıq üzrə Komissiyası haqqında” Əsasnamə, 1999. // https://e-qanun.az/framework/5246 (12.04.2025 20:27).
3. NATO. (1994). Partnership for Peace: Framework Document. Brüssel.
4. Azərbaycan-NATO 15 illik tərəfdaşlıq. – Brüssel: Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyi. 2009, -78 s.
5. Azərbaycan-NATO: tərəfdaşlıqdan başlanan yol (1994-2009)./Heydər Əliyev İrsini Araşdırma Mərkəzi. – Bakı: Apostrof, 2009, -342 s.
6. Əliyev, H. (1998). Müstəqilliyimiz əbədidir. Bakı: Azərnəşr, - 527 s.
7. “Azərbaycan-NATO” // https://azerbaijan.az/related-information/198 (15.04.2025 17:18).
8. NATO-nun rəsmi saytı // https://www.nato.int/ (11.04.2025 21:18).
9. “Azəbaycan və NATO əməkdaşlığı haqqında arayış” // https://www.mfa.gov.az/ (14.04.2025 18:21).
10. "Heydər Əliyev irsi" Beynəlxalq Elektron Kitabxanası. // https://lib.aliyevheritage.org/az/index. html (10.04.2025 19:21).

# DÖVLƏT QULLUĞUNDA MÜASİR ÇAĞIRIŞLAR VƏ ONLARA ADAPTASİYA STRATEGİYALARI

**Nicat Şirinov**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: nijat010@mail.ru

Dövlət qulluğu müasir idarəetmənin əsas sütunlarından biridir və onun effektiv fəaliyyəti dövlətin inkişaf səviyyəsini müəyyən edən başlıca amillərdən sayılır. Qloballaşma, sürətli texnoloji dəyişikliklər, vətəndaşların artan tələbləri və yeni idarəetmə modelləri dövlət qulluğunda davamlı islahatlar aparılmasını zəruri edir. Bu kontekstdə dövlət qulluğunun qarşılaşdığı müasir çağırışların təhlili və onlara uyğun adaptasiya strategiyalarının işlənib hazırlanması xüsusi əhəmiyyət daşıyır.

Dövlət idarəçiliyində innovativ yanaşmalar, rəqəmsal texnologiyaların tətbiqi, şəffaflığın artırılması və səmərəli insan resursları siyasətinin formalaşdırılması vacib məsələlərdən biridir. Həmçinin, vətəndaşların dövlət idarəçiliyində iştirakı, korrupsiya ilə mübarizə və ictimai xidmətlərin keyfiyyətinin artırılması kimi aspektlər dövlət qulluğunun əsas prioritetləri arasındadır.

Bu tezisdə dövlət qulluğunda müasir çağırışlar təhlil ediləcək, bu sahədə tətbiq olunan innovativ həllər araşdırılacaq və dövlət idarəçiliyinin səmərəliliyinin artırılması üçün mümkün strategiyalar irəli sürüləcəkdir.

## Dövlət qulluğunun müasir çağırışları

*Rəqəmsal transformasiya və süni intellektin tətbiqi*

Dövlət idarəçiliyində rəqəmsal transformasiya XXI əsrin əsas çağırışlarından biridir. Elektron hökumət sistemlərinin

inkişafı, dövlət xidmətlərinin onlayn rejimə keçirilməsi və süni intellektin tətbiqi idarəetmənin effektivliyini artırır. Azərbaycan Respublikası "Elektron hökumət" konsepsiyası çərçivəsində bir sıra uğurlu layihələr həyata keçirmişdir. ASAN xidmət mərkəzləri və "myGov" portalı dövlət xidmətlərinin rəqəmsallaşmasına nümunədir.

Lakin rəqəmsallaşma ilə bağlı bəzi çətinliklər də mövcuddur. İnfrastrukturun tam formalaşdırılmaması, kibertəhlükəsizlik riskləri və dövlət qulluqçularının rəqəmsal bacarıqlarının yetərsizliyi bu sahədə həllini gözləyən əsas problemlərdəndir.

*Dövlət qulluğunda şəffaflıq və korrupsiya ilə mübarizə*

Şəffaflığın artırılması və korrupsiya ilə mübarizə dövlət idarəçiliyində əsas prioritetlərdən biridir. Azərbaycan bu sahədə mühüm addımlar atmışdır. Xüsusilə, "ASAN xidmət" modeli korrupsiyaya qarşı mübarizədə mühüm rol oynayır. Elektron hökumət xidmətləri və açıq hökumət təşəbbüsləri dövlət idarəçiliyində şəffaflığı artırmağa yönəlmişdir.

Lakin bəzi hallarda kölgə iqtisadiyyatı, dövlət qulluqçularının vəzifə səlahiyyətlərindən sui-istifadə etməsi və ictimai nəzarətin yetərli olmaması korrupsiyaya qarşı mübarizədə problemlər yaradır. Bu sahədə vətəndaş cəmiyyətinin fəallığının artırılması və daha sərt nəzarət mexanizmlərinin tətbiqi vacibdir.

*Dövlət qulluqçularının peşəkarlığının artırılması*

Dövlət qulluğunda insan resurslarının inkişafı, peşəkar kadr hazırlığı və dövlət qulluqçularının mütəmadi olaraq təkmilləşdirilməsi böyük əhəmiyyət daşıyır. Bu məqsədlə Azərbaycan Respublikasında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası tərəfindən müxtəlif təlim və inkişaf proqramları həyata keçirilir.

Bununla belə, dövlət qulluğunda bəzi kadr problemləri qalmaqdadır. Gənc mütəxəssislərin dövlət qulluğuna marağının az olması, karyera yüksəlişində bəzi çətinliklər və dövlət qulluqçularının motivasiya problemləri bu sahədə həll olunmalı məsələlərdir.

**Dövlət qulluğunda adaptasiya strategiyaları**

*Elektron dövlət idarəçiliyinin genişləndirilməsi*

Elektron dövlət idarəçiliyinin inkişafı dövlət xidmətlərinin keyfiyyətini artırmaqla yanaşı, bürokratik maneələri aradan qaldırır. Bu məqsədlə dövlət orqanlarının rəqəmsal texnologiyalarla təmin edilməsi, onlayn xidmətlərin əhatə dairəsinin genişləndirilməsi və dövlət qulluqçularının rəqəmsal savadlılığının artırılması vacibdir.

*Açıq hökumət təşəbbüslərinin gücləndirilməsi*

Vətəndaşların dövlət idarəçiliyində iştirakını artırmaq üçün açıq hökumət təşəbbüslərinin gücləndirilməsi və ictimai nəzarət mexanizmlərinin genişləndirilməsi vacibdir. Dövlət qulluğunda hesabatlılığın artırılması, ictimai iştirakçılığın genişləndirilməsi və vətəndaş məmnuniyyətinin ölçülməsi üçün innovativ həllər tətbiq edilməlidir.

*Dövlət qulluqçularının davamlı inkişafı və motivasiya mexanizmləri*

Dövlət qulluqçularının bilik və bacarıqlarının artırılması üçün mütəmadi təlim proqramlarının tətbiqi, dövlət qulluğunda karyera yüksəlişinin ədalətli qaydada təşkili və maddi-mənəvi motivasiya mexanizmlərinin gücləndirilməsi vacibdir.

Dövlət qulluğunun müasir çağırışlara uyğun adaptasiyası üçün rəqəmsal texnologiyaların tətbiqi, şəffaflığın artırılması və kadr siyasətinin təkmilləşdirilməsi mühüm rol oynayır. Dövlət idarəçiliyinin effektivliyini artırmaq üçün innovativ idarəetmə yanaşmalarının genişləndirilməsi, korrupsiya ilə mübarizənin

gücləndirilməsi və vətəndaş cəmiyyətinin fəallığının artırılması vacibdir.


**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının Dövlət Qulluğu Portalı – Rəsmi məlumat və xidmətlər üçün.
2. Azərbaycan Milli Elmlər Akademiyasının elmi məqalələri – Dövlət idarəçiliyində müasir tendensiyalar üzrə araşdırmalar.
3. "Dövlət qulluğunun inkişaf strategiyası". Azərbaycan Milli Elmlər Akademiyası, İqtisadiyyat İnstitutu, 2023.


## AZƏRBAYCANDA HAKİMİYYƏT BÖLGÜSÜ PRİNSİPİ HAQQINDA


**Beyrək Tanrıverdili**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: beyraktanriverdili@gmail.com


Azərbaycanda hakimiyyətin bölgüsü prinsipi ilk dəfə Xalq Cümhuriyyətində tətbiq edilməyə başlanmış, bir-birilə qarşılıqlı fəaliyyət göstərən Milli Şura, Nazirlər Kabineti, Məclisi-Məbusan və məhkəmə orqanları təşkil edilmiş, lakin Konstitusiyanın qəbulu mümkün olmamış və ali dövlət hakimiyyəti qollarının səlahiyyət həddi dəqiq müəyyənləşməmişdi. Sovet Birliyi dönəmində hakimiyyətin bölgüsü prinsipi faktiki olaraq aradan qaldırılmış, bütün səlahiyyətlər Kommunist Partiyasının əlində cəmlənmişdi. Odur ki, Azərbaycan SSR-də mövcud olan konstitusiyaların heç birində hakimiyyət bölgüsü prinsipi ilə bağlı real hüquqi baza yaradılmamışdı. Lakin o zaman Azərbaycan dövləti tərəfindən

idarəetmə sisteminin təkmilləşdirilməsi məqsədilə bəzi normativ hüquqi aktlar qəbul edilmiş və bu aktlarda idarəçiliklə bağlı müəyyən mövqe ortaya qoyulmuşdu. Bu baxımdan Azərbaycan SSR Konstitusiyasına (Əsas Qanununa) dəyişikliklər və əlavələr haqqında" 18 may 1990-cı il tarixli Qanunun əhəmiyyəti xüsusi qeyd edilməlidir. Qeyd edilən sənəddə ilk dəfə olaraq Azərbaycan SSR Konstitusiyasına Azərbaycan SSR prezidenti adlı 13-1-ci fəsil əlavə edilmiş və göstərilmişdir ki, Azərbaycan dövlətinin - Azərbaycan Sovet Sosialist Respublikasının başçısı Azərbaycan SSR prezidentidir. Konstitusiyaya əsasən Azərbaycan SSR prezidenti yanında Prezident Şurası fəaliyyət göstərirdi. Onun vəzifəsi Azərbaycan SSR-in daxili və xarici siyasətinin əsas istiqamətlərini həyata keçirmək, respublikanın təhlükəsizliyini təmin etmək üçün tədbirlər hazırlamaq olmuşdu. Azərbaycan SSR Ali Sovetinin Sədri Azərbaycan SSR Prezident Şurasının iclaslarında iştirak etmək hüququna malik idi.

Ölkədə bütün məhkəmələr hakimlərin və xalq iclasşılarının seçilməsi əsasında təşkil edilirdi. Hakimlər və xalq iclasçıları onları seçmiş orqanlar və ya seçicilər qarşısında məsul olmuş, onların qarşısında hesabat verir və qanunla müəyyən edilmiş qaydada onlar tərəfindən geri çağırıla bilərdi. Konsitusiyanın 167-ci maddəsində qeyd edilirdi ki, hakimlər və xalq iclasçıları müstəqildirlər və yalnız qanuna tabedirlər.

Azərbaycan SSR Nazirlər Soveti Azərbaycan SSR Ali Soveti qarşısında məsul edilmişdi. Odur ki, bu orqan öz işi haqqında Azərbaycan SSR Ali Soveti qarşısında hesabat verirdi, bununla bərabər öz fəaliyyəti haqqında Azərbaycan SSR prezidentinə müntəzəm məlumat verirdi.

Göründüyü kimi, 1990-cı illərdə hakimiyyət bölgüsü prinsipi ilə bağlı müəyyən işlər görülməyə cəhd edilsə də, klassik hakimiyyət hakimiyyət bölgüsündən və hakimiyyətin müxtəlif

qolları arasından tarazlığın yaradılmasından uzaq bir hakimiyyət modeli ilə bağlı hüquqi baza formalaşdırılmışdı.

1991-ci il avqustun 30-da Azərbaycan Respublikası Ali Sovetinin xalqın təkidi ilə çağırılmış növbədənkənar sessiyası "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Bəyanatını qəbul etmişdir. Bəyanatda 1918-ci ildən 1920-ci ilədək Azərbaycan Respublikasının beynəlxalq birlik tərəfindən tanınmış müstəqil dövlət kimi mövcud olduğu qeyd edilmiş və Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunduğu elan edilmişdir.

Sözügedən aktın məntiqi davamı olaraq, Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il oktyabrın 18-də toplanmış sessiyası "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nı qəbul etmişdir. Konstitusiya aktının 13-cü maddəsində Azərbaycan Respublikasında dövlət hakimiyyətinin hakimiyyətin bölünməsi prinsipinə əsaslandığı nəzərdə tutulmuşdur.

Ulu Öndər Heydər Əliyevin rəhbərlik etdiyi Konstitusiya Komissiyası tərəfindən 12 noyabr 1995-ci il tarixli Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi ölkəmizdə hüquqi dövlətin əsaslarının formalaşdırılması baxımdan müstəsna əhəmiyyətə malik olmuşdur. Ümummilli Lider Komissiyanın 1995-ci il 10 noyabr tarixində keçirilən iclasında bildirmişdir ki, *komissiyanın sədri kimi mən bu böyük tarixi sənədin hazırlanmasında öz şəxsi məsuliyyətimi daim dərk etmişəm, bu gün də dərk edirəm. Ona görə də bu sənədin hazırlanmasına xeyli vaxt sərf etmişəm. Haqqım var deyəm ki, çox zəhmət çəkmişəm. Hər bir kəlmənin, hər bir sözün mənasını dəfələrlə araşdırmışam, onun bu gün üçün, gələcək üçün nə qədər əsaslı olmasını dəfələrlə təhlil etmişəm. Mən çox rahatlıq hissi ilə bu layihənin altından imza atıram və bu layihəyə görə tam cavabdeh*

*olduğumu bu gün bəyan edirəm. Hesab edirəm ki, biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd – siyasi, hüquqi sənəd yaratmışıq.*

Hüquqi dövlətin əsas prinsiplərindən hesab edilən hakimiyyətin bölgüsü prinsipi Konstitusiyanın 7-ci maddəsinin III hissəsində təsbit edilmişdir. Qeyd olunan maddəyə əsasən Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir: qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir, icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur, məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir. Hakimiyyət bölgüsü prinsipinin təsbiti, xüsusilə məhkəmə hakimiyyətinin müstəqilliyi insan və vətəndaş hüquq və azadlıqlarının əsas təminatına çevrilmişdir. Təsadüfi deyildir ki, konstitusiyanın 1/3 hissəsi məhz bu hüquq və azadlıqların qorunmasına həsr edilmişdir. Konstitusiyanın 25-ci maddəsində qeyd edilir ki, dövlət, irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır. Konstitusiyanın bu müddəaları Ulu Öndərin hakimiyyəti dövründə onun idarəçilik leytmotivinə çevrilmişdi. O həmişə xüsusi vurğulayırdı ki, biz Azərbaycan deyəndə onun sərvətini, onun gözəl təbiətini nəzərdə tuturuq. Lakin bütün bunlarla yanaşı, respublikanın ən başlıca sərvəti əsrlərdən bəri bu torplaqlarda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən

adamlardır. Ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər də zəngin olar. Məhz belə yanaşmanın nəticəsidir ki, Azərbaycan xalqı ötən 30 illik dövr ərzində işğalla barışmadı və ərazi bütövlüyünü bərpa etmək üçün sarsılmaz əzm və birlik nümayiş etdirdi. Çoxmillətli Azərbaycan xalqı ərazi bütövlüyü və suverenliyimizin bərpası uğrunda müharibədə vahid millət kimi birləşdi.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Konstitusiyası, https://e-qanun.az/framework/897, 2025.
2. "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Bəyannamə barəsində" Azərbaycan Respublikasının Ali Sovetinin 1991-ci il 30 avqust tarixli 179-XII nömrəli Qərarı, https://e-qanun.az/framework/6592, 2025
3. "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktı, 18 oktyabr 1991-ci il tarixli, https://e-qanun.az/framework/6693, 2025
4. Azərbaycan Sovet Sosialist Respublikasının "Azərbaycan SSR Konstitusiyasına (Əsas Qanununa) dəyişikliklər və əlavələr haqqında" 18 may 1990-cı il tarixli Qanunu, https://e-qanun.az/framework/56968, 2025
5. Əhmədov T. "Azərbaycan multikulturalizm ölkəsidir." Respublika.- 2020.- 23 dekabr.- S.6. https://www.anl.az/down/meqale/respublika/2020/dekabr/746468.htm,

# VƏTƏNDAŞLARLA İŞİN APARILMASI – İNKLÜZİV İNKİŞAFIN MÜHÜM KOMPONENTİ (ZƏRDAB RAYONU TİMSALINDA)

**Teymur Teymurzadə**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: teymur.teymurzade@zerdab-ih.gov.az

## Giriş

İnklüziv inkişaf müasir dövlət idarəçiliyinin əsas prinsiplərindən biridir və vətəndaşların sosial, iqtisadi və siyasi iştirakçılığını təmin etməyi hədəfləyir. Vətəndaşlarla işin düzgün aparılması inklüziv inkişafın əsas tərkib hissəsidir və bu, cəmiyyətin bütün üzvlərinin qərarvermə proseslərində iştirakını təmin edərək sosial rifahı gücləndirir. Xüsusilə regionlarda, o cümlədən Zərdab rayonu kimi ərazilərdə, inklüziv inkişafın təmin edilməsi üçün yerli idarəetmə və vətəndaşlar arasında effektiv əməkdaşlıq qurulmalıdır.

Bu tədqiqatın məqsədi, Zərdab rayonu timsalında vətəndaşlarla işin aparılmasının inklüziv inkişafın təmin edilməsindəki rolunu araşdırmaqdır. Əsas məqsəd, inklüziv inkişaf modelində vətəndaşların sosial iştirakçılığı, dövlət qurumları ilə əməkdaşlığı və ictimai xidmətlərdən istifadəsini təhlil edərək, bu sahədə mövcud problemləri və həll yollarını müəyyənləşdirməkdir.

## İnklüziv inkişaf və vətəndaşlarla iş

İnklüziv inkişaf sosial bərabərliyi, iqtisadi imkanların ədalətli paylanmasını və qərarvermə proseslərində vətəndaşların iştirakını nəzərdə tutur. Bu prosesin uğurlu olması üçün aşağıdakı əsas amillər nəzərə alınmalıdır:

- Sosial iştirakçılıq – Vətəndaşların yerli idarəetmə proseslərinə cəlb edilməsi
- Bərabər imkanlar – Sosial xidmətlərə və iqtisadi resurslara hamının çıxışının təmin olunması
- Açıq və şəffaf idarəetmə – Dövlət və vətəndaş arasında etimadın artırılması
- Marginal qrupların inteqrasiyası – Fiziki məhdudiyyətli şəxslər, qadınlar və gənclər üçün sosial və iqtisadi imkanların yaradılması

Zərdab rayonu kimi regionlarda bu prinsiplərin həyata keçirilməsi vətəndaşlarla işin effektivliyindən asılıdır. Yerli idarəetmə və vətəndaşlar arasında açıq dialoq və qarşılıqlı əməkdaşlıq inklüziv inkişaf üçün vacibdir.

**Zərdab rayonunda vətəndaşlarla iş və onun inklüziv inkişafa təsiri**

Zərdab rayonu Azərbaycanın kənd təsərrüfatına əsaslanan rayonlarından biri olub, sosial-iqtisadi inkişaf üçün dövlətin müxtəlif təşəbbüsləri ilə dəstəklənir. Bu rayonun inklüziv inkişafına töhfə vermək məqsədilə bir sıra tədbirlər həyata keçirilmişdir:

1. İctimai iştirakçılığın artırılması – Rayon rəhbərliyi vətəndaşlarla mütəmadi görüşlər keçirir, ictimai müzakirələr təşkil edir.

2. Sosial layihələrin icrası – Qadınların və gənclərin iqtisadi fəallığını artırmaq üçün müxtəlif təlimlər və dövlət proqramları həyata keçirilir.

3. Elektron xidmətlərin tətbiqi – Vətəndaşların sosial xidmətlərə çıxışını asanlaşdırmaq üçün e-hökumət platformalarından istifadə artırılır.

4. Məlumatlılığın artırılması – İctimai tədbirlər və maarifləndirici proqramlarla vətəndaşların hüquqları və imkanları barədə bilikləri artırılır.

Buna baxmayaraq, Zərdab rayonunda vətəndaşlarla işin aparılmasında bəzi problemlər mövcuddur. Xüsusilə, kənd icmalarında yaşayan vətəndaşların dövlət qurumları ilə əməkdaşlıq səviyyəsi aşağıdır, rəqəmsal xidmətlərə çıxış məhdudiyyətləri var və sosial proqramlar bəzi hallarda qeyri-kafi olur.

**Nəticə və tövsiyələr**

Zərdab rayonunda inklüziv inkişafı təmin etmək üçün vətəndaşlarla işin daha effektiv aparılması vacibdir. Bunun üçün aşağıdakı tövsiyələr irəli sürülə bilər:

1. İctimai iştirakçılığı artırmaq üçün yeni mexanizmlər tətbiq olunmalıdır – Yerli idarəetmədə vətəndaşların daha aktiv iştirak etməsi üçün ictimai dinləmələr və açıq forumlar təşkil olunmalıdır.

2. Elektron xidmətlər genişləndirilməlidir – Xüsusilə kənd yerlərində yaşayan əhali üçün rəqəmsal maarifləndirmə proqramları təşkil edilməli və internet infrastrukturu təkmilləşdirilməlidir.

3. Sosial layihələr artırılmalıdır – Gənclər, qadınlar və həssas qrupların iqtisadi fəaliyyətini artırmaq üçün yeni proqramlar həyata keçirilməlidir.

4. Vətəndaş cəmiyyətinin gücləndirilməsi – Yerli qeyri-hökumət təşkilatları (QHT) və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq artırılmalıdır.

5. Məlumatlılığın artırılması – Vətəndaşların hüquqları və dövlətin təqdim etdiyi sosial xidmətlər haqqında biliklərinin artırılması üçün maarifləndirmə kampaniyaları təşkil olunmalıdır.

Zərdab rayonunda inklüziv inkişafın sürətləndirilməsi üçün vətəndaşlarla işin aparılması dövlət və vətəndaş cəmiyyəti arasında güclü əməkdaşlıq tələb edir. Vətəndaşların idarəetmədə

fəal iştirakını təmin etməklə, sosial bərabərlik və iqtisadi inkişaf üçün daha əlverişli şərait yaratmaq mümkündür.


**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası. (2022). İnklüziv İnkişaf və Sosial Siyasət Araşdırmaları. Bakı.
2. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi. (2021). Regional İnkişaf və Vətəndaş Cəmiyyətinin Gücləndirilməsi. Bakı
3. "Sosial İnkişaf və Dövlət Siyasəti". Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu, № 5/2023, səh. 102-115.


## DAVAMLI İNKİŞAFIN TƏMİN OLUNMASI ÜÇÜN TURİZMDƏ MÜASİR METODLARIN TƏTBİQİ PERSPEKTİVLƏRİ


**Fikrət Təhməzov**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*

e-mail: fikrattahmazov@gmail.com


Müasir dövrdə turizm təkcə iqtisadi sektor kimi deyil, eyni zamanda sosial və ekoloji sistemlərlə qarşılıqlı təsir göstərən kompleks fəaliyyət sahəsi kimi diqqət mərkəzindədir. Qlobal iqlim dəyişikliyi, ətraf mühitin deqradasiyası və təbii resursların tükənməsi fonunda turizmin davamlı inkişafı məsələsi daha da aktuallaşmaqdadır. Bu kontekstdə müasir idarəetmə metodlarının və davamlılıq prinsipinə əsaslanan yanaşmaların tətbiqi turizm

sektorunun uzunmüddətli effektivliyinin təmin olunmasında mühüm rol oynayır.

Azərbaycan Respublikasında Cənab Prezident İlham Əliyevin rəhbərliyi altında son illər ərzində turizmin inkişaf etdirilməsi məqsədilə kompleks proqramlar həyata keçirilib, normativ-hüquqi baza təkmilləşdirilib, regional turizm layihələri və ekoturizm təşəbbüsləri dəstəklənib. Bu prosesin davamlı və effektiv olması üçün innovativ texnologiyaların, yaşıl iqtisadiyyat elementlərinin və iştirakçılığa əsaslanan idarəetmə modellərinin tətbiqi zərurəti meydana çıxmaqdadır.

Bu tezisin yazılmasının əsas məqsədi turizm sektorunda davamlı inkişafı təmin edə biləcək müasir metodların müəyyənləşdirilməsi, bu metodların iqtisadi, sosial və ekoloji təsirlərinin qiymətləndirilməsi və perspektivlərinin dəyərləndirilməsidir.

Ziyarətçilərin, turizm sənayesi iştirakçılarının və ev sahibi cəmiyyətlərin uzunmüddətli ehtiyaclarını ödəyən, eyni zamanda gələcək nəsillər üçün resursları qoruyub saxlayan turizm forması kimi qiymətləndirilən davamlı turizm anlayışı ilk dəfə BMT-nin 1987-ci il "Brundtland Hesabatı" ilə geniş müzakirəyə çıxarılıb, sonrakı dövrlərdə BMT-nin Davamlı İnkişaf Məqsədləri (DİM) ilə sıx bağlı şəkildə inkişaf etdirilib.

Azərbaycanın turizm sənayesi son onillikdə əhəmiyyətli inkişaf mərhələsi keçib. Turizmin davamlı inkişafını məqsəd olaraq müəyyənləşdirən əsas müddəalar 2016-cı ildə "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə əksini tapıb. 2021-ci ildə qəbul edilən "Turizm haqqında" Qanun öz növbəsində turizmin davamlı inkişafını təşviq edən hüquqi mexanizmlərin formalaşdırılması baxımından mühüm addım olub.

Regionlarda mədəni və ekoloji turizm layihələri davamlılıq prinsipinə uyğun olaraq icra olunmaqdadır . Bundan əlavə, 2024-

cü ilin noyabrında COP29-un Bakıda keçirilməsi və burada turizm mövzusuna xüsusi günün ayrılması Azərbaycanın beynəlxalq arenada davamlı turizm təşəbbüslərinə verdiyi önəmi əks etdirir.

Yerli icmaların qərarvermə prosesinə cəlb olunması, əhalinin və turizm iştirakçılarının məlumatlandırılması, hotel və turizm müəssisələrinin ekoloji standartlara uyğun fəaliyyətinin təşviqi, rəqəmsal transformasiya və smart turizm texnologiyaları kimi müasir metodların tətbiqi davamlı turizm üçün xüsusilə effektiv ola bilər.

Normativ-hüquqi mexanizmlərin tətbiqində institusional boşluqların aradan qaldırılması, regionlarda turizm infrastrukturun bərabər formada inkişaf etdirilməsi, davamlılıqla bağlı məlumatlılıq səviyyəsinin artırılması turizmin davamlı inkişafını dəstəkləyən faktorlardan sayıla bilər.

Turizmin davamlı inkişafı təkcə mövcud resursların səmərəli istifadəsi baxımından deyil, eyni zamanda gələcək nəsillərin hüquqlarının təmin olunması nəzərindən də strateji əhəmiyyət daşıyır. Azərbaycan Respublikası bu istiqamətdə mövcud imkan və çağırışları düzgün qiymətləndirdiyi üçün müasir metodların tətbiqi ilə uzunmüddətli və rəqabətədavamlı turizm sənayesinin qurulmasını mümkün edə biləcəkdir.

## Ədəbiyyat


1. "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"
2. Azərbaycan Respublikasının "Turizm haqqında" Qanunu
3. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər
4. COP29 Bakı Təşkilat Komitəsi Rəsmi Materialları, 2024.

5. Brundtland, G. H. (1987). Our Common Future. World Commission on Environment and Development. United Nations.
6. United Nations World Tourism Organization (UNWTO). (2020). Sustainable Tourism Development Guidelines

# QOŞULMAMA HƏRƏKATININ İNSTİTUSİONALLAŞMASINDA AZƏRBAYCANIN ROLU

**Elman Vəliyev**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: elmanvaliyeff032@gmail.com

***Açar sözlər***: Qoşulmama Hərəkatı, institusionallaşma, diplomatiya, beynəlxalq hüquq və sülh.

Qoşulmama Hərəkatının 2011-ci ildə İndoneziyanın Bali adasında keçirilən konfransında Azərbaycan üzv seçildi (1). Üzv olmasına əsas verən səbəb təşkilatın beynəlxalq hüququn, normativ aktların, əməkdaşlığın, suverenliyin qorunması, daxili işlərə qarışılmamasının əsas prioritet olması idi. Azərbaycan həmin dövrlərdə Ermənistanla münaqişə içərisində idi. Qarabağ konflikti iki tərəf arasında münaqişə mənbəyi idi. Azərbaycan tərəfi beynəlxalq tribunalarda münaqişənin diplomatik yollarla həll edilməsini səsələndirmişdi. Qoşulmama Hərəkatı da münaqişələrin diplomatik üsullarla həll edilməsinin əsas amil olduğunu vurğuladığı üçün Azərbaycan da təşkilatın bir parçası olmağı düzgün addım kimi qəbul etmişdi. 2019-2023-cü illər müddətdində Azərbaycan təşkilatın sədrliyini üstünə götürmüşdü. Sədrlik edildiyi müddətdə Hərəkat qlobal sülhə,

ekoloji problemərə, səhiyyəyə, beynəlxalq əməkdaşlığa dair mühüm addımlar atmışdır (2). Qoşulmama Hərəkatına üzv olduqdan sonra hərəkatın müxtəlif yerlərdə görüşləri keçirlmişdir. Bu görüşlərdə hərəkatın bir xeyli üzvü "Qarabağ konflikti"nin danışıqlar yolu ilə həll edilməsinin vacibliyini vurğulamış, Azərbaycana dəstəklərini ifadə etmişdir. 2014-cü ilin mayında Qoşulmama Hərəkatının Əlcəzairdə 17-ci nazirlər görüşü keçirildi. Görüşün yekun sənədinin 421-ci bəndində üzv dövlətlər BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri mövcud olsa da, Ermənistan ilə Azərbaycan arasındakı münaqişənin hələ də həll olunmamasından təəssüflətini bildirmiş və münaqişənin Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində həllinə dəstək vermişdilər. Azərbaycanın təşkilatın taleyində mühüm rolu 2020-ilə təsadüf edir. Həmin il dünyada COVİD-19 pandemiyası yayıldı. Pandemiya dünyanın bir çox ölkəsi qapalı rejimə keçdi. Dünya iqtisadiyyatına, ÜDM-nin azalmasına, turizm sektoruna, insanların yaşayış səviyyəsinə olduqca mənfi təsir etdi (4). 2020-ci ilin mayında Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Hərəkatın COVİD-19-a aid zirvə görüşü keçirildi. Görüş onlayn formatda həyata keçirildi. Bu görüş mühüm rola malik idi. Çünki həmin dövrdə həmrəylik, qarşılqılı yardımlaşma, əməkdaşlıq ən vacib amil idi. Bir çox dövlət maddi sıxıntılar içərisində yaşayırdı və pandemiya onaların rifahına daha da ağır təsir etmişdi. Görüş həmin dövlətlərə insani əlin uzaldılması üçün idi. Pandemiya dövründə Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi üzv ölkələrə humanitar və maliyyə yardımlarını əsirgəmədi. Ümumdünya Səhiyyə Təşkilatına ümumilikdə 10 milyon dollar məbləğində vəsait ayırdı ki, bunun 5 milyon dolları Qoşulmama Hərəkatına üzv dövlətlərə yönəldilmişdi. Eyni zamanda Azərbaycan bir sıra ölkələrə tibbi avadanlıq, dərman preparatları və vaksin dəstəyi

verərək pandemiya ilə mübarizəyə töhfə verdi (3). Bir birliyin institutlaşmasında bunlar çox vacib amillərdir. Qoşulmama Hərəkatına üzv olan Azərbaycanın ümumdünya probleminə məsuliyyətli və insani münasibəti başqalarına örnək idi. Bu addım ilə Qoşulmama Hərəkatının beynəlxalq səviyyədə tənzimləyici bir mexanizm olduğu sübut edilmiş olundu. Buradan belə nəticə çıxara bilərik ki, qlobal problemlərin həllində kiçik fiqurların da rolu olduqca vacibdir.

## Ədəbiyyat


1. Azərbaycan Respublikası Prezidenti. (2019, oktyabr 25). *Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşü Bakıda işə başlayıb.* Prezident.az. https://president.az/az/articles/view/34600
2. Azərbaycan Respublikası. (n.d.). *Azərbaycan - Qoşulmama Hərəkatı.* Azerbaijan.az. https://azerbaijan.az/related-information/196)
3. Trend News Agency, (n.d.). *Azerbaijan provided financial and humanitarian aid to Non-Aligned Movement member state during COVID-19 pandemic.* Retrieved from https://en.trend.az/azerbaijan/politics/3454662.html
4. World Bank. (2022). *The economic impacts of the COVID-19 crisis* (Chapter 1). World Development Report 2022. Retrieved from https://www.worldbank.org/en/publication/wdr2022/brief/chapter-1-introduction-the-economic-impacts-of-the-covid-19-crisis

# MÜASİR DÖVRDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ İNSAN TƏHLÜKƏSİZLİYİ PROBLEMİ

**Nərgiz Vəliyeva**
*Bakı Dövlət Universiteti*
e-mail: nargiz.valiyeva@sport.edu.az

***Açar sözlər:*** təhlükəsizlik, təhdid, beynəlxalq hüquq, dövlət, qloballaşma, BMT.

"İnsan təhlükəsizliyi" termini ilk dəfə 1994-cü ildə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMTİP) İnsan İnkişafı Hesabatında (İİH) istifadə edilmişdir ki, bu hesabatda "cəmiyyət mərkəzli" təhlükəsizlik konsepsiyası insanların ehtiyaclarının azalması və təhlükəsizliyin hərtərəfli təmin olunmasını özündə ehtiva edirdi. Buna kimi 1993-94-cü illərdə Bill Klinton administrasiyası və BMT-nin baş katibi Butros Qali bəzi siyasi çıxışlarında ifadə olaraq bu termini işlətmişdi. 1999-cu ildə BMT-nin baş katibi olmuş Kofi Annan deyirdi: "Hər şeydən öncə insan hər bir şeyin mərkəzində dayanmalıdır". Təsadüfi deyildir ki, ümumilli lideri Heydər Əliyev də demək olar ki, bütün çıxışlarında dövlətin insanın hüquqlarının qorunması, onun təhlükəsizliyinə təminatçı olduğunu vurğulayırdı. O deyirdi: "Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar".

Zaman keçdikcə liberal dəyərlərin təbliğ olunmasına baxmayaraq silahlı münaqişələrin, insan hüquqlarının pozuntusunun və iqtisadi bərabərsizliyin artması, yeni qlobal sağlamlıq böhranlarının (pandemiya kimi), iqlim problemlərinin yaranması, miqrasiyanın genişlənməsi kimi əsas qlobal çağırışların yaratdığı

təhdidlər insan təhlükəsizliyinə diqqət çəkməyi tələb edir. Kibertəhlükəsizlik, iqlimlə bağlı yeni problemlər insanların həyatına birbaşa təsir göstərərək qlobal qaçqın böhranı, iqlimlə bağlı məcburi təhdidlər, elmi texnoloji inkişaf, kütləvi qırğın silahlarının artması və ya hətta COVID-19 kimi səhiyyə ilə bağlı məsələlər insan təhlükəsizliyinin aktuallığını daha da artırır və fərdi, milli və beynəlxalq təhlükəsizliyi təhdid altında qoymuşdur. İnsanların təhlükəsizliyinə təhdid yaradan yeni hədələrin müəyyənləşdirilməsi və onlara preventiv reaksiyaların verilməsi beynəlxalq münasibətlər kontekstində çox aktuallaşmışdır.

Xüsusən son onilliklər təhlükəsizlik sferasında qlobal trendlər dəyişməyə doğru getmişdir. Belə ki, dövlətdən başqa digər əlavə yeni aktorlar beynəlxalq münasibətlərdə aktiv rol oynamağa başlamışdır. Terror təşkilatları həm dövlətxarici, həm də dövlətdaxili münasibətlərə etimadsızlıq gətirmişdir. Buna əks nümunə olaraq beynəlxalq münasibətlərdə yeni aktorlar - individlər aktiv rol oynamağa başlamışdır. Məsələn, Microsoft şirkətinin yardıcısı Bil Qeyts kimi maliyyə imkanlarından istifadə edərək qlobal problemlərin həllinə yönəlmiş xeyriyyəçilik fəaliyyəti vasitəsilə beynəlxalq münasibətlərə əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Onun rəhbərlik etdiyi fond dünyada səhiyyənin yaxşılaşdırılması, təhsilin inkişafı və yoxsulluğun azaldılması sahələrinə fokuslanmışdır. Bütün bunlar çoxşaxəli olan bu təhdidlərin fonunda yeni insan təhlükəsizliyi konsepsiyasının qəbulu və dövlətlərin öz üzərinə öhdəlik götürməsini tələb edir.

Beynəlxalq və regional təşkilatlar soyuq müharibə bitdikdən sonra yeni yaranmış bu konsepsiyanı öz siyasətlərinə əlavə etdilər. Hazırda Birləşmiş Millətlər Təşkilatı, NATO, Avropa İttifaqı kimi beynəlxalq qurumlar insan təhlükəsizliyinin bu ciddi təhdidləri fonunda yeni siyasətlər müəyyən etməyi hədəfləyir və addımlar atır. Lakin məsləhətverici xarakter daşıyan qərarların

qəbulu dövlətlər arasında fikir ayrılığı və beynəlxalq hüquqa məhəl qoymama səbəbindən əksər hallarda heç bir öhdəlik yaratmadan kağız üzərində qalır. Beləliklə, insan təhlükəsizliyinə təhdid yaradan mövcud qlobal problemlər və onların həlli yolları arasında böyük bir boşluq yaranmış olur.

İnsan təhlükəsizliyi konsepsiyası BMT səviyyəsində qəbul edildikdən sonra onu praktiki olaraq dövlət siyasəti kimi ilk həyata keçirən dövlətlər Yaponiya, Norveç və Kanada oldu. İnkişaf etmiş ölkələrin bu konsepsiyanı həyata keçirməsi asan başa gəlsə də, inkişaf etməkdə olan ölkələrdə insanların təhlükəsizliyinin daxili və xarici faktorların təsiri nəticəsində çoxsaylı təhdidlər altında qalması onun qəbul olunmasında çətinlik yaradır. Bunun həll yolu kimi inkişaf etməkdə olan ölkələr beynəlxalq və milli təhlükəsizliyi təmin etməklə insan təhlükəsizliyinin təmin olunmasına töhvələrini verə və inkişaf etdirə bilərlər.

## Ədəbiyyat


1. N.Əhmədzadə "Heydər Əliyevin kəlamları", Qanun nəşriyyat evi, 2017, 72 səh.
2. Boutros-Ghali B. An Agenda for Peace. N.Y.: United Nations, 1992.
3. Jonatan Gatlin, "Bill Gates: The Path to the Future", Harper Collins, 2009, p. 224
4. Kofi Atta Annan, "The Quotable Kofi Annan: Selections from Speeches and Statements by the Secretary-General", United Nations Department of Public Information, 1998, p. 46

# AZƏRBAYCAN RESPUBLİKASINDA ENERJİ SİYASƏTİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ROLU

**Raul Vəliyev**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: raulvaeliyev@gmail.com

1991-ci ildə Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra dövlət quruculuğu sahəsində yaranmış problemlər bütün sahələrə öz təsirini göstərmişdi. Xalqın təkidi ilə ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra sabitlik yarandı və ictimai həyatın bütün sahələrində inkişafın tendensiyaları müşahidə edilməyə başlandı. Həmin dövrdə iqtisadi əlaqələrin qurulması, xarici sərmayənin ölkəyə cəlb edilməsi, tamamilə zəifləmiş ölkə iqtisadiyyatının bazar tələblərinə uyğunlaşdırılması üçün baza rolunu oynayacaq əsas məhsul neft idi.

1994-cü ilin sentyabr ayında dünyanın tanınmış neft şirkətləri ilə Azərbaycan arasında "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın beynəlxalq münasibətlər sistemində öz mövqeyini möhkəmləndirməyə başlaması enerji və milli təhlükəsizlik siyasətinin həyata keçirilməsindən xəbər verirdi. 1994-cü ildən başlayaraq həyata keçirilən yeni neft strategiyasının reallaşdırıllmasında əsas hədəf neftin hasilatı, dünya bazarlarına ixracatı və gələn gəlirləri düzgün və səmərəli istifadə etməklə ölkə iqtisadiyyatının qurulması və qeyri-neft sektorunun dirçəldilməsindən ibarət idi.

Başqa sözlə "Əsrin müqaviləsi" Azərbaycanın regional və qlobal əhəmiyyət daşıyan enerji siyasətinin strateji təməlini təşkil edir. Birinci növbədə 1995-ci ildə ilkin neft hasilatı layihəsi

çərçivəsində "Çıraq-1" özülü Qərb standartlarına uyğun olaraq bərpa olundu. 1997-ci ildə isə "Çıraq" yatağından neft hasilatına başlandı. Bundan iki il sonra Azərbaycan "Əsrin müqaviləsi" çərçivəsində neftin hasilatından gəlir əldə etməyə başladı.

Belə ki, 1999-cu ilin dekabrında Azərbaycanın "mənfəət nefti" ilə doldurulmuş ilk tanker dünya bazarlarına çıxarıldı. Bakı-Novorossiysk neft kəmərinin Azərbaycan hissəsi bərpa və inşa edildi və ilk dəfə Azərbaycan nefti Novorossiysk limanına nəql olundu. 2002-ci il sentyabrın 18-də Bakıda, Səngəçal terminalında Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan ixrac neft kəmərinin təməl daşı qoyularaq tikintisinə başlandı. 2006-cı ildə isə Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin təntənəli açılış mərasimi keçirildi. Beləliklə, Azərbaycanın fəal neft siyasəti qlobal əhəmiyyətli regional layihələrin reallaşmasına imkan verdi.

Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu enerji strategiyası onun layiqli davamçısı cənab Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə həyata keçirilməklə bərabər, həm də yeni layihələr və müqavilələrlə inkişaf etdirildi. TAP, TANAP, Cənub Qaz Dəhlizi kimi qlobal layihələrə imzasını atan ölkə başçısı sözü də imzası qədər etibarlı lider olaraq Azərbaycanı etibarlı tərəfdaş və Avropanın enerji təhlükəsizliyində mühüm rola malik dövlətə çevirdi.

Neft-qaz resurslarından savayı, Azərbaycan Respublikasında digər təbii enerji mənbələri də yetərlilik və perspektivlik baxımından ümidvericidir. Günəşli və küləkli ərazi, çoxsaylı çaylar, termal sular ayrıca energetik mənbə kimi ölkədə alternativ enerji ehtiyatları yaratmağa geniş imkanlar açır.

Ümumiyyətlə, regional və beynəlxalq təhlükəsizliyə

mühüm töhfə verən Azərbaycanla enerji tərəfdaşlığı çoxşaxəli tərəfdaşlıq baxımından yüksək qiymətləndirilir. Çünki Azərbaycanın praqmatik enerji siyasəti regional və qlobal miqyasda enerji təhlükəsizliyinə xüsusi önəm verən aparıcı dövlətlər üçün böyük əhəmiyyət kəsb edir. Digər tərəfdən, Azərbaycanın balanslaşdırılmış xarici siyasət strategiyası regionun siyasi, iqtisadi və enerji təhlükəsizliyinin təmin olunmasına birbaşa töhfə verir. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizliyinin təminatçısı və inkişaf mənbəyi adlandırırlar. Azərbaycan özünün zəngin enerji ehtiyatlarından səmərəli istifadə etməklə beynəlxalq miqyasda enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan başlıca sahələrdən birinə çevrilib. Təsadüfi deyil ki, Azərbaycanın iştirakı olmadan bu gün regionda heç bir layihə reallaşmır. Ölkəmizin enerji siyasəti regionda təhlükəsizliyin möhkəmlənməsində əsas amil kimi çıxış edir. Təbii ki, bu reallıqların həyata keçirilməsinin daha bir mühüm amili Prezident İlham Əliyevin Ulu öndərin siyasətini uğurla davam etdirməsidir.

Ölkəmizin son illərdə, xüsusilə işğaldan azad olunmuş ərazilərdə qurmağa başladığı yaşıl enerji sistemi Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikasının yaşıl enerji zonası elan olunması, 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetdən birinin “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi müəyyən edilməsi, COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi qərarı ölkəmizin iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə əhəmiyyətli töhfəsidir. Bərpa olunan enerji növlərinin yaradılması, “ağıllı” kəndlər və şəhərlər qurulur. Azərbaycanın yaşıl enerji siyasəti qlobal siyasi arenada və beynəlxalq iqtisadi münasibətlər sistemində mövqeyini daha da gücləndirmək imkanı yaradır.

## Ədəbiyyat

1. Əliyev İ.H. 2018-ci il fevralın 15-də Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin IV toplantısında nitq. Xalq qəzeti, Bakı: – 2018, 16 fevral
2. Nəsirov E.X. Azərbaycan Respublikasının Avropanın enerji təhlükəsizliyində yeri və rolu.// "Geo Strategiya", – 2011, – №4(04), – s.36-39.
3. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu və "Əsrin müqaviləsi"nin imzalanması ilə reallaşdırılmasına başlanan rasional enerji siyasəti Azərbaycanın hərtərəfli inkişafını təmin etdi. Yeni Azərbaycan qəzeti. 20.09.2014
4. https://azerbaijan-news.az/az/posts/detail/milli-maraqlarimizi-temin-eden-enerji-siyaseti-1670710347
5. https://files.preslib.az/projects/heydaraliyev/articles/he1504.pdf
6. https://minenergy.gov.az/uploads/meqaleler/20.10.2016.pdf
7. https://www.anl.az/down/meqale/azerbaycan/2010/may/118224.htm
8. https://www.anl.az/down/meqale/xalqqazeti/2024/may/891759(meqale).pdf
9. https://www.tehsil.biz/news/az/61692/Ulu-öndər-Azərbaycann-etibarlı-enerji-sisteminin-yaradıcısıdır

# DÖVLƏT İDARƏÇİLİYİNİN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASINDA OPTİMALLAŞDIRMA VƏ İNNOVASİYALARIN TƏTBİQİ

**Ülviyyə Vəliyeva**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: v.u.f.88@mail.ru

Dövlət idarəçiliyi hər bir ölkənin inkişafında mühüm rol oynayır və cəmiyyətin həyat keyfiyyətinə birbaşa təsir edən əsas faktorlardan biridir. Dövlətin idarəetmə strukturlarının və proseslərinin effektivliyi, həm daxili resurslardan səmərəli istifadəyə, həm də ölkənin beynəlxalq miqyasda rəqabət qabiliyyətinə təkan verir. Bu baxımdan, dövlət idarəçiliyinin səmərəliliyinin artırılması məqsədilə optimallaşdırma və innovasiyaların tətbiqi müasir dövrün vacib tələblərindən biridir.

Son illərdə texnologiyanın sürətli inkişafı və qlobal dəyişikliklər, dövlətin idarəetmə yanaşmalarını yenidən formalaşdırmağa və daha səmərəli, şəffaf sistemlər qurmağa ehtiyac yaradıb. Rəqəmsal transformasiya, süni intellekt, böyük verilənlər və digər innovativ alətlərin istifadəsi, dövlətin qərar qəbul etmə proseslərini daha sürətli, doğru və şəffaf hala gətirə bilər. Bütün bu yanaşmalar, həm də vətəndaşların dövlət orqanlarına olan etibarını artırır və sosial rifahın yaxşılaşdırılmasına xidmət edir.

Bu tezisin yazılmasının əsas məqsədi, dövlət idarəçiliyində optimallaşdırma və innovasiyaların tətbiqinin mahiyyətini açıqlamaq, dövlət idarəçiliyində texnoloji yeniliklərin tətbiqini qiymətləndirmək, səmərəliliyi artırmaqda rolunu təhlil etmək, Azər-

baycan təcrübəsindən bəhs etməklə, bu yanaşmanın dövlətin idarəetmə proseslərinə, resurs idarəçiliyinə və vətəndaş xidmətlərinə təsirini göstərməkdir.

Dövlət idarəçiliyinin keyfiyyəti müasir dünyada Azərbaycanın uğurlu iqtisadi inkişafının əsas amillərindən biridir. Yeni bazar şəraiti istər dövlət aparatının səmərəliliyinə və istərsə də, dövlət idarəçiliyinin səmərəliliyinə daha yüksək tələblər qoyur ki, bu da öz növbəsində dövlətin sosial-iqtisadi inkişaf səviyyəsinə və vətəndaşların rifah halına təsir göstərir. Azərbaycan Respublikasında son illərdə dövlət idarəçiliyinin modernləşdirilməsi istiqamətində mühüm addımlar atılmış, rəqəmsallaşma və vətəndaş məmnuniyyətinin artırılması istiqamətində islahatlar həyata keçirilmişdir. Qlobal çağırışlara cavab verən çevik və innovativ idarəetmə modelinin yaradılması dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Dövlət idarəçiliyində şəffaflıq, çevik qərarvermə, vətəndaş məmnunluğunun artırılması və rəqəmsallaşma sahəsində həyata keçirilən mütərəqqi islahatlar ölkənin modern idarəçilik modelinə keçidini göstərir.

Müasir dövrdə dövlət idarəçiliyinin optimallaşdırılması ictimai idarəetmənin effektivliyinin artırılması, xidmətlərin keyfiyyətinin yüksəldilməsi və vətəndaş məmnunluğunun təmin edilməsi baxımından prioritet istiqamətlərdən biridir. Azərbaycan Respublikasında bu sahədə həyata keçirilən islahatlar müxtəlif dövlət proqramları və milli strategiyalar vasitəsilə məqsədyönlü şəkildə reallaşdırılır. Azərbaycanın dövlət idarəetmə sistemində son illər həyata keçirilən islahatlar (“ASAN xidmət”, DOST, e-hökumət, rəqəmsal hökumət və s.) bu istiqamətdə uğurlu nümunələrdir.

Dövlət idarəçiliyində innovasiyaların ən mühüm istiqamətlərindən biri rəqəmsal hökumət və elektron xidmətlərin genişləndirilməsidir. Rəqəmsal hökumət konsepsiyası dövlət

orqanlarının fəaliyyətini tamamilə elektron platformalar üzərindən idarə etməyə və vətəndaşlara "bir pəncərə" prinsipinə uyğun xidmətlər göstərməyə imkan verir. Onun əsas məqsəd-lərinə idarəetmə proseslərinin avtomatlaşdırılması, vətəndaşların dövlət xidmətlərinə asan çıxışının təmin olunması, korrupsiyanın azaldılması və şəffaflığın artırılması, operativ və effektiv qərar qəbuletmə aid edilə bilər. Bütün bunlara nümunə olaraq, elektron imza və rəqəmsal şəxsiyyət vəsiqələrini, onlayn vergi, sosial müdafiə və səhiyyə xidmətlərini, "ASAN xidmət" kimi sürətli və rahat xidmət mərkəzlərini göstərmək olar.

Azərbaycanın dövlət idarəçiliyi sistemində həyata keçirilən uğurlu optimallaşdırma islahatları və innovasiyaların tətbiqi göstərir ki, bu sahədə işlərin davam etdirilməsi dövlətin idarə-çiliyinin səmərəliliyini və ictimai etimadını artıracaq, sosial rifa-hın yaxşılaşdırılmasına xidmət edəcəkdir.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının Elektron Hökümət Portalı - Rəsmi məlumat və xidmətlər üçün.
2. Rzayev, B., & Məmmədov, S. (2020). Azərbaycanın dövlət idarəçiliyində optimallaşdırma və innovasiyaların rolu. Azərbaycan İqtisadiyyat Jurnalı, 12(3), 45-58.
3. "MyGov" Platforması — www.mygov.az

# HEYDƏR ƏLİYEV – AZƏRBAYCAN-GÜRCÜSTAN ƏLAQƏLƏRİNİN MEMARI

**Aisel Zeynalova**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu*
e-mail: alis100a@gmail.com

Post-sovet məkanında dövlətlərarası münasibətlərin təşəkkül tapması dövründə siyasi liderlərin strateji baxışları və qərarları regionun gələcək geosiyasi xəritəsini formalaşdırmışdır. Bu kontekstdə Azərbaycanın ümummilli lideri Heydər Əliyevin Gürcüstan ilə ikitərəfli münasibətlərin qurulmasında və inkişafında oynadığı rol xüsusilə diqqətəlayiqdir. Onun rəhbərliyi ilə həyata keçirilən ardıcıl və məqsədyönlü siyasət nəticəsində Azərbaycan-Gürcüstan əlaqələri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. Heydər Əliyevin bu münasibətlərin banisi və memarı kimi qiymətləndirilməsi onun diplomatik fəaliyyətinin məntiqi nəticəsidir.

1993-cü ildən etibarən Azərbaycanın siyasi rəhbərliyinə yenidən qayıdan Heydər Əliyev ölkənin beynəlxalq əlaqələrinin inkişafında qonşu dövlətlərlə əməkdaşlığa xüsusi əhəmiyyət vermişdir. Gürcüstan bu baxımdan prioritet istiqamətlərdən biri olmuşdur. Heydər Əliyev və Gürcüstanın o zamankı prezidenti Eduard Şevardnadze arasında qurulan qarşılıqlı etimada əsaslanan münasibətlər siyasi əlaqələrin sürətli inkişafına zəmin yaratmışdır. İki ölkə arasında bir sıra mühüm sazişlər imzalanmış, regional təhlükəsizlik və ərazi bütövlüyü məsələlərində qarşılıqlı dəstək siyasəti həyata keçirilmişdir.

Bu siyasətin əsas məqsədi Cənubi Qafqazda uzunmüddətli sabitliyin təmin edilməsi, transmilli layihələrin reallaşdırılması və

suveren dövlətlər arasında bərabərhüquqlu münasibətlərin təşviqi olmuşdur.

Azərbaycan və Gürcüstan arasında əlaqələr çox möhkəm və strateji bir təməl üzərində qurulub. Heydər Əliyevin dövründə, xüsusilə Azərbaycan-Gürcüstan münasibətləri çox gücləndi. Bu əlaqələr, Gürcüstanın müstəqilliyini əldə etməsi və Azərbaycanla yaxın diplomatik münasibətlər qurmasından sonra daha da inkişaf etdi. Həmçinin, Gürcüstanın NATO və Avropa İttifaqı ilə əməkdaşlıq perspektivləri də Azərbaycanın maraqları ilə uyğun gəlirdi.

Heydər Əliyevin fəaliyyəti, həmçinin regionda sülh və sabitliyin təmin olunmasında əsas rol oynamışdır.

Ümummilli lider Gürcüstanın müstəqilliyini qazandığı ilk illərdən başlayaraq, iki ölkə arasında sıx diplomatik əlaqələr qurdu.

Onun rəhbərliyi altında, Azərbaycan Gürcüstanın müstəqilliyini tanıyaraq, ikitərəfli münasibətləri inkişaf etdirmək üçün bir çox təşəbbüslər irəli sürdü. Bu, həm də Gürcüstanın geopolitik mövqeyini gücləndirdi.

Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən transmilli enerji və nəqliyyat layihələri Azərbaycan-Gürcüstan münasibətlərinin strateji xarakter almasına səbəb olmuşdur. Bu layihələr yalnız iqtisadi deyil, həm də siyasi cəhətdən region üçün mühüm əhəmiyyət daşıyırdı.

Xüsusilə, Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilən Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzrum qaz kəməri kimi beynəlxalq layihələr Azərbaycan və Gürcüstan arasında iqtisadi əlaqələri gücləndirib. Bu layihələr həmçinin regionda enerji təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə veribdi. Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili də qeyd edib ki, Heydər Əliyevin müstəsna rəhbərliyi ilə yaradılmış Azərbaycan-Gürcüstan-Türkiyə enerji tranzit marşrutları

möhtəşəm uğurların nümunəsidir. O, həmçinin vurğulayıb ki, Heydər Əliyev Cənubi Qafqazda sülhün dəstəkçisi idi və Azərbaycanla Gürcüstan arasında güclü dostluq əlaqələrinin qurulmasını təmin edirdi.

Bundan əlavə, Heydər Əliyev Qafqaz xalqları arasında dostluğun möhkəmlənməsində də əhəmiyyətli rol oynayırdı. Gürcüstan parlamentinin Diaspora və Qafqaz məsələləri komitəsinin sədri Beka Odişaria bildirdi ki, Heydər Əliyevin səyləri sayəsində Gürcüstanla Azərbaycan arasında mehriban qonşuluq münasibətləri daha da möhkəmləndi və strateji tərəfdaşlığın əsası qoyulubdur.

Heydər Əliyev, Gürcüstandakı azərbaycanlıların hüquqlarının qorunmasına böyük diqqət yetirirdi. O, öz siyasətində etnik azlıqların mədəni və sosial hüquqlarının təmin olunmasını əsas prioritetlərdən biri kimi qəbul edirdi. Bu siyasət, azərbaycanlıların təhsil, mədəniyyət və dil sahələrində hüquqlarının təmin olunmasına şərait yaratdı. Bunun nəticəsində bir neçə azərbaycanlı məktəbi və universitet proqramı yaradıldı.

Ümummilli lider Heydər Əliyevin qonşu Gürcüstan Respublikası və orada yaşayan Azərbaycanlılara qayğı və problemləri ilə bağlı siyasi kursu bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etməktədir.

Azərbaycan və Gürcüstan arasında regional təhlükəsizlik və siyasi məsələlərdə də sıx əməkdaşlıq mövcuddur. Gürcüstan, Azərbaycanın ərazi bütövlüyünü tanıyır və Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın mövqeyini dəstəkləyirdi.

İki ölkə, regional məsələlərdə birgə mövqe tutur və bu münasibətlər, xüsusən də Qafqazın geosiyasi mövqeyini gücləndirir.

Heydər Əliyev həmçinin mədəni əlaqələrin inkişafına da önəm verirdi. Azərbaycan və Gürcüstan xalqları arasında sıx dostluq və qarşılıqlı hörmət yaradırdı. Bu, yalnız siyasi və iqtisadi

sahələrdə deyil, həm də mədəniyyətlərarası əlaqələrdə təzahür etdi. Heydər Əliyevin Gürcüstandakı azərbaycanlılarla əlaqələrdəki rolu çoxşaxəli olub və bu əlaqələr həm sosial, mədəni, həm də siyasi sahələrdə müsbət təsir göstərib. Onun dövründə, Gürcüstandakı azərbaycanlılar öz hüquqlarını və mədəniyyətlərini qoruyub saxlamaqla yanaşı, həm də Azərbaycanla olan əlaqələrini daha da gücləndiriblər.

Nəticə etibarilə, Heydər Əliyevin həyata keçirdiyi xarici siyasət kursu Azərbaycan-Gürcüstan münasibətlərinin möhkəm təməllər üzərində qurulmasına səbəb olmuşdur. Onun təşəbbüsü ilə həyata keçirilən enerji və nəqliyyat layihələri, siyasi dialoqun inkişafı və humanitar əməkdaşlıq bu münasibətləri strateji müstəviyə daşımışdır. Bu baxımdan, Heydər Əliyev haqlı olaraq Gürcüstan-Azərbaycan əlaqələrinin memarı kimi tarixə düşmüşdür.

Onun qoyduğu siyasi irs bu gün də hər iki ölkə tərəfindən davam etdirilir və regionun təhlükəsizliyi, iqtisadi inkişafı və əməkdaşlıq mühitinin qorunmasında mühüm rol oynayır.

## Ədəbiyyat


1. Əliyev, H. (2001). Müstəqilliyimiz əbədidir. Bakı: Azərnəşr.
2. Abbasov, Ə. (2013). Heydər Əliyev və Azərbaycanın xarici siyasəti. Azərbaycan Tarixi, №4, s. 25-32.
3. Əliyeva, S. (2017). Gürcüstan–Azərbaycan münasibətlərində enerji diplomatiyasının rolu. Beynəlxalq Münasibətlər və Diplomatiya Jurnalı, №2, s. 41–49.
4. Məmmədov, R. (2010). Cənubi Qafqazda enerji layihələri və regional əməkdaşlıq. Bakı: Qanun nəşriyyatı.
5. Cornell, S. E. (2011). Azerbaijan Since Independence. M.E. Sharpe.

6. Papava, V. (2005). On the Role of Georgia in the Geopolitics of the Caucasus Region. Caucasus Institute for Peace, Democracy and Development.
7. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (DİA). (2021). Heydər Əliyevin dövlətçilik irsi və beynəlxalq siyasət. Bakı: DİA nəşriyyatı.
8. Gürcüstan-Azərbaycan münasibətləri: Tarix və müasirlik (2020). Azərbaycan Milli Elmlər Akademiyası, Tarix İnstitutu. Bakı: Elm.
9. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. (2023). Azərbaycan-Gürcüstan əlaqələri üzrə arxiv materialları və analitik icmallar. https://mfa.gov.az

## AZƏRBAYCAN RESPUBLİKASININ SƏRHƏD TƏHLÜKƏSİZLİYİNİN ƏSAS PRİORİTETLƏRİ

**Şahin Zöhrəbəyov**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: z.zohrabbeyov@gmail.com

Bu tezisdə milli təhlükəsizlik sistemində sərhəd təhlükəsizliyinin, o cümlədən sərhəd mühafizə orqanlarının yeri və rolu, dövlət sərhəd siyasətinin əsas istiqamətləri şərh edilmişdir.

Hər bir suveren dövlətin milli təhlükəsizlik sistemi mürəkkəb maddi strukturdur, eyni zamanda milli maraqlara yönəlmiş təhlükələrin bütün spektrinə qarşı mübarizənin ayrılmaz mexanizmidir.

Müasir şəraitdə bir çox ölkələrin alimləri və siyasətçiləri "dövlətlərin təhlükəsizliyinin təmin edilməsi getdikcə daha çox milli sahədən beynəlxalq sferaya keçir" fikrini bölüşürlər. Milli

təhlükəsizlik beynəlxalq təhlükəsizliklə sıx bağlıdır: hər bir dövlətin təhlükəsizliyi digər dövlətlərin təhlükəsizliyindən asılıdır.

Şübhəsiz ki, beynəlxalq təhlükəsizliyin dövlətin milli təhlükəsizliyinə təsiri sərhəd bölgəsində də özünü göstərir və sərhəd təhlükəsizliyinə təsir edir. Ona görə də dövlətlər arasında qarşılıqlı faydalı əməkdaşlıq və tərəfdaşlıq dünya birliklərinin təhlükəsiz yaşaması və inkişafı üçün əsas olmalıdır.

Azərbaycan Respublikası daxili və xarici siyasətin prioritetlərinə əsaslanaraq, sərhəd bölgəsində münasibətlərin mütərəqqi inkişaf xəttinə sadiq qalaraq ölkə ətrafında mehriban qonşuluq zolağının formalaşmasına yönəlmiş sərhəd siyasətini həyata keçirir.

Dövlət sərhədi siyasətinin həyata keçirilməsi sahəsində əsas istiqamətlər aşağıdakılardır:

- Azərbaycan Respublikasının dövlət sərhədinin toxunulmazlığının təmin edilməsi;
- Azərbaycan Respublikasının dövlət suverenliyinin və ərazi bütövlüyünün qorunması;
- sərhəd məsələləri üzrə qarşılıqlı faydalı dövlətlərarası əməkdaşlıq;
- sərhəd məsələlərinin sülh yolu ilə həlli.

Dövlət sərhədi sərhəd siyasətinin metodoloji təhlili və sərhəd təhlükəsizliyinin təmin edilməsi üçün fundamental kateqoriyadır. “Dövlət sərhədi” anlayışı beynəlxalq və milli təhlükəsizlik nəzəriyyəsində mərkəzi yerlərdən birini tutur və dövlətin daimi atributu kimi dövlətlərarası münasibətləri müəyyən edən kateqoriyalardan biridir.

Azərbaycan Respublikasının təhlükəsizlik sistemində sərhəd mühafizə orqanlarının rolu və yeri təhlükəsizlik obyektləri ilə, yəni sərhəd bölgəsində şəxsiyyətin, cəmiyyətin və dövlətin

təhlükəsizliyinin təmin edilməsi vəzifələrini onlara həvalə etməklə müəyyən edilir. Dövlət sərhədinin mühafizəsi sahəsində milli maraqların təmin edilməsi sisteminin əsasını sərhəd mühafizə orqanları təşkil edir.

Dövlət sərhədinin mühafizəsi Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi sisteminin tərkib hissəsidir və dövlət sərhədində, sərhədyanı ərazilərdə şəxsiyyətin, cəmiyyətin, dövlətin həyati vacib mənafelərinin müdafiəsi üçün siyasi, iqtisadi, informasiya, hüquqi, hərbi, əməliyyat, təşkilati, texniki, sanitariya və digər tədbirlərin həyata keçirilməsindən ibarətdir.

2002-ci ilin iyul ayının 31-də Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin yaradılması barədə fərman imzalamış və Azərbaycan dövləti üçün sərhədlərin etibarlı mühafizəsinin xüsusi əhəmiyyət kəsb etməsini nümayiş etdirmişdir.

Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyev Azərbaycanın Dövlət Sərhəd Xidmətini gücləndirərək onun döyüş qabiliyyətini artırmış, müasir infrastruktur və texniki avadanlıqla təchiz etmişdir. Bu, həm ölkənin sərhəd təhlükəsizliyini təmin etmək, həm də Ulu Öndərin müəyyən etdiyi milli təhlükəsizlik siyasətinin davamını təmin etmək baxımından mühüm addım olmuşdur.

Dövlət Sərhəd Xidməti Azərbaycanın təhlükəsizlik sistemində strateji əhəmiyyətə malikdir, onun fəaliyyəti ölkənin suverenliyinin və ərazi bütövlüyünün qorunmasında əvəzsiz rol oynayır.

## Ədəbiyyat

1. “Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası”. Bakı şəhəri, 23 may 2007-ci il

2. Ə.M.Həsənov. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı, “Zərdabi LTD”, 2016, 700 s
3. Мюллерсон Р.А. Роль и возможности международного права в создании ВСМБ // Всеобъемлющая система международной безопасности и международное право.

# ВЫЗОВЫ КИБЕРБЕЗОПАСНОСТИ В ГОСУДАРСТВЕННЫХ СТРУКТУРАХ

**Камран Аббасов[1], Адалат Самедов[2], Рамин Алиев[3], Рахима Джалилова[4], Эльчин Абасов[5]**

*[1,2,3,4,5]Академия Государственного Управления при Президенте Азербайджанской Республики*

*e-mail:* science.proger@gmail.com

## Аннотация

В настоящей статье предпринят аналитический дискурс по вопросам кибербезопасности, представляющим собой краеугольный камень функционирования современных государств, обладающих развитой информационно-коммуникационной инфраструктурой и критически уязвимыми элементами. Рассматриваются актуальные векторы киберугроз и системные вызовы, сопряжённые с обеспечением национальной и международной информационной безопасности. Особое внимание уделяется уязвимому онтологическому статусу цифровых экосистем, а также архитектуре критической информационной инфраструк-

туры. Автор акцентирует внимание на необходимости институционализации многостороннего международного сотрудничества в целях выработки консолидированных стратегий противодействия кибeрагрессии, обеспечения устойчивой защиты цифровых платформ, сетевых коммуникаций и программных сред, а также развития нормативно-правовой базы в киберсфере на глобальном уровне.

***Ключевые слова:*** кибербезопасность, хакерская атака, информационная система, военная стратегия, сотрудничество.

**1. Рост цифровизации и усиление киберугроз**

Экспансия цифровых технологий сопровождается существенным ростом киберугроз, включая атаки на цифровую инфраструктуру, кражу данных и нарушение работы ключевых систем. Согласно отчёту IBM X-Force Incident Response and Intelligence Services, в первой половине 2019 года число кибератак втрое увеличилось, а прогнозы Центра кибербезопасности Всемирного экономического форума свидетельствуют, что в 2020 году 74% транснациональных компаний стали объектами агрессивного цифрового вмешательства.

**2. Международная обеспокоенность и внимание к проблеме**

Из-за масштабов угроз кибербезопасность заняла важное место в стратегической повестке государств, таких как Азербайджан, США, страны ЕС и другие юрисдикции. Страны стремятся разработать не только внутренние меры реагирования, но и международные механизмы противодействия киберагрессии, активно сотрудничая с ООН, НАТО и ENISA.

**3. Национальная безопасность в условиях цифровой трансформации**

Современная национальная безопасность расширилась за рамки военных угроз и охватывает борьбу с международным терроризмом, противодействие транснациональной преступности, обеспечение экономической, энергетической, экологической и продовольственной устойчивости, а также защиту критически важной информационно-коммуникационной инфраструктуры. В этом контексте кибербезопасность становится стратегическим приоритетом.

**4. Кибербезопасность как приоритет государственной стратегии**

В эпоху глобальной цифровизации защита цифровой инфраструктуры выходит за пределы технических аспектов и является основой государственной устойчивости. Многие государства, в том числе Азербайджан, разрабатывают национальные стратегии кибербезопасности, совершенствуют нормативно-правовую базу и создают специализированные центры реагирования на инциденты.

**5.Разграничение понятий: информационная безопасность и кибербезопасность**

Информационная безопасность включает защиту всей информации, независимо от её формы, а кибербезопасность представляет собой её подмножество, ориентированное на защиту IT-систем, телекоммуникационных сетей и цифровых платформ. Главная цель кибербезопасности — выявление, предотвращение и нейтрализация угроз в киберпространстве.

## 6.Понятие и природа кибератак

Кибератака – это умышленное агрессивное действие, инициированное как отдельными лицами, так и организованными структурами, направленное на нарушение функционирования цифровых систем. Основные характеристики таких атак – анонимность источника, использование вредоносного программного обеспечения и воздействие на целостность, конфиденциальность и доступность данных. Последствия могут быть не только техническими, но также иметь политическую, экономическую и социальную окраску, особенно при вмешательстве в государственные системы и базы данных граждан.

## Заключение

Кибербезопасность в государственных структурах — ключевой элемент современной национальной безопасности. Рост цифровых угроз требует системного, многоуровневого и координированного подхода с акцентом на институциональные меры, развитие профессиональных компетенций, международное сотрудничество, нормативное регулирование и чёткое разграничение основных понятий в цифровой безопасности.

## Литература


1. IBM X-Force Threat Intelligence Index 2020. – IBM Security, 2020. – URL: https://www.ibm.com/security/data-breach/threat-intelligence (дата обращения: 07.04.2025).
2. World Economic Forum. Global Cybersecurity Outlook 2022. – Geneva: World Economic Forum, 2022. – 52 p. – URL:https://www.weforum.org/reports/global-cybersecurity-outlook-2022 (дата обращения: 07.04.2025).

3. Панов А.В. Кибербезопасность: от теории к практике. – М.: Аспект Пресс, 2021. – 288 с.
4. Азизов Э.М., Гусейнова Л.Т. Информационная безопасность в Азербайджане: вызовы и перспективы // Журнал информационной безопасности. – 2023. – №2. – С. 45–52.
5. Национальная стратегия Азербайджанской Республики по информационной безопасности на 2021–2025 гг. – Баку: Госкомитет по информационным технологиям, 2021. – 36 с.
6. Князев С.М., Морозов И.А. Современные угрозы в киберпространстве и методы их нейтрализации // Вестник кибербезопасности. – 2022. – №3. – С. 12–19.
7. European Union Agency for Cybersecurity (ENISA). Threat Landscape Report 2022. – Heraklion: ENISA, 2022. – URL: https://www.enisa.europa.eu/publications/enisa-threat-landscape-2022 (дата обращения: 07.04.2025).
8. Nye, J. S. Deterrence and Dissuasion in Cyberspace. – International Security, 2017. – Vol. 41, No. 3. – pp. 44–71.
9. Kaspersky Lab. IT Threat Evolution in Q2 2023. – Kaspersky Global Research & Analysis Team, 2023. – URL: https://securelist.com/it-threat-evolution-q2-2023/ (дата обращения: 07.04.2025).
10. Zegart, A. Spies, Lies, and Algorithms: The History and Future of American Intelligence. – Princeton University Press, 2022. – 384 p.

# МЕТОДОЛОГИЧЕСКИЕ ОСНОВЫ ПРОДУКТИВНОЙ ДЕЯТЕЛЬНОСТИ: СТРУКТУРА, КЛАССИФИКАЦИЯ И ПРИМЕНЕНИЕ В МОДЕЛИРОВАНИИ БИЗНЕС-ПРОЦЕССОВ

**Мурад Алиев[1], Наиля Мусаева[2]**

[1,2] *Академия Государственного Управления при Президенте Азербайджанской Республики*

e-mail: muradaliyev6999@gmail.com

**Аннотация**

В работе рассматривается понятие методологии как учения об организации деятельности, акцентируя внимание на ее структурных компонентах: теоретических основаниях, характеристиках деятельности, логической и временной структурах. Особое внимание уделяется методологии моделирования - как специфическому направлению продуктивной деятельности, нацеленному на получение нового или субъективно-нового результата. Автор подчеркивает, что простое копирование моделей не является моделированием в методологическом смысле. Выделены компоненты, по которым различаются методологии моделирования, что позволяет классифицировать их и оценить применимость, особенно в контексте управления бизнес-процессами. Также обсуждается растущая популярность объектно-ориентированной методологии моделирования.

**Тезисы:**

1. **Определение методологии**

   - Методология — это учение об организации деятельности.

- Основное содержание методологии — структурирование и логика деятельности.

2. **Компоненты структуры методологии**

- **Основания**: философия, психология, системный анализ, науковедение, этика, эстетика.
- **Характеристики деятельности**: принципы, условия, нормы.
- **Логическая структура**: предмет, субъект, объект, формы, методы, результат.
- **Временная структура**: фазы, стадии, этапы.

3. **Продуктивная vs. репродуктивная деятельность**

- Методология нужна только для продуктивной деятельности (наука, обучение, моделирование).
- Репродуктивная деятельность (копирование) не требует методологии.

4. **Аналогия**:

- Методология - это "форма сосуда", в который можно "вливать" различное содержимое (разные типы деятельности).

5. **Методология моделирования**

- Это учение об организации моделирования как вида продуктивной деятельности.
- Копирование чужих моделей — репродукция, не моделирование.

6. **Компоненты методологии моделирования**

- **Теоретические основы**: философия, психология и др.
- **Характеристики моделирования**: принципы, нормы, условия.

- **Логическая структура моделирования**: субъект, объект, методы, нотации, результат.
- **Временная структура моделирования**: этапы, фазы, циклы.

7. **Классификация методологий моделирования**

- Методологии могут различаться по компонентам.
- Особое внимание уделяется **объектно-ориентированному подходу** как новой популярной методологии.
- Необходимо проверять соответствие методологий требованиям **BPM-стандартов** и оценивать их применимость для управления бизнес-процессами.

**Литература**


1. Калмыков, В. В. (2010). Методология научного познания и моделирования систем.
2. Афанасьев, В. Г. (1980). Системность и общество: Очерки общей теории систем.
3. Checkland, P. (1999). Systems Thinking, Systems Practice. Wiley.
4. Mingers, J., & White, L. (2010). A Review of the Recent Contribution of Systems Thinking to Operational Research and Management Science. European Journal of Operational Research.
5. Balci, O. (1994). Validation, Verification, and Testing Techniques throughout the Life Cycle of a Simulation Study.
6. Object Management Group (OMG). Business Process Model and Notation (BPMN) Specification.
7. Rumbaugh, J., Jacobson, I., & Booch, G. (2004). The Unified Modeling Language Reference Manual. Addison-Wesley.

# ИСТОРИКО-ПРАВОВЫЕ АСПЕКТЫ СТАНОВЛЕНИЯ ГОСУДАРСТВЕННОЙ СЛУЖБЫ

**Азиз Атамогланов**
*Академия Государственного Управления при Президенте Азербайджанской Республики*
e-mail: aziz.atamoglanoff@gmail.com

***Ключевые слова:*** государственная служба, историческое развитие, бюрократия, реформы государственной службы, служебное законодательство, государственные институты, становление госслужбы, кадровая политика, юридическая эволюция.

Государственная служба представляет собой один из ключевых институтов современного государства, обеспечивающий реализацию его функций, стабильность управления и взаимодействие с обществом. Формирование системы государственной службы происходило на протяжении столетий и отражало исторические, политические и правовые трансформации в конкретных странах. Историко-правовые аспекты становления государственной службы позволяют проследить эволюцию её нормативно-правового регулирования, институциональных форм и организационной структуры. Изучение истории государственной службы необходимо для понимания логики развития публичного управления, формирования механизмов подбора и деятельности чиновничества, а также выработки эффективных моделей государственного администрирования. Становление государственной службы проходило через различные этапы - от феодальных институтов и монархических

структур до современных демократических систем управления. В разных странах этот процесс имел свою специфику, что обусловливает необходимость сопоставительного анализа [1, с. 350].

Особое внимание в историко-правовом анализе уделяется нормативной базе, регулирующей деятельность государственных служащих, их правам, обязанностям и ответственности. Эволюция законодательства о государственной службе позволяет выявить ключевые тенденции и вызовы, которые сопровождают развитие данного института вплоть до настоящего времени. С дальнейшим развитием государственности и усложнением системы управления возникала потребность в более чётком правовом оформлении государственной службы. Уже в период Нового времени в большинстве европейских стран начали формироваться основы профессиональной государственной службы, отличающейся от личной преданности монарху или служения на временной основе. Бюрократизация, как закономерный этап развития административных структур, сыграла важную роль в становлении государственной службы как системного правового явления. Одним из важнейших исторических этапов стало принятие первых кодифицированных правовых актов, регламентирующих статус, полномочия и обязанности государственных служащих. Например, в Пруссии и Франции в XIX веке были выработаны чёткие правовые нормы, касающиеся отбора, назначения, продвижения по службе и дисциплинарной ответственности чиновников. Эти процессы сопровождались формированием системы конкурсного отбора, служебной иерархии, а также принципов законности и подотчётности [2, с. 250].

В постсоветском пространстве особое значение имеет анализ правовых реформ периода перехода от командно-административной системы к модели демократического правового государства. В этом контексте государственная служба стала объектом масштабных преобразований, направленных на её деполитизацию, профессионализацию и повышение прозрачности. Были приняты базовые законы о государственной службе, созданы специальные органы по управлению кадрами и обеспечению этических стандартов.

Таким образом, историко-правовой анализ позволяет не только понять этапы формирования государственной службы, но и выявить ключевые факторы, влияющие на её эффективность и легитимность. В современных условиях, с учётом международных стандартов и вызовов глобализации, важно учитывать исторический опыт при разработке новых стратегий правового регулирования и институционального развития государственной службы. Историко-правовое исследование государственной службы также предполагает анализ трансформаций, происходивших под влиянием социальных и политических изменений. Так, в XX веке государственная служба приобрела особое значение в условиях формирования социального государства, где от госаппарата требовалось не только административное управление, но и предоставление широкого спектра общественных услуг. В ответ на эти вызовы в ряде стран были введены концепции «службы для граждан», ориентация на результат и повышение уровня ответственности служащих перед обществом. После Второй мировой войны развитие государственной службы в западных странах активно сопровождалось внедрением принципов меритократии, независимости от политических колебаний, а также укреплением

системы внутреннего контроля и антикоррупционных механизмов [3, с. 250].

